ŞAH İSMAYIL SƏFƏVİ

TARİXİ-DİPLOMATİK SƏNƏDLƏR TOPLUSU

ŞAH İSMAYIL SƏFƏVİ

TARİXİ-DİPLOMATİK SƏNƏDLƏR TOPLUSU

Şərq Qərb 1986-cı ildən
East West since 1986
BAKI 2014

Elmi redaktor: **Ramiz Mehdiyev**
akademik

Elmi məsləhətçi: **Vasim Məmmədəliyev**
akademik

Fars və ərəb dillərindən tərcümə: **Şahin Yəhyayev**
Elmin Əliyev

Şərhlər və qeydlər: **Elmin Əliyev**
Taleh Hacıyev
Eldar Əmirov
Salman Süleymanov

Tarixi arayış: **Eldar Əmirov**

ISBN 978-9952-489-61-3

Şah İsmayıl Səfəvi: Tarixi-diplomatik sənədlər toplusu
Bakı, **"Şərq-Qərb"** Nəşriyyat Evi, 2014, 400 səh.

İranın, Türkiyənin müxtəlif kitabxanalarından, həmçinin əlyazmaları fondlarından toplanmış materiallar – diplomatik məktublar, fətva və fərmanlar Azərbaycan ictimaiyyətinə ana dilimizdə ilk dəfədir ki, təqdim olunur. Azərbaycan dilinə tərcümə edilmiş sənədlərin orijinalları fars, ərəb və Osmanlı-türk dillərindədir. Şah İsmayıl və ümumiyyətlə, Səfəvilər mövzusunda son dövrlərdə qələmə alınmış az sayda araşdırmalarda sözügedən sənədlərin bəzilərinə istinadlar olsa da, onların şərhləri ilə birgə tam mətnlərinin tərcüməsi ilk dəfədir ki, həyata keçirilir. Ümumilikdə nəşrdə 53 tarixi-diplomatik sənəd toplanmışdır ki, onların da 3-ü hökmdar fərmanı, 1-i fətva, 49-u isə müxtəlif məzmunlu məktublardır.

BAKI 2014
www.eastwest.az
www.fb.com/eastwest.az

© "Şərq-Qərb" Nəşriyyat Evi, 2014



Şah İsmayıl Osmanlı elçilərini qəbul edir (Orta əsrlər miniatürü)

ŞAH İSMAYIL XƏTAİNİN SİYASİ İRSİ TARİXİ SƏNƏDLƏR İŞIĞINDA

XX əsrin sonlarında dövlət müstəqilliyinə qovuşan Azərbaycan nəinki siyasi taleyini müstəqil şəkildə təyin etmək hüququnu qazandı, həmçinin keçmişini, minilliklərlə ölçülən tarixi irsini sərbəst, obyektiv şəkildə qiymətləndirmək fürsətini əldə etdi. Həmin ana qədər qapalı olan bir çox arxivlərin Azərbaycan tədqiqatçılarının üzünə açılması, dünya kitabxanalarına çıxışın əldə edilməsi xalqımızın təxminən iki əsr müddətində durmadan təhrif edilmiş, məqsədli şəkildə unutdurulmuş, saxtalaşdırılmış tarixinin yenidən öyrənilməsi üçün geniş imkanlar yaratmış oldu.

Təbii ki, bu deyilənlər əsla Azərbaycan tarixşünaslığının və ümumilikdə humanitar elm sahələrinin keçmiş SSRİ dövründə əldə etdiyi parlaq uğurlara, alimlərimizin min bir səylə ərsəyə gətirdikləri fundamental araşdırmalara kölgə salmaq niyyətini güdmür. Həqiqətən də həmin illərdə istər qədim və orta əsrlər, istərsə də yeni tariximizə dair qələmə alınmış bir çox əsərlər bu gün də elmi dəyərini, aktuallığını qoruyub saxlamaqdadır. Azərbaycan tarixini ciddi şəkildə araşdırmaq niyyətinə düşən istənilən yerli, yaxud əcnəbi tədqiqatçı onlardan yan keçmək iqtidarında deyil. İstər biz, istərsə də gələcək nəsillər tarixşünaslığımızı dəyərli əsərlərlə zənginləşdirmiş həmin dövrün bir çox görkəmli tədqiqatçısını

ancaq və ancaq minnətdarlıqla anacağıq. Lakin bütün bunlarla yanaşı, o da danılmaz həqiqətdir ki, SSRİ dövründə sərt ideoloji maşının nəzarəti altında formalaşan tarixşünaslığımız əksər hallarda tarixi həqiqətləri dilə gətirmək, keçmişimizi, mədəniyyətimizi, milli kimliyimizi olduğu kimi təqdim etmək imkanından məhrum idi. Yalnız ideoloji süzgəcdən keçirilən məqalələr və ciddi əsərlər cəmiyyətə yol tapır, yaşamaq hüququ qazanırdı. Razılaşaq ki, belə şəraitdə alimlərimizin bütün fədakarlığına baxmayaraq, hər hansı obyektiv tarixdən danışmaq çətin məsələdir.

Təəssüflər olsun ki, müstəqilliyimizin ilk illərində ölkəmizin üzləşdiyi erməni təcavüzü, həmçinin daxili hərc-mərclik bu prosesi əhəmiyyətli şəkildə gecikdirdi və yalnız 1994-cü ildən etibarən Azərbaycanda siyasi-iqtisadi proseslərin sabit məcraya yönəlməsi dövlətin tarixi irsimizin öyrənilməsinə daha böyük diqqət ayırmasına, bu sahəyə lazımi maddi qaynaqları səfərbər etməsinə şərait yaratdı.

Öz tariximizi yazmaq kimi tarixi bir fürsəti əldə etməyimizə baxmayaraq, mütəxəssislərimiz arasında müəyyən müddət ciddi çaşqınlıq hökm sürməkdə idi. Haradan başlamalı, hansı mövzuları prioritet qismində önə çəkməli, hansı şəxsiyyətlərin irsini yenidən qiymətləndirərək onların tarixi dəyərini özlərinə qaytarmalıyıq? Əslində bu qeyri-müəyyənlik tamamilə başadüşülən idi, çünki uzun zaman milli tariximizə münasibətdə mövcud siyasi sistemin müəyyənləşdirdiyi mövzu çərçivələrindən kənara çıxmaq imkanından məhrum olan alimlərimiz indi öz xalqını həqiqətlərlə tanış etmək kimi məsuliyyətli bir vəzifə ilə üz-üzə qalmışdı. Həmin məsuliyyətin ağırlığını tam mənada anlamaq, belə bir həssas məqamda bütün mövcud resursları səfərbər edərək meydana atılmaq mütləq şəkildə vaxt alacaqdı və belə də oldu.

Üstəlik, işğalçı Ermənistan rəhbərliyinin və dünya erməniliyinin ölkəmizə qarşı bir yandan silahlı təcavüzü, digər tərəfdən isə ideoloji təbliğatı tarix elminin bütün potensialını sözügedən istiqamətə yönləndirmək zərurətini ortaya çıxardı. Azərbaycan var gücü ilə əzəli torpaqları olan Qarabağın heç zaman Ermənistan ərazisi olmadığını tarixi sənədlərin dili ilə dünya birliyinə çatdırmaq üçün çalışmalı, hər kəsi erməni təcavüzü ilə bağlı həqiqətlərlə tanış etməli oldu. Heç şübhəsiz ki, bu istiqamətdə xətalar və gecikmələrlə yanaşı, əhəmiyyətli uğurlarımız, ciddi nailiyyətlərimiz oldu. Erməni təcavüzü bitməyincə və tarixi ədalət bərpa olunmayınca, bundan sonra da Azərbaycanın sözügedən sahədə bir an belə fasilə verməyəcəyi dəqiqdir. Haqqında danışdığımız məqsəd kimliyindən asılı olmayaraq, hər bir azərbaycanlı üçün mənəvi öhdəlik və vicdan borcudur.

Lakin Qarabağ həqiqətləri uğrunda mübarizə apararkən biz tariximiz, milli kimliyimiz üçün həyati əhəmiyyət daşıyan digər mövzuları unutmamalı, Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin, milli kimliyinin formalaşmasında böyük xidmətləri olan şəxsiyyətlərə və hadisələrə əsla etinasız yanaşmamalıyıq. Təcrübə göstərir ki, unutqanlığımız və tariximizə laqeydliyimiz yeni-yeni faciələrə yol açmış, bizi məsuliyyətsizliyimizin hesabını qanımızla ödəməyə vadar etmişdir. Onilliklər boyunca mənimsənmiş mədəni və siyasi irsimizi geri qaytarmaq, ona sahib çıxmaq həm də tarixi yaddaşımızın bərpası üçün yeganə yoldur. Tarixi yaddaş olmadan milli özünüdərkdən danışmaq əbəsdir. Ənənəvi mədəniyyətlərin silindiyi və siyasi təməli müəmmalı olan qlobal dəyərlər sobasında əridildiyi bir zamanda milli kimliyindən xəbərsiz qalan, özünüdərki olmayan xalqların hansı təhlükələrlə üzləşdiyini başa düşmək o qədər də çətin deyil.

Bu gün Azərbaycan tarixşünaslığının qarşısında müfəssəl şəkildə tədqiqi və dünya miqyasında təbliği həyati əhəmiyyət daşıyan bir çox mövzular var. Qədim Manna və Midiya dövlətlərinin siyasi irsi, Zərdüştilik təliminin yaranması və təhrifi tarixçəsi, Qafqaz Albaniyasının siyasi, etnik-mədəni mirası, Qafqaz Alban Kilsəsinin faciəli keçmişi, İslam dininin Azərbaycanda möhkəmlənməsi, onun xalqımı-

zın milli kimliyinin formalaşmasındakı rolunun düzgün qiymətləndirilməsi, orta əsrlərdə xalqımızın bəşər mədəniyyətinin xəzinəsinə bəxş etdiyi dühaların tam miqyasda tanıdılması, Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı qaranlıq səhifələrə işıq salınması məhz bu qəbildəndir. İlkin qaynaqların və zəngin arxiv materiallarının cəlb edilməsi ilə Azərbaycanın diplomatiya və hərb tarixinin sistemli şəkildə ərsəyə gətirilməsi işi də öz əzmkar tədqiqatçılarını gözləməkdədir.

Tariximizin öyrənilməsi, eyni zamanda, tanıdılması ilə bağlı vacib məsələlər sırasında Azərbaycan Səfəvilər dövləti və onun zəngin irsi xüsusi yer tutur. Azərbaycanın tarixi torpaqlarını ilk dəfə vahid mərkəzdə birləşdirməyə nail olan Səfəvilərin istər dövlətçiliyimizin, istərsə də mədəniyyətimizin inkişafındakı rolu həqiqətən də müstəsnadır. Zaman-zaman zəifləməsinə baxmayaraq, 200 ildən artıq bir dövrdə nəinki Qafqazın, eləcə də bütün Yaxın Şərqin siyasi həyatında həlledici söz sahiblərindən biri olmuş Səfəvilər dövlətinin qoyub getdiyi tarixi mirasın ölkəmizdə mükəmməl bir şəkildə öyrənildiyini, onun layiq olduğu dəyəri aldığını demək çətindir.

Doğrudur, ayrı-ayrı vaxtlarda Azərbaycan tədqiqatçıları O.Əfəndiyevin, M.Abbaslının, Ş.Fərzəliyevin və digərlərinin simasında Səfəvilərin Azərbaycan tarixi ilə ayrılmaz tellərlə bağlılığını göstərən müxtəlif elmi tədqiqatlarla çıxış etmişlər. Hətta Azərbaycanın haqlı mövqeyinə dəstək verən V.V.Bartold, İ.P.Petruşevski, L.Bake-Qramont kimi əcnəbi şərqşünasların araşdırmaları da bu yöndə əhəmiyyətli irəliləyişin əldə edilməsində az rol oynamayıb. Ancaq ötən zaman kəsiyində Səfəviləri Azərbaycan tarixindən qoparmaq, onları sırf fars tarixinin bir parçası kimi qələmə verməyə çalışan qüvvələr də boş dayanmamış, əsas etibarı ilə təhrif və uydurmalara söykənən xeyli sayda məqalə və kitablar ərsəyə gətirmişlər. Bu işdə onlara obyektivlik və dəqiqlik hissindən məhrum olmuş bəzi əcnəbi tədqiqatçılar da öz

"kömək əllərini" uzatmağı unutmamışlar. Əslində, həmin proseslərin indi də səngimədiyi, əksinə Azərbaycanın öz haqqına sahib çıxmaq istəkləri nəzərə çarpdığı üçün daha da gücləndiyini etiraf etmək gərəkdir.

Səfəvi imperiyasından söz düşdüyü zaman təbii ki, nəzərləri üzərinə ilk cəlb edən şəxsiyyət görkəmli dövlət xadimi, sərkərdə və şair Şah İsmayıl Xətaidir (1487–1525). Cəmi 14 yaşında dövrünün ən qüdrətli dövlətlərindən birini və Azərbaycan tarixinin həqiqi mənada ilk imperiyasını yaratmış İsmayılın şəxsiyyətinə maraq bütün dövrlərdə kifayət qədər böyük olmuşdur. Həm Xətainin vətəni Azərbaycanda, həm də onun sərhədlərindən kənarda bu mövzuya dair onlarla qiymətli monoqrafiya və məqalə işıq üzü görmüşdür. Doğrudur, onların heç də hamısının elmi dəyərinin yüksək olduğunu demək çətindir, amma dəyərli araşdırmaların mövcudluğu da inkaredilməzdir.

Xətaişünaslıqda qazanılmış ciddi uğurlara baxmayaraq, Şah İsmayıl Səfəvi ilə bağlı və ümumiyyətlə Səfəvilərlə bağlı bir istiqamətdə – diplomatik irsin öyrənilməsi məsələsində əhəmiyyətli boşluqlar qalmaqdadır. Məlum olduğu kimi özündən sonra böyük həcmdə diplomatik irs qoyub getmiş Səfəvilərin xarici siyasəti ilə bağlı yüzlərlə siyasi sənəd müxtəlif dünya ölkələrinin arxiv və kitabxanalarına səpələnmişdir. Onların tapılması, təsnif edilməsi və çap olunması ciddi zəhmət tələb edən məsələlərdəndir.

Xarici ölkələrdə qeyd olunan sahədə vəziyyət bizimlə müqayisədə qənaətbəxş hesab oluna bilər. İranda və Qərbdə müxtəlif dövrlərdə ümumilikdə Səfəvilərlə, o cümlədən Şah İsmayıl Xətai ilə bağlı orijinal diplomatik və tarixi sənədlərin toplandığı bir neçə dəyərli toplu işıq görmüşdür. Onların arasında iranlı alimlər Əbdülhüseyn Nəvainin redaktəsi ilə nəşr edilmiş "Şah İsmayıl Səfəvi: Geniş qeydlərlə birlikdə sənədlər və tarixi yazışmalar" ("Şah İsmayıl Səfəvi: Əsnad və mükatebati-tarixi həmrah ba yaddaşthayi-təfsili". Be ehtemami-Əbd əl-Hüseyn Nəvai, Tehran, 1347/1968), *"Şah*

Təhmasib Səfəvi: Geniş qeydlərlə birlikdə sənədlər və tarixi yazışmalar" ("Şah Təhmasib Səfəvi: Əsnad və mükatebati-tarixi həmrah ba yaddaşthayi-təfsili". Be ehtemami-Əbd əl-Hüseyn Nəvai, Tehran, 1350/1971), "İran tarixinə dair sənədlər və yazışmalar: Teymurdan Şah İsmayıla qədər" ("Əsnad və mükatebati-tarixiyi-İran əz Teymur ta Şah İsmayıl", Tehran, 1991) və Z. Sabatianın "Sənədlər və tarixi məktublar: Səfəvilər dövrü" ("Əsnad və namehayi-tarixi: doureyi-Səfəviyyə". Tehran, 1343/1964) topluları, həmçinin pakistanlı tədqiqatçı Riyazül İslamın 2 cildlik "Hind-İran münasibətlərinə dair sənədlərin təsnifatı" ("Calendar of Documents on İndo-Persian Relations". Vol. I–II, Karachi, 1971) araşdırması vurğulanmalıdır.

Ötən illər ərzində əcnəbi tədqiqatçılar tərəfindən Səfəvilər, o cümlədən konkret olaraq Şah İsmayıl Xətai dövrünün diplomatiyası ilə bağlı tarixi sənədlər əsasında qələmə alınmış dəyərli araşdırmaları da unutmaq olmaz. Nümunə kimi iranlı tarixçi N.Fəlsəfinin "Səfəvilər dövründə İran və Avropa münasibətlərinin tarixi" ("Tarixi-rəvabiti-İran və Avrupa dər doureyi-Səfəviyyə", I, Tehran, 1316/1937), pakistanlı Riyazül İslamın "Hind-İran münasibətləri" ("İndo-Persian relations", Tehran, 1970), rus tədqiqatçısı P.P.Buşevin "1586–1612-ci illərdə Rusiya və İran dövlətləri arasında səfir heyətlərinin və diplomatik münasibətlərin tarixi" ("История посольств и дипломатических отношений русского и иранского государств в 1586–1612 гг.", Москва, 1976), "1613–1621-ci illərdə Rusiya və İran dövlətləri arasında səfir heyətlərinin və diplomatik münasibətlərin tarixi" ("История посольств и дипломатических отношений русского и иранского государств в 1613–1621 гг.", Москва, 1987) monoqrafiyalarını, türkiyəli A.Y.Ocağın "Osmanlı qaynaqlarında və müasir türk tarixşünaslığında Osmanlı-Səfəvi münasibətləri. XVI–XVII əsrlər". ("Osmanlı kaynaklarında ve modern türk tarihçiliğinde Osmanlı–Safevi münasebetleri. XVI–XVII. yüzyıllar". Türk Tarih Kurumu: "Belleten", sayı 246, Ankara, 2002)

məqaləsini, tacik tədqqiqatçısı A.M.Dehkurdinin "XVI–XVIII əsrin I yarısında İranla Buxara xanlığının münasibətləri" (aftoreferat) ("Взаимоотношения Ирана и Бухарского ханства в XVI – первой половине XVIII вв." – автореферат, Душанбе, 2002) adlı araşdırmasını yada salmaq lazımdır.

Dünya tarixşünaslığının qeyd olunan uğurlarına baxmayaraq, Səfəvilərin, o cümlədən I Şah İsmayılın diplomatik mirasının müfəssəl şəkildə öyrənildiyini demək çətindir. Sözügedən məsələdə son nöqtənin qoyulması üçün dünya kitabxanalarında bir neçə on il davam edəcək fasiləsiz axtarışların aparılması tələb olunduğundan, yaxın gələcəkdə bu mövzuya dair yeni-yeni material və araşdırmaların çapdan çıxmasını gözləmək təbiidir.

Nə qədər təəssüfləndirici olsa da etiraf etməliyik ki, ölkəmizdə bu məsələ ətrafında hökm sürən vəziyyət əsla ürəkaçan sayıla bilməz. Düzdür, Azərbaycanda müxtəlif vaxtlarda həm Səfəvilərin, həm də Şah İsmayıl Xətainin xarici siyasəti mövzusunda maraqlı araşdırmalar aparılıb ki, O. Əfəndiyevin "I Şah İsmayılın daxili və xarici siyasətinin bəzi məsələlərinə dair" ("К некоторым вопросам внутренней и внешней политики Шаха Исмаила I". "Труды Института истории АН Азерб. ССР", Баку, 1957, том XII), E.Şahmalıyevin "İlk Səfəvi hökmdarlarının Qərb ölkələri ilə diplomatik əlaqələri məsələsinə dair" ("К вопросу о дипломатических сношениях первых Сефевидов с западными странами". "Труды АГУ, сер. История", выпуск 1, Баку, 1950) məqalələri onlara misal olaraq göstərilə bilər. Lakin ümumilikdə Səfəvilərin diplomatiyasının öyrənilməsi istiqamətindəki pərakəndəlik, sistemsizlik açıq-aşkar nəzərə çarpır.

Təxminən eyni sözləri Səfəvilərin diplomatik irsinin ilkin qaynaqları olan tarixi sənədlərin toplanması və tərcüməsi ilə əlaqədar da demək mümkündür. Keçmiş SSRİ dövründə Azərbaycan tarixçilərinin və şərqşünaslarının bu istiqamətdə ayrı-ayrı təşəbbüsləri olmuşdur. T.Musəvinin "Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər. XVI–XVII əsrlər"

(Bakı, 1977) kitabı, həmçinin S.M.Onullahi ilə A.Q.Həsənovun həmmüəllifi olduqları "Səfəvi hökmdarlarının daha iki məktubu haqqında" (Azərbaycan dilində dövlətlərarası yazışma tarixindən – ADU, Elmi əsərləri, tarix və fəlsəfə, 1974, №4) və "Qaraqoyunluların, Səfəvi hökmdarları və türk sultanlarının azərbaycanca beş yeni sənədi haqqında" (Azərbaycan dilində dövlətlərarası yazışma tarixindən, II məqalə – ADU, Elmi əsərləri, tarix və fəlsəfə, 1977, №1) məqalələrini qeyd etmək mümkündür. Xatırladaq ki, hər iki məqalədə əksini tapmış məlumatlar "Azərbaycan tarixi üzrə qaynaqlar" toplusuna daxil edilmişdir *[bax: "Azərbaycan tarixi üzrə qaynaqlar". İkinci nəşr. Tərtibçi və redaktor S.Əliyarlı, Bakı, 2007, s. 206–210]*.

Lakin başlanılan işlər sonralar layiqli davamını tapmamış və Səfəvi dövrünün siyasi və iqtisadi məzmunlu sənədlərinin sistematik qaydada toplanması mümkün olmamışdır. Bu məsələdə müstəqillik dövründə də əhəmiyyətli irəliləyişin olduğunu demək çətindir. Yeganə xoş istisna qismində Akif Fərzəliyev və Rəna Məmmədovanın 2004-cü ildə Sankt-Peterburq şəhərində işıq üzü görmüş "Səfəvilər və Böyük Moğollar müsəlman diplomatikasında. "Münşəatüs-Səlatin" ("Sultanların məktubları") əsəri əsasında" ("Сефевиды и Великие Моголы в мусульманской дипломатике. На основе "Муншаáти-Салатин" – "Переписка между Султанами", Санкт-Петербург, 2004) kitabını qeyd edə bilərik.

Əgər Səfəvilər dövləti, o cümlədən də I Şah İsmayılla əlaqədar ölkəmizdə son zamanlar qələmə alınan tədqiqatların bir çoxuna nəzər salsaq, müəlliflərin çox zaman xarici siyasət məsələləri ilə bağlı məqamların üzərindən ya ümumi cümlələrlə keçdiklərinin, yaxud artıq məlum olan faktları təkrarladıqlarının olarıq. Belə hallar isə nəinki ortaya qoyulan araşdırmaların elmi dəyərinə mənfi təsir edir, həm də tarixşünaslığımızın faktoloji bazasının zənginləşməsini əngəlləyir. Səfəvilər dövləti və xüsusilə də onun banisi I Şah İsmayıl haqqında söz açarkən öz mövqeyimizi əsaslandırmaq üçün gətirdiyimiz arqumentlərin, səsləndirdiyimiz mülahizələrin yeni tarixi faktlarla, qaynaqlarla möhkəmləndirilmədiyinin yəqin ki, hamımız fərqindəyik.

Tarixçilərimizin böyük bir qisminin əcnəbi dillərə, xüsusilə orta əsr qaynaqları ilə ətraflı şəkildə işləməyə imkan verən ərəb və fars dillərinə ya ümumiyyətlə bələd olmaması, ya da onları lazımi səviyyədə bilməməsi problemin aradan qaldırılmasını əhəmiyyətli dərəcədə ləngidir. Yaranmış vəziyyətdən yeganə çıxış yolu mənbəşünasların və Şərq dillərini yüksək səviyyədə bilən tədqiqatçıların tarixşünaslığımızın köməyinə gəlməsidir. Klassik qaynaqlar aşkarlanıb, dilimizə tərcümə olunmadıqca tarix elmimizin geniş mənada yeni və ciddi üfüqlər fəth etməyəcəyi gün kimi aydındır. Yeri gəlmişkən, qeyd edilən iradlar eyni dərəcədə ədəbiyyatşünaslarımıza və sənətşünaslarımıza da aiddir. Orta əsrlərdə Azərbaycan xalqının yaratdığı zəngin ədəbi irsi, misilsiz sənətkarlıq nümunələrini, memarlıq abidələrini ərəb və fars dillərini bilmədən obyektiv şəkildə tədqiq etməkdən söhbət belə gedə bilməz. Dövlətçilik, ədəbiyyat və mədəniyyət tariximiz aşkar olunmuş yeni tarixi qaynaqlar əsasında yenidən, bizim özümüz tərəfindən yazılmalıdır dedikdə, ilk növbədə məhz bu amillərin göz önünə gətirilməsi tələb olunur.

Bu sahədə hökm sürən arzuolunmaz boşluğu aradan qaldırmaq və tədqiqatçılarımızın fəaliyyətini canlandırmaq məqsədi ilə son illərdə Azərbaycan dövləti Vatikanın gizli arxivlərində tariximizlə, o cümlədən Səfəvilər dövrü ilə bağlı əsrlərdir qorunan xeyli sayda diplomatik sənədin surətlərinin ölkəmizə gətirilməsinə dəstək göstərmişdir. Ümid edək ki, həmin sənədlər tədricən ana dilimizə tərcümə edilərək, həm tarixçilərimizin, həm sıravi oxucuların ixtiyarına veriləcək. Təbii ki, əldə edilən sənədlərə arxayın olub fəaliyyətsiz dayanmaq, digər qaynaqlara müraciət etməmək, onları öyrənməmək qətiyyən qəbuledilməzdir. Mövzu ilə bağlı xarici ölkələrdə nəşr edilmiş müvafiq qaynaqların hər biri

araşdırılmalı, tariximizin öyrənilməsinə, qaranlıq məqamların aydınlaşdırılmasına töhfə verə biləcək ən kiçik detal belə diqqətdən kənarda qalmamalıdır.

Uzun axtarışların və mürəkkəb tərcümə prosesinin bəhrəsi olan "Şah İsmayıl Xətai. Tarixi-diplomatik sənədlər toplusu" adlanan bu tədqiqat işi də məhz sözügedən boşluğun doldurulmasına xidmət edən təşəbbüslərdəndir. İranın, Türkiyənin müxtəlif kitabxanalarından, həmçinin əlyazmaları fondlarından toplanmış materiallar – diplomatik məktublar, fətva və fərmanlar Azərbaycan ictimaiyyətinə ana dilimizdə ilk dəfədir ki, təqdim olunur. Azərbaycan dilinə tərcümə edilmiş sənədlərin orijinalları fars, ərəb və Osmanlı-türk dillərindədir. Şah İsmayıl və ümumiyyətlə, Səfəvilər mövzusunda son dövrlərdə qələmə alınmış az sayda araşdırmalarda sözügedən sənədlərin bəzilərinə istinadlar olsa da, onların şərhləri ilə birgə tam mətnlərinin tərcüməsi ilk dəfədir ki, həyata keçirilir. Ümumilikdə nəşrdə 53 tarixi-diplomatik sənəd toplanmışdır ki, onların da 3-ü hökmdar fərmanı, 1-i fətva, 49-u isə müxtəlif məzmunlu məktublardır. Sənədlər arasına tariximiz üçün xüsusi maraq kəsb edən I Şah İsmayılın Osmanlı sultanları II Bayazidlə (1481–1512) və I Sultan Səlim Yavuzla (1512–1520) yazışmaları da daxildir. Tarixi sənədlərin hər biri mütərcimlərin müvafiq qeyd və izahları ilə müşayiət olunur. Kitab, həmçinin özündə sənədlərdə adları keçən şəxsiyyətlər, hadisələr, anlayışlar haqqında zəruri tarixi, eyni zamanda, teoloji arayışları və şərhləri ehtiva etməkdədir.

Nəşrin başlıca qaynaqları qismində isə Firidun Əhməd bəyin "Münşəatüs-səlatin" ("Sultanların məktubları") əsəri (İstanbulda 1858-ci ildə daş çapı üsulu ilə nəşr olunmuşdur), Əbdülhüseyn Nəvainin redaktoru olduğu "Şah İsmayıl Səfəvi: Geniş qeydlərlə birlikdə sənədlər və tarixi yazışmalar" ("Şah İsmayıl Səfəvi: Əsnad və mükatebati-tarixi həmrah ba yaddaşthayi-təfsili". Be ehtemami-Əbd əl Huseyn Nəvai, Tehran, 1347/1968), "İran tarixinə dair sənədlər və

yazışmalar: Teymurdan Şah İsmayıla qədər" ("Əsnad və mükatebati-tarixiyi-İran əz Teymur ta Şah İsmayıl", Tehran, 1991) sənəd topluları, bununla yanaşı iranlı tarixçi Haşim Hicazifərin "I Şah İsmayıl və Çaldıran döyüşü", alman şərqşünası Adel Allouşun "Osmanlı-Səfəvi münaqişəsinin səbəbləri və inkişafı. 1500–1555" (A.Allouch "The origins and development of the Ottoman-Safavid conflict: 1500–1555", Berlin, 1983) adlı araşdırmaları çıxış edir.

Daha çox təqdimat, kiçik müqəddimə mahiyyəti daşıyan bu yazıda heç şübhəsiz ki, hər bir məktuba ayrıca şəkildə münasibət bildirmək, onun tarixi əhəmiyyətindən və elmi faydasından geniş şəkildə söz açmaq real deyil. Ancaq bir tərəfdən tərcümə edilmiş materialların tarixi əhəmiyyətini tam mənada göstərmək, digər tərəfdən isə I Şah İsmayıla qarşı hələ də irəli sürülməyə davam edən bir çox ittihamın saxta olduğunu sənədlərin dili ilə sübuta yetirmək üçün bəzi məsələlərə toxunmaq zəruridir.

İlk növbədə onu qeyd etmək lazımdır ki, nəşrdə əksini tapmış sənədlərin bəziləri Səfəvi səltənətinin etnik amil nöqteyi-nəzərindən İran yox, məhz Azərbaycan dövləti olduğunu konkret nümunələrlə növbəti dəfə təsdiqləyir. Məsələn, Şah İsmayılla müharibəyə gələn Osmanlı sultanı Səlim Yavuz Səfəvi hökmdarına ünvanladığı üçüncü məktubunda xüsusilə Azərbaycan ərazisinə daxil olaraq burada at oynatması ilə öyünür:

"Xüsusilə də hazırda Azərbaycanda olan dağ və təpələrdə qalib ordunun dörd ayaqlılarının (atların) dırnaq izi aypara ilə dolu səmaya dönmüşkən, səndən hələ ki, nə bir səs-soraq var, nə də gözə dəyirsən. Elə yox olmusan ki, varlığınla yoxluğun arasında fərq yoxdur" *[Firidun bəy Əhməd. "Münşəatüs-səlatin" ("Sultanların məktubları"). İstanbul, 1858, I cild, s. 383].*

Yaxud, Çaldıran döyüşündən sonra Səlimin oğlu Süleymana ünvanladığı məktuba diqqət yetirək. Öz varisinə I Şah İsmayılla cərəyan etmiş münaqişənin tarixçəsindən söz

açan Səlim, dəfələrlə Səfəvi hökmdarını Azərbaycanı ələ keçirməklə hədələdiyini, lakin sonuncunun onun təhdidlərini qulaq ardına vurduğunu bildirir. Nəticədə, Səlim I Şah İsmayılı açıq döyüşə çağırmaqdan savayı çarəsinin qalmadığını deyir:

"Əgər xoşa gəlməz əxlaqından əl çəkməyib çirkin əməllərində israr etsən, Allahın yardımı ilə məmləkətində qalib ordum düşərgə salacaqdır. Ərsənsə (igidsənsə) meydana çıx, Allahın iradəsi nədirsə o da gerçəkləşmiş olsun – deyə buyurmuşdum. Səadət və xoşbəxtlik ilə Azərbaycan diyarı fəth bayrağımın dalğalanması şərəfinə nail olacaqdır" *[həmin mənbə, s. 386–387]*.

Zərrə qədər şübhə yoxdur ki, əgər Səfəvilər Azərbaycan dövləti, I Şah İsmayıl isə azərbaycanlı olması idi, Sultan Səlim qətiyyən məhz bu ölkəni ələ keçirməsi ilə öyünməyi lazım bilməzdi. Əsla nəzərdən qaçırmaq lazım deyil ki, Səlim İsmayıl Səfəviyə xitab edərkən, Azərbaycanı onun "məmləkəti" adlandırır. Hər halda, sənədlərdə öz əksini tapmış bu tarixi faktdan tarixçilərimizin rasional şəkildə Azərbaycanın lehinə bəhrələnməsi mütləqdir.

Tarixi sənədlərin konkret şəkildə aydınlaşdırdığı digər mühüm məqam isə Şah İsmayılın Osmanlı dövləti ilə münasibətlərdə rəhbər tutduğu xəttin həqiqi mahiyyəti ilə əlaqədardır. Məlum olduğu kimi, bir çox yerli və əcnəbi tədqiqatçılar əsaslı dəlillər gətirmədən I İsmayılı Osmanlı dövləti ilə məqsədyönlü şəkildə müharibəyə başlamaqda ittiham edirlər. Sanki, I Şah İsmayıl Osmanlı dövlətini hər vəchlə müharibəyə təhrik edən addımlar atmış, türklər isə sülh, səmimiyyət istəklərinə baxmayaraq, hərb yoluna əl atmağa məhz Səfəvilər tərəfindən məcbur edilmişlər. Əfsuslar ki, bu yanlış və təhrif olunmuş təsəvvürlər illərdir insanlar arasında kök salmağa davam edir. Hərçənd ki, tarixi sənədlərdə, diplomatik yazışmalarda əksini tapmış faktlar tamam başqa həqiqətlərdən xəbər verir.

II Bayaziddən başlayaraq Şah İsmayılın Osmanlı rəhbərlərinə göndərdiyi məktubların hamısında dostluq tonu, mehriban qonşuluq meyli açıq-aşkar görünməkdədir. Doğrudur, II Bayazidin də cavab məktubları dostluq çağırışları ilə zəngindir. Lakin II Bayazid Səfəvi dövlətinə münasibətdə heç də ifadə etdiyi qədər səmimi davranmamış və İsmayılla yanaşı, onun düşməni Ağqoyunlu sərkərdəsi Əlvənd Mirzəyə, həmçinin Rüstəm Kürd adlı əyana Azərbaycan hökmdarının əleyhinə məktublar ünvanlamışdır. Bir tərəfdən İsmayıla qardaşlıqdan danışan II Bayazid, digər yandan Əlvənd Mirzəyə yazdığı məktubda qızılbaşları və onların əqidəsini lənətləyir, Allahın onları cəzalandırmasını cani-dildən arzu edir. O, həmçinin Rüstəm Kürddən isə qızılbaşların fəaliyyətini daim nəzarətdə saxlamağı və Osmanlı sarayını bu barədə mütəmadi şəkildə məlumatlandırmasını istəyir.

Daha bir mühüm məqam isə ondan ibarətdir ki, bəzi müəlliflər Şah İsmayılı amansız, qəddar bir hökmdar kimi göstərməyə çalışdıqları halda, II Bayazidi "günahsız mələk", "qüsursuz" şəxsiyyət kimi təqdim etmək üçün dəridən-qabıqdan çıxırlar. Bəli, II Bayazidin digər Osmanlı sultanları ilə müqayisədə daha mülayim, sülhsevər və sufi ruhlu olduğu danılmazıdır. Lakin II Bayazidin gənclik illərində uyuşdurucu maddələrə aludə olduğu və yalnız atasının sərt müdaxiləsindən sonra bu ziyanlı vərdişdən əl çəkdiyi Osmanlı tarixi ilə maraqlananlara yaxşı məlumdur. II Bayazidin uyuşdurucu maddələrə alışdığı yaşda I Şah İsmayıl artıq böyük imperiyanın banisi, dövrünün isə ən qüdrətli sərkərdələrindən biri kimi öz sözünü demişdi. Osmanlı qaynaqları ilə yaxından işləyən tədqiqatçılar yəqin II Bayazidin hakimiyyətinin sonlarına doğru ölkənin siyasi hərc-mərcliyə, məmur özbaşınalığına düçar olduğunu bilməmiş deyillər. Hər halda XVI əsrin görkəmli Osmanlı tarixçisi Cəlalzadə Mustafa Çələbinin II Bayazidin hakimiyyətinin son illərinə verdiyi qiymət çox şeydən xəbər verir:

"II Bayazid xəstə və yaşlı olduğu üçün ölkənin işlərini vəzirlərinə həvalə etmişdi. Onlar da dövləti öz mənfəətləri istiqamətində idarə edib xalqı pis vəziyyətə saldılar. Səriştəsi olmayan bir çox insana böyük vəzifələr verildi və nəticədə ədalət qapıları bağlandı, rüşvət və tərəfkeşlik qapıları açıldı" *[Celalzade Mustafa. "Selimname". Hazırlayanlar: Ahmet Uğur ve Mustafa Çudar, Ankara, 1990, s. 276–282].*

Belə olan halda Osmanlı dövlətinin İsmayıla münasibətdə hansı səmimiyyətindən danışmaq olar? Təbii ki, siyasətdə ənənəvi səmimiyyətdən, saflıq və təmizlik duyğularından danışmaq çox zaman utopik səslənir. Hər kəs həm Osmanlıların, həm də Səfəvilərin atdıqları hərbi-siyasi addımlarda yalnız öz maraqlarını rəhbər tutduğunu yaxşı anlayır. Bəs onda hansı səbəbdən bu fəlsəfə Osmanlılar barəsində söhbət gedərkən var gücü ilə işə düşür, Səfəvilərə gəldikdə isə riyakarcasına kənara atılır?

Bu mənada Səlimin İsmayıla ünvanladığı məktubların məzmunundan və leksikasından danışmağa ümumiyyətlə ehtiyac yoxdur. Sərt və barışmaz tonu, təhqiramiz ifadələrin çoxluğu baxımından Osmanlı sultanının Çaldıran döyüşü ərəfəsində İsmayıla ünvanladığı 4 məktubu bir-birindən o qədər də fərqlənmir. Xatırladaq ki, I İsmayıl həmin 4 məktuba yalnız 1 məktubla cavab vermiş, ədəb qaydalarını pozmadan müharibə istəmədiyini, eyni zamanda, hər vasitə ilə döyüşmək niyyətində olan Səlimin qarşısından da qaçmayacağını dilə gətirmişdi. Digər tərəfdən, I Şah İsmayılı qardaş qanı tökməkdə ittiham edənlər yəqin unudurlar ki, onların ideallaşdırmaq istədikləri I Səlim Çaldıran döyüşündən 2 il sonra, 1516-cı ildə Misir Məmlük dövləti ilə toqquşaraq yeni, daha dəhşətli qırğına rəvac vermişdi. Həmin il Mərci-Dabik döyüşündə məzhəb baxımından sünnü, etnik cəhətdən isə türk olan Məmlükləri məğlubiyyətə uğradan Səlim bu dövlətin varlığına son qoymuş, onun torpaqlarını Osmanlıya qatmış, sonuncu hökmdarı Qamsunu öldürmüş, ən nəhayət özünü xəlifə elan etmişdir. Görəsən, sadalanan

faktlar hər kəsə məlum olduğu halda, nə səbəbdən heç kəs Səlimi qardaş qanı tökməkdə günahkar bilmir, ən azından bunu uca səslə bəyan etmir?

Oxucuların obyektivlik naminə tarixi materialları qarşılaşdıra bilməsi üçün bu topluya I Səlimin Qamsuya ünvanladığı məktublar da daxil edilmişdir. Onlar öz aqressiv ruhu və ədəbdənkənar ifadələrin çoxluğu baxımından Osmanlı sultanının vaxtilə Şah İsmayıla ünvanladığı məktublardan geri qalmır. İstənilən halda həmin sənədlər bilərəkdən, yaxud bilməyərəkdən Şah İsmayılın şəxsiyyətini kiçiltmək hesabına Səlimi göylərə qaldıranlara kifayət qədər tutarlı cavab olacaq.

I İsmayılın Osmanlı dövləti ilə dinc qonşuluğa meyl göstərməsinin başqa bir göstəricisi də onun Səlimin vəfatı və Rodos adasının fəthi münasibətilə yeni Osmanlı hökmdarı Süleyman Qanuniyə (1520–1566) dostluq ruhunda məktub göndərməsidir. Müqayisə üçün qeyd edək ki, Süleyman Qanuni I Şah İsmayılın məktubuna cavab yazmağı özünə rəva görməmiş, bu işi öz vəzirinə həvalə etmişdi. Sözügedən fakt kimin daha çox kin-küdurətə, düşmənçiliyə meylli olduğunu bir daha nümayiş etdirməkdədir.

Yaxud da I Şah İsmayılın vəfatı xəbərini dəqiqləşdirmək üçün I Süleyman Qanuni tərəfindən Gilan hakimi Hisaməddinə göndərdiyi məktubda Səfəvi hökmdarının ünvanına işlənən nalayiq ifadələri xatırlayaq. Əgər İsmayıl arada mövcud olan bütün ziddiyyətlərə və düşmənçiliyə baxmayaraq, I Sultan Səlim dünyasını dəyişərkən, onun oğlu Süleymana başsağlığı göndərəcək qədər böyüklük göstərə bilmişdisə, Osmanlı sultanı Səfəvi şahının vəfat etdiyi zaman nədənsə böyüklərə xas nəciblik ortaya qoya bilməmişdi.

Əgər Səfəvi-Osmanlı münasibətlərindən söz açan istənilən tədqiqatçı obyektiv olmaq, tarixi həqiqətlərə maksimum dərəcədə yaxınlaşmaq istəyirsə, sözügedən tarazlığı gözləməyi özünə borc bilməlidir. Əks halda biz tarixin həqiqətləri aşkara çıxaran elmi təlim deyil, ayrı-ayrı qüvvələ-

rin əlində kor-koranə siyasi və ideoloji təbliğat alətinə çevrilməsi faktı ilə barışmalı olacağıq.

Azərbaycan ictimaiyyətinə təqdim edilən tarixi sənədlərin üzərinə işıq saldığı mühüm məqamlardan biri də heç şübhəsiz ki, Sultan Səlimin Çaldıran döyüşündən sonra hər vəchlə Azərbaycan əhalisini öz tərəfinə çəkmək üçün atdığı uğursuz addımlarla bağlıdır. Təbriz əhalisinə ünvanladığı müraciətində Səlimin azərbaycanlıları öz tərəfinə çəkmək, İsmayıldan, qızılbaşlıqdan döndərmək cəhdləri açıq-aşkar görünür. Ancaq tarixi proseslər göstərir ki, Azərbaycan xalqı sona qədər öz hökmdarına, milli dövlətçiliyinə sadiq qalmış, Osmanlı diktəsinə əyilməmiş və Səlimin tərəfinə keçməmişdir. Məhz bunun nəticəsində qalib gəlməsinə baxmayaraq Səlim Azərbaycanda duruş gətirə bilməyərək, qısa müddətdən sonra Səfəvi ərazisini tərk etmək məcburiyyəti ilə barışmışdır. Məhz Azərbaycan xalqının və ordunun uğursuzluğuna baxmayaraq öz rəhbərinə sadiq qalması Səfəvi dövlətinin devrilməsinin qarşısını almış, I Şah İsmayılın isə taxtda qalmasını təmin etmişdir. Qəribədir ki, nədənsə tarixçilərimiz Çaldıran döyüşündən sonra Azərbaycanda cərəyan etmiş həssas və xalqımız üçün şərəfli sayıla biləcək hadisələrin də tam əhəmiyyəti ilə çatdırmasına lazımi diqqət göstərmirlər. Hər halda Şərq tarixində ağır hərbi məğlubiyyətə düçar olduqdan sonra taxtda qalmağı bacaran çox az sərkərdə olmuşdur. Bu isə yalnız xalqın və ordunun sonsuz inamı, böyük dəstəyi sayəsində həyata keçmişdir.

Topluya daxil olan və Şah İsmayılın orta əsr müsəlman aləminin görkəmli miniatür ustası, tanınmış rəssam, incəsənət tarixində daha çox "Şərqin Rafaeli" adı ilə məşhurlaşmış Kəmaləddin Behzad (1455–1536) haqqında verdiyi xüsusi fərmanı isə nəinki Səfəvi dövlətinin, eləcə də İslam tarixinin ən ibrətamiz hadisələrindən hesab oluna bilər. Səfəvi sarayına pənah aparan bu görkəmli sənət adamı Şah İsmayıl tərəfindən ən yüksək səviyyədə qəbul edilmiş, ona böyük qayğı, diqqət göstərilmişdir. İstedadlı

bir insanın taleyinə, sənətinə biganə qalmayaraq, onun Səfəvilərin Təbrizdəki saray kitabxanasının rəhbəri təyin edilməsinə dair ayrıca fərman imzalaması İsmayılın nəcib əxlaqından və mədəniyyətə olan möhkəm bağlılığından xəbər verməkdədir.

İxtiyarımızda olan sənədlər, eyni zamanda, Səfəvi dövlətinin çoxşaxəli fəal diplomatiyasını tam miqyasda öyrənməyə, tariximizin bu böyük imperiyasının nə qədər geniş bir coğrafiyada siyasi proseslərə təsir etmək gücündə olduğunu başa düşməyə imkan verir. Bu isə hər bir azərbaycanlı üçün əlavə qürur mənbəyi, iftixar səbəbidir.

Sirr deyil ki, hər hansı görkəmli dövlət xadimi tərəfindən qələmə alınmış məktubların siyasi əhəmiyyəti ilə yanaşı, ədəbi dəyəri də vardır. Xüsusi ilə I Şah İsmayılın istedadlı şair, milli ədəbiyyatımızın parlaq nümayəndəsi olduğunu göz önünə gətirsək, onun məktublarının ana dilimizdə işıq üzü görməsini ədəbiyyatşünaslar üçün də böyük hədiyyə, qiymətli mənbə adlandırmaq olar. Əvəzsiz tarixi və siyasi dəyəri olan həmin sənədlər I İsmayılın bədii istedadını növbəti dəfə hər kəsə əyani şəkildə sübut etməklə bərabər, o dövrün diplomatik yazı tərzini, leksikasını öyrənmək üçün də kifayət qədər faydalıdır. Məktublar eyni dərəcədə Səfəvi hökmdarının ideoloji-dini baxışlarını öyrənənlər üçün də əvəzsiz qaynaq rolunu oynaya bilər.

Beləliklə Azərbaycan tarixşünaslığında I Şah İsmayıl mövzusu ətrafında illərdir hökm sürən ciddi problemlərdən biri qismən də olsa öz həllini tapmış olur. Böyük dövlət xadiminin diplomatik yazışması, onunla bağlı olan digər orijinal tarixi sənədlər ana dilimizdə tədqiqatçılarımızın ixtiyarına verilir. Ümid etmək istərdik ki, sözügedən sənədlər gələcəkdə xalqımızın böyük oğlu I Şah İsmayıl Səfəviyə dair işıq üzü görəcək neçə-neçə dəyərli tədqiqat üçün mənbə rolunda çıxış edəcək, mütəxəssislərimizi bu yöndə yeni-yeni axtarışlara həvəsləndirəcəkdir. İndi növbə və söz yenə də tarixçilərimizindir...

Yekunda "Şah İsmayıl Səfəvi: Tarixi-diplomatik sənədlər toplusu" kitabının ərsəyə gəlməsində əməyi olan gənc tədqiqatçılar – Bakı Slavyan Universitetinin doktorantı Eldar Əmirova, Ankara Universitetinin doktorantı Elmin Əliyevə, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun doktorantı Şahin Yəhyayevə və Bakı Slavyan Universitetinin müəllimi Taleh Hacıyevə öz minnətdarlığımı bildirir, onlara gələcək elmi axtarışlarında müvəffəqiyyətlər diləyirəm.

Ramiz Mehdiyev
akademik

MƏKTUBLAR

SULTAN II BAYAZİDİN AĞQOYUNLU ƏLVƏND MİRZƏYƏ CAVAB MƏKTUBU

Sultan II Bayazidin Ağqoyunlu Əlvənd Mirzəyə cavab məktubu

İnsan vücuduna varlıq qazandırdıqdan sonra maddi aləmdə mənəvi məhəbbəti ortaya çıxardan, bütün mövcudatı əhatə edən bir lütfkarlıq və böyük qüdrət sahibi olan Allaha sonsuz şükrlər olsun! O, yer üzünün ən aşağı təbəqəsində yaşayanları səmaların ən yüksək ulduzlarından xəbərdar etdi. [Mövcudatın] xüsusiyyətlərini Adəm [peyğəmbərə] öyrətdi və onun cüzi elmlə ümumi işlərdən xəbərdar olmasına imkan verdi. Eyni şəkildə onu "Biz sizi yer üzünün varisləri təyin etdik"[1] əmri ilə izzət sahibi etdi. Bənzəri olmayan zatının nurunda (həqiqətində) [Adəm peyğəmbərin] əzəmətini yüksəldib, bürhanını kamilləşdirməklə kəskin ağılları aciz hala saldı.

Hamının varlığına heyran olduğu, çirkinliklərdən pak (münəzzəh) olan (Allahın)

Kamalının həqiqətinə ağlın fəhmi yol tapa bilməyib

Kainatın ağası və mövcudatın xülasəsi Məhəmməd Mustafanın – salam olsun ona – məqbərəsinə əziz-girami salavat və pak salamlarımız olsun. Allahı tanımaq həqiqətində kamil sifətlərə malik zatının böyüklüyü "biz səni layiq olduğun qədər tanıya bilmədik" etirafını etməyimizə səbəb oldu. Doğru yolun yolçularını gözəl ədəb-ərkanla [həmin yola] istiqamətləndirdiyi üçün heç bir fərd [doğruluğuna] hər hansı bir şəkk-şübhə olmayan gizli sirdaşlıq və qeybin

[1] Yunus, 10/14.

məhrəmiyyətinin mənasız olduğunu söyləməmiş, dilənçi də, şah da bu yolu və üslubu izləmişdir. Nə [dilənçinin] çəkdiyi əziyyət bəxtiqaralığına, nə də [şahın] xoş gün görməsi taxt-tacına görədir.

Dünyadakı dilənçilik də, şahlıq da səndəndir
Quşun da, balığın da ruzisini verən sənsən

[Bu ifadələri]dilə gətirənlər Allahın sonsuz nemətinə və tükənməz səxavətinə şükr edən, o cümlədən "və əgər şükr etsəniz artıraram"[1] süfrəsindən faydalanan şəxslərdir.

Mətləbə gəldikdə, Əlvənd dağının bənövşəsi, xanədanın müşk sünbülü, həşt behişt[2] çəmənzarının yasəməni, tale cənnətinin reyhan və nəsrini, yəni Rəhmanın kölgəsi və Allahın lütfü, İskəndər qüdrətli, Dara mərifətli, Firudin bayraqlı, Cəmşid əzəmətli, sonsuz ədalət sahibi, səadət nişanəli, səltənətin ucalığı, dərgahımızın səması, alicənab səltənət mənbəyi [olan] ənbər yüklü bəyənilən məktub, niqab [arxasından] gözəl gözlərin günəş [kimi] şəfəq saçdığı xitabınız ən uğurlu vaxtda və ən gözəl anlarda gəlib çatdı. Beyt:

İran şahənşahı, Əcəm padşahı
Mülk, ordu və bayraq sahibi
Aləmin fəxri Əlvənd şah
Vilayət hamisi, məmləkətlər pənahı
Ədalətli, insaflı və cahangir sultan
Təhəmtən[3] əzəmətli, Qəzənfər təbiətli
Qəzavət gövhərini parıldadan
Bayandurun taxtını yüksəldən
Qanlı qılınc və pəncə gətirən
Döyüşlə düşmənin qəlbini yaran

Onun xoşbəxtlik günəşi parıldamağa davam edir və şan-şöhrətinin bədrlənmiş ayı kamillik üfüqündə nur saçır.

[1] İbrahim, 14/7.

[2] Fars dilindən tərcüməsi "səkkiz cənnət" olan bu ifadə orta əsrlər divan və sufi ədəbiyyatında geniş istifadə olunmuşdur [*tərcüməçinin qeydi* – t.q.].

[3] Təhəmtən: İran və türk mifologiyasına görə əfsanəvi qəhrəman olan Rüstəm Zalın ləqəblərindən biridir [t.q.].

İçərisindən cənnət məqamı parıldayan, işıq saçan [məktubunuz] üns və ruh məclisini vəfa mehi ilə gözəl ətirə və səfa ətri ilə xoş qoxuya qərq etdi. Cənabınız da alicənablıq şərtlərinin dərc edildiyi və müttəfiqlik əlaqələrinin əks olunduğu salamları həmin salamlara əlavə edərək məhəbbət və sevgi rəngarəngliyi ilə[sizə] göndərir. Həmişə bərəkət əta edənlə görüşmək arzusundayıq. Allah xatirinə bu arzuya çatmaq şərafətli günlərdə və lütf dolu illərdə bəndələrə müyəssər olsun.

Dövlət və dinin tacı, şanı uca olan alicənab əmin Qasimbəy[1] və səltənətin hamisi cənab Cəlaləddin Murad bəyin[2] – Allah səltənət xadimlərinə nisbətlə onların hər ikisinin qədir-qiymətini artırsın! Allah onun əzəmət və qüdrətini ucaltsın, düşmənlərin və xəyanətkarların hiyləsindən onu qorusun – müttəfiq olmaması haqqında yazdıqlarınız məlum oldu. Xatırladıq ki, onların işığı parlaq bir çıraq kimi zülməti nurlandırmaqda faydalı olsa da, günəşin şölələri qarşısında heç nədir. Zülmkar qızılbaş tayfasının – Allah onları məhv etsin – bədbəxtlik yağan qırmızı papağından dünyaya alov şölələri saçılır. Ruzbadeqan (?) atəşpərəstlər kimi qığılcımları firqəyə doğru istiqamətlənmiş, göy fitələrin bükülməsindən (burulmasından) dünyanı tüstüyə qərq etmiş və alovlu mil kimi o məmləkətdə ortaya çıxmışdırlar. Beyt:

O, bir nəfəs alınca, ad-san sahibinin ordusu
Tac sahibinin boynunu qılıncla vurar

Şübhə yoxdur ki, Əlvənd dağı qarşısında uca minarə alçaq olar. Artıq iş moizə və nəsihətdən keçib, Allahın lütfünə qalıb. Ümidvarıq ki, daimi olaraq tam ciddi cəhdlə çalışıb əlindən gələni edərək doğru yolda olan bütün firqələr ittifaqa girib səbr və hövsələ [nümayiş etdirməkdən] bezikə-

[1] Cahangir bəyin oğlu Qasim nəzərdə tutulur. Cahangir Uzun Həsənin qardaşı, Əlvənd isə nəvəsi idi [t.q.].

[2] Uzun Həsənin nəvəsi Murad nəzərdə tutulur. Əmioğlu olan Murad və Əlvənd bir çox qarşıdurmadan sonra sülh bağladılar. İraq və fars bölgəsi Muradın, Azərbaycan və Diyarbəkir isə Əlvəndin tabeliyində qaldı [t.q.].

cək, nemətlər əta edən Allaha təvəkkül edə-edə o zalım tayfanı məhv və zəlil etmək, yolunu azmış bu xoşagəlməz firqəni məğlub etmək iradəsi göstərəcəkdir. Fitnə baş qaldırmadan öncə qoy beşiyindəcə boğulsun. Ola bilsin Allahın lütfü ilə o məlunları qara torpaqda pay-mal edib, adlarını və izlərini dünya səhifəsindən silsinlər. Aləmdəkiləri fəth və qələbə xəbərləri ilə şad-xürrəm etsinlər. Bizim səltənətin misilsiz xahişini diqqətə alıb onun əksini təsəvvür etməyin. Məmləkətlərdə yaşayanları, bütün rəiyyəti, salehləri, şeyxləri, alimləri və seyidləri hər iki dövlət üçün dua etmək vəzifəsi ilə məşğul hesab edib, ixlas və səmimiyyət yolunu seçərək elçi və məktublar göndərməyə davam edin. Baş verənlər haqqında xəbərdarlıq etməkdən qafil olub süstlük etməyin. İşarə etdiyimiz kimi, zərurət yaranarsa Allahın izni ilə bu tərəfdən süstlük olmayacaqdır.

Bəndələrin rəbbi xatirinə dövlət və xoşbəxtliyin qalan günləri izzət və ucalıq sevimlilərinin məramına uyğun olaraq artsın və davamlı olsun.

SULTAN II BAYAZİDİN KÜRD HACI RÜSTƏM İLƏ YAZIŞMASI

Sultan II Bayazid xanın Kürd Hacı Rüstəmə məktubu

Əzəmətli əmir, alicənab böyük insan, mükəmməl hökm və möhtəşəm şan-şöhrət sahibi, mələk vəsfli, fələk cüssəli, adətlərin ən gözəl qoruyucusu, təbil və bayraq sahibi[1], mərhəmət əsintilərinin və mükafatların yaradıcısı [Allahın] inayətinə[2] nail olmuş hörmətli Hacı Rüstəm bəy! Uca məqamı daimi olsun![3]

Şahlıq məqamının feyzi olan bu məhəbbət dolu məktubu oxuduqdan sonra Qızılbaş camaatının Bayanduriyyənin dövlət adamlarına qarşı olan uzunmüddətli düşmənçiliyinin nə ilə nəticələndiyini öyrənin. Həqiqət bundan ibarətdir ki, bu bizim qüdrət sahibi olan uğurlu naiblərimizə məlum olmamış və bizim uca fələklərə bənzər dərgahımıza ərz edilməmişdir. Hazırda mübarək məktubumuz və ən yaxın adamlarımızın rəhbəri olan Keyvan Çavuş vəziyyət haqqında məlumat əldə etmək üçün tərəfinizə göndərilir. Sizin vilayətiniz o bölgələrlə qonşu olduğu üçün həqiqəti (orada baş verənləri) siz daha yaxşı bilərsiniz. Bu şanlı məktubu gətirən sizinlə görüşmək şərəfinə nail olduqda sözügedən şəxsə (elçiyə) o tərəflərdə baş verənlər haqqında əldə etdiyiniz doğru xəbərləri təqdim edin. Bu [vəzifəni] bizim şahanə lüt-

[1] Bu ifadənin "şan-şöhrət və hökm sahibi" şəklində başa düşülməsi də mümkündür [t.q.].

[2] İnayət: Allah-təalanın bütün kainat haqqındakı hökm, təqdir, lütf və köməyini ifadə edən bir istilahdır [t.q.].

[3] Farsca mətndə istifadə olunan "əmir", "kəbir" və "məcid" sözləri müxtəlif dövrlərdə hakim və idarəçilərlə bağlı xüsusi ləqəblər kimi də işlədilmişdir [t.q.].

fümüz hesab edərək bildiyiniz hər şeyi, heç bir əskikliyə yol vermədən söyləməklə sədaqətinizi isbat edin.

908-ci ilin Rəbiül-əvvəl ayında yazıldı.

Kürd Hacı Rüstəmin Sultan II Bayazidə cavab məktubu

Tanrının himayəsində olan, aləmə zinət verən səltənət sahibinin – Allah onun məqamını uca tutsun – hüzuruna ərz edilir: icra edilməsi mütləq hökm sahibi olan və nemətləri bəxş edən[1]Allahın əmri kimi vacib olan fərmanınız ən yaxın və seçilmiş adamlarınızın dirəyi olan Keyvan Çavuş – Allah onun qədir-qiymətini artırsın – vasitəsilə xoşbəxtlik zirvəsinin və səadət bürcünün göyərçin quşu kimi şərafətli [şəkildə] gəlib çatmış oldu və xoşbəxtlik verən gəlişi ilə qədir-qiymətimizi artıraraq təşəkkür ədası ilə belə dedi:

Günəş öz lütfü ilə əgər yerdən bir zərrəni qaldırsa,
Günəşin lütfündən başqa onda heç bir nöqsan olmaz!

Bizi [doğru yola]yönəldən Allaha həmd olsun!

Batil məzhəbdən olan qızılbaşların – Allahın lənətinə gəlib, məhvə məhkum olsunlar! – vəziyyəti haqqında məlumat əldə etmək üçün göndərdiyiniz sifarişə gəldikdə, o zalım tayfanın hazırkı vəziyyətləri belədir: Əlvənd xana zərbə endirib İraqi-əcəmə getdilər. Orada Murad xana qalib gəlib, ordusunu darmadağın elədilər. İraqi-ərəbdə Pırnakların[2] işini bitirdilər, Misir çərkəzləri[3] ilə sülh bağlayaraq müttəfiq oldular. Hazırda Mərəş[4] və Diyarbəkirə doğru yönəliblər. Onların zülmündən İranın vəziyyəti pərişandır. Məmləkət və vilayətlərin əksəriyyəti onların zülm və işgəncələri ilə viran olmuşdur. Allahın fəzilətindən ümidimiz budur ki, uca Allahın istəyi ilə Allah yolunda döyüşənlərin mizraq və nizələri, müsəlman mücahid döyüşçülər və zəmanənin şahənşahının qan fışqıran oxları vasitəsilə bu zalım dəstənin kökü kəsilib, məhv edilsin.

Fərmanınızın qalan hissəsi[1] icra ediləcəkdir.

[1] Farsca mətndə gedən "əl-Malik" və "əl-Mənnan" sözləri Allah üçün istifadə edilən gözəl adlardandır [t.q.].

[2] Burada Azərbaycan, İraq və İranda hakimiyyətdə olmuş Ağqoyunlu sultanları ilə eyni soydan olan Pürnaklar nəzərdə tutulur [t.q.].

[3] Tarixdə Bürci Məmlüklər kimi tanınan Misir çərkəzlərinin dövləti [t.q.].

[4] Burada nəzərdə tutulan Zülqədərin hakimiyyəti altında olan ərazilərdir [t.q.].

[1] Çox güman ki, bu ifadə ilə Şah İsmayılın atdığı addımlar barəsində doğru və dəqiq məlumatların mütəmadi olaraq II Bayazidə çatdırılması nəzərdə tutulur [t.q.].

ŞAH İSMAYILIN HÜSEYN BAYQARAYA MƏKTUBU

Şah İsmayılın Hüseyn Bayqaraya məktubu[1]

Bağışlayan və mehriban Allahın adı ilə...

Aləmlərin Rəbbi olan Allaha həmd olsun![2] Allahın seçilmiş elçisi Əhmədə (Məhəmməd peyğəmbərə) salam olsun. [Ən gözəl] aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir[3].

"Kitabda (Quranda) İsmaili də yada sal! O öz vədinə sadiq və (Bizim tərəfimizdən öz ümmətinə göndərilmiş) bir elçi, bir peyğəmbər idi. O öz ümmətinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı"[4].

Salam hədiyyə etdikdən sonra məlumunuz olsun ki, mübarək məktubunuzun məzmunu dəqiq şəkildə aydın oldu. Sizin səmimi şəkildə ifadə etdiyiniz [böyüklərdən] miras qalmış dostluq nümunələri, bizim də qədim məhəbbət və sevgi silsiləsini hərəkətə gətirdi. Ali dərəcələrə yüksəlmiş əzəmətli əcdadlarımızın və müqəddəs məqamlara ucalmış öncəki nəsillərimizin izlədikləri mənəvi yol və bu yolun mənəvi izləri yaxında və uzaqda olanların, itaət əhlinin və günahkarların, bir sözlə hər kəsin yanında son dərəcə məşhur olmaqla yanaşı, o şərafətli zümrənin canişinlərinin yüksək dərəcəli səmimiyyəti və ixlası sonrakı nəsillərin hörmətə layiq xüsusiyyətlərinə və yüksək əxlaqına öz təsirini göstər-

[1] Müxtəlif əlyazma nüsxələrdə bu məktubun adı "Sabiq Şah İsmayıl Səfəvinin – məzarı nurlu olsun – sultanlardan birinə yazdığı məktubun surəti" kimi qeyd edilmişdir. Bu baxımdan məktubun kimə göndərildiyi dəqiq məlum deyil. Mətndə İmam Rzanın (ə) Məşhəd şəhərindəki məzarına işarə edilməsini əsas gətirən tədqiqatçı Əbdülhüseyn Nəvainin fikrincə məktub çox ehtimal Xorasan hakimi Hüseyn Bayqaraya (ö.1506) ünvanlanmışdır [t.q.].

[2] əl-Fatihə, 1/2.

[3] əl-Qasas, 29/83.

[4] Məryəm, 19/54–55.

mişdir. Yaltaq müsafirlərin və yaxınlaşmağa cəhd edən (özlərini yaxşı göstərmək istəyən) qonşuların dilindən eşidilən bəzi xəbərlər araşdırıldıqda bunların həqiqətdən uzaq, yalandan ortaya atılan və doğru düşüncəyə zidd olduğu bəlli oldu. [Ayədə də buyurulduğu kimi] "Şübhəsiz ki, çoxları bilmədiklərindən nəfslərinin istəklərinə uyaraq (xalqı) düz yoldan azdırarlar. Rəbbin həddi aşanları ən yaxşı tanıyandır!"[1].

Hidayət olmaq istəyən üçün yolum açıqdır,
Lakin arzular kordur və [insanları] kor edər.

Məktubun qısa məzmunu və cavabdan əldə edilən nəticə budur ki, "[Ey Məhəmməd!] Sən olmasaydın kainatı yaratmazdım" buyruğuna əsasən yer üzünü abadlaşdırmaq və pak aləmlər yaratmağın səbəbkarı Nuri-Məhəmmədidir[2]. Həmişə dünyəvi hakimiyyətin qayda-qanunlarının (hökmlərinin) ümumi nəticələrinin aşkara çıxmasını və ölümdən sonrakı səltənətin vəziyyətinə şamil edilən və yüksəlməsini tələb edən peyğəmbərliyin sona çatması ilə vilayətin tamamlanması arasında mükəmməllik tərtib etmək tələbinə görə bu dünyadakı hakimiyyətin rəhbərliyi və mənəvi aləmlərin idarəçiliyinin O həzrətə və uca xislət sahibləri olan pak itrətinə, yəni mübarək övladlarına və kamal dərəcəsinə yüksəlmiş dəyərli ailəsinə məxsus olması bəsirət əhli və görən gözlərin sahibləri üçün günün günorta çağındakı günəş qədər aşkar və aydındır. Qəti və yəqin, açıq-aşkar dəlil və sübutlar əsasında böyük xilafət və əzəmətli səltənətin rəmzi o taxtın sultanının xüsusiyyətinin ilahi mahiyyətindən kənar deyildir. Necə ki, "(Cəbrayıl, Məhəmməd əleyhissəlama) yaxınlaşdı və aşağı endi; (onların arasındakı məsafə) iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu"[3] [ayəsi də buna işarə edir]. Bir

[1] əl-Ənam, 6/119.

[2] Nuri-Məhəmmədi: Sufi təriqətlər tərəfindən çox istifadə olunan bir istilahdır. Belə ki, kainatın yaradılması ilə bağlı bir qüdsi hədisdə Allah tərəfindən yaradılan ilk varlığın Hz. Məhəmmədin (s) nuru və ya ruhu olduğu qeyd edilmişdir. Bu hədisi əsas gətirən sufilər bütün kainatın cövhərinin nuri-Məhəmmədidən ibarət olduğunu qəbul edirlər [t.q.].

[3] ən-Nəcm, 53/8–9.

zamanlar ilahi iradə və zamanın sıxıntılarına əsasən, dini mətnlərdə hakimiyyətləri elan edilən o seçilmiş şəxslər, yəni hidayət imamları və kamil Allah dostları öz varislik hüquqlarını qəsbkarlardan və təəssüb əhlindən almağa çalışmamış, dünya əhli ilə həmfikir olmaq rüsvayçılığına düşməmək üçün hakimiyyət və vilayətin adını dillərinə gətirməyib və o rəzil insanlarla mübarizə etməyiblərsə, bu Allahın iradəsi və qeybi işarələr əsasında olub və onların ucalıqlarının kamilliyindən və kamilliklərinin ucalığındandır. Bu əsla və əsla o iztirablı insanların aciz və ya zəif olması demək deyildir.

Allaha həmd olsun ki, bu arada "hər bir xalqın öz dövləti vardır və bizim dövlətimiz də axirəz-zamandadır"[1] [ifadəsinə] uyğun olaraq peyğəmbərlik (nübüvvət) və imamət (vilayət) xanədanının könül oxşayan çəmənliyindən [ilhamlanaraq] cənabınızın məhsuldar pöhrəsi baş qaldırdı. "Allah [isə kafirlərin xoşuna gəlməsə də, ancaq] öz nurunu tamamlamaq istər"[2] ayəsinin işarə etdiyi və "O, Allahın yanar odudur, elə bir od ki, ürəkləri yandırıb-yaxar"[3] mübarək ayəsinin məzmununun əhatə etdiyi, səadət və alicənablıq xanədanının aləmi bəzəyən sirli aləmindən (gizlənilən yer, pusqu) günbəgün inkişaf edən bu dövlətin dünyanı nurlandıran çırağı alovlanmış oldu. "Biz kitabdan (Tövratdan, yaxud lövhi-məhfuzdan) sonra Zəburda da (cənnət torpağına, yer üzünə və ya müqəddəs) torpağa yalnız Mənim saleh bəndələrimin daxil olacağını yazmışdıq"[4] [ayəsinin] məzmununun əlamətlərini öz simamızda müşahidə etdik və istər-istəməz qeybdən nida edən mələyin danışmağa məcbur edən susmuş dili "...yer üzünə və onun üzərində olan hər şeyə yalnız biz varis olacağıq"[1] oxumağa başladı. Dəyərli carçı bəlağətli dili ilə "səni də özündən əvvəl çoxlu ümmətlər gəlib-getmiş bir ümmətə Peyğəmbər göndərdik ki, sənə vəhy etdiyimiz (Quranı) onlara oxuyasan"[2] nidasını əda etməyə başladı. Yazı mələklərinin və katiblərinin qələmlərinin ucu ilə "(Ya rəsulum) kitabda İsmaili də yada sal!"[3] [ayəsinə] istinad edərək əsasları kamil olan səltənətin, dünya və dünyada yaşayanların xilafət səhifələrinin üzərinə bu mübarək adı qeyd edərək zəmanəni zəmanə əhlinin gözündə cilvələndirdi.

[1] Mehdi inancı ilə birbaşa əlaqəsi olan "axirəz-zaman" ifadəsi dünyanın sonuna işarə edir və bununla da qiyamət günündən bir müddət əvvəl yer üzündə fitnə-fəsadın ortadan qalxacağı, İslam hüquq sisteminin bərqərar olacağı nəzərdə tutulur. Sözügedən dövrün təfərrüatları haqqında müxtəlif dinlər, eləcə də islam məzhəbləri arasında fikir ayrılıqları mövcuddur [t.q.].

[2] ət-Tövbə, 9/32.

[3] əl-Huməzə, 104/6–7.

[4] əl-Ənbiya, 21/105.

Rəhmət xəzinəsinin qapısına hikmət qıfılı vurulmuşdu
Bizim hakimiyyətimizin zamanı gəldi və qapı açılmış oldu.

"Bizi bura gətirib çıxaran Allaha həmd olsun! Əgər Allah bizi doğru yola yönəltməsəydi, biz özümüzə doğru yolu tapa bilməzdik[4].

[Bizə] miras qalmış kamil dostluğun və böyük məhəbbətin vəzifəsi budur ki, birlik qapılarının açıldığı və dostluq səbəblərinin yayıldığı kimi bu işlərin (dostluq və birlik işlərinin) möhkəmlənməsi və bu nizamın davamlı olması üçün əlinizdən gələn səyi göstərməyə çalışıb "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (Əhli-beytə sevgidən) başqa bir şey istəmirəm"[5] ayəsinin tələbinə uyğun olaraq Ali-əbanın[6] ətəyindən yapışın, urvətül-vüsqaya[7] sarılaraq etiqad edin. Necə ki, "Mən

[1] Məryəm, 19/40.

[2] ər-Rad, 13/30.

[3] Məryəm, 19/54.

[4] əl-Əraf, 7/43.

[5] əş-Şura, 42/23.

[6] Ali-əba: "Əhli-beyt" istilahı ilə eyni mənanı verən bu ifadə əbanın altındakı insanlar, əba ailəsi deməkdir. Şiə inancına görə, terminlə nəzərdə tutulanlar Məhəmməd peyğəmbər, imam Əli, imam Həsən, imam Hüseyn, Fatimə və onların nəslindən gələn digər 9 imamdır. Sünni əqidəyə görə isə nəzərdə tutulanlar arasında peyğəmbərin xanımları da vardır [t.q.].

[7] Urvətül-vüsqa: Bəqərə surəsinin 256-cı ayəsindən götürülən bu ifadə "möhkəm ip" kimi tərcümə olunur. Şiə və sünni təfsir alimləri bu ifadə ilə Qurani-Kərimin nəzərdə tutulduğu nöqtəsində həmfikirdirlər. Ancaq şiə alimləri tərəfindən terminin mənasının daha geniş olduğu və əhli-beyt sevgisini də əhatə etdiyi önə sürülmüşdür [t.q.].

sizə iki ağır əmanət qoyub gedirəm; Allahın kitabı və itrətimi (ailəmi). Onlara sarılın. Onlar qiyamətə qədər biri-birindən ayrılmayan iki ipdir" – [hədisində buyurulur].

Allahın razı olduğu bu yol və bəyəndiyi əxlaq ona gətirib çıxaracaq ki, sevgi üslublu məktubunuzda bizim vəlayət məqamımız və hörmətli əcdadımız haqqında buyurduqlarınıza görə, [siz] mənəvi yardımlar və dini dəstək [almaqla] yanaşı, dünyəvi xoşbəxtliklər və uğurlar da qazanacaqsınız.

Şübhəsiz, əzəli dostluq yeni müstəviyə keçdikdə və əsl birliyin əsasları möhkəmləndikdə "Beləcə, Biz hər peyğəmbər üçün (biri digərini) aldatmaq məqsədilə bir-birinə təmtəraqlı (zahirən gözəl, daxilən çirkin) sözlər təlqin edən insan və cin şeytanlarından düşmənlər yaratdıq"[1] [ayəsində buyurulduğu kimi] şeytanın yolunu özünə məslək edən və [Allahdan] qorxusu olmayan qərəzli yalançıların bütün yalanları və batil dedi-qoduları tərəfimizdən təsdiq və qəbul edilməyəcəkdir. Həqiqət budur ki, bizim pak şəriətin və hidayət imamlarının haqq məzhəbinin qanunlarının icrasından, Mustafa və Murtəzanın parlaq təriqətini yaymaqdan başqa [hər hansı] bir niyyətimiz yoxdur. Kitabın (Quranın) möhkəm ayələri, Peyğəmbərin aşkar və səhih hədisləri bu ikisinin doğruluğuna dəqiq və bariz dəlildir. "...Biz atalarımızı bir din üzərində gördük və biz də (təqlidlə) onların ardınca getməkdəyik!..."[2] [deyə haqlarında danışdığı] dövlətin əcdadlarının əfsanələrinə bağlı olan və təqlidin dar çərçivəsində olanların əsaslandığı digər forma isə xoşagəlməz, təəccüblü, bidət[3] və uzaq olduğu üçün həqiqət deyildir. "Allah sizə Kitabı müfəssəl surətdə nazil etdiyi halda, mən Ondan başqasınımı özümə hakim istəməliyəm?!"[4]. "Mən ata-babalarım [olan] İbrahimin... dininə tabe oldum"[5] [ayəsinin məzmununu rəhbər tuturam] və necə də tutmayım?! Haqq yol budur və doğru yolu gizlətməyi bacarmaram!

¹ əl-Ənam, 6/112.
² əz-Zuxruf, 43/22.
³ Bidət: din və şəriət baxımından Məhəmməd peyğəmbər dövründə olmayan və sonradan ortaya çıxan yeniliklərə verilən ümumi addır. İstilahın əhatə dairəsi müxtəlif məzhəblərə görə fərqlidir [t.q.].
⁴ əl-Ənam, 6/114.
⁵ Yusuf, 12/38.

Şərqdən Qərbə bütün yer üzünün əgər imamı olmalıdırsa,
Əli və onun ailəsi bizim üçün yetərlidir.

Maraqlıdır ki, səltənət ailəsi olan atalarınız və əcdadınız (Allah onların dəlillərini nurlandırsın) həmin nicatverici əqidəyə və hidayət yoluna etiqad etmişlər. "Siz bilə-bilə haqqı batillə qarışdırmayın, haqqı gizlətməyin!"[1].

Allah qorusun, əgər bu məzhəb barəsində xoşagəlməz bir şübhə ağlınıza gəlmiş olsa, etibar etdiyiniz alim və fəzilətli elm sahiblərini təyin edib göndərin. Əqli və nəqli dəlillərlə onlara iddiamızı razı qalacaqları şəkildə isbat edəcəyik. "...Bizim qarşımıza çıxara biləcək bir elminiz varmı? Siz yalnız zənnə qapılırsınız. De: "Tutarlı dəlil yalnız Allaha məxsusdur. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi"[2].

Allah bilir ki, fani dünyanın işlərinə bel bağlamaqdan və zahiri (maddi aləmə bağlı olan) qanunları icra etməkdən əsas məqsəd və ümumi hədəfimiz mübarək şiəçiliyin hökmlərini yaymaqdan və nicat əhli olan firqənin təsirlərini genişləndirməkdən başqa bir şey deyildir. [Bu vasilə ilə] onun (məzhəbin) əsas qanunları və təfərrüatları, sirləri və nurları zalımların, din və dövlətçilik, ümmətçilik və hakimiyyət müxaliflərinin zülm pərdəsi altında gizli və örtülü idi, [daha] olmasın. Necə ki, artıq aşkara çıxmışdır. Bizim irsi və fitri baxımdan dünya və hakimiyyətin dəyərsiz və kiçik işlərinə bağlı olmağa nifrət duyulan və uzaq durulan aləmimizdə uca və pak hədəfimiz, yüksək, seçilən və dəyərli məqsəd, fani və dəyərsiz bər-bəzəyə meylliliyimiz, xəbis və pis tör-töküntüyə iltifat etməkdən daha yüksəkdir.

Allaha şükr olsun ki, yenə də bu dərgahın zirvəsində,
Ərşin Tavus quşu qanadımın səsini duyur.
Bu işdən məqsədimiz onun əmrini yaymaqdır,
Naz edib işvələnmirəm.

¹ əl-Bəqərə, 2/42.
² əl-Ənam, 6/148–149.

Şahin kimi şahın əlindən tikə aldığım üçün,

Görəsən göyərçinimi ovlamaq lütfü nə zaman mənə verilər (deyirəm).

Allaha həmd və şükür olsun ki, Allahın sonsuz yardım və köməyi və "O kəslərin ki, dünyanı axirətdən üstün tutur, (insanları) Allah yolundan sapdırır və onu əyri göstərməyə çalışırlar. Onlar dərin bir azğınlıq içindədirlər"[1]. [Quran ayəsinin] xoşbəxtlik verən məzmunu ilə tərbiyə olunanları bizim pak təbiətimizlə ədəbləndirən qərar vermişdir. Xeyir və şər dərgahının mühəndisləri, faydalı və zərərli rəsmlərin rəssamları olan qəza və qədər nəqqaşları bizim zehin səhifəmizə dünya və əhli-dünyaya zərrə qədər də məhəbbətdən bir rəsm çəkməmişlər. Bu rəna qamətlinin qəlbi ovsunlayan surətinin heç bir təsvirini ağıl lövhəmizə nəqş etməmişdir.

Zəmanənin xoş güzəranına aldanma ki,

Bu əfsanənin və dastanın çərxindən minlərlə xatirələr var ki,

Kavusun nə zaman və hara getdiyi bəllidir

Cəmşidin taxtının boş qaldığı məlumdur

Bəlkə, "şübhəsiz ki, qullarım üzərində sənin heç bir hökmün yoxdur"[2] [ayəsinin] tələbinə əsasən peyğəmbərliyə məxsus yol ilə [getdiyimiz üçün] iradəmiz dünya və axirətə bağlılıq və meyllənməkdən imtina etmişdir. Əzəli lütfü qoruyanlar və əbədi səadətin keşikçiləri haqq və hidayət yolunu getməyə yardım etməklə [peyğəmbərin bir hədisdə buyurduğu "Dünya axirət əhlinə və axirət isə dünya əhlinə və] hər ikisi Allahın sevimli bəndələrinə haramdır" [əqidəsindən yanaşaraq] bizim pak ətəyimizi axirət görüntüsü yaratmaq çirkinliyinə bulaşmaqdan qorumuşdur.

Mərd olan hər bir kəs iki cahanı istəməz,

Hər ikisinə riayət edən (bunlardan) birini istər.

"Ey Rəbbim! Mənə mənim özümə və ata-anama ehsan buyurduğun nemətə şükür etmək, Sənin razı qalacağın yaxşı

[1] İbrahim, 14/3.
[2] əl-Hicr, 15/42.

işi görmək üçün ilham (qüvvət) ver! Və məni öz mərhəmətinə saleh bəndələrinin zümrəsinə daxil et!"[1].

Tacirlərin bu ölkələrə və diyarlara gəlib-getməsinə qadağa qoymaq mürüvvət və insanpərvərlik əxlaqına, igidlik və ədalətpərəstlik xislətinə ziddir.

Yəqin ki, bunu bizə rəva görməyəcəksiniz. Çünki əslində həqiqət [dediyinizdən] fərqlidir. Elçi və məktubların göndərilməməsinin səbəbinə gəldikdə, şübhəsiz ki, bunun özünəməxsus səbəbləri vardı. Bu müddət ərzində küfr əhlini və düşmənləri dəf etmək və ortadan qaldırmaq, bidət və üsyan əhlinin kökünü kəsməklə məşğul olduğumuzdan bu cür sabit adətlərə və davamlı qanunlara riayət etməyə macal tapmırdıq. Buna baxmayaraq, kamil məhəbbətinizə və qədim dostluğunuza o dərəcə etimadımız və güvənimiz var idi ki, adət əhlinin qaydalarından imtina etməyə lüzum yox idi.

Hazırda sizin diqqət açarlarınız ilə məhəbbətin yayılmasına səbəb olan bu adətlərin qapıları açıldığı üçün bu gündən sonra qafilələrin gedib-gəlməsində artım [müşahidə ediləcək], bunun davamlı olması təmin ediləcək və düşüncələrin dəyişməsi təhlükəsindən amanda olacağıq. Məlumat verdiyiniz kimi, Allahın Beytül-həramının (Məkkənin) ziyarəti İslamın rəmzlərindən olduğu, [və barəsində] "Və hər kəs Allahın mərasiminə (həcc əməllərinə) hörmət etsə, bu (hörmət), şübhəsiz ki, qəlblərin təqvasındadır"[2] [ayəsi nazil olduğu] üçün buraya yönələn insanlara elə bir şəkildə yardım və kömək edəcək, qarşılama vəzifəmizlə məşğul olacağıq ki, vəlayət sütunlarının və hidayət imamlarının səkkizinci həzrətinin – salamlar və dualar onun və onların olsun – ziyarəti üçün bəhanəmiz olsun.

Qüreyşli elçinin (Peyğəmbərin) sözünə əsasən bir qapısını təvaf etmək,

Yetmiş müstəhəbb həccə bərabər olar.

Məscidləri tikmək və bəzəmək (məscidin daxilindəki nəqqaşlıq işlərini görmək) üçün tələb etdiyiniz inşaat ustala-

[1] ən-Nəml, 27/19.
[2] əl-Həcc, 22/32.

rına gəlincə, o günəşin ucalığına bənzər tikililərin (məscidlərin) abadlaşması bizim üzərimizə vacib olduğu üçün Allahın izni ilə məktublar çatdıqdan sonra İraqın məşhur Mədain şəhərində bütün ölkələrdə məşhur və dünyaca nadir olan ustalar ali-cənabınıza tərəf göndəriləcəkdir.

Digər hadisələri, İslamı dərindən bilən və onun mərasimlərini canlandıran, elm və irfan əhlinin sütunu, mükaşifə və mərifət sahiblərinin nümunəsi, adı kimi işlərin əvvəlinin və sonunun hər zaman həmdinə (şükrünə) çevrilən Əhməd[1] icazə və razılığınızı aldıqdan sonra qəlbi oxşayan sözləri ilə [xidmətinizə] ərz edəcəkdir.

"Ey insanlar! (Bu Məhəmməd) sizə Rəbbiniz tərəfindən dəlil (sübut) gəlmişdir. Biz sizə aydın bir nur (Quran) endirdik"[2].

"Bu da mübarək (xeyir-bərəkəti daim, faydası çox), özündən əvvəlkiləri təsdiq edən bir kitabdır[3]. "Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Onun sözlərini dəyişdirə biləcək bir kimsə yoxdur. O, (hər şeyi) eşidəndir, biləndir!"[4].

Hidayət yolunu izləyənlərə salam olsun!

[1] Burada Şeyxzadə Lahici kimi tanınan Şeyx Muhyiddin Əhməd nəzərdə tutulur [t.q.].
[2] ən-Nisa, 4/174.
[3] əl-Ənam, 6/92.
[4] əl-Ənam, 6/115.

ŞAH İSMAYIL İLƏ SULTAN II BAYAZİD ARASINDAKI YAZIŞMALAR

Şah İsmayılın Sultan II Bayazidə məktubu

Dünya sultanlarının dərgahına layiq olacaq həmd-səna və Allah aşiqlərinin zikri olacaq duanı səmimi qəlbdən, xeyirxahlıq, dostluq və diqqətimi nümayiş etdirərək İslam sultanlarının sultanı, ədalətin zirvəsi olan səltənətin himayədarı, ali xilafətin sığınacağı, İslamın pənahı, Allaha inanmayanları diz çökdürən, dünya xaqanlarının sığınacağı, ümmətlərin padşahları və məmləkətlərin hakimlərinin pənahı, Allah yolunda cihad edən, Allah tərəfindən yardım olunan, ədalətli və alim sultan, arif və kamil xaqan, kainatın izzət sahibinin lütfü ilə şərafətlənmiş və İslamın xəlifəsi olan həzrəti Sultan Bayazidin – Allah müsəlmanlar üzərindəki ədalət kölgəsini və xilafətinin ömrünü İslam və müsəlmanların mənafeyi naminə sonsuz və əbədi etsin – mübarək dərgah və hüzuruna ərz edirəm. Həmişə mübarək vaxtlar və müqəddəs saatlarda peyğəmbərlər, din rəhbərləri və seçilmiş insanların müqəddəs ruhlarını və eləcə də şərafətli ata-babalarımızın nurlu qəbirlərini yardıma səsləyərək mərhəmətli İslamın padşahı (himayədarı) olan cənabi-alinin xilafətinin davamlı, ədalət və şəfqətinin hamıya şamil olması üçün dua edirlər. O (Allah) eşidən və duaları qəbul edəndir.

Mətləbə gəldikdə, əzəmətli şahzadələr və ədalətin xidmətçilərinin şərəfli diqqət və nəzərinə çatdırılır ki, aləmi bəzəyənə (II Bayazidə) qədim zamanlardan indiyə qədər bütün məmləkətlərin, xüsusilə Rum diyarı əhalisinin bizim xanədanımıza olan məhəbbəti, sevgisi, etiqadı və qucaq açması məlumdur. Hər zaman oradan mənəviyyat yolunun yolçuları bu hidayət ailəsinə, cənnətməkan şeyxlərin – Allah onların ruhlarını müqəddəs etsin – müqəddəs yurduna

doğru istiqamət götürmüş və hər kəs öz fitri qabiliyyətinə uyğun mənəviyyat və axirətlə bağlı məqsədinə nail olmuşdur. Bəzən onların yolu üzərində olan şahlar, ətraf və məmləkətlərin hakimləri onların fəaliyyətinə mane olurmuşlar. Çünki ədalət və xilafətin ən fəzilətli xadimi olmaq tələb edir ki, bütün İslam əhli, xüsusilə də təriqət yolunun yolçuları və həqiqət mülklərinin sahibləri üçün cavabdehlik daşıyasan və bu ailəni ziyarət etmək istəyən mürid və tərəfdarlara icazə verəsən. Şahlar, ətraf [ərazilərin] hakimləri, sərhəd və şəhər keşikçilərinə fərman verilsin ki, qətiyyən bu dəstənin fəaliyyətinə mane olmasınlar və bu istiqamətə kim üz tutarsa Allahın istəyi ilə axirət istəklərinə nail olar, dəvətləri çoxalar, cah-calalı artar, bəxşişləri və xilafətin qüdrəti çoxalmış olar.

Əsas məqsəd səmimiyyət və dualarımızı çatdırmaq olduğu üçün duaları ixtisara salaraq azaltdıq. Duamızı [sizə] çatdırmaq üçün ehtiyaclıların pənahı Məhəmmədi dünyanın pənahının (Bayazidin) hüzuruna yola saldım. Məhəmməd (s), övladları və izzətli səhabələrinə xatir cənabi-ali hər zaman arzular sahiblərinin sığınacağı, səadət və təmtəraq əhlinin pənahı olsun.

Sultan II Bayazidin Şah İsmayıla cavabı

Mükəmməl səltənətin, zəngin hakimiyyətin, sonsuz qüdrətin, həqiqi səadətin, əsl-nəsəbin ağası, səltənət, hakimiyyət, izzət və səadət [yolunun] mübarizi Şah İsmayıl! Allah ədalətini və fəzilətini qiyamətə qədər davamlı etsin!

Saf sevgi və təmiz niyyətlə göndərmiş olduğun ən saf duaların və ən xoşniyyətli (vəfalı) salamların şahanəsi, səhər vaxtı ibadət edənlərin duaları və gecə-gündüz zikr edənlərin zikrləri ilə bəzəmiş olduğunuz məktubunuz sevinc və şadlığımıza səbəb olmuşdur. Xoş əhvalınızdan bizi hər zaman xəbərdar etməyi unutmayın. Dualarla dolu və sonu həmdsəna ilə bitən yazmış olduğunuz məktubunuz ən gözəl ovqatda və xoş saatlarda gəlib çatdı. Əvvəldən axıra qədər bəlağətli və gözəl cümlələrlə yazılanlar məhəbbət [hisslərimizin] artmasına səbəb oldu. Həqiqət əhlinə meyl edənlərə mane olunmaması barəsindəki xahişiniz haqqında da araşdırma aparılarkən belə məlum oldu ki, mücahid qazilərin rəiyyətinin əksəriyyəti ziyarət bəhanəsi ilə bu məmləkəti tərk edərək iş-gücdən yayınır və bu da ordunun məhsuldarlığına böyük zərər vururmuş. Böyük ordu rəhbərləri öz sabiq rəiyyətləri ilə qarşılaşdıqda qədim adət-ənənələrə görə, görən kimi tutub onları əsas vətənlərinə gətirirmişlər.

Sizin mübarək xəbərdarlığınızı aldıqdan sonra fərman verdik ki, bu təbəqə arasından kimsə Allah övliyalarını – Allahın rəhməti onların üzərinə olsun – ziyarət etmək niyyətində olarsa, hər iki tərəfin istəyi və arzusu olan məhəbbət yolu abad, möhkəm məhəbbət bağları sarsılmaz olsun deyə geri dönüş istiqamətində kimsə onlara mane olmasın. Aşiqlərin və həqiqət yolçularının ixlas və dürüstlüyü hamıya doğru sübh qədər aydın və açıq-aşkar qəti bir fərman kimi bəlli olduğu üçün sözü uzatmağa lüzum görmədik. Bəndələrin rəbbinə xatir ilahi lütf [sizə] həmişə səltənət və xoşbəxtlik günləri [qismət etsin].

Şah İsmayılın Sultan II Bayazidə məktubu

Tərifəlayiq səltənət və xilafət məqamına [sahib], Günəş kimi parlaq və yüksək mərtəbədə dayanan, Cəmşid[1] qədər əzəmətli, İskəndər kimi qüdrətli, ucalıq və ədalətin himayədarı, insaf və mürüvvət sahibi, dünya qeysərlərinin tabe olduğu, səltənət mülkünün varisi və layiqlisi, kafirlər və bütpərəstlərə baş əydirən, İslam ordularının sevimlisi, "dənizdə dağlar kimi üzən gəmilərin"[2] sahibi, sultanların və şahların ən ləyaqətlisi, xaqanlar xaqanlarının ən əzəmətlisi, yüksək cəsarətlə həqiqət bayrağını daşıyan, fəth bayrağını qaldıran, təmkin və izzət kürsüsünə əyləşmiş, din və dünya mülkünü

[1] İran və Azərbaycan ədəbiyyatındakı əfsanəvi hökmdarlardan biri [t.q.].
[2] ər-Rəhman, 55/24.

qoruyan, səltənət və xoşbəxtlik qanunlarını yayan, əzəmət və dövlət qanunlarını qoyan, Allah yolunun mücahidi, "nəfsini özünə tanrı edənləri"[1] cəzalandıran, Allah tərəfindən yardım edilən, səltənət, ədalət, qüdrət və xoşbəxtliyin yardımçısı həzrəti Sultan Bayazid – Allah səltənətinin təməllərini abad etsin, sizə gözəllik və sevinc bəxş etsin – məhəbbətin çoxluğunu özündə ehtiva edən və kamil sevgidən ayrılan nərgiz ətirli dualar qafiləsi və ənbər qoxulu salamlar karvanı sizə ərməğan olsun.

Agah ol ki, məmləkəti gözəlləşdirmək düşüncəsinin[2] düyün nöqtəsi Rəbiüs-sani ayının 12-də [indiki] Harput yurdunda baş verən [hadisə ilə] bağlıdır. Oradan ötərək müxaliflərə doğru getmək niyyətindəydik. Tərəflərimiz arasında əvvəlcədən razılaşdırılan qərara bağlılıq və vəfadarlıq eyni qaydada davam edir və sarsılmazdır.

Bu mübarək vaxtlarda Rum diyarının müsəlman məmləkətlərindən keçərkən qüdrətli qazilər və qalib əsgərlərimizə həmin vilayətlərin əhalisini incitməyi qəti şəkildə qadağan etmişdik. Müzəffər ordumuzun keçməsi ilə zərər çəkmiş insanlara nəvaziş göstərib öz yerlərinə və məkanlarına [qayıtmasına yardım etdik]. Gələcəkdə də, ümumiyyətlə, onlara qarşı heç bir təhlükə yoxdur. Ümidvaram ki, ilahi əmanətin qoruyucusu eşq əhlini sonsuz hikməti ilə [öz] himayəsinə götürmüş və qorumuşdur. Şər və zülmətin yüksəldiyi zaman, taleyin münasib qoruyucusunu onu qorumaq üçün təyin edəcəkdir. Bu əzəli bəxşişin mənşəyi, mahiyyətin yaradılış cövhəri olduğu üçün Tanrı tərəfindən sonradan yaranan çətinliklərdən əbədiyyən amanda olacaqdır. Bir olan əziz Allahın istəyi ilə.

Əsas məqsəd dostluq və sevgi münasibətlərini vurğulamaq olduğu üçün uzunçuluğa yol vermədik. "Nun və sad" ilə ilk danışan xatirinə (Allah xatirinə) dövlətinin qalası, uca gələcəyi və səadət sevincinin zirvəsi möhkəm olsun!

---

[1] əl-Furqan, 25/43; əl-Casiyə, 45/23.

[2] Əlaüddövlə ilə qarşılaşmaq üçün Səfəvi ordusunun icazə alınmadan Osmanlı dövlətinin ərazisindən keçməsi hadisəsi nəzərdə tutulur [t.q.].

Sultan II Bayazidin Şah İsmayıla cavabı

Böyük padşah, Əcəm məmləkətlərinin əzəmətli hökmdarı, Türk və Deyləm[1] diyarlarının əmiri, dövrümüzün Cəmşidi, zəmanənin Keyxosrovu,[2] əzəmətli Allahın yardım etdiyi Şah İsmayılın – Allah dövlətinin əsaslarını möhkəmləndirsin, ömrünü uzatsın, ona uğurlar və qələbələr bəxş etsin – bəlağətli məktubu gözəl ovqat və zamanda əlimizə gəlib çatdı. [Bu məktubda] mübarək ordunuzun qorunan padşahlığımıza (Qeysəriyyə) daxil olması, həmin ərazi və sərhədlərin əmirlərinin sizinlə dostcasına davranması haqqında məlumat verildi. Tərəflər arasındakı birlik və səmimiyyətin bir an belə itirilməməsi, səmimiyyət, ədalət və razılığın həmişə bərqərar olmasına cəhd göstərilməsi əmr edildi. Çünki Allahın bizə əmanəti olan xalq təhlükəsizlikdə və əmin-amanlıqda yaşamalı, bu vəhdətin əbədi olması üçün dualarını artırmalıdır. Ədalətli və güclü dövlətinizin müttəfiqliyinin və sevgisinin möhkəmliyi açıq-aşkar kamillik dərəcəsinə çatdığı üçün ədalətpərəst ordunuzun gəlişindən həmin bölgənin sakinləri narahat olmamışlar. Padşaha ehtiramımı qorumuş və hər mövzuda tərəfimizi saxlamışlar. Öz alicənablıqları sayəsində bu mövzuda az da olsa gecikmə və ləngimə olmamışdır. Əziz və əzəmətli Allahın istəyi ilə qarşı tərəfdən də həmin razı üslubdan istifadə olunar və əks bir hal ortaya çıxmaz. Bu böyük nemətin faydaları hər iki tərəfdə yaşayanlara məlum olmuş, onun şükr və fəziləti əməl dəftərlərinə dərc edilmişdir ki, bunun da müqabilində böyük savab veriləcəkdir.

Allah xatirinə səltənətinin qalan günləri məhəbbətlə keçsin!

---

[1] Xəzər dənizinin qərbindəki dağlıq bölgənin tarixi adıdır. Şərqdəki Təbəristan (bugünkü Mazandaran) və qərbdəki Gilan da tarixi Deyləm bölgəsini əhatə edir [t.q.].

[2] İran və Azərbaycan ədəbiyyatındakı əfsanəvi hökmdarlardan biri, Turan hökmdarı Əfrasiyabın qız nəvəsidir [t.q.].

QEYD: Şah İsmayılın bu məktubu təkcə yazılış baxımından deyil, həm də məzmunca müzakirə obyekti edilə bilər. Səfəvilərin Əlaüddövlə ilə döyüşməsi, 12 min qızılbaşın 300 minlik qoşuna qalib gəlməsi və Əlaüddövlənin yaralanaraq ölməsi tamamilə yanlışdır. Ehtimal olunur ki, İsmayılın bu məktubu yazmasından məqsədi Şeybaniyə öz döyüş qüdrətini göstərmək olub. "Əhsənüt-təvarix" kimi mötəbər tarix kitablarında bu döyüş haqqında qeyd yoxdur. Hətta "Əhsənüt-təvarix" müəllifi Həsən bəy Rumlunun ifadələrinə görə o, "Həbibus-siyər" müəllifi Mirxondun Şah İsmayıl ilə Əlaüddövlə arasında 3 gün döyüş baş verdiyinə dair xəbərini təəccüblə qarşılamışdır.

Belə ki, 921-ci ildə Əlaüddövlə Osmanlı padşahı Sultan Səlimin Zülqədərin tabeçiliyində olan ərazilərin sərhədinə qoşun və azuqə yığması xəbərini eşitdikdə türklərə hücum edərək onların azuqəsini qarət etmişdir. İsmayıl ilə döyüş zamanı Əlaüddövlənin ona kömək etməməsindən incik düşən Sultan Səlim bu xəbəri eşidəndən sonra Sinan paşanı onun üzərinə göndərmişdir. Sinan paşanın rəhbərliyi ilə baş verən döyüşdə Əlaüddövlə öldürülmüş, əsir düşən dörd oğlu da qətlə yetirilmişdir. Beləliklə, Əlaüddövlənin ölümündən sonra onun sülaləsinin hakimiyyətinə son qoyulmuş, Zülqədər tayfaları parçalanmışdır. Onların bir hissəsi Misir sultanı Qansu Qiruya, bir hissəsi Osmanlı padşahına pənah aparmış, bir hissəsi də qızılbaşlara qoşulmuşdur.

ŞAH İSMAYILIN ŞEYBANİ XAN İLƏ YAZIŞMALARI

Şah İsmayılın Şeybani xana məktubu

Bağışlayan və mehriban Allahın adı ilə. Pak və müqəddəsdir o Allah. İmdada yet, ya Əli!

Əbulmüzəffər[1] Şah İsmayıl Bahadur xan söylər:

Yaxşılıqlar və nemətlərin davamlılığına görə Allaha həmd olsun. İmdada yet, ya Əli!

Düşüncə pəhləvanlarının qüdrəti qarşısında heyran qaldıqları, əql və idrakına görə yüksəkliklərdə uçan qartalların ona aid irfan aləminin ən aşağı pilləsinə belə çata bilmədikləri və dəqiq düşünə bilənlərin hikməti qarşısında aciz qaldıqları həmin Allahın adı ilə

Ağıl, düşüncə və dərrakə həmrəy olsalar da
Əzəməti qarşısında aciz qalıblar
Əbədi elm məktəbində müdrik ağıl
Uşaq kimi qoltuğundan lövhəni salaraq heyrətdə qalıb

İmdada yet, ya Əli! Bu müqəddimə ilə demək istəyirəm ki, Nizaməddin Dədə bəy və Şücaəddin Lələ bəy kimi etibar etdiyim bəzi əmirləri əzəmətli qoşun və çoxlu döyüşçü ilə Əlaüddövlə Zülqədəri dəf etmək üçün Qarabağdan Diyarbəkirə göndərmişdim. Həmin Əlaüddövlə onları qəfil haqlamış, hücum edərək pərən-pərən salmışdır. Təqribən 300 min döyüşçü ilə Fəratı keçmişdir. Xəbər bizə çatan kimi taleyin ondan üz döndərdiyini düşündük. Əli övladlarına qarşı çıxan məğlub olar. Belə ki, Allahın köməyi ilə çərşənbə günü sübh çağı 14 min adlı-sanlı nizə atanla qələbə miniyinə mindik.

[1] Hərfi tərcüməsi "zəfərlərin atası" olan bu ifadə "məğlubedilməz" mənasında işlədilmişdir [t.q.].

Əgər qələbə yüyənini tərpətsələr
Dünyanı hədəqəsindən çıxarardılar

Bizimlə düşmən arasında 40 fərsəng[1] məsafə var idi. "İmdada yet, ya Əli" dedik. Ertəsi gün cümə axşamı hələ nurlu günəş zülmət pəncərəsindən çölə çıxmamış Fərat çayını keçdik. Yolda ikən həmin namərdlərlə qarşılaşdıq. On iki imam eşqinə 12 min döyüşçü ayırdıq və 12 istiqamətdən hücum etdik. Qəhrəmanlar hamılıqla meydanda qışqırıb fəryad qopararaq "imdada yet, ya Əli" deyirdilər.

Məşriqdən məğribə qədər dünya imamla (rəhbərlə) dolu olsa da
Əli və övladları bizim üçün kifayətdir

Dünya günəşi mavi səmada görünəndən sonra düşmən ordusundan 150 min namərdi qətlə yetirdik. 150 min namərd isə suda qərq oldu. Bir nəfər də sağ qalmadı. Bəxtiqara Əlaüddövlə 35 min namərdlə nəhayət ki, qaçmağa üz qoydu.

Silahı sınıb, kəməri qırılıb
Yox əlindən tutan, harayına çatan

Dörd fərsəx[2] getdikdən sonra aldığı yaradan öldü. Qalanları Murad bəyə qoşulub qaçdılar. Bütün döyüşçülər qələbəyə görə sevinc içində belə oxuyurdular:

Şahımız, sənin qüdrətin vasitəsilə tapdıq
Səadət, xoşbəxtlik və alicənablıq sərmayəsini
Sənin elmin, helmin, səxavətin və əliaçıqlığın var
Sənə tay olduğundan dəm vuran həmin şəxs hardadır?

Qarabağdan izzət və qələbə ilə qayıtdıqdan sonra səmanın himayəsində olan xaqan Məhəmməd Şeybaninin sarayından rəğbətlə qarşıladığımız bir məktub aldıq. Məzmunu budur ki, Herat səltənətini ələ keçirtdim, mərhum sultan və rəhmətlik xaqanın övladlarını qətlə yetirdim.

Ey dost, düşmən cənazəsini gördükdə
Sevinmə, çünki sənin də başına gələ bilər

[1] Təxminən 240 km [t.q.].
[2] Təxminən 24 km [t.q.].

Habelə, bu tərəfə gəlmək əzmində olduğunuzu bildirmişdiniz. Narahatlığa əsas yoxdur. Sultani Novruzdan[1] sonra Allahın yardımı ilə cin və insanın sultanı, rəhbərlərin xaqanı, möminlik nümunəsi, haqq olan imam həzrəti Əli ibn Musa Rzanın – salam olsun ona – hərəminə doğru gələcəyik. Müqəddəs qəbrin ətrafına qoymaq üçün 70 batman[2] cavahiratla bəzədilmiş bir zərih hazırlamışıq. Biz müqəddəs Məşhəddə qələbə və fəth bayraqları qaldırmaqla təntənə ilə düşərgə salacağıq və Allah necə istəyirsə elə də olacaqdır.

Heydərin ətəyindən yapış və düşünmə (rahat ol)
Nuhun yanında olanın tufandan nə qorxusu?!

Şeybani xanın Şah İsmayıla məktubu

Sultanın sonsuz və tükənməz lütfü ilə şərəflənmiş başçı İsmayıl bilsin ki, Allah-taala məmləkət işlərinin idarəçiliyini, ölkələri fəth etməyi, düşmənləri məğlub etməyi, faydalı işlərin səmərəliliyini artırmağı, mənfəəti artıran evlərin (qalaların) çoxaldılmasını həmişə bizim şəhid və bəxtəvər ulu babamızın, – Allah ona rəhmət etsin və məkanı cənnət olsun, – qüdrət qılıncı vasitəsilə həyata keçirmişdir. Dünyanı idarə edənin mehribançılıq və ucalıq sarayında ədalət və mərhəmət taxtı bizim siyasət (idarəçilik) xütbəmizlə dirçəlmişdir. Qəhrəmanlıq və fəth zərbxanasında şücaət sikkəsi bizim müvəffəqiyyət ləqəblərimizlə bəzənmişdir. Qeybdən xilafət nidası və imamət (rəhbərlik) sədası (müjdəsi) bizə verilmişdir. [Nəqli] dəlillərdən məlum olur ki, həzrəti peyğəmbər [belə] buyurmuşdur: "Övlad atanın güzgüsüdür". Deməli, atadan qalan miras övlada çatır, övlada layiqdir və onun haqqıdır. Digəri isə əqli məfhumlarla desək, zülmət gecədə ulduzlar sayrışan zaman Süheyl ulduzunun[3] çıxdığı yerdən təqribən

[1] Eyni zamanda "cəlali Novruz" şəklində də istifadə edilən "sultani Novruz" ifadəsi Səlcuq hökmdarı I Məlikşahın adı ilə bağlıdır [t.q.].
[2] Bir batman təqribən 8 kq-a bərabərdir [t.q.].
[3] Kanopus ulduzu [t.q.].

bir nizə irəliləyər (özünü günəş şüası hesab edər) və rəngini saraldaraq günəşin çıxması qorxusundan bir müddət titrəyər. Ancaq həqiqi səhər açılan kimi çıxdığı yerə qayıdar. O halda bizim şərqdə, onun (Şah İsmayılın) isə qərbdə çıxması Süheyl ulduzu ilə Günəşin doğmasına bənzəyir.

Deyəcəyim odur ki, əzəmətli Məkkəni, – Allah şərəf və izzətini artırsın, – ziyarət etmək İslamın əsaslarından biridir və bütün müsəlmanlara vacib olduğu üçün qalib ordum ziyarətə müşərrəf olsun deyə əzəmətli Kəbəyə gedən bütün yolları bərpa etməlisən. Sursat və peşkəş çatdırmalısan. Zərbxanalarda bizim adımıza sikkə vurdurmalısan. Hər cümə məscidlərdə bizim fatehliyimizin şərəfinə xütbə oxunmalıdır. Özün isə əmrə müntəzir olmalısan. Əgər bizim, –Allah onun nüfuzunu məşriq və məğribdə daha da artırsın, – əmrimizdən çıxıb imtina etsən Buxara, Səmərqənd, Nekudəri, Həzarə, Qövr və Ğarcistan sərhədində bir dəstə əmir və qoşunla [əmrə müntəzir qalan] əziz, bəxtəvər, hörmətli, səltənət və şahlıq sahibi, qüdrət və zəfər üçün mübarizə aparan, ağıllı və kamallı övladım, necə ki, şair söylər:

Cavan, bəxti cavan və daxilən nurlu
Dövlətdə cavan və tədbirdə qoca
Elmdə böyük və məramda uca
Qolu qüvvətli və qəlbi oyaq (ağıllı)

Əbulmübariz[1] İmadəddin Bahadur xanı – Allah-təala onu qorusun – məğlub etmək üçün üstünə göndərəcəyik. Əgər qələbə çala bilməsə onu əvəz edəcək digər gənci; Kunduz, Baqlan, Həsar, Şadman, Bədəxşan və Türküstanın digər ərazilərinin sərhədində bir dəstə əmir və qoşunla [əmrə müntəzir qalan] dövrün səltənətinin pənahı, əmin-aman ölkələrin qoruyucusu, küfr və zülmü aradan qaldıran, göndərdiyin hər bir yerdən fəth və qələbə ilə qayıdan, şeir:

Dövləti üzəngidə və fəth isə onun pişvazında
Hara üz tutsa mələklər dəstəsi onun ordusudur

[1] Hərfi mənası ilə "mübarizə atası" şəklində tərcümə edilən bu ifadə "döyüşkən" mənasında işlədilmişdir [t.q.].

Dənizlərin nəhəngi (mübariz) qılıncının parıltısından qaçar
Ordusunun əlindən meşələrdə aslan yoxdur

Əbulfəvaris Teymur Bahadur xanı, – Allah ömrünü uzun etsin, – qələbə çalmaq üçün həmin vilayətə göndərəcəyik. Əgər növbəti dəfə məğlubiyyət olarsa ki, bundan Allaha pənah aparıram, müzəffər ordunu sənə tərəfə göndərəcəyəm. İlk öncə əziz-girami, arzu gülümün qönçəsi, canıma təskinlik verən, ciyərimin və ürəyimin qüvvəti, qəhrəmanlığı ilə hər bir yerdə şan-şöhrət qazanan, döyüş meydanının aslanı olan oğlum, şeir:

Nizəsinin zərbindən fələyin beli əyri
Kəməndinə əsir olub iki yüz böyük padişah
Qılıncını siyirib çəkən kimi
İnadkarların başını qana qərq edər

Əbunəsr Kəmaləddin Suncək Bahadur xanı, – Allah ömrünü uzun etsin, – əmir və [səltənətə] yaxın olanlarla təyin edəcəyik. Zəmanənin şücaətlisi, tacın mirvarisi, meydanda [düşmənlərin] qatili, Ceyhun [çayının] timsahı [olan] övladım Həmzə Bahadur xan sağ cinahda, bu dünyada mülkün dayağı olan şücaətli övladım Səliməddin Mehdi Bahadur xan sol cinahda, Əndican, Şahruxiyyə, Qəndbadam, Daşkənd, Şəhri-səbz, Otrar, Seyran, Urgənc, Xarəzm, Ceyhun kənar və Kaşqardan tutmuş Qıpçaq, Qəlmaq və digər [ərazilərdən] olan dindar ordu, igid əsgərlər və əmirlər ilə birlikdə müqavimət göstərəcək və müxaliflərlə döyüşəcəklər. Dövlət əyanlarının həmin döyüşdə iştirak etməsi ətrafdakıların şücaətli və qorxusuz olmasına səbəb olar. Allahın köməyi ilə "Allah sənə yenilməz qələbə verəcəkdir[1]" xəzinəsindən yardım alacağıq. Hansı məkan və zamanda müqavimət göstərəcəyinizi elan edin. Vəssalam[2].

[1] əl-Fəth, 48/3.

[2] Bu məktublardakı ifadələr müxtəlif mənbələrdə fərqli şəkildə verilmişdir. Burada verilən mətn isə Əbdülhüseyn Nəvai tərəfindən bir neçə nüsxənin ümumiləşdirilməsi əsasında hazırlanmışdır [t.q.].

Şah İsmayılın Şeybani xana məktubu

Əvvəlcə bizə yazmışdın ki, müsəlmanların həcc mərasimində iştirak etmək niyyətindəyəm və tezliklə həmin səfəri həyata keçirmək üçün İraq və Azərbaycana doğru hərəkət edəcəyik. Biz də yazının cavabında bildirmişdik ki, bizim də fövqəlbəşər imam Əli ibn Musa Rzanın, – salam olsun ona – ətir saçan məqbərəsini təvaf etmək fikrimiz var. Ən qısa zamanda həmin istiqamətə yola düşəcəyik. Sən vədinə vəfa etmədiyin üçün biz şəriət öhdəçiliyinin ruh yüksəkliyi verən hədisinin tələbinə əməl edərək müqəddəs Məşhəd istiqamətində fatehlik bayrağını yüksəltdik.

Bu müqəddimə ilə demək istəyirik ki, qənaətimizcə, qarşı tərəf səfərimizin uğurlu olacağını anlayıb, ola bilsin münasib və layiq olanı edərək bizi qarşılamağa gələcək, qonaqpərvərlik nümayiş etdirib ziyafət verəcəkdir. Bu düşüncə həyata keçirilmədiyinə görə biz qarşılaşmaq üçün onların yurdu olan Mərvə qədər təşrif etdik. Bu məqamda belə qarşı tərəfdən insanlığa məxsus davranışlar müşahidə edilmədi. Naçar qalaraq qayıtmağa qərar verib Xorasanın bəzi vilayətlərində qışlayacağıq.

Yaz fəslinin əvvəllərində, lalələr torpaqdan baş qaldırıb, çiçəkləndikdə döyüş meydanına atılacağıq. Bununla da qeyb pərdəsinin arxasında olanlar aşkara çıxacaqdır. Vəssalam.

QEYD: *Şeybani xan Çingiz nəslinin davamçılarından olub. Ardıcıl əldə edilən qələbələr Şeybanini çox məğrur etmişdi. Məktublaşmalardan da göründüyü kimi o, özündən yaşca çox kiçik olan və təcrübəsiz hesab etdiyi Şah İsmayıla qarşı ədəb qaydalarını gözləməmiş və kəskin ifadələrdən istifadə etmişdir. Şah İsmayılın həmin ərəfədə 22 yaşı olsa da, öz məktublarında Şeybani xana qarşı ədəb qaydalarını gözləmiş, ancaq eyni zamanda, sərt və qətiyyətli cavablar vermişdir.*

Şah İsmayıl öz məktubunda Şeybaninin qarşılaşma istəyinə cavab yazaraq Novruzdan sonra imam Rzanın qəbrini ziyarət etmək məqsədi ilə Xorasana gələcəyini bildirir. O, vədinə əməl etsə də, Şeybani döyüşə girməkdən çəkinib Mərv qalasına sığınır. Qalanı uzun zaman mühasirədə saxlamağın əhəmiyyətsiz olduğunu görən İsmayıl taktiki gediş edərək Şeybaninin qaladan çıxmasına nail olur. Mahmudi kəndində baş verən döyüşdə Şeybani məğlubiyyətə uğrayır. Bəzi mənbələrə görə Şah İsmayılın əmri ilə qətlə yetirilmiş Şeybaninin başı kəsilərək sultan ikinci Bayazidə göndərilir. Bu fəthdən sonra xacə Mahmud Sağərçi qalanın açarlarını Şah İsmayıla göndərərək Mərv darvazalarını onun üzünə açır.

Şeybani xan öldüyü zaman 61 yaşı var idi və hakimiyyətə gəlməsindən 11 il ötürdü. Qeyd etmək lazımdır ki, bu məktubdan əvvəl Şeybani xan başqa bir məktub da yazmış və Şah İsmayıl tərəfindən qətiyyətli cavab almışdır. Ancaq təəssüf ki, həmin məktub və ona yazılan cavabın əsl mətni hələ də tapılmamışdır.

ŞAH İSMAYILIN QANSU QİRUYA MƏKTUBU

QEYD: *Qansu Qiru, Misirin Burci məmlüklər sülaləsinin sonuncu nümayəndəsidir. Məmlük sözü daha çox "ağdərili qullar" mənasında işlədilirdi. İslam tarixində bu istilah iki sülaləyə aid edilir. Daha doğrusu, Misir və Şamı idarə edən məmlüklər sülaləsi "Bəhri" və "Burci" deyə iki yerə ayrılır.*

Məmlüklər Səlahəddin Əyyubinin varisləri zəiflədikdən sonra hakimiyyətə gəlmişdir. Belə ki, Bəhri məmlükləri Hicri-qəməri tarixi ilə 648-ci ildə Misir və Şamın hökmranlığını ələ aldı. Onlar monqol hücumlarına tab gətirə bildilər. Bəhri məmlüklərinin hökmranlığına isə Hicri-qəməri tarixi ilə 784-cü ildə son qoyuldu. Hakimiyyətə, o zamanın dili ilə desək, Misir çərkəzləri gəldilər. İlk olaraq taxta Seyfəddin Bərquq çıxdı. Ondan sonra taxta çıxan Nəsirəddin Fərəc, Teymura düşmən kəsilərək Qara Yusif və Sultan Əhməd Cəlayiriyə sığınacaq verdi. Teymur ondan intiqam almaq üçün Suriyaya hücum etdi. Bu məmlüklər Hicri-qəməri tarixi ilə 922-ci ilə qədər hakimiyyətdə oldular. Həmin ildə Sultan Səlim Misiri ələ keçirtdi və Bağdadın Abbasilər sülaləsinin varisləri hesab edilən Misirin Abbasi xəlifələrini məğlub edərək özünü müsəlmanların xəlifəsi elan etdi. Qiru kimi tanınan Əbunəsr Seyfəddin Qansu hicri-qəməri tarix ilə 905-ci ildə Misir və Şamın hökmdarı oldu. Uzaqgörən Qansu osmanlılardan ehtiyat etdiyi üçün Azərbaycanda cavan bir şahın meydana çıxdığını eşidən kimi ona dostluq əlini uzatdı. Bununla da osmanlılardan qorunmaq üçün Şah İsmayıl ilə müttəfiqliyi başladı. Sultan Səlim şah İsmayılı Çaldıran döyüşündə məğlub etdikdən 2 il sonra Qansu Qirunu da məğlub etdi və Məmlük hökmdarı bu döyüşdə həlak oldu.

Həqiqi məhəbbəti özündə ehtiva edən şəhərə daxil olması ilə [oranı] abad edən salam karvanları və dualar qafiləsi, "onun (zeytun ağacının) yağı [o qədər saf və təmizdir ki,] ona od toxunmasa da, sanki işıq saçır. O, nur üzərində nurdur"[2] [ayəsinin] çırağından alovlanan məzmununda həqiqi fikirlərin ehtiva edildiyi dostluq istiqamətli məktublar, "siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz"[3] [ayəsinin şamil edildiyi] milləti qoruyanlar zümrəsində özünü təhlükəyə atan, niyyətinin saflığı və batininin təmizliyi ilə [qarşı tərəfi] qanunlar və əhd bağlamaqdan ehtiyacsız edən, şərafətli varlığı ilə həqiqi sevgi əsaslarının artmasının səbəbkarı olmuş, səxavətli vücudunda səltənət və xoşbəxtlik parlaqlığını ehtiva edən əhdnamə və xilafəti təmsil edən aliməqamın, yəni əzəmətli sultan, ümmətlər arasında hökm edən, padşahların dayağı, ədalət və insaf bayrağını ucaldan, zülm və zəlalətin əsaslarını kökündən qoparan, sahib və dost Allah tərəfindən yardım olunan, səltənət, hakimiyyət, ədalət və səadətin iftixarı Qansu Qirunun, – Allah qiyamətə qədər vücudunun bərəkəti ilə İslam bayraqlarını yüksəltsin, – hüzuruna göndərilir.

Salam və dostluğumuzu bildirdikdən sonra, dərya zehnin ortaya çıxardığı budur ki (belə düşünürəm ki), doğruluğuna şübhə edilməyən məsələlərdən biri də dostların sevincli və şad günlərində [onun dostunun da] sevinc və şadlıq içində olması, hidayət [olunan] sağlam fitrətin tələbidir. Bu günlərdə Allahın sonsuz lütflərinin ünvanı olan qələbə ilə bu sevimli [bəndəsi] çoxsaylı zəfər və qələbə əldə etmiş, "Biz onlara böyük mülk (hökmranlıq) bəxş etmişdik"[4] [ayə-

[1] Əslində bu məktub özbək xanı Şeybanini qətlə yetirdikdən sonra Şah İsmayılın Qansu Qiruya yazdığı fəthnamədir [t.q.].

[2] ən-Nur, 24/35.

[3] Ali-İmran, 2/110.

[4] ən-Nisa, 4/54.

sində buyurulan] yüksək [məsuliyyəti] həyata keçirtmək və qorumağı dərk etməyə izn vermiş, misilsiz əzəli lütf və qeybə məxsus fəth qapılarını din yolunda vuruşanların (mücahidlərin) üzünə açmış, "qalib mücahidlər" adlanan qələbə qılıncının aynasındakı (parıltısında) ehtiyac və məqsədlər çöhrəsinə əbədi mehribanlıq bağlılığını həmdəm etmişdir. "Bu Allahın dilədiyi kimsəyə əta etdiyi lütfdür (mərhəmətdir). Allah çox böyük lütf (mərhəmət) sahibidir!"[1] Məhəbbətin doğruluğu belə tələb etdi ki, "əgər (Mənə) şükür etsəniz, sizə (olan nemətimi) artıracağam"[2] [ayəsinin] buyruğuna uyğun olaraq Allahın şükrünü yerinə yetirmək üçün dostları bu böyük və əzəmətli ənam və bəxşişdən xəbərdar etməklə sevindirmiş olaq. Nəzərdə tutduğumuz budur ki, Çingiz xanın küfr ağacının bir budağı (Çingiz xanın kafir nəslindən) olan Şeybək Şeybani, Mavərənnəhr məmləkətləri və bütün Xorasanda ağalıq əldə etmiş, təkəbbür, qürur və lovğalıq küləyi onun lovğalanmasına səbəb olmuş və doğru yoldan azaraq müqəddəs torpaqlara hücum edib, hər yeri qarət və talan etmişdi. Digər ölkələrə və [onların] sakinlərinə qarşı zülm və təcavüz qapılarını açmışdı.

Şeir:
Kimin yaxşı günləri qara gələrsə
Beyni ağlın nurundan uzaq olar
Hər bir yeri xarabazara çevirər
Pöhrəsinin məhsulu əzab-əziyyət olar
Özünün bəxt-taleyindən təngə gələr
Ali səma ilə döyüşmək niyyətində olar
Onun təbiət və xarakteri xarab olduğu üçün
Ruzigarın təbiəti də onu dəf edər
Hər iki mənzili o şəxs yaxşı edər ki,
Allahın yaratdığına yaxşılıq edər

[1] əl-Hədid, 57/21.
[2] İbrahim, 14/7.

İlahi şəriətin qorunması, xilafət və sultanlıq qanunlarının mühafizə edilməsi tələb edirdi ki, müzəffər və güclü əsgərlər o dinə zərər vuran bədbəxti məğlub etmək üçün Xorasan məmləkətlərinə tərəf hərəkət etsinlər. "Siz (bir müddətdən sonra) çox güclü bir qövmlə vuruşmağa çağırılacaqsınız"[1] [ayəsində buyurulan] fürsət gəlib çatmışdı. [Hicri-qəməri tarixi ilə] 916-cı il mübarək Şaban ayının altısı[2] cümə günü Mərv yurdunda [ayədə qeyd edildiyi kimi] "iki ordunun qarşılaşdığı gün"[3] reallaşaraq güclü döyüş və mübarizə başladı. Döyüş və öldürmək atəşinin şölələnməsindən qorxuya düşən qaniçən pəhləvan geri çəkilməyə üstünlük verdi.

Şeir:
Hər tərəfdən kamanlardan ox atılır
Sən dedin ki, əcəl peyki qaçmağa üz qoydu
Hər tərəfdən qan su yerinə axır
Döyüşçülərin başını dən kimi biçirlər

Bəhram adlanan mücahidlər və intiqamçı şücaətli qazilər belə oxuyurdular:
Qılınc və xəncər bizim ətirli güllərimizdir
Nifrin olsun "Nərgizgülü" və "as"[4] gülünə
Şərabımız düşmənlərimizin qanıdır
Piyaləmiz kəsilən başlardır.
Ölülərdən təpə düzəltdilər:
Bütün səmanın üzünü qan örtdü
Yer üzü alyanaq oldu.

Bu zaman qeybi yardımlar mərkəzindən açıq-aşkar fəth mehi əsməyə başladı. İzdiham və çoxluqdan uzaq olan bədbəxt Şeybani, habelə digər əmir və yardımçıları ox və nizələrin hədəfinə tuş gəldilər. İran və Turanın bütün məmləkətləri

[1] əl-Fəth, 48/16.
[2] Hadisənin ayın altısında baş verdiyinin göstərilməsi "Əhsənüt-təvarix" kimi bəzi mötəbər qaynaqlarda verilən məlumatlarla ziddiyyət təşkil edir. Ehtimalımıza görə məktubda 26 əvəzinə səhvən 6 yazılmışdır [t.q.].
[3] Ali-İmran, 3/155; Ali-İmran 3/166.
[4] Bu söz sanskrit dilindən alınmışdır [t.q.].

qüdrət və hökmranlığımız altına keçdi. Bütün o torpaqlar xəbis qrupun murdar varlığından təmizləndi və" artıq o zalım tayfanın kökü kəsildi. Aləmlərin Rəbbi Allaha həmd olsun!"[1]. Bu böyük fəth Allahın yardımı, sadiq tərəfdaşlar və vəfalı dostların uğurlu fəaliyyəti ilə həyata keçmiş oldu. Üzərində çalışılan digər məsələlərdə dostluq əlaqələrinə ümid etməyi təbiətimizin tələbi olaraq gördüyümüz üçün məktubu məhəbbət mürəkkəbinin damcıları ilə doydurub bu sevinc dolu xəbəri çatdırmaq xalqlar arasında böyük xəlifələrin fəxr etdiyi Həmzə xəlifəyə həvalə edildi.

Uca Allahın ipindən[2] yapışan İsmayıl ibn Heydər ibn Cüneyd Səfəvi. Məhəmmədə və pak ailəsinə salam olsun.

[1] əl-Ənam, 6/45.

[2] Ali-İmran surəsinin 103-cü ayəsində "həblullah" şəklində qeyd edilən, habelə hədislərdə rast gəlinən bu ifadə ilə dinin əsasları və Qurani-Kərim, beləliklə də müsəlmanların Allah qarşısında bağladıqları əhd-peyman nəzərdə tutulur [t.q.].

SULTAN SƏLİMİN ÜBEYD XAN ÖZBƏK İLƏ YAZIŞMALARI

Sultan Səlimin Übeyd xan Özbəkə məktubu

Alicənab, ağalıq və zənginlik mənbəyi, dövlətçiliyin zirvəsi, ucalıq mənbəyi, xoşbəxtlik əldə edən, ağalıq əsil-nəcabətlisi, mahiyyət və xüsusiyyətləri yüksək dərəcəyə ucalmış, əzəməti fələklərə bənzəyən, millətlərin əraziləri üzərinə hökmranlıq edən, ən uzaq dövlətlərə gedib çataraq möhtəşəm qələbə bayraqlarını yaşıl qübbələrin zirvəsinə sancan, parlaq əzəmətli bayraqları şan-şöhrət və ucalıq zirvəsinə taxan, əmin-amanlığı genişləndirən, ədaləti və xeyirxahlığı yayan, tərifə, vəsfə və bəyana ehtiyacı olmayan, yardım edən və dünyaların sahibi olan Allahın müxtəlif lütflərinə və mehribanlığına şamil olmuş, dövlətçilik, din və dünyanın əzəməti, qardaşlıq mərtəbəsinin alicənabı Übeyd xan! Şeir:

Onu dost tutan daim əzəmətli cah-cəlal içərisində olar,
Onunla düşmənçilik edən çox pis qəm-qüssəyə düçar olar.

Əzəli tanışlığa və əbədi birliyə əsaslanan salamlar, maddi aləmdən uzaq və mənəviyyat mənbəyindən qaynaqlanan saysız dualar üzərinizə olsun.

(Dua və salamdan) sonra cənab-alinin diqqətinə çatdırılır ki, (Allah) "Öz mərhəmətini istədiyi kimsəyə bəxş edər"[1] [ayəsində buyurulduğu kimi] nemətləri daimi olan əbədi padişah "Rəbbin səni (başqalarından) seçib üstün tutar"[2] [ayəsində əmr olunduğu kimi] xoşbəxtlik saçan parlaq tacı bizə verməklə "Siz insanlara yaxşı işlər görməyi əmr edən və onları pis işdən çəkindirən, ortaya çıxarılmış ən yaxşı ümmət-

[1] əl-Bəqərə, 2/105; Ali-İmran, 3/74.

[2] Yusuf, 12/6.

siniz"[1] [ayəsinin məzmunu olan] taxt-taca əyləşmişlər arasında bizim şan-şöhrətimizi daha da ucaltmışdır. "(Sizə olan) öz nemətini tamamlamaq"[2] üçün yüksək dəyərli taxt-tacı "sizi yer üzünün varisləri təyin etdik"[3] [ayəsinin] şərafət ilə tac qoyma mərasimi günü "bəzilərinizin dərəcələrini digərlərindən üstün tutduq"[4] [ayəsinə uyğun olaraq] "Allah istədiyini edər"[5] və "Allah istədiyini hökm edər"[6] [ayəsində buyurulduğu kimi] öz iradəsi və istəyi ilə bizim başımıza qoydu. Yeniliklər yaradan rəssam (Allah) "həqiqətən, nemət Allahın əlindədir və onu istədiyi şəxsə bəxş edər"[7] [ayəsində buyurduğu kimi] "Allahın insanlara əta etdiyi mərhəmətə heç kəs mane ola bilməz" [ayəsində buyurulan] qeyrət nümayiş etdirən qələmi ilə mübarək "Allah ona həm hökmranlıq, həm də hikmət verdi və ona istədiyini öyrətdi"[8] lətafətli məzmununu gündən-günə inkişaf edən mübarək dövlətimizin kitabəsinə həkk etdi. "Bir işin yaranmasını istədiyi zaman, ona yalnız: Ol! – deyər, o da olar"[9] [ayəsinin məzmununa uyğun olaraq] qəza və qədər xidmətçiləri (məmurları) bizim əzəmət xeymələrimizi "Allah, insanların ehtiyaclarını [qarşılamaq üçün] bəndələr yaratmışdır" [ayəsində qeyd edilən həmin bəndələrdən biri kimi] səadət kölgəsi üzərində "Allahın onu seçdiyinə inanaraq hər bir məzlumun sığınacağı olan Allahın yer üzərindəki kölgəsi olan sultan" [ayəsində qeyd edilən həmin sultan nümunəsində] səmanın ən yüksəkliklərinə ucaltdı. Hər halda bu mübarək hədiyyənin və böyük ənamın şükrünü yerinə gətirmək məqsədi ilə bizim üzərimizə vacibdir ki, şərqdə ədalət və insafın böyük nuru qəbul edilsin və

[1] Ali-İmran, 3/110.
[2] əl-Maidə, 5/6.
[3] Yunus, 10/14.
[4] əz-Zuxruf, 43/32.
[5] Ali-İmran, 3/40; İbrahim, 14/27; əl-Həcc, 22/18.
[6] əl-Maidə, 5/1.
[7] Ali-İmran, 3/73; əl-Hədid, 57/29.
[8] əl-Bəqərə, 2/251.
[9] əl-Bəqərə, 2/117

"Allah ədalətli olmağa və yaxşılıq etməyə əmr edir"[1] [ayəsində buyurulan] əmri "səmanın ortasında yer alıb üfüqlərdə görünərək şüa saçan günəş kimi" bu əzəmətli dərgahımızın üfüqündən dünyanın hər tərəfinə, kainatın hər yerinə və hər yanına daimi saçmasına səbəb olaq. Onun nurlarının işığından və şəfəq saçmasından, şüalarının parıltısından və qısa zamanda sürətlə yayılmasından düşdüyü hər yer öz fitrətinə əsasən ondan bəhrələnsin.

Yaxşı əməl sahibləri "(Allah) iman gətirənlərin və yaxşı işlər görənlərin mükafatlarını büsbütün verəcək"[2] [ayəsinin] məzmununa uyğun olaraq gözəl əxlaqlar və yaxşı rəftarlar öyrənsin, pis əməl sahibləri isə "kafirlərə gəldikdə, onlara dünyada və axirətdə şiddətli əzab verəcəyəm"[3] [ayəsinin] əsasında "etdikləri əməllərin müqabilində"[4] şiddətli əzablar və böyük cəzalar görsünlər. Günəşin daşı mədəndə, damlanı dənizdə qiymətli və dəyərli ləl-cavahirata çevirdiyi, bərəkətsiz şoran torpağın və sərabın (su və ya çeşməyə yaxın ərazidə yerləşən bağ) kəsəklərini atəş saçan və dünyanı qovuran şüaları ilə param-parça etdiyi kimi. Elə isə hər hansı bir yerdə "şeytan da onlara etdikləri əməlləri bəzəkli göstərər" [ayəsində buyurulduğu kimi] bir fitnəkarın başı şeytanın qoltuq cibindən çıxarsa, bizim şahlığımızın qüdrətli əli bir-birinə dolanan o hiyləgər ilanın murdar leşinin baş və quyruğundan uğursuz Zühəl[5] və Mərrixin[6] [himayəsi altında heyvan və balıqları ovlamaq üçün] yemək [kimi istifadə] edəcəyik. Hər hansı bir yerdə İblis kimi şeytanlardan olan bir rəzil, əgər şeytanlıq və iblislik edərək səmaya tərəf qalxmaq niyyətində olarsa (Allaha qarşı gedərsə) və böyük səmanı endirməyə meyl edərsə (onun əmrinin yerə düşməsinə çalışarsa), "onlar

[1] ən-Nəhl, 16/90.
[2] ən-Nisa, 4/173.
[3] Ali-İmran, 3/56.
[4] əs-Səcdə, 32/17; əl-Əhqaf, 46/14; əl-Vaqiə, 56/24.
[5] Zühəl: Saturn planetinin ərəbdilli qaynaqlardakı adı [t.q.].
[6] Mərrix: Mars planetinin ərəbdilli qaynaqlardakı adı [t.q.].

üçün böyük əzab vardır[1]" [ayəsində buyurulduğu kimi] bizim əsgərlərimizə (pak mələklərimizə) onları sürətli [nizə və ox] ucluqları ilə vurmaq vacibdir. Pənah aparıram Allaha, əgər dinsizlərin və cahillərin təcavüzü nəticəsində açıq-aşkar dinin möhkəm bağında zəlalət düşüncəsi peyda olarsa və ya bidət və zəlalət əhlinin pis təbiəti nəticəsində din çərçivəsində dəyişiklik meydana gələrsə, bizim doğruluğa fərman verən əqidəmiz o düyünü və nöqtəni nizə və mizraq barmaqlarımızla, iti xəncər və kəsici ox dırnaqlarımızla çözmək və yerindən qoparmaq üçün çalışmağı bizə vacib edər.

Buna əsasən bir müddətdir ki, Şərq məmləkətinin əhalisi napak, xəbis, yalançı, günahkar, qantökən cani olan sufi körpənin əlindən cana gəliblər.

"İnsanların içərisində Allahdan qeyrilərini (Allaha) şərik qoşub, onları Allahı sevən kimi sevənlər"[2] (ayəsinin örnəyi olan) yolunu azmış və məhv olmağa məhkum zəlalətə düşmüş firqə "Allahla əhd bağladıqdan sonra onu pozan, Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayan yer üzündə fitnə-fəsad törədirlər (dünyada və axirətdə) ziyana uğrayanlardır!"[3] (ayəsində qeyd edilən) xüsusiyyətə malikdirlər. (Onlar) düşmənçilik odu alovlandıraraq evləri dumana bürüyüb, torpağına ayaq basdığı hər bölgənin kürəsini çövkən oyununun fitnə-fəsad çomağına çevirib (ayaq basdığı hər bölgəni fitnə-fəsad mərkəzinə çevirib). Hətta ən aşağı səviyyəli fərmana itaət edənlərin cərgəsindən, ən yüksək səviyyəli fərman verənlərin cərgəsinə yüksəlib o boyun əyməzin (Şeytanın) qorxutma yolunu o məmləkətin torpaqlarında öz şüarına və bayrağına çevirmişdir. Mübarək və toxunulmaz qanları, haram və toxunulmaz namusları mübah (halal) hesab etmişdir. Müsəlmanların əhli-əyalları, malları və sərvətləri, istehlakçıların əkinləri, tarlaları, nəsilləri və heyvanları, çox və ya az zəngin olanların dəfinələri və xəzinələri

[1] əs-Saffat, 37/9.
[2] əl-Bəqərə, 2/165.
[3] əl-Bəqərə, 2/27.

tələf oldu. Bu zamanda məzlum miskinlərə zalım və sitəmkar tərəfindən edilən qətllər, əsir, işgəncə və zülmlər, zalım Ali-Firon tərəfindən bəni-İsrail övladlarına və qəddar Buxtunnəsir tərəfindən Beytül-Müqəddəs sakinlərinə edilməmişdi. O, [elə bir] divdir ki, o bəxtiyatmışların gözü dövlət sahibi olanların ağıl bəxti kimi yuxu üzünə həsrət qalmışdır. (Onlar) işlərin islahı və canların qorunması üçün "Allah yolunda kimdir bizə yardım edən?!"[1] deyərək şəfaət evinin qapısının ümid və arzu dəstəyinə [yardım istəmək üçün] əl uzatsalar da, lakin kömək etmə gücünə sahib olan zəfər bəyanlı [qüdrətli insanların] dillərindən o məzlumların duyan qulaqları "bizik Allah yolunda kömək edən"[2] heç bir şəfalı sözü duymadı. Uca qüdrət sahibi Allah-təalanın hökmü belə tələb edir ki, hər [ilahi nemətin] alınmasından sonra lütf və hər geri qalmadan sonra inkişaf olsun. Artıq "hər batilin yüksəlişi daha sonra isə çöküşü var" [ifadəsinin] şərafətli mənasının həyata keçməsinin və "Allah da onları günahlarına görə cəzalandırdı"[3].

[buyurulan ayənin] əzəmətli sirrinin ortaya çıxmasının vaxtıdır. Dünyanı alovlandıran o isti hadisələrdən yanaraq [əziyyət çəkənlər] bizim müzəffər bayraqlarımızın uca ağaclarının kölgəsi altında dincəlsinlər və əfi ilanların zəhərlərinə bənzər olan əzab və zülmlər, ədalət və insaf panzəhəri ilə əvəz olunsun. Beləliklə, işlərin öz vaxtında həyata keçməsinin qətiyyətlə bilinən (qəza və qədər mərkəzindən) nemətlərin enməsinə səbəb olan nəsim əsməyə başladı və Məhəmmədin, – ən fəzilətli salam və dualar onun olsun, – dinini qorumağın xoş qoxuları bizim padşahlığımızın təəssübkeşlik nurlarını alovlandırmağa və Əhmədin, – ən gözəl dualar onun olsun, – şəriətinin abrını qorumaq [yolunda] cihad savabını əldə etmək üçün bizim səltənətimizin mübarək düşüncəsini hərəkətə və cuşa gətirməyə başladı.

[1] Ali-İmran, 3/52.
[2] Ali-İmran, 3/52.
[3] Ali-İmran, 3/11; əl-Ənfal, 8/52.

Uca niyyətli şahlığımızı "mən zalımdan qisas almayacağım təqdirdə zalım hesab ediləərəm" qərarı verməsinə gətirib çıxartdı. [Dünyaların] uca sahibi olan Allahdan xeyir tələb edərək və dünyanı idrak etmək qabiliyyətinə sahib fəal ağılın ilhamlarına istinad edərək özlərini kamandan çıxan oxlar kimi, düşmən və üsyan əhlinin qanını tökərək qırmızı rəngə boyanmış qılınclar timsalında, yaşıl dağlar bənzəri çoxlu sayda ordu və əzəmətli dəstələrlə, həmin özbaşına olan fasid və inadkar kafirin kökünü kəsmək üçün hərəkət etmək qərarına gəldik. Saysız-hesabsız olan əsgərlərimizin hər biri qılınc çalmaq və xəncər oynatmaqda dünyaca məşhur Xurşid (günəş) və Bəhrama,[1] nizə oynatmaqda və ox atmaqda da Şihab ulduzuna və Semaki-Ramih[2] ulduzuna bənzəyirlər. O şeytan firqələrinin ordusunun, yolunu azmış məlunların rəhbərinin, təkəbbür, kin-küdurət edənlər qafiləsinin başçısının, din və dünya quldurlarının rəhbərinin üzərinə yaxın zamanda çökməyin mübarək hədəfi geniş qəlbimizdə mərkəzləşmişdir. "Hər kəsin niyyəti Allah olarsa, Allah da ona kifayət edər" [hədisinin] uca məzmununda buyurulduğu kimi, ilahi yardım və sonsuz olanın (Allahın) köməyi (üzərimizdə olmuş) və Allahın lütfü bizimlə olmuş, Allahın seçilmiş mələkləri köməkçimiz və yardımçımız olmuşdur.

"Allah sizi bir çox vətənlərdə qalib etmişdir"[3] [ayəsində buyurulduğu kimi bir çox yerlərin] fəzasında səba yeli bizim müzəffər bayraqlarımızı sancmış və yırğalandırmışdır. Bizim kamilləşmiş qanunlarımızın o bölgəyə və torpaqlara gəlməsinin xoşbəxtliyindən zülm və düşmənçilik tikanlarının yerinə fəth və nəsim yeli və əmin-amanlığın çiçəkləri açmış olar. Rəiyyət hər zaman təhlükəsizlikdə, xalq ehtiyacsızlıq, bolluq və xoş güzəran içində olarlar. O dərəcədə ki, göyərçin qırğının gözü önündə yuva qurar, qartal kiçik quşların yuvalarının keşiyini çəkər, şir meşədə çaqqallara hücum etməz, yırtıcılar ceyranı ovlamaq tamahından vaz keçərlər, ütəlgi qızılquş qayçı kimi dişləri ilə dağ kəkliyinin bir tükünə də zərər yetirməz, şahin quşu öz iti caynağı ilə qumru kimi rəngarəng qırqovulu incidib yaralamaz. "Bu Allah üçün heç də çətin deyildir!"[1].

[1] Qan kimi qırmızı görünən Mars. Qədim zamanlarda müharibə tanrısı mənasında işlədilmişdir [t.q.].

[2] Asimanın dördüncü ən parlaq ulduzuna verilən ad. Əfsanələrdə bu ulduz Şimal yarımkürəsinin keşikçisi kimi göstərilir [t.q.].

[3] ət-Tövbə, 9/25.

Allahın birliyinə inanan hər bir möminə Allaha görə qəzəblənmək [əqidəsinə sadiq qalaraq] o zəlalətə düşmüş tayfaya düşmənçilik bəsləmək əhəmiyyətli bir iş və möhkəm bir hədəf olmalıdır. Alicənabınız da, öz alicənab atasının, – Allah rəhmət etsin, – sayəsində hamından öncə həqiqətlərə vaqif olub və fitrət (yaradılış) dənizində ruhun pak cövhərinin qiymətsiz bir mücəvhər olduğunu "yaradanların ən gözəli" olan yaradıcı sifətinə [malik] dərinliklərə dalmışdan (Allahdan) başqa kimsənin ona nail olmağa müyəssər olmadığını təsəvvür edə bilmişdir. Adam olmaq, kərim və səxavətli [Allahın] yardım iradəsi olmadan yoxluq pərdəsi arxasından varlıq dünyasına qədəm qoyması mümkün olmayan şərafətli bir varlıqdır. Xüsusilə bu padişahlıq şərəfinin digər adi insanlarla müqayisədə çoxlu fəzilətləri və saysız məziyyətləri vardır.

Xudavəndi-aləmin rəhmət kölgəsi və Allahın yaratdıqlarının gözəl nümunəsi olan yaxşı əməllərə sahib şahlar da vardır. İlahi bəxşeyiş paylaşıldıqda xilafətin Huma quşunun kölgəsi ilk olaraq peyğəmbərlərə, sonra isə uca sultanların üzərinə düşmüşdür. Elmə dəyər verən və ədaləti inkişaf etdirən belə bir ağıllı padişahın qanının hədər getməsi "(qəsdən) öldürülən şəxsdən sizin üçün qisas almaq hökmü qərara alındı (vacib oldu)" [ayəsində də buyurulduğu] kimi heç bir məzhəbdə rəva görülməmişdir.

Ən üstün və dostluğa yaxın yol budur ki, ağlınızın ehtimal aynasında, idrak əhatənizin güzgüsündə və təxəyyül

[1] İbrahim, 14/20; əl-Fatir, 35/18.

qüvvənizin hövzəsində meydana gələn fəaliyyət [növünə] əməl etməkdə və bir-birinizdən irəli düşməkdə tələsəsiniz. Ümid olunur ki, hədəfdən yayınmaz tədbir oxunuz qəza və qədərin qoymuş olduğu nişangahı ən gözəl şəkildə hədəfə alacaqdır. Allahın ən gözəl lütf və yardımları ilə həmrəy və müttəfiq olmaq, dostluq və yardımlaşmanın ortaya çıxması ilə qeyb pərdəsi arxasından [ilahi] bir lütf gəlməklə fəsad mənbəyi məhv edilər, o murdar zalım və sitəmkarın vücudu ortadan qaldırılar və onun zamanında əsən küləklərin tozanaq etdiyi bədbəxtliklər dindar mücahidlərimizin iti qılınclarından daman sularla yatırılmış olarlar. Daha sonra, dostluq yolları açılmış, "məzara qədər yazışmaya davam edin" hökmünə əsasən vüsal (qovuşma) zəminləri yaranmış olar. Dostluq məktublarının göndərilməsi, məhəbbət töhfələri elanı ilə ehtiram sahibləri olan elçilərin gəlib-getməsi, misallar aləmində olan ruhların tanışlığından meydana gələn mənəvi sevgiləri bildirmək üçün tərəflər arasında hədiyyələr göndərilmiş olar. [Allah] dostlarının və aşiqlərinin etimad etdiyi dostluq və ittihad bağı ikiqat artmış olar. Birlik və qardaşlıq əsasları günbəgün möhkəmlənmiş olar. [İlahi] qüdrətin bəyəndiyi, [ilahi] sınaqdan keçən və şəriətin vacib buyurduğu aramızdakı bünövrələr saatbasaat güclənmiş olar.

Hazırda dostluq və səmimiyyət məktubunu çatdırmaq və sevinc xəbərlərini bildirmək üçün xüsusi qullarımızdan olan Məhəmməd bəy, – sağlamlığı davamlı olsun, – xeyirxahlıq mənbəyinə doğru göndərilmişdir. Allahın izni ilə fərəhverici görüşünüzə gəlib çatmaq şərəfinə nail olduqdan sonra mənəviyyat aləminin mələklərinə bənzər zati-alinizin xoş xəbərləri ilə tezliklə və xeyirli şəkildə geri qayıtmış olar.

"Nun" və "sad"ın xatirinə hər zaman ilahi lütfün yardımları, pak olan köməkləri və ehtiyacsız olan [Allahın] lütfləri üzərinizə olsun.

920-ci ilin mübarək Məhərrəm ayının sonlarında yazıldı.

Übeyd xanın Sultan Səlim xana cavab məktubu

Fəzilətli xilafətin ali-cənabı, səltənət mənbəyi, zənginlik zirvəsi, dərgahı fələklərə [bənzər], orduları ulduzlar [qədər saysız-hesabsız], dünya sultanlarının sultanı, zəmanə xaqanlarının xaqanı, düşmən torpaqlarını fəth edən padişah, dəyərli düşüncələr səltənətinin şahənşahı, Rum və Yunan şahı, dənizlərə və çöllərə hökmranlıq edən uca məqamlı hakimlərin xudavəndigarı (rəhbəri), müsəlmanlar və qazilərin müzəffər rəhbəri, kafirləri və müşrikləri qətl edən, günahkarların və dinsizlərin kökünü kəsən, tək Allah tərəfindən yardım olunan, zəfərlər və fəthlər atası Sultan Səlim şah!

Uca günəşləriniz gün tutulması, parlaq aylarınız ay tutulmasından uzaq olsun! "İlahi yardımlarının"[1] nəsim yeli ilə qələbə bayraqları hər yerə sancılmaqda davam etsin! "Kömək yalnız Allahdandır"[2] [ayəsində buyurulan] Allahın köməkləri ilə iradən möhkəmlənsin! Xüsusi qonaqlıq məclislərində hazır olanların burunlarında qoxulanan və xüsusi mərtəbəyə yüksəlmişlərin gözü önündə canlanan cənnət bağlarının və behişt bağçalarının mərkəzindən qopub gələn müşk-ənbər qoxusu, şövqverici ən səmimi pak dualar, gül ətirli və səfaverici saysız salamlar üzərinizə olsun və sizinlə olsun! Dostluq qafilələri ilə dolu ənbər qoxulu məktub, nərgiz güllərinə bənzər sevgi atəşləri bəyan olunan birlik karvanları ilə sizə ithaf və hədiyyə olsun! Həmçinin "Allahın buna şahid olması kifayət edər"[3] [ayəsinə istinad edərək] Allahın izzətinə and olsun ki, hər zaman dünyanın pənahgahı olan sultanın tərəfdarı və əhvalını soruşan olmuşam və olacağam.

Cani-könüldən zəmanənin bəyəndiyinin, aləmlərin və aləmlərdə yaşayanların sərvərinin mübarək və əzəmətli

---

[1] əs-Saff, 61/13.

[2] Ali-İmran, 3/126; əl-Ənfal, 8/10.

[3] ən-Nisa, 4/79; ən-Nisa, 4/166; Yunus, 10/29; ər-Rad, 13/43; əl-İsra, 17/96; əl-Ənkəbut, 29/52; əl-Fəth, 48/28.

camalının aşiqiyəm. Cənab səbəblər səbəbkarı (Allah), – şənini daha da əzəmətli və lütfünü daha da kamil etsin, – həqiqi görüşməmizə səbəb salsın, xeyir və bərəkətə nail olmağa müyəssər etsin. "Allah öz bəndələrinə qarşı çox mehribandır!"[1].

Bundan [salam və duadan] sonra, dünya fatehinin günəşə bənzər parlaq düşüncəsi, bənzərsiz bərəkətli və təravətli zehninə məlum olsun ki, "Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz"[2] [ayəsində buyurulduğu kimi] bizim padişahlığımızın mübarək günləri ilə müqayisədə Allahın sonsuz nemətləri, zamanənin qələm sahiblərinin yaza, insan və cinlərin qeydlərində ifadə və bəyan edə bilməsindən daha çoxdur. Heç şübhə yoxdur ki, şükr edənlər şükr etməklə, zikr edənlər zikr etməklə Onun [nemətlərinin] həmd və sənasını yerinə yetirə bilməzlər. Şeir:

Həmd olsun Ona, yenə həmd olsun Ona
Bizə çoxlu nemətlər verdiyi üçün
Şükr olsun Ona, yenə şükr olsun Ona
Bizə izzətli libaslar geyindirdiyi üçün

Baxmayaraq ki, həzrəti sonuncu peyğəmbər, – dua və sənalar onun olsun, – saysız [nemətlərə] şükr etməkdən aciz olma barəsində buyursa da, lakin "ibadət, taqət ölçüsünə görədir" düşüncəsindən hərəkət edərək şükr etməkdən qafil olmamaq lazımdır. "Əgər [Mənə] şükür etsəniz, sizə [olan nemətimi] artıracağam"[3] [ayəsinə istinadla bərəkət] xırmanından [şükr edərək ilahi nemətləri] toplamaqdan başqa yol ilə axirətə azuqə yığmaq olmaz. "Bu, Allahın dilədiyi kimsəyə əta etdiyi lütfdür (mərhəmətdir). Allah çox böyük lütf (mərhəmət) sahibidir!"[4].

Bu işi [şükr etməyi] icra etmək yollarından biri də ildırıma bənzər qəddar zalımlardan zülm görmüşlərin və

[1] əl-Bəqərə, 2/207; Ali-İmran, 3/30.
[2] ən-Nəhl, 16/18.
[3] İbrahim, 14/7.
[4] əl-Hədid, 57/21.

zamanə əhlinin vəziyyət və fəryadlarından qopmuş ildırıma bənzər qəzəbimizdən doğan soyuq külək və iti qılınclarımızdan süzülən damcılar vasitəsilə [hər yerdə] alov yandıran şərin ortadan qaldırılması və söndürülməsidir. Xüsusilə kafirlərin ən böyüyü dinsiz qızılbaş, – Allah onları məhv etsin və canlarını alsın, – bir neçə kimsəsiz dostla yeni ortaya çıxdıqdan sonra qələbə və hakimiyyətə nail olan kimi zülm və sitəm etməyə başladı. Günahsız yerə minlərlə müsəlmanı qətl edib, iffətli insanların namus pərdəsini yırtdı. Səltənət sevdasının xam xəyallarına qapılıb ağıl kasasında bişirdi (səltənət xəyalına düşdü). Zəmanənin sultanları ilə söz güləşdirib qol gücü sınamağa başladı. Bu tayfanın aradan qaldırılaraq məhv edilməsini hər kəsin icra etməkdə mükəlləf olduğu vacib əməl hesab edirəm. Bir-birinin arxasınca özbəklərin danışıq və mübahisələri dərgahımızı izləyənlər [tərəfindən] dinlənilmiş və bizim qafil olmağımıza görə keçmişdə olduğu kimi tale o dinsiz məlun və çirkin dinə [mənsub] kafirin üzünə güldü[1]. Lakin cənabınıza məlumdur ki, hər hansı bir yırtıcı, köpək və ya kaftar quduzlaşaraq insanlara zərərli olarsa, o məhəllə və ya şəhər təhlükədən qorunmaq üçün narahatlıq keçirər və toplanaraq birlikdə müdafiə olunmağa çalışarlar. Azlıqdan (zəiflikdən) çoxluğa (qüdrətə) yüksəlmiş, quduzluqları ilə aləmdə məşhur olan, hər zaman qan tökmək və qan içməklə məşğul olan, hər biri "[O kəslər ki] yer üzündə fitnə-fəsad törədirlər. Məhz beləları (dünyada və axirətdə) ziyana uğrayanlardır!"[2] [ayəsində işarə edilənlər], Allahdan həya etməyən, şahdan və gədadan qorxusu olmayan, üsyankarlıq və zülmkarlıq edərək "Həqiqətən, mən sizin ən uca Rəbbinizəm!"[3] [deyərək tanrılıq] iddiası edən və cəhənnəmə layiq olanlar və onların iblisanə sözlərini qəbul edən bu tayfa [haqqında] dünya əhlinin dili belə deyər, beyt:

[1] Özbəklərin Şah İsmayıla məğlub olmasına və Şeybaninin öldürülməsinə işarə edilir [t.q.].
[2] əl-Bəqərə, 2/27.
[3] əl-İnfitar, 82/24.

Allahdan qorxarıq, başqa heç kəsdən qorxmarıq,
Allahdan qorxmayan bir kəsdən isə qorxarıq.

Bununla yanaşı, o böyük köpəyin nümayəndəsi son dərəcə nadan olan Nəcm Sani adlanan kiçik köpəyi qadın köpəklə evləndirib. O, yolunu azmış və başları dar [ağacında olan] 80 min qızılbaş atlının rəhbəri kimi İrandan (hərəkət edərək) turanlıları pərişan etməyə başladı. Amudərya çayının sularını keçdikdən sonra bir çox şəhər və bölgə (sakinlərini) qətliam edib qiyamət gününün dəstə-dəstə yolçularına çevirdilər (o dünyaya yola saldılar). O çirkin əməlli bədbəxtlik ulduzunun (üzündəki) zəhmindən (qorxaraq) Kabil və Qəndaharın hakimi Babur yenidən ona itaət etməyə başlayıb İslamın qübbəsi olan Səmərqəndə gəlib çıxdılar. Mübarək Novruz günü günortadan bir az əvvəl (onlarla) döyüşmək fürsətimiz oldu və "bizim əsgərlərimizin mütləq qələbəsi labüddür"[1] nidası qeybi carçı (mələk) vasitəsilə zəfərə yaxın olan eşidən qulaqlarımıza oxunmuş oldu. Bir göz qırpımında onların canlarını həyatlarından almış olduq. Beyt:

O əxlaqsızdan bir heyf almaq üçün
Yüz minə yaxın [insan] öldürdük

Beləliklə qürub vaxtına yaxın zalım dövlətin günəşi batmış oldu və o namübarək Nəcm, bizim uğurlu bəxtimizə əsir düşdü. Onu canlı şəkildə ayağımızın altına atdılar. Bütün ordusu döyüş yerindən suyun (çayın) kənarına qədər bir aylıq yol olan [geniş ərazidə] tamamilə məğlub olaraq darmadağın edildi. Məsnəvi:

Hamısı öldürülərək biri-birinin üzərinə tökülmüşdü,
Bəzisi can verməkdə ikən, bəzisi də can vermişdi.

Uğursuz Nəcmi ulağa mindirməklə siyasət məmləkətlərinin sahibi edib (kinayə mənasında) etibardan saldıqdan sonra qanındakı atəşi iti qılıncla boynundan [tökərək] üzündəki zəhmin təsirini söndürdük. Hidayət ayəsi olan "artıq o zalım tayfanın kökü kəsildi. Həmd olsun aləmlərin Rəbbi

[1] əs-Saffat, 37/173.

olan Allaha!"[1] [ayəsini] ona işgəncə vermək üçün Səmaxeş sarayının yaxınlığında oxuduq. Gözəl qamətli həyat yoldaşı bir neçə sarvanla itigedən dəvəyə minib gizlin yollarla təşviş və iztirab içində Təbrizə çatmış, özünün şum taleli ərinin rüsvayçılığını ağ və qaraya (hər bir kəsə) bildirmiş və heç nəyi gizlətmədən danışmışdır. Əgər o alicənab padşah, müzəffər ordusu ilə o dinsizin şərini dəf etməyə qalxıbsa, bu qüsursuz dostunuz [sizin] xoşxəbər elçiniz Nizaməddin Məhəmməd bəyin, – Allah ömrünü uzun etsin, – gəlişini ürəyə yatan Səmərqənddən, – Allah onu qorusun – Daşkəndin son sərhədlərinə qədər xüsusi və ümumi qonaqların hamısına xəbər veribdir. Şahzadələrə (və ya mirzələrə), xanlara, sultanlara, igidlərə, ulus əmirlərinə, tümən əmirlərinə, qoşun başçılarına, mərzbanlara, bir sözlə, Çingiz xan sülaləsinin Cığatay və Özbək [qollarına] tabe olanlara və onların rəhbərlərinə bildiriş göndərərək bu müjdəli xəbəri çatdırdıq. [İndi isə] yolunu azaraq zəlalətə düçar olmuş tayfanı və nifrət edilən təcavüzkar qrupu, – Allah onlara lənət edib məhv etsin, – məhv etmək üçün yekdil qərara gəlmək və uğurlu fikri müzakirə etmək üçün qurultay və toplantı keçirtmək fikrindəyik. Pak və uca olan Allah bizi və onu hər bir mühüm [işdə], xüsusilə də bu işdə müvəffəq və qalib etsin. O, zalımların fəsadını dünya və dünyada yaşayanların üzərindən uzaq etsin. Həqiqətən O, bəndələrinə mehribandır. Şücaətlilərin günəşi və [bizə] yaxın [olanların] dayağı qeyd edilən elçinin xidmətinə çatdırıldı ki, [əl] öpmə mərasimindən sonra dərhal geri qayıtsın Səfahan (İsfahan) və Zenderud[2] ətrafında hər iki tayfanın (şiə və sünni) əhalisinə və dostlara padişahın qələbə xəbərini çatdırmış olsun. "O, Allah üçün çətin deyildir"[3].

Qalan gizlinləri (məsələləri) işarə ediləndən (elçidən) soruşarsınız. Dil qəlbdən xəbər verdiyi kimi, o da bizdən

[1] əl-Ənam, 6/45.
[2] İsfahanda çay adıdır [t.q.].
[3] əl-Fatir, 35/18.

xəbər verər. Əgər bizim tərəfimizdən cənab Məhəmməd bəyə, – Allah ömrünü uzun etsin, – nisbət qüsurlu xidmət olubsa üzrlü hesab edin. Çünki [ilahi dərgahın] xidmətçisinə ürək istəyən kimi xidmət etmək çətin məsələdir. Bu barədə üzrxahlıq etmək daha yaxşıdır.

Uzunçuluğa nə ehtiyac var ki? "Nun və sad" ilə [ilk danışan] xatirinə (Allah xatirinə) fələyin kölgə salan çətirinin ipləri lütf milləri ilə möhkəmlənsin və [ilahi] yardımı tənzimləyən bayraqlar fəth və zəfər küləyi ilə dalğalansın.

[Hicri-qəməri tarixi ilə] 920-ci ilin Cəmadiəs-sani ayının sonlarında yazıldı.

QEYD: *Übeyd xan Özbək, Əbulxeyr xanın nəvəsi və Mahmud sultanın oğludur. Şeybaninin vaxtında Buxara hakimi idi. Özbəklərin Xorasanda hakimlik etməsi onun amansız yürüşlərinin nəticəsi idi. O, sultan Hüseyn Bayqaranın oğlanlarını məğlub edərək Məşhədi ələ keçirtdi. Qızılbaş sərkərdəsi əmir Nəcm Sanini Ğocdəvan qalasının yanında məğlub edərək öldürdü. Şeybani, Şah İsmayıl ilə döyüşdüyü zaman onu köməyə çağırdı. Lakin Übeyd xan gəlib çıxdıqda artıq döyüş başa çatmış və Şeybani öldürülmüşdü. O, Şeybaninin həyat yoldaşı monqol xanımı özü ilə apararaq onunla evləndi və Buxaranın müstəqil hakimi oldu. Bir neçə dəfə Xorasana hücum etdikdən sonra nəhayət Xorasana növbəti səfəri zamanı hicri-qəməri tarixi ilə 946-cı ildə dünyadan köçdü. Übeyd xan bu məktubda qızılbaşları məğlub etməsini yazdıqda əmir Nəcm Sani ilə olan hadisəyə işarə edir. Şah İsmayıl, hicri-qəməri tarixi ilə 918-ci ildə əmir Nəcm Saniyə özbəkləri məğlub etmək üçün tam ixtiyar verdi. Əmir Nəcm Sani bir sıra uğurlar əldə etdikdən sonra Ğocdəvan qalasına sığınmış özbəkləri mühasirəyə aldı. Lakin mühasirənin uzun sürməsi özbəklərin rəhbəri Übeyd xan və Cani bəyin fürsət taparaq güclü ordu ilə qızılbaşların qarşısına çıxmasına səbəb oldu. Mühasirədə olan Əbu Səid sultan və Teymur sultan da özlərini yetirib əmir Nəcmə hücum etdilər. Bu döyüşdə ilk öncə Bayram bəy və sonra isə əmir Nəcm öldürüldükdən sonra*

güclü qızılbaş ordusunun bir hissəsi Ceyhun çayında qərq oldu, digər hissəsi isə qılıncdan keçirildi. Bundan sonra özbəklər mütəmadi olaraq Xorasana hücum edib qarətçiliklə məşğul olurdular. Nəhayət, Şah İsmayıl növbəti dəfə məcbur qalıb Xorasana gəldi. Onun gəlişini eşidən özbəklər qaçdılar. Şah İsmayıl burada özbəklərlə döyüşdə süstlük edən və ya onlara kömək edən çoxlu insanı cəzalandırdı.

ŞAH İSMAYIL İLƏ SULTAN SƏLİM ARASINDA YAZIŞMALAR

Sultan Səlimin Şah İsmayıla birinci məktubu

Bağışlayan və mehriban Allahın adı ilə!

"Allah qatında din, İslamdır..."[1].

"Kim İslamdan başqa bir din ardınca gedərsə heç vaxt ondan qəbul olmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar..."[2].

"İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə (bu işə) son qoyarsa, keçmişdə aldığı onundur. Onun işi Allaha aiddir. Amma qayıdanlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar"[3].

İlahi, bizi hidayət edən və hidayət olunmuşlardan qərar ver, yol azdıran və yolunu azanlardan etmə. Aləmlərin ağası, əmin [ləqəbli] peyğəmbər Məhəmməd Mustafaya, ailəsinə və bütün səhabələrinə Allahın salamı olsun.

Amma bu bəyanilən xitab bizim böyük hökmdarımız, kafir və müşriklərin qatili, din düşmənlərini məğlub edən, fironların (zülmkarların) burunlarını yerə sürtən, xaqanların dəbilqəsi (qoruyucusu), mücahid və qazilərin sultanı, Firudin kimi şərəfli, İskəndər kimi cahangir (fateh, yırtıcı, xeyirli), ədalətin Keyxosrovu, ali irqə (tayfa, qəbilə, millət) mənsub olan Sultan Məhəmmədin nəvəsi Sultan Bayazidin oğlu Sultan Səlimdən Əcəm hakimi, ən yüksək qoşun başçısı, böyük rəhbər, zəmanənin Zəhhaki – Zöhhakı, müharibəyə meylli Dara, dövrün Əfrasiyabı sən "Əmir İsmayıl"a göndərilir.

[1] Ali-İmran, 3/19.
[2] Ali-İmran, 3/85.
[3] əl-Bəqərə, 2/275.

Bil və agah ol ki, haqq olanı edən və mütləq səxavət [mənbəyi] olan [Allahın] etdiklərində məqsədyönlü səbəblər olmaqla yanaşı, özündə sonsuz hikmət və yaxşılıqları da ehtiva edir. Necə ki, açıq-aşkar olan kitabda (Quranda) deyilir: "Biz göyü, yeri və onların arasında olanları oyun-oyuncaq yaratmadıq"[1]. İnsanın yaradılış hikməti də varlıq aləminin seçilmişi, aləmin ən yaxşısı olmaq və gözlə görülə bilənlərin (yaradılmışların) gözü olmaqdır. Necə ki, Allah [Quranda] buyurmuşdur: "O, sizi yer üzündə varislər təyin etdi..."[2]. Amma bu növ insanlarda mənəviyyatın gözəlliyi və cismin (bədənin) çirkinliyi kimi zidd anlayışların meydana çıxması mümkün olduğu üçün peyğəmbərin müqəddəs şəriətinə itaət etmədən xilafətin (yer üzünün xəlifəsi olmaq) bərqərar olması və [ilahi] hədəfin keşiyində durmaq olmaz. Halbuki peyğəmbərin şəriəti əbədi bağışlanmağa və hər iki dünyanın xoşbəxtliyinə qovuşmağa səbəb olur. Deməli, kimsə ilahi hökmləri icra etməkdən üz çevirərsə, [ilahi] əmr və qadağalara tabe olmaqdan boyun qaçırarsa, din pərdəsini ləkələyərsə və möhkəm şəriəti məhv etməyə qalxarsa, bütün müsəlmanlara ümumi [anlamda], dinin ədalətli sultanlarına isə xüsusi [anlamda] "Ey iman gətirənlər! Allahın (dininin və peyğəmbərinin) köməkçiləri olun!..."[3] nidasına səs vermək, hiylələri dəf etmək, fitnə-fəsad yaradanların fəsadlarını aradan qaldırmaq üçün əllərindən gələni etməsi vacibdir.

Beləcə giriş verməkdən məqsəd budur ki, Bayandur (Ağqoyunlu) əhalisinin pərakəndəliyini beytlə deyək:

Meşədə aslanın nəriltisi yoxdursa
Çaqqalın səsi hündürdən gələr

Təcavüz etməklə Şərq ölkələrini ələ keçirdin. Əmrə tabe olduğun miskin bir guşədən əmr verən əzəmətli saraya qədəm basdın. Müsəlmanların üzünə zülm və əziyyət qapılarını açdın. Dinsiz və kafirləri bir-biri ilə evləndirərək qarış-

[1] əl-Ənbiya, 21/16.
[2] əl-Ənam, 6/165.
[3] əs-Saff, 61/14.

dırdın. Fitnə və fəsadın aşkar olmasını özünə şüar və hədəf seçdin. Zülm bayraqlarını qaldırdın. Öz təbii meylin və nəfsinin istəyinə uyğun hökmranlıq edib şəriətin hökmlərini (şərtlərini, bağlarını) pozdun və millətin şərəfini (inancını, abrını, namusunu) məhv etməyi düşündün. Zinanı halal etmək, haqsız yerə qan tökmək, məscid və minbərləri sökmək, qəbiristanlıqları və məqbərələri yandırmaq, peyğəmbər övladlarına və alimlərə hörmətsizlik etmək, mushəfləri pisliklər içərisinə atmaq, iki şeyxə[1], – Allah onlardan razı olsun, – söyüş söymək kimi pis davranış və hərəkətlərin haqqında hər kəs danışır. Din rəhbərləri və hidayət edən alimlər, – Allah onların hamısından razı olsun, – sənin və ardıcıllarının mürtəd olması haqqında yekdilliklə fətva verdilər ki, bu da qətl edilməyə səbəb olur. Buna əsasən biz də dini gücləndirmək, məzlumlara yardım etmək, əzab çəkənlərə kömək etmək, ilahi əmrlərə itaət və padşahlığın şərəf qayda-qanunlarını bərpa etmək üçün ipək və nazik parça yerinə zireh və dəmir libas geyindik. Allahın yardımı və gözəl lütfü ilə qələbə bayraqlarının daşıyıcıları, yola (şüara, üsluba, adətə, qayda-qanuna) yardım edən əsgərlər, döyüş aslanları, qılıncı qəzəb qınından çıxaran qılıncvuran qəhrəmanlar bədbəxt düşməni əzmlə taleyinə qovuşduracaq, kin kamanında oxları olduğu üçün rəqibin ölüm payını oxatan bürcünə rast gətirəcəklər. Zəfər və xeyirlərə vəsilə olan Səfər ayında dənizdən[2] keçdik. Bu niyyətlə ki, əgər Allah-təala yardım etsə güc və qüvvəmizdən istifadə edərək zülmkar əl-qolunu qoparıb, təşvişli başından qalib olmaq sevdasını çıxaraq. Kasıb və gücsüzlərin başı üzərindən şər və fitnənin [yaratdığı] fəsadları uzaqlaşdıraq.

Evlərə vurduğun həmin odun tüstüsünü evinə gətirək.

Çünki qılıncdan öncə İslama [dəvət] təklifi Mustafa, – salam olsun ona, – şəriətinin hökmüdür. Bu məşhur məktub da [həmin qaydaya əsasən] gözəl şəkildə yazıldı. İnsan övladının ruhu (nəfsləri) fərqlidir. İnsan qızıl və gümüş mədənləri kimidir. Bəzi xarakterlərin pis olması təbiidir və düzələn deyil. Belə ki, zəncini yumaqla ağarmaz. Xarakterin süstlüyü, şər işlərə adətkərdə olmaq şəhvətin hakim olmasından qaynaqlanır və düzəlməsi mümkündür. Necə ki, deyirlər: Pislər təlim və tərbiyə ilə yaxşılar cərgəsində olar, bir ehtimala görə. Əgər özünü "O kəslər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb (tövbə edərək) günahlarının bağışlanmasını istəyərlər..."[1] cərgəsinə daxil etsən, bütün hallarda Allah-təalanı unutmasan, pis işlər, doğru olmayan davranışlar və çirkin adətlərdən peşman olsan, səmimi qəlbdən tövbə və istiğfar etsən, ötən zamanda bizim qalib ordunun dördayaqlılarının ayağı dəydiyi qala və məkanları [indi isə sənin tabeçiliyində olan və onları işğal edərkən bizi] məzəmmət etdiyin həmin ərazilərin hər bir guşəsini Osmanlı məmləkətlərinin tabeçiliyinə verərək bizim əzəmətli himayəmizdə olan bəndələrə tapşırsan daha yaxşı olar. Bizim xidmətimizdə duranlardan yaxşılıq, nəvaziş, mehribanlıq və xoşxasiyyətdən başqa bir şey görməzsən.

Pis vərdiş təbiətində özünə yer etdisə
Ölənə qədər səndən əl çəkməz

Əgər pis əməllər və rüsvayçı davranışları israr və təkidlə davam etdirsən, uca Allahın köməyi ilə qələbə çalacağıq və ələ keçirdiyin həmin məmləkətin meydanı tezliklə bizim qalib ordunun düşərgəsi olacaqdır. Bir müddətdir yelbeyinliyin şiddətindən sərdarlıq sevdasına düşmüsən və lovğalığın çoxluğundan cahangirlik və fatehlik iddiası dilində cari olur. Əgər mərdsənsə mərdlərin meydanına çıx ki, taleyin hökmü müəyyən olsun. "...O gün hökm ancaq Allahındır"[2]. "...Haqq yolu tutub gedənlərə salam olsun"[3].

920-ci ilin qalibiyyət [ayı olan] Səfər ayında İznikomid (indiki İzmit) yurdunda yazıldı.

[1] İki şeyx ifadəsi ilə Rəşidi xəlifələrdən Əbubəkr və Ömər nəzərdə tutulur [t.q.].
[2] Konstantiniyyə (indiki İstanbulun Avropa hissəsi) ilə Skador (indiki Üsküdar) arasındakı Bosfor boğazı nəzərdə tutulur [t.q.].

[1] Ali-İmran, 3/135.
[2] əl-İnfitar, 82/19.
[3] Ta-ha, 20/47.

Sultan Səlimin Şah İsmayıla ikinci məktubu

"O məktub Süleymandandır və o, "bismillahir-rəhmanir-rəhim (bağışlayan və mehriban Allahın adı ilə)"dir. Mənə qarşı təkəbbür göstərməyin və yanıma müsəlman (Allaha itaət edən) olaraq gəlin!"[1]

Allahın salamı olsun yaratdıqlarının ən yaxşısı olan Məhəmməd, övladları və səhabələrinə hamılıqla. Bu, nazil etdiyimiz mübarək bir kitabdır, ona tabe olun və Allahdan qorxun ki, bəlkə, sizə rəhm edilsin![2].

Səmadan enmiş vəhy kimi bu zəfər tuğralı məktub, "Biz, peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab verməik!"[3] [ayəsinin tələbinə uyğun olaraq] Allah-təalanın bütün dünyadakı xəlifəsi, "İnsanlara fayda verən bir şey isə yer üzündə qalar"[4] [ayəsinə şamil edilən] yerə endirilən, Süleyman kimi uca mərtəbəli, İskəndər kimi cahangir, Firudin kimi şərəfli, kafir qövmə qarşı vuruşan, [Allahın yanında] çox möhtərəm və çox müti [mələkləri] qəbul edən, qoruyucu mücahid, müzəffər yardımcı, şir nəslindən olan (Leys bin əl-Əsəd bin əl-Qəzənfər), ədalət və yaxşılıq bayrağını genişləndirən, bizim əzəmətli ağamız Sultan Səlim şah ibn Sultan Bayazid ibn Sultan Məhməd xan tərəfindən Əcəm məmləkətinin padişahı, zülm və sitəm diyarının ağası, pislərin sevinci və rəhbəri, zəmanənin Darası, dövrün Zəhhakı, Qabilə bənzər əmir İsmayıla izzətlə yazıldı.

Məlum olan budur ki, Allah dərgahından "Allahın insanlara əta etdiyi mərhəmətə heç kəs mane ola bilməz..."[5] nişanəsi ilə olan "Sən mülki istədiyinə verərsən"[6] padşahlıq hökmünü qəzavü-qədər bizim böyük adımıza çıxardı (yəni Allah tərəfindən hökmdar olmaq bizə həvalə edildi). Şübhəsiz ki, yer üzündə ilahi qanunların əmr və qadağaları [eləcə də] səltənətə aid olan işlər və hökmlər səmavi hökmün nüfuzuna malikdir. Bu, Allahın istədiyinə əta etdiyi mərhəmətdir...[1]. Bir çox şəxsdən eşitdiyimizə görə, Məhəmmədin pak ümmətini, – salam olsun ona, – özünün yanlış əqidənə tabe etmiş və sabit dinin əsaslarını ləğv edib, zülm bayrağını təcavüz qaydaları ilə yüksəltmiş, pislikdən çəkindirməyi və yaxşılığa əmr etməyi şəriətin əsaslarından hesab etmiş, öz çirkin şiəni (müridlərini, tabeçiliyində olanları) məhrəm qadınları halal hesab etməyə və günahsız insanların qanını tökməyə təhrik etmisən. "Yalana qulaq asan və haram yeyənlərin"[2] hökmü ilə bihudə sözlərə qulaq asıb, haramlar yemisən. Məscidi xarab edərək bütxana düzəltmisən. İslamın böyük sütunları olan minbərləri zalımcasına dağıdıb, açıq-aşkar haqqı batildən ayıran [Quranı] keçmiş [xalqların] əfsanələri adlandırıb pisliyin yayılmasının səbəbkarı olaraq öz adını bədnam etmisən. Əhli sünnət və cəmaətin üstün alimlərinin əqli və nəqli (dini mətinlərə) əsaslanan fətvalarına görə bizim ali iradəmizin borcudur ki, qədimdən qalma adət-ənənə olan "çox ehsan edən Allahın dininə yardım etmək imanın ən yüksək dərəcəsinə [sahib olmaqdır qanununa əməl edərək]" yeni adət-ənənələrin rədd edilməsi, qadağan edilməsi, sıradan çıxarılması və sıxışdırılmasını [həyata keçirək]. Onun [peyğəmbərin], – salam olsun ona, – bir hədisdə buyurduğu kimi: "Hər kəs bizim işimizdə yenilik (bidət) etsə bu məqbul deyildir" və ya başqa bir hədisdə "hər kəs bizim işimizə uyğun olmayan bir iş görsə bu məqbul deyil və tənqid olunmuşdur". İlahi qəzavü-qədər, kafir olanın əcəlini bizim iqtidarımıza həvalə etdiyi üçün o diyara tərəf istiqamət alaraq "Yer üzündə bir nəfər belə kafir qoyma!"[3] hökmünü [rəhbər tutub] əziz Allahın izni ilə yola düşdük.

Zəfər qılıncını siyirməkdən məqsəd Allahın şəriət arxının yolunda bitən və pərpərən kimi inkişaf eləmiş tikan [və alaq

---

[1] ən-Nəml, 27/30–31.
[2] əl-Ənam, 6/155.
[3] əl-İsra, 17/15.
[4] ər-Rad, 13/17.
[5] əl-Fatir, 35/2.
[6] Ali-İmran, 3/25.

---

[1] əl-Cumuə, 62/4.
[2] əl-Maidə, 5/42.
[3] Nuh, 71/26.

otlarını] kökündən qopararaq rüsvayedici torpaq üzərinə atmaqla müqəddəs atların ayaqları altında tapdalamaqdır. "Xalqının böyüklərini də zəlil edərlər. Onlar məhz belə hərəkət edərlər"[1] [ayəsində deyildiyi kimi] kin-küdurət dolu toppuz zərbəsi ilə xam xəyala düşmüş din düşmənlərinin beynini müharibənin cəngavər şirlərinin yeminə çevirək. [Ayədə deyildiyi kimi] "zülm edənlər isə (öləndən sonra) hansı dönüşə dönəcəklərini mütləq biləcəklər!"[2].

Şeir:

Mən o şəxsəm ki, iti qılıncımı siyirdikdə
Yer üzündə qiyamət qopararam
Erkək aslanların ürəyindən kabab edər
Pəhləvanların qanından sübh vaxtı şərab içərəm
Kamanımla qartal ovlayar
Qılıncımdan günəşin ürəyi titrəyər
Əgər döyüşə gəlmişəmsə [deməli] sən [məni] saymamısan
Fırlanan (hərəkət edən) səma eşitməmisən
Günəşdən yüyənimin qüvvətini soruş
Bəhramdan nizəmin ucunun suyunu soruş
Əgər tacın varsa mənim də qılıncım var
Çünki tacın əlimdə aram olan qılıncdır
Ümidvaram ki, bəxtin qüvvəsi ilə
Düşmənlərin təxti-tacını alaram

"Din nəsihətdir" [düşüncəsindən] çıxış edərək əgər kişilərin üz tutduğu yer olan bizim yurdun mələklərinin arzu Kəbəsi və bəxt qibləsinə üz tutsan, zülm altında inləyən təbəələrini incitməkdən əl çəksən və özünü "günahdan tövbə edən günahı heç olmayan kimidir" cərgəsində qərar versən, Məhəmmədin, – salam olsun ona, pak ailəsinə və hidayət edən səhabələrinə və Allah onların hamısından razı olsun; "səhabələrim ulduzlar kimidir, hər hansı birini nümunə götürsəniz hidayət olarsınız" [deyə buyurmuşdu]", – pak və doğru sünni təriqətinin ardıcılı olan millət və məzhəbdən olasan, həmin ölkələri və onlardan asılı olanları Osmanlı ərazilərindən hesab etsən padşahlıq və şahlıq lütfümüz sənə də şamil olacaqdır.

[1] ən-Nəml, 27/34.
[2] əş-Şüəra, 26/227.

Şeir:

Başının üzərində ədalət və lütf kölgəsi yaradaq
Məhəbbət görən qapımızın torpağına üz sürtər
Afərin bunu qəbul edən şəxsin bəxtəvərliyinə. Əks təqdirdə mahiyyətindən irəli gələn fitnəkarlıq və təhrikçi təbiətinə uyğun davranmağa üstünlük verərik. Qaralmış qəlbə moizə oxumağın faydası olmaz. Allahın köməyi və ən gözəl yardımları ilə başında hər tac olanın tacını odlayaram (tac şəklinə salaram) və geniş yer üzünü o insanlardan təmizlərəm. "Şübhəsiz ki, qələbə çalanlar məhz Allahın firqəsidir"[1]. Zalımların əllərini yədi-beyza[2] (parlaq əl) pəncəsi, qüdrəti ilə büküb sındıraram ki, "Allahın (qüdrət) əli onların əllərinin üstündədir"[3].

Qulağınızdan qəflət pambığını çıxarıb, əyninizə kəfən geyib hazır olun ki, "verdikləri vədə əməl edərlər" [ayəsini] rəhbər tutan "sanki onlar möhkəm divarlardır"[4] [ayəsində əmr edilənlərə bənzər] qalib əsgərlərim ölüm vədəsi gəldiyi üçün "Onların əcəli gəlib çatdıqda (ondan) bircə saat belə nə geri qalar, nə də irəli keçərlər"[5] [ayəsini] ucadan oxuyar və "onları harada görsəniz, tutub öldürün"[6] [ayəsinin] hökmünə əməl edərlər. Onları yer üzündən silər və o diyarda heç bir şəxsi sağ qoymazlar.

"Əvvəl də, sonra da hökm Allahındır. O gün möminlər sevinəcəklər"[7].

"Artıq o zalım tayfanın kökü kəsilmiş olacaq. Həmd olsun aləmlərin Rəbbi olan Allaha!"[8].

[1] əl-Maidə, 5/56.
[2] Musa Peyğəmbərə öz peyğəmbərliyini isbat etmək üçün verilmiş möcüzələrindən biri. Belə ki, möcüzə əsnasında Peyğəmbərin əli ağappaq olar və günəş kimi ətrafa nur saçaraq görənləri dəhşətə salarmış [t.q.].
[3] əl-Fəth, 48/10.
[4] əs-Saff, 61/4.
[5] Yunus, 10/49.
[6] ən-Nisa, 4/89.
[7] ər-Rum, 30/4.
[8] əl-Ənam, 6/45.

Sultan Səlimin Şah İsmayıla üçüncü məktubu

Qoçaq İsmayıl, – Allah sənin əməllərini islah etsin! – əməl edilməsi lazım olan bu fərman sənə çatdıqda məlumun olsun ki, İslama qarşı hörmətsizlik və məxluqatın ağasının, – salam olsun ona, – şəriətini məhv etməyə ciddi-cəhdlə çalışmağın [haqqında] yetərincə xəbər almışıq. Fitnə-fəsad dairəsinin mərkəzi olan zərərli vücudunu rüzigarın səhnəsindən iti qılınc və xəncər ilə silmək bütün müsəlmanlara ümumiyyətlə, əmr sahibi olan sultanlar və qüdrətli xaqanlara isə xüsusilə vacibdir. Alimlər və din rəhbərləri, – Allah qiyamətə qədər onların sayını artırsın, – yekdilliklə fətva verib əsasən Məhəmmədin (s) dini qanunlarını dirçəltmək və Əhmədin (s) şəriət hökmlərini bərpa etmək üçün düşmən şikarına susamış çoxsaylı ordu ilə səni [məğlub etmək] məqsədi ilə Şərqə doğru yönəldim. Bu səfərimlə sənin hökmranlıq etdiyin və tabeçiliyində olan torpaq və ərazilər fəth bayrağımın dalğalanması şərəfinə nail olacaqdır. Ərsənsə meydana çıx, uca və pak olan Allahın iradəsi nədirsə gerçəkləşsin deyə buyurmuşdum. Bundan (məktubu yazmaqdan) məqsədim budur ki, bir neçə ay əvvəldən [yola çıxmağımdan] xəbərin olsun və lazımi tədarük görəsən. Sonra qəfil yaxalandım, hakimiyyətim altında olan xalqı tamamilə toplamağa (səfərbər etməyə) macal tapa bilmədim deyə bəhanə gətirməyəsən. Uzun müddətdir ki, dünya çoxsaylı əsgərlərindən cana gəlmiş, hava nizə ucu və silahın bir-birinə dəyməsindən təngnəfəs olmuş, yer üzü tökülən at nallarından dəmirə bürünmüş, səma sərt şeypurun gurultulu [səsindən] lərzəyə gəlmişdir.

Bu əsnada səndən [bizə qarşı] gizlin və ya aşkar, xeyir və ya şər [olmasından asılı olmayaraq] cəsarətə eyham vuran bir vəziyyət müşahidə edilməmişdir. Xüsusilə də hazırda Azərbaycanda olan dağ və təpələrdə qalib ordunun dördayaqlılarının dırnaq izi aypara ilə dolu səmaya dönmüşkən, hələ ki, nə səndən bir səs-soraq var, nə də gözə dəyirsən. Elə yox olmusan ki, varlığınla yoxluğun arasında fərq yoxdur. Qılınc davası edənlərinin qalxan kimi bəlalara sinə gərmək peşələri olmalı, ağalıq iddiası edənlərin dəbilqə kimi ox və nizə zərbələri ilə qarşılaşmaq qorxusu olmamalıdır.

Nəzm:

Kimsənin mələk gəlini kənarda yaxınlıq edərsə
İti qılıncın qırağına öpüş verər

Təhlükəsiz yerdə pərdə arxasında gizlənənləri ər adlandırmaq xətadır. Ölümdən qorxanların qılınca qurşanıb ata minməsi isə bəyənilməz haldır.

Beyt:

Ölümə doğru getməkdən kimsə qaçırsa
Zorla dartıb [ölümə doğru] yerindən tərpədərlər

Belə bir vəziyyətdə gizlənərək bir küncə sıxılıb gözə görünməmənin səbəbi böyük ehtimalla müqayisəolunmaz dərəcədə güclü qoşunumdan qorxub çəkinməndir. Elə isə belə bir ehtimalın (səndəki bu qorxunun) aradan qaldırılması üçün 40 min nəfərdən ibarət igid əsgərin ordumdan ayrılaraq Qeysəriyyə ilə Sivas arasında düşərgə salmasına əmr etdim. Düşmənə at oynatması və meydanı boş görməsi üçün bu qədər [fürsət] verilə bilər və bundan artıq olmaz. Əgər səndə az da olsa qeyrət və cəsarət varsa, gəlib şanlı və qalib əsgərlərimlə qarşılaşarsan. İlahi təqdirdə nə varsa o da Allah-təalanın izni ilə həyata keçər. Hidayət yolunun yolçularına salam olsun!

920-ci ilin Cəmadiəl-əvvəl ayının sonlarında Ərzincan yurdunda yazıldı.

Şah İsmayılın Sultan Səlimə cavabı

İlahi lütfü əldə edən, səltənəti ilə yamyaşıl İslam bağının himayəsində duran (İslamın himayədarı), dövlət, səltənət, dünya və din yolunun mücahidi cənab Sultan Səlim şaha, – Allah dövlətinizi daimi, əbədi səadətinizi isə tükənməz etsin,

– sevgi və məhəbbət dolu salam və dualarımı göndərir və "görüşmək" arzusunda olduğumu bildirirəm.

Mətləbə gəldikdə, bir-birinin ardınca göndərdiyin mübarək məktubların sayı üçə[1] çatmış oldu. Gəlib çatan [məktubların] məzmununda ədavət, cürət və sərtliyin payı daha çox idi. Lakin onun mənşəyinin nə olduğunu bilmədik. Cənnətməkan atanızın zamanında, – Allah qəbrini nurla doldursun, – bizim uğurlu yürüşümüz Əlauddövlə Zülqədərin dikbaşlığına görə Rum sərhədlərinə gəlib çıxsa da, hər iki tərəfdən dostluq və həmrəylikdən başqa heç nə müşahidə edilmədi. Cənabınız da Trabzon valisi olan zaman həmrəylik nümayiş etdirdiniz. Hazırkı kin-küdurətin səbəbi isə məlum deyil. Düşünmürəm ki, buna səni səltənət məqamı məcbur edir. Şeir:

Söz dava-dalaşı o həddə çatdırar ki,
Köhnə dostluqları viran edər

Bizim həmin bölgəni görməməzlikdən gəlməyimizin səbəbi iki şeydir: Birincisi budur ki, o diyarın əksər sakinləri bizim əsil-nəcabətli əcdadımızın, – bağışlayan və qüdrətli Allah öz mərhəmətini onlardan əsirgəməsin, – müridləridir. [İkincisi isə İslam uğrunda vuruşan] o ailəyə olan məhəbbətimizin [tarixi] qədimdir. Teymurilər dövründə o diyara edilən yürüşü [təkrar etmək] istəmirdik[2] və hələ də istəmirik. Bu olanlara görə incimirik, niyə də inciməliyik ki?!

Sultanlar [arası] ədavət, qədim ənənələrdəndir.
Kimsənin mələk gəlini kənarda yaxınlıq edərsə
İti qılıncın qırağına öpüş verər

[Sultanlara] yaraşmayan ifadələrə gərək yoxdur. Şübhəsiz ki, həmin dinsiz ifadə və fikirlər katiblərinin və tiryək çəkməkdən beyinləri qurumuş mirzələrinin yazdığı uydurmalardır. Bu qədər ləngimənin də bir zərurəti olduğunu düşünürəm. Buna görə də möhürümüzlə möhürlənmiş xüsusi keyfiyyətli qızıl ilə dolu bir mücrünü (qutunu) ən yaxın və etimad etdiyimiz Şahqulu ağa, – ruzisi bol olsun, – ilə birlikdə göndərdim ki, əgər lazım olarsa istifadə edərsən. Tezliklə gəlib çıxacaqdır. Allahın köməyi ilə qəzavü-qədərdə nə yazılıbsa o da baş verəcəkdir. Amma kiminsə sözünə əhəmiyyət vermədən ciddi şəkildə düşün ki, sonrakı peşmançılıq fayda verməz.

Bu məktub biz İsfahan torpaqlarında ov edərkən yazıldı. Sizinlə dərhal qarşılaşmağa tədarük görməyə başlamaqla yanaşı, dostcasına cavab yazdıq ki, istədiyiniz kimi hərəkət edəsiniz (seçim sizindir).

Sənin bu istəyini çoxları təcrübə etdilər
Əli övladlarına qarşı çıxan məğlub olar

Səni çox incitmədən "heç bir günahkar başqasının günahını daşımaz"[1] demək istəyirəm ki, əgər [bu] iş müharibə ilə nəticələnəcəksə, süstlük edib yubanma. Lakin sonunu da düşün. Vəssalam.

Sultan Səlimin Şah İsmayıla dördüncü məktubu

Qoçaq İsmayıl, – Allah əməllərini islah etsin, – itaəti vacib olan şərafətli hökm və dünyanın itaət etdiyi uca məktubum [sarayına] çatdıqda məlumun olsun ki, hüzuruma məktub göndərib cəsarətli ifadələr söyləmiş və cürət tələb edən bir şey göndərərək "gəlməyə tələsin ki, intizardan xilas olaq" deyə bildirmisən. İndi biz zatımıza həkk olunan hal və təbiətimizdəki cəsarətə uyğun olaraq səni öldürmək məqsədi ilə saysız-hesabsız ordu və qələbə rəmzi olan fəth bayraqlarımızla uzaq məsafələri qət edib hakimiyyətin altında olan məmləkətə daxil olduq. Əmr sahibləri olan sultanların, padşahlıq qüdrətinə sahib olan xaqanların inancına görə, idarəçiliyi altında olan məmləkətlər onların namusu (kəbinində

[1] Türk sultanının üç məktubunun cavabında Səfəvi padşahı yalnız bir məktub göndərmişdir [t.q.].
[2] Burada Teymur tərəfindən Sultan I Bayazidin məğlub edilib, əsir götürülməsinə işarə edilir [t.q.].

[1] əl-Ənam, 6/164.

olan qadınlar) kimidir. Kişilikdə pay sahibi, mərdlikdə bəhrəsi, heç olmazsa daxilində zərrə qədər özəyi olan bir şəxs üçün başqasının onun [namusuna] hücum etməsinə dözmək ehtimalı yoxdur. Elədirsə neçə gündür ki, güclü və qalib əsgərlərim məmləkətinə daxil olub səfa sürürlər, nə səndən bir səs-soraq var, nə də gözə dəyirsən. Elə yox olmusan ki, varlığın ilə yoxluğun arasında bir fərq yoxdur.

Şeir:

Bu rüsvayçılıqdan əbədi olaraq mehtərlər
Qoşunlara yük tutsunlar (?)

Əlavə cürət əldə etməyə kimin ehtiyacı vardır?! Bütün baş verənlərə nəzər saldıqda bu zamana qədər səndən mərdlik və igidliyin müşahidə edildiyi bir iş görünməyib. Gördüyün işlər də bütünlüklə hiylə və fırıldağın səmərəsidir. Heç şübhə yoxdur ki, müvəqqəti cəsarətin nəticəsi ancaq hiyləgərlik və riyakarlıq olur. Hələ mübtəla olduğun dərdin davası da məlumdur. O deyiləsi olmayan şeydən istifadə etməklə qəlbini gücləndirirmişsən. İstifadə etməyə davam et, bəlkə o zaman qarşımıza çıxmağa cəsarətin olar. Bu baxımdan sənə həddindən artıq güzəşt olmuşdur. Sənin qəlbindəki qorxunu aradan qaldırmaq üçün müzəffər ordumdan 40 min əsgəri ayıraraq Sivas ilə Qeysəriyyə arasında qalmalarını əmr etdim. Düşmənə qarşı mərhəmət ancaq bu qədər olar, bundan artıq olmaz. Əgər bundan sonra da keçmişdə olduğu kimi qorxu və dəhşətdən bir küncə sıxılsan, [igid] adı sənə haramdır. Dəbilqə yerinə məhəccər, zireh yerinə çarşab ixtiyar edib rəhbərlik və ordu başçılığı sevdasından vaz keçərsən.

Misra:

Sən bu işi görə bilməzsən, sən bu işin öhdəsindən gələ bilməzsən.

"Hidayət yolunun yolçularına salam olsun!"[1]

920-ci il, Cəmadiəl-axır ayının sonlarında yazıldı.

[1] Ta-ha, 20/47.

QEYD: *Sultan Səlim taxta çıxdıqdan sonra Şah İsmayıl ona etinasız yanaşdı. Səfəvilərin Anadoluda öz məzhəbi inanclarını yayması, Anadoluda səfəvilər ilə osmanlılar arasında baş verən döyüşlər Səlimin Şah İsmayıl ilə döyüşmək üçün şeyxülislamdan fətva istəməsi ilə nəticələndi. Şeyxülislam da Səfəvi şiələrinin qanı, malı, arvad və uşaqlarının halal olması haqqında fətva verdi. Oğlu Süleymanı yerinə təyin edən Səlim, Ədirnədən şərqə doğru hərəkət etdi. Yol boyu Şah İsmayıla kəskin məzmunlu məktublar göndərib onu təhdid edərək itaət etməsini istəyirdi. Bütün bu ədəbsiz və təhqiramiz məktublar qarşısında isə Şah İsmayıl insanlıq qayda-qanunlarından kənara çıxmır və Sultan Səlimə tərki-ədəbin sultanlara yaraşmadığını bildirirdi. Nəhayət, Çaldıran düzündə döyüş baş verdi. Şəxsi qəhrəmanlıq və şücaətinə baxmayaraq, Şah İsmayıl daha yaxşı silahlanmış və sayca üstün olan Osmanlı qoşununa məğlub olaraq geri çəkildi. Növbəti gün Sultan Səlim Təbriz şəhərinə daxil olsa da, 8 gün sonra şəhəri tərk etmək məcburiyyətində qaldı. Gedərkən isə bir çox mahir sənətkarları da özü ilə apardı. Sultan Səlim Qarabağda qışlamaq və növbəti yaz fəslində Şah İsmayılın işini bitirəcəyinə ümidvar olsa da, yeniçərilərin üsyanı buna mane oldu. Sultan Səlim İstanbula qayıtmaq məcburiyyətində qaldı.*

Çaldıran döyüşündən sonra Şah İsmayılın Sultan Səlimə məktubu

Uca məqamın, yüksək ləyaqətin ağası, səltənətin sığınacağı, ədalətin tutacaq yeri, ucalığın günəşi, Cəmşid [kimi] məqam [sahibi], Firudun kimi şanlı, İsgəndər kimi fateh, məmləkətləri bəzəyən Dara, Zöhrə ulduzu kimi faydalı, Bərcis kimi uca, ən böyük sultanların iftixarı, ən əzəmətli xaqanların yardımçısı, din və dünya bayraqlarının daşıyıcısı, İslam və müsəlmanların himayədarı, ədalətli fərmanları üfüqlərə yayılmış, ləyaqət üfüqlərində mürüvvət müjdələri görünən, dünyaların sahibi olan Allah tərəfindən yardım

olunmuş, səltənətin, ədalətin, əzəmətin, qüdrətin və səadətin yardımçısı olan Sultan Səlim şah!

Allah hakimiyyətinin və səltənətinin bərəkətini əbədi və Öz mükəmməl lütfü və ehsanı ilə [sənə] yardım etsin! Güllərinin təravəti və gül bağçalarının yaşıllığının, həqiqət və səmimiyyət əhlinin düşüncələrinə səfa verən, sədaqət və dostluq əhlinin ürəklərini ruhlandıran, ürəyə yatan mehinin ruhu canlandıran və fəth qapılarının açarı olan və "Həqiqətən Rəbbinizin zəmanənizin bəzi günlərində (qəlblərinizi rahatladacaq) əsintiləri var" [hədisində qeyd edilən] nurlardan (mənəvi anlardan) iqtibas edilmiş məhəbbət dolu gözəl duaların ən şərafətliləri, sevgi dolu xoş niyyətli xeyir-duaların ən gözəlləri sizə ithaf olunaraq hədiyyə göndərilir. Nurlu daxilimdən gələn məhəbbətin nuru bundan ibarətdir ki, mərdlik və igidlik əlaqəsinin vəziyyətini tamamlayan və ata-oğul münasibətinin təsirlərinin tələbindən doğan məhəbbət və səmimiyyətin davamlığı, dostluq və sevgi qaydalarının möhkəmliyi, keçmiş zamanlarda ən mükəmməl [surətdə idi] və cənnətməkan atan, – Allah onun günahlarını bağışlasın, – tərəfindən doğru şəkildə həyata keçirilməsi o dərəcədə qorunur və icra olunurdu ki, hər zaman dünya sultanlarının həsəd aparmasına və ölkələrin xaqanlarının qibtə etməsinə səbəb olurdu. Bu dost, uca təbiəti və əsalətli fitrətinin tələbinə uyğun olaraq, şübhə əhli və düşmənlərlə mübarizə edərək onları geri oturdar, üsyan edənlər və zalımların kökünü kəsmək və məhv etməklə məşğul olardı. Heç bir halda onun tərəfindən müxalifətçilik ehtimalı və düşmənçilik nişanələri təsəvvür olunmamış və düşünülməmişdir. Əksinə həmişə miras qalmış səmimi məhəbbət ayinlərinin ehyası və sultanlar nəslinin izzətli övladları arasındakı yəqin üzərinə qurulmuş qədimi dostluq bayraqlarını ucaltmaq, cənnət məkan xilafət məqamlı həzrətin (II Bayazidin) bu dosta (Şah İsmayıla) münasibətində özünü göstərir, günəşin parlaq şüaları da düşüncə və qəlb aynasına onun [vasitəsilə işıq] saçardı. Düşüncələr və fikirlərimizin arxasında gizlənən anlayışın mənası bu idi ki, əgər səltənət və məmləkətlə əlaqədar əhəmiyyətli işlər o həzrətin (atanızın) ədalət və insafı sayəsində həyata keçirilərək tənzimlənərsə, "ataların dostluğu övladların yaxınlığıdır (övladların yaxın olmasına səbəb olar)" kəlamına əsasən bu mənanın möhkəmləndirilməsi və bu əsasın gücləndirilməsi hər iki tərəfin dövlət və millət işlərində, dini və dünyəvi məsələlərdə müvafiq yardım vəzifələri və yardım üçün həmrəylik vasitələri aşkara çıxarmaqla sübuta yetsin. Necə ki, dostlara [qarşı] düşmənçilik və başqalarının işinə müdaxilə etmə düşüncəsi, təəssüb və mübarizə təsəvvür etmək qəribədir. [Halbuki] ixtilafın səbəbi fitnə-fəsad əhlinin fitnəkarlığından, kin-küdurət və düşmənçilik hissi bəsləyənlərin təhrikindən başqa bir şey deyildir. Yalan danışanların batil sözləri, qorxusuz və qərəzli faydasızların uydurmaları qeybi nurların saçdığı eyibsiz düşüncə aynanızı ləkələmişdir. Miras qalmış və möhkəmlənmiş saflıq və vəfalı olmaq düşüncəsinin mənasını özündə əks etdirən parlaq şəxsiyyətinizə baxmayaraq, kəramətli təbiətiniz və qədimi dostluqdan təəccüb doğuracaq şəkildə tam üz döndərdiniz. Təsis olunmuş möhkəm sütunlara malik qaydalara və tənzimlənmiş qüvvətli ayaqlar üzərinə qurulmuş qanunlara baxmayaraq,[uydurulmuş] sözlərin təsirinə düşmək və düşüncələrin dəyişilməsi mümkün imiş. Buna görə də haqqınızda bu məmləkətdə nə qədər dostluğa zidd və insafsız xəbərlər eşidilsə də, qəti şəkildə etimad edilmir və görməzdən gəlinirdi. Bu sözün doğru olduğunun nümunəsi budur ki, sizin də eşitdiyiniz kimi o vaxt ətraf bölgələrdən əsgərlər toplanmadı, (aldığımız) o xəbərlərin həqiqi olduğunu anladıqdan sonra bir dəstə süvari əsgər və Diyarbəkir ətrafından toplanan az sayda insanla təcili qarşılaşmaq üçün yola çıxdıq. Qəza və qədərə əsasən qeybi səhifələr üzərinə yazılmış olanlar maddi aləm səhnələrində həyata keçmiş oldu. Riyaddan qayıdan zaman onların hal-əhvaldan xeyirxahlıq nəsimini qoxulamaq və islah etmənin xoş ətrini duyduğum üçün bütün fəaliyyət və niyyətimizi

ölkələrin təhlükəsizliyi və (Allah) bəndələrinin rahatçılığına sərf və həsr etdik. İslam hüdudlarını qorumaq, düşüncə və niyyət xəzinəmizdə əsas yeri tuturdu. Dindar sultanlar arasında ixtilaf, din və iman düşüncəsinin zədə almasına küfr və günah əhlinin cürət və cəsarətlənməsinə səbəb olur. "İki qardaşdan sülhə nail olmaq üçün önə keçən, cənnətə daxil olmaqda da önə keçər" gerçəyinin tələbinə görə, qardaşlıq hüquqları və məhəbbət əsaslarını qorumaq naminə dostluq şüarları göndərmək və razılaşma nümunələri hədiyyə etməklə ilk addımı ataraq "sülh daha xeyirlidir",[1] "əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın"[2] "və fitnə-fəsad törədənlərin yolu ilə getmə"[3] ayələrinin hidayətedici xoşbəxt məzmununa [uyğun olaraq] birlik əsaslarını təsis etmək, ədavət və düşmənçiliyi aradan qaldırmaq məqsədi ilə səltənətə xeyir və fayda verən, himayə edici rəhbər və sərdar, xəbərdarlıq edən rəhbər, diqqət yetirməyin səbəbi, ağalıq və dinin nuru olan əmir Əbdülvəhhabı sizin yanınıza göndərməyə layiq hesab etmişdik. İntizarımız bu idi ki, bütün xalqın və İslam əhlinin mənafeyinin təzminatçısı olan adı çəkilən şərəf hamisini tezliklə geri göndərib keçmişdə olduğu kimi layiqli formada zati (fitrətimizdə olan) birlik xüsusiyyətlərini izhar edəcəksiniz. İndi həmin hadisədən bir müddət keçsə də, lakin dostluqdan bir əsər görünmür. Ağlımızdan belə bir fikir keçdi ki, bu əsnada hər iki tərəfin şüursuz və ağılsız bəzi əmirlərinin hər iki tərəfin sərhədlərinə hücum edib, bəzi hərəkət etmələri həmin alicənabın yanlış anlaşılmasına və [nəticə etibarı ilə] sizin onu ləngitməyinizə və saxlamağınıza səbəb olmuşdur.

Buna əsasən baş verənlər haqqında təfsilatı ilə xəbərdar olan, xanədanımıza sadiq olanlar cərgəsində yer almış və etimad edilən uca əmir və yüksək zənginlik sahibi Kəmaləddin Hüseyn bəyə və görkəmli insanların dirəyi Bayram ağaya

---

[1] ən-Nisa, 4/158.
[2] əl-Hucurat, 49/9.
[3] əl-Əraf, 7/142.

fürsət düşdükcə [baş verənləri] diqqətinizə çatdırmaq həvalə edildi.

Yəqin ki, bütün canlıların məsləhətləri və İslam əhlinin işlərinin tənzimlənməsini göz önünə gətirib səmimiyyət qapılarının açılması və dostluq əsaslarının yayılması üçün, (lazımi) vəsait və məktublar göndərəcək, qafilə və karvanların hərəkətinə icazə verəcəksiniz. Elçilər göndərmək, məktublar yazmaq, yazışma və müzakirələri artırmaqda həqiqi niyyətimiz bütün canlıların və bütün rəiyyətlərin təhlükəsizliyini düşünməkdən başqa bir şey olmayıb və olmayacaqdır da. Allahın sonsuz inayətinə inanmaq və təmənnasız kərəminə etimad etmək təsəvvür olunacaq digər düşüncələrdən daha yüksəkdir.

Əbədi və sonsuz dua və salavat Məhəmməd və onun övladlarının olsun. Təbriz yurdu.

QEYD: *Bu məktub əslində Çaldıran döyüşündən sonra Şah İsmayılın Sultan Səlimə göndərdiyi ikinci məktubdur. Birinci məktubu aparan əmir Siracəddin Əbdülvəhhab Sultan Səlim tərəfindən zindana atılır. Təəssüf ki, birinci məktubun mətni tarixçilərə hələ də məlum deyil. Osmanlı tarixçilərin iddiasına görə, Səfəvi hökmdarı ərazisinin bir hissəsini vermək şərti ilə Taclı xanımın azad olması şərtini irəli sürmüşdür. İkinci məktubdan göründüyü kimi, Şah İsmayıl məğlub olsa da, qürurunu sındırmır. Hətta Sultan Səlimə onunla döyüşmək fikrində olmadığını, ona görə də qoşun tədarükü görmədən məhdud sayda döyüşçü ilə onun görüşünə gəlmək məcburiyyətində qaldığını bildirir. Bu məktubda osmanlı sultanına qədim dostluq münasibətlərini pozduğuna görə məzəmmət edir və insanların mənafeyini qorumaq üçün ona sülh təklif edir. Sultan Səlimin zindana saldırdığı Əbdülvəhhab onun ölümündən sonra oğlu Sultan Süleyman tərəfindən azad olunur. Lakin 7 il məhbəs həyatı keçirən Əbdülvəhhab elə İstanbulda dünyadan köçür və Əbu Əyyub əl-Ənsari məzarlığında dəfn edilir.*

SULTAN SƏLİMİN MƏHƏMMƏD BƏY AĞQOYUNLU İLƏ YAZIŞMASI

Sultan Səlimin Məhəmməd bəy Ağqoyunluya məktubu

Şahanə lütfə nail olan xoşbəxtik mənbəyi və səltənət hamisi olan cənab əmir və hakim Siracəddin Məhəmməd bəy ibn Fərruxşad bəy, xoşbəxtliyin daimi olsun!

Hamıya məlum olan budur ki, yaxın dostlar və səfərdən gələnlərdən siz hakim ailənin ata-babalarının tayfası, milliyyəti və qəbiləsi haqqında dəfələrlə eşitdikdən sonra İslama və dinə son dərəcə bağlı olmanız sübuta yetmişdir. Sizin hakimiyyətiniz və rəhbərliyiniz əsasən İslamı gücləndirmək, zülm və zorakılığın ortadan qaldırılması üzərində qurulmuşdur. Cənabınızın əsas fitrəti əhli-sünnət və cəmaət yoluna, iradəsi isə gözəl ibadət və itaətlərə yönəlmişdir. Kafir qızılbaş tayfasına yardım etmək və irsən sizin mülk olan Diyarbəkir əyalətini tərk etmək hadisəsi çarəsizlikdən baş vermişdir. "Allah surətlərinizə (xarici görünüşlərinizə) və əməllərinizə baxmaz, əksinə qəlblərinizə və dostlarınıza baxar" [hədisinə] əsaslanan parlaq düşüncəmizə, sizin doğru etiqad üzərində sabitqədəm olduğunuz məlumdur. O kafir və dinsiz tayfaya bu qədər bağlı olmağınızdan sizin din və inancınıza heç bir zərər dəyməyəcəkdir. Böyük səhabələrin Allaha şərik qoşanlar və kafirlərin əlində əsir və giriftar olması [sizin] bu [çarəsizlik üzündən baş verən] giriftarçılıq və bağlılığınıza bəraət qazandırır. Amma Mustafanın (Məhəmməd Peyğəmbərin) din kəmərini bağlayanların mərdlik və qəhrəmanlığı, Murtəzanın (imam Əlinin) şücaətli davranışına tabe olan din və dünya xoşbəxtlərinin riayət

etmələri ən vacib olan məsələ insanların namus və arını gözləməsidir (onlara toxunmamalarıdır).

Namus və ar məsələlərinin bəzisində İslami qeyrət və mürüvvət din insanlarının vazkeçilməz davranışlarıdır.

Hazırda mübarək niyyətimiz İslam məmləkətlərini, xüsusilə də İran məmləkətini islah etmək və o torpaqları fəth edərək dinsiz kafirlərin zülmündən qurtarmaq və o dinsiz-kafir millətin yolunu azmış başçısı və rəhbərini yer üzündən silmək üçün o torpaqlara doğru yola düşməkdir [və bunun] üçün hazırlığa başlanılmışdır. Bu lütf məktubu şərafətli cənabınıza ondan ötəri göndərilmişdir ki, tərəflər arasında yaxınlaşma nə qədər uzaq və məsafəli görünsə də, sizin dindarlıq və müsəlmançılığınızdan gözləntim və intizarım budur ki, o məmləkətin dini və dünyəvi mənafeyi tələb etdiyi təqdirdə özünüzü bu etiqad dərgahının xalis və xüsusi xadimlər zümrəsində qərar verəsiniz. Beyt:

Hər kəs bu müqəddəs məkanın itaətçisi və qulluqçusu olarsa

Öz səyinin sonunda xoşbəxt olar

Allahın yardımı ilə xalis əqidə və pak niyyətə layiq olan hər bir şey (bizə meylli olmağınız) gündən-günə aşkara çıxar. Cənabınızın bu böyük dövlətimizə birləşməsi və qovuşması nizamlanmış və müəyyən olmuşdur. Sizi dini və dünyəvi sahələrdə yüksək mərhələ və ali mətləblərə yüksəltmiş olacağıq. Allahın inayəti və yardımları ilə şan-şöhrətli rütbənizi sizin ata-babaların dərəcəsinə uyğun tərbiyə və izzət səmasına yüksəldəcəyik.

920-ci ilin bərəkətli Səfər ayının axırlarında yazıldı.

Cavab

Əzəmət və şan-şöhrət meydanının ləyaqətlisi, dünyanın uca malikinin (Allah) yardımı ilə həmişə ali (uca) olasınız! Rəbiəl-axir ayının sonlarında qədim sirdaşım ilə söhbət-

ləşərkən, əyan və böyüklərin rəhbəri Əhmədcan Zeyd tərəfindən gizlin surətdə bu riyasız bəndəyə gəlib çatdı. Yalnız bir guşəyə çəkilib son dərəcə griftarlıqla yavaş-yavaş açaraq gizlincə oxuyub hər sətri sevinc və fərəh hissi ilə mütaliə edib gizli cövhərlərinin mənasını idrak edirdim. Yeni bir sətrə başlamadan öncəki sətri göz yaşlarımla yuyurdum. Bu vəsilə ilə paxılın əyri görən gözlərindən gizlədir və öz-özümə həmişə deyirdim: "qorxuram ki, başım bu məktub üstündə getsin".

Təsadüfən heç kimin bu gizli sirdən məlumatı olmaması üçün sirləri və gizli olanları bilənə (Allaha) təvəkkül edərək [məktubunuzun] cavabını soğan suyu[1] ilə ağ [kağıza] yazıb göndərdim. Baxmayaraq ki, katibi bizim ocağın (xanədanın) xeyirxahlığını istəyənlərdən olsa da və möhkəm and-aman edəndən sonra xəbərdar olsa da, ondan qorxum yoxdur. Qorxumuz bundadır ki, ixlaslı Əyyub kimi qəfildən bəlaya düçar olub Allah eləməmiş hamımız cəzalandırılmış və əzab verilmiş olarıq. "Allah bizə bəs edər. O nə gözəl vəkildir!"[2].

Hər bir mövzuda səbəblər səbəbinə (Allaha) təvəkkül edir və öz bəndələrinə lütf edəcəyinə və bizi məqsəd ünvanına çatdıracağına ümidvarıq.

Məqsəd budur və uca əmr sahibi Sizsiniz.

[1] Soğan suyundan bəzən gözlə görünməyən mürəkkəb kimi istifadə edilir. Onunla yazılan yazını işığa tutduqda oxumaq mümkün olur [t.q.].

[2] Ali-İmran, 3/173.

SULTAN SƏLİMİN ÇALDIRAN [DÖYÜŞÜNDƏN] SONRA OĞLU SÜLEYMANA YAZDIĞI FƏTHNAMƏ

Səlimin Çaldıran [döyüşündən] sonra oğlu Süleymana yazdığı fəthnamə

Oğlum Süleyman şah! Ömrün uzun olsun, hər iki dünyada arzularına çatıb uca zirvələr fəth edəsən! Əsas məsələyə gəlincə xəbərin olsun ki, Ərdəbil oğlu deyilən [Şah İsmayıl] fitnəkarlıqda, allahsızlıqda, kafirlikdə, fitnə-fəsadı şüar etməkdə, kafirlik və dinsizlik libası geyməkdə, bəndələrə əziyyət verməklə öyünməkdə və məmləkətləri viran qoymaqda zəmanəsinin bəzəyi idi. Məhz iki səbəbdən dərdlilərə imdad, məzlumlara yardım, dini mərasimləri canlandırmaq və açıq-aşkar ilahi hökmləri yerinə yetirmək üçün haqq və pak olan Allah-təalaya təvəkkül və kainatın ağasının, – Allahın salamı ona olsun, – mübarək möcüzələrinə təvəssül edərək düşmən ovlamağa hazır ordum ilə onunla döyüşmək üçün Şərq məmləkətlərinə doğru yola çıxmışdım. Dənizdən keçdiyim günlərdə mübarək hökm (məktub) göndərib mübarək məzmununda "İslama qarşı hörmətsizliyinin sübuta yetdiyini, bütün alim və şeyxlərin [Şah İsmayılın] kafir olmasına hökm edib, qətlinə fətva verdiklərini əsas gətirib [onun] natəmiz vücudunu qələbə xəncəri və iti qılıncla tarix səhnəsindən silməyi şahlıq məqamımız və padşahlıq məsuliyyətimiz üçün vacib və zəruri olduğunu" yazmışdıq. Lakin qılıncdan öncə İslamın təklifi Mustafanın, – salam olsun ona, – şəriətinin hökmü olduğu üçün bu əzəmətli kitabı (yazını, məktubu) sənə göndərməklə xəbərdar edirəm: "Əgər indiyə qədər etdiyin çirkin işlərə görə səmimi-qəlbdən peşman olub "sünni" [məzhəb] müsəlman olsan, əvvəllər atımız ayaq basdıqları bölgələr və əraziləri Osmanlı himayəsində olan

məmləkətlərə qatsan (əlavə etsən), güclü dövlətimiz tərəfindən sevgi və mərhəmətdən başqa bir şey görməzsən. Əgər xoşagəlməz əxlaqından əl çəkməyib çirkin əməllərinə israr etsən, Allahın yardımı ilə, qalib ordum məmləkətində düşərgə salacaqdır. Ərsənsə (igidsənsə) meydana çıx, Allahın iradəsi nədirsə o da gerçəkləşmiş olsun deyə buyurmuşdum. Səadət və xoşbəxtlik ilə Azərbaycan diyarı fəth bayrağımın dalğalanması şərəfinə nail olacaqdır. İki dəfə məktub göndərərək döyüşə dəvət olunsa da, vəziyyətə münasib heç bir qarşılıq verilmədi. Nəhayət, ta qədim zamanlardan Əcəm (qeyri-ərəb) sultanlarının tabeliyində olan Təbriz şəhəri döyüşçülərin düşərgə salacağı məskən kimi nəzərdə tutulmuşdur. İşarə etdiyimiz şəhərə yaxın ərazidə əzəmətli eniş (düşərgə salmaq) olacaqdır. Mübarək rəcəb ayının ilk günü çərşənbə axşamı sübh çağı Çaldıran adlı çöllükdə şanlı ordumuza müqavimət göstərməyə gəldi. Özündə qüdrətin (cəsarətin) olmadığına əmin olub bütün qoşunu başdan ayağa dəmir və polada qərq etmişdir. Bir hissəsinə Ustaclu Məhəmmədi rəhbər təyin edib sağ cinahımıza hücuma göndərdi. Özü qalan qoşun ilə sol cinaha hücuma keçdi. Döyüş başladı. Dərya kimi coşqun və döyüş meydanının pələngi Anadolu bəylərbəyi Sinan Paşa, Ustaclu Məhəmmədin dəstəsini bir göz qırpımında yer ilə yeksan etdi, özünün isə (Ustaclu Məhəmmədin) başını kəsdilər. Sol cinahdan hücum edən İsmayılın birinci həmləsi Rumeli[1] sərkərdələri və qəhrəmanları tərəfindən geri otuzdurulduqdan sonra yenidən hücuma keçdi. [Tərəflər arasında] son dərəcə şiddətli döyüş və qətllər başladı. Uzun müddət tərəflərin [bir-biri ilə] mübarizəsi [nəticəsində] hər iki tərəfdən çoxlu sayda bəylərdən, kimisi yaralandı və kimisi isə öldürüldü. Əmirlərin ən şərafətlisi Rumeli valisi Həsən Paşa ağır yaralandı. Düşmən tərəfdən direniş görcək, əvvəl cinahda olan ulufəçilər bölüyünü[2]

[1] Osmanlı imperiyasının Avropada yerləşən torpaqlarına verilən ad. Osmanlının ilk dövrlərində Anadolu torpaqlarına da Rumeli deyilirdi [t.q.].

[2] Osmanlı dövlət adamlarını, vəzirləri və bayrağı qoruyan xüsusi bölük [t.q.].

və qəriblər[1] birliklərini onlara yardım etməyə göndərdik. Yeniçəri qullarım top, tüfəng və oxlarla din və dövlətin düşmənlərinə həmlə etdilər. Bu vəziyyəti görən əxlaqsız düşmən ayrı bir qərar verməyə macal tapmayıb qaçmağa üz qoydu. Qalib ordum onları təqib edib bayraqlarını endirdilər, sərkərdələri əsir götürüb qılıncdan keçirdilər. Özünün (Şah İsmayılın) isə yaralandığı məlum oldu. Hazırda izzətli Allahın izni ilə fəthi tamamlamaq məqsədi ilə Təbrizə doğru hərəkət halındayıq.

920-ci ilin mübarək Rəcəb ayında Xoy vilayətində yazıldı.

Şahzadə Süleymanın Sultan Səlimə cavabı

Böyük zəfərlərin yaradıcısı və qələbələrin sahibinə miskin qulu tərəfindən ərz olunur ki, nəticəni müjdə vermək üçün göndərdiyin fəth məktubu gəlib çatmışdır. Ərdəbil oğlu deyilən dinsiz İsmayılın Çaldıran adlanan yerdə səadət bayrağının daşıyıcısı (Sultan Səlim) ilə qarşılaşaraq [onu] öldürməyə cəhd etməsi, yardım edən Allahın yardımı ilə müsəlman və allahpərəstlərdən [ibarət bizim] qoşunun həmin kafir və yolunu azmışların ordusu ilə bu ilin ortaları [yəni] müqəddəs rəcəb ayının ilk günü – çərşənbə günü döyüşə atılmaları, cəhənnəmlik düşmənlərin sağ cinahında olan Ustaclu Məhəmmədin məğlub olub öldürüldüyü, dinsiz İsmayılın qoşunun sol cinahında olan Rumeli bəylərbəyi Həsən Paşaya hücum edərək üstünlüyü ələ aldığı zaman [ordunun] cəsur döyüşçülərinin yardıma gələrək bir göz qırpımında vəziyyəti dəyişməsi, [Şah İsmayılın] çarəsiz, əlacsız, yaralı və əzilmiş halda qaçaraq gözdən itməsi, bütün qoşun, mal-dövlət, sürü və ilxının yağmalanaraq qarət edilməsi və arxasınca Təbrizə üz tutmağınızı yazdığınız qələbədən xəbər

[1] Anadolu, Misir və Afrikadan gələn qərib əsgərlərdən ibarət dəstə. Osmanlı hökmdarının iştirak etdiyi döyüşlərdə iştirak edərdilər [t.q.].

verən mübarək fəthnaməni, itaəti vacib olan fərman sahibi, sadiq və böyüklərin rəhbəri hesab edilən ləl̇əm Sinan gətirib şahidlərin gözü qarşısında oxuyan kimi həmin uğura görə layiqincə nəzir və sədəqə payladım. Cah-calalınızın artması istəyi ilə Allaha şükr etdim. Bütün əhali adəti üzrə bir həftə müddətində ölkə və bazarları bəzəyib [şadyanalıq etdi].

SULTAN SƏLİMİN LURİSTAN HAKİMİ ŞAH RÜSTƏMƏ MƏKTUBU

Sultan Səlimin Luristan hakimi Şah Rüstəmə məktubu (Çaldıran fəthi barəsində)

Şahanə mərhəmət və lütfə nail olmuş, qalib və əzəmətli səltənətin yaradıldığı, səadətin nisbət verildiyi dövlət və var-dövlətli əyalətin əmiri, ümmətlərin fəxri, daha mükəmməl qüdrət sahibi, şöhrətli böyük, hörmətli əmir və uca olan Allahın yardımı ilə qüvvətlənmiş, Şah Rüstəm bəy, – şərəfi əbədi olsun, – bilsin ki, məlunların rəhbəri, şeytan ordusunun qoşun başçısı və dinsiz İsmayıl, mübarək Rəcəb ayının birinci çərşənbə günündə Çaldıran düzündə günortadan öncə bizim himayəmizdə olan qoşunlarla qarşılaşdı. Bütün səyləri nəticəsiz qaldı. Nəhayət, hamı və hər şeydən üstün olan İlahiyə müti olan küləyin qələbə və fəth mehi bizim bayrağı hərəkətə gətirmək və dalğalandırmaqla zəfər müjdəsi verdi. Mürşidin (rəhbərin) qələbə ordusunun iti qılıncından əlacsız qalan İsmayıl qaçmağa üz qoydu. Ordu bahadurları arxasınca getdilər, bayraqları endirildi və aşırıldı, qoşun başçıları əsir və həbs edilərək döyüşdə yardım etmiş bayraqların yanında şikara çevrildilər. Əsirlərin hamısı oxların hədəfi olub qılıncdan keçirildi.

Allaha həmd olsun ki, dinin və dövlətin düşmənləri məğlub, həzrətin övliyaları (Allah dostları) şad və xoşhal oldular. O kafirin və əxlaqsızın (təhrikçinin) aradan qaldırılaraq sıradan çıxarılmasından məqsəd, "Allah kəlməsini" yüksəltmək, millət və səltənət cəmahirinin (kütlələrinin) işlərini tənzimləməkdən başqa bir şey deyildir. Yaradanın əmanəti olan rəiyyətə qarşı mehribanlıq və şəfqətimiz həddən artıq çox-

dur. Hər bir mömin və allahpərəstin həmin zəlili təhqir etməsi (ona sayğısızlıq etməsi) vacib və labüddür. Siz də azuqələrinə mane olmaq, [İsmayılın] adamlarının yolunu kəsmək, öldürmək və pərən-pərən salmaq üçün [ixtiyarınızda olan] imkan və sərvətdən istifadə etməlisiniz. Bu bəyənilən xidməti padşahlığın lütfkarlığının qəbul edilməsi və şahlığın xeyirxahlığı hesab edin.

Həmin tarixdə yazılmışdır (Rəcəb 920).

SULTAN SƏLİMİN AĞQOYUNLU MURADA MƏKTUBU

Sultan Səlimin Ağqoyunlu Murada məktubu

Şahanə mərhəmət və lütfə nail olmuş, səadətin nisbət verildiyi dövlət və var-dövlətli əyalətin əmiri, sultan və padşahların seçilmişi, ən yaxşı su və torpaq (su kimi saf və torpaq kimi bərəkətli), aləmlərin rəbbinin yardımı ilə şərəflənmiş, alicənab Murad Mirzə, – qiyamətə qədər şərəfi əbədi olsun, – bilsin ki, mübarək Rəcəb ayının birinci günü – çərşənbə günündə günortadan öncə... və ilx[1].

"Bizi bura gətirib çıxaran Allaha həmd olsun![2]" Fərman gəlib sizə çatan kimi yük və qiymətli əşyalara diqqət yetirmədən dərhal və təcili olaraq hüzuruma gəl. Tez tərpənmək, tələsmək və sürətli [olmaq məsələsində] mümkün qədər səy göstərib ciddi cəhdlə çalış.

Həmin tarixdə (2 Rəcəb 920) Təbriz yurdunda yazılmışdır.

[1] Buradan sonra isə Sultan Səlimin Luristan hakimi Rüstəm şaha yazdığı məktubda olduğu kimi yazılmışdır. Ona görə də Firudin bəyin yazılarında ondan sonra ixtisar edilmiş və "sona qədər" ifadəsi ilə qeyd edilmişdir [t.q.].

[2] əl-Əraf, 7/43.

SULTAN SƏLİMİN TƏBRİZ ƏYANLARINA MƏKTUBU

Sultan Səlimin Təbriz əyanlarına məktubu

Şahanə mərhəmət və lütfə nail olan Təbriz şəhərinin əyan və böyükləri (alimləri), xüsusilə də müsəlman qaziləri-nin ən üstünü, Allahpərəst valilərin ən layiqlisi, elm (bilik) və yəqinlik mənbəyi olan Şəmsəddin Qazi Əhməd, – fəzilətləri əbədi olsun, – bilsinlər ki, məlunların rəhbəri, şeytan ordusunun başçısı, dinsiz İsmayıl mübarək Rəcəb ayının birinci çərşənbə günündə Çaldıran düzündə günortadan öncə bizim dərya kimi təlatümlü zireh geyinmiş ordumuzla qarşılaşdı. Bütün səyləri nəticəsiz qaldı. Nəhayət hamı və hər şeydən uca Tanrıya müti olan küləyin qələbə və fəth mehi İslam qoşununun bayrağını hərəkətə gətirmək və dalğalandırmaqla zəfər müjdəsi verdi. Çarəsiz və köməksiz qalan, nə edəcəyini bilməyən İsmayıl özünü düşünərək şikar qənimi olan saysız-hesabsız amansız qoşunun qabağından qaçdı. Biz isə onun arxasınca hərəkət etməyi dayandırmaqdan sərfi-nəzər edərək vaz keçdik (yəni onu təqib etməyə davam edirik). Əgər uca olan Allah istəsə bir neçə günə Təbriz şəhərinin meydanı qalib ordunun dördayaqlılarının dırnağını öpmək şərəfinə nail olacaqdır. Bizim alicənab həzrətin, Allahın əmanəti olan ümumi rəiyyət barəsində şəfqət və mehribanlığı həddən artıqdır. Böyüklər və kiçiklərdən kimsə etiraz etməsin, hamı fədakarlıq və xidmət etməkdə sabitqədəm və möhkəm olsun ki, səadətin pənahı və kölgəsində ruzigarın xoşagəlməz hadisələrindən sona qədər daldalansınlar.

Padşahlıq hökmlərinin əmr və qadağalarına tabe olmayanın qanı (günahı) öz boynuna qalacaq və bizim qalib

səltənətin şiddətli hücumundan xilas ola bilməyəcəkdir. Bütün rəiyyət və seçilmişlər əvvəlki kimi yerində sakit bərqərar olsunlar və tam rahatlıqla bizim xanədanın əbədi dövlətinin davam etməsinə dua etməkdə israrlı (diqqətli, həmişə məşğul) və sabitqədəm olsunlar. Belə hesab etsinlər, fateh və cahangir tuğrasına[1] etimad göstərib inansınlar.

920-ci ilin mübarək Rəcəb ayının əvvəllərində Xoy yurdunda yazılıb.

[1] Tuğra (طغرا) – gerb, dövlət nişanı. Sultanın şəxsi imzası və möhürü kimi istifadə olunan, ərəb hərfləri ilə yazılmış xəttatlıq nişanəsidir [t.q.].

SULTAN SƏLİMİN TƏBRİZ ƏHALİSİNƏ GÖNDƏRDİYİ NƏVAZİŞ MƏKTUBU

Sultan Səlimin Təbriz əhalisi üçün göndərdiyi nəvaziş məktubu

Yaradanının əmanəti, şahanə mərhəmət və lütfə nail olan rəiyyət bilməlidir ki, belə vahiməli [bir vaxtda] sizin xahişiniz (və ya təklifiniz) saraya (ali padşahın taxtına, padşaha) gəlib çatdı. Məzmunu məlumdur, şahzadələrin fikri (düşüncəsi, rəyi, əqidəsi, iradəsi) qələbə çaldı. Kürd əmirlərin fəxri Zahid bəyə fərman göndərildi ki, sizi incitməsin və siz də [şəhəri] müdafiə etməkdə iradəli olun. Əziz [olan] Allahın istəyi ilə, ali dərgahın qullarından olan başçı tezliklə gəlib çıxacaqdır.

Həmin tarixdə yazılmışdır (2 Rəcəb 920).

SULTAN SƏLİMİN TƏBRİZ ƏHALİSİNƏ ÜNVANLADIĞI DİGƏR MƏKTUBU

Sultan Səlimin Təbriz əhalisinə ünvanladığı digər məktubu

(Əhməd paşanın həmin şəhərə hakim təyin edilməsi haqqındadır)

Şahanə mərhəmət və lütfə nail olmuş Təbriz şəhərində məskunlaşan əyanlar, alimlər (böyüklər) və xüsusilə də peyğəmbər övladlarının fəxri Mir Əbdülvəhhab[1], – ruzisi bol olsun, – bilsinlər ki, müsəlmanların rifahının yaxşılaşmasında, aciz və möhtacların ürəklərinin şad olmasında, millət və səltənətin mənafeyinin davam etməsində, din və dövlət münasibətlərinin tənzimlənməsində olan mehribanlıq və şəfqət əvvəlkindən daha çoxdur. Uca olan Allaha, sizləri belə bir qəddar zalımın (Şah İsmayılın) əlindən qurtardığı və bizim xoşbəxtlik bəxş edən ədalətimizin kölgəsini sizin başınızın üstünə gətirdiyi üçün hər kəsin şükr etməsi vacibdir. İndi uğur əldə etmiş qoşunun əzəməti düşmədən öncə ədalət və insafa yardım, zülm və haqsızlığı (doğru yoldan sapınmanı) aradan qaldırmaq üçün alicənab müşavir, əzəmətli vəzir, şöhrətli böyük (alicənab), daha mükəmməl qüdrət sahibi, xeyirxah çalışqan, nəcabətli və səxavətli, ümmətlər arasında doğru fikir yürütməklə (qərar verməklə) işləri idarə edə bilən, aləmin nizamül-mülkü (səltənətin hamisi), həzrəti Sultana yaxın, xaqan (şahənşah) dövlətinin məsləhətçisi, qüdrətli səltənətin yüksək mərhəmətinə nail olmuş, din və dünya mübarizi olan Əhmədi, – şərəfi əbədi olsun, – sizə tərəf göndərdim.

[1] Çox güman ki, bu şəxs Təbrizin məşhur seyidlərindən Əmir Siracəddin Əbdülvəhhabdır [t.q.].

Sözügedən [Əhməd] paşa Təbriz şəhərinə gələn kimi müxtəlif növ təzim, ehtiram, əzizləmə və hörmət etməklə onun pişvazına çıxın, bizim tərəfimizdən verildiyini hesab edərək onun bütün əmr və qadağaları ilə razılaşıb tabe olun. Səmimi qəlbdən və canla-başla itaətində durun. Bunu sizin barənizdə lütf və himayə kimi qəbul edin.

920-ci ilin mübarək Rəcəb ayının 2-də yazılıb.

SULTAN SƏLİMİN ŞƏRQ ƏMİRLƏRİNƏ VƏ KÜRD TAYFALARINA GÖNDƏRDİYİ ÇALDIRAN FƏTHNAMƏSİ

Sultan Səlimin şərq əmirlərinə və kürd tayfalarına göndərdiyi Çaldıran fəthnaməsi

Aləmlərin sahibi və hər şeyi bilən Allahın lütfünə nail olmuş hörmətli əmirlərin fəxr etdikləri və nəcabətli rəhbərlərin ən alicənabları olan, şərq bəyləri, – xoşbəxtliyiniz əbədi olsun, arzularınıza xeyir calansın, – və digər kürd əmirləri, qəbilə və tayfa başçıları olan pak vücudlu mücahidlər, məliklər, kəndxudalar və fədakar casuslar! Allah sizin etibarınızı ucaltsın! Padşahın uca məktubu [sizə] çatdıqda hər birinizə məlum olsun ki, bu mübarək rəcəb ayının ikinci günü, çərşənbə günü səhər vaxtı Ərdəbil oğlu deyilən dinsiz, əxlaqsız, kafir İsmayıl mənimlə müharibə zamanı Allahın lütfü və köməyi ilə bir göz qırpımında məğlub olub geri çəkilərək qaçmağa başladı. Hansı tərəfə getdiyi məlum olmadığına görə pak əqidə ilə sizlərin səltənətimə olan ixlas və itaət nümayiş etdirmək fürsətini qaçırtmamağınız üçün bütün dünyanın itaət etməsi vacib olan bu fərmanımı hamıya şamil olacaq tərzdə (ümumi qaydada) göndərdim ki, bu fərmanım hansınızın əlinə çatsa mübarək surətini bir çox vərəqə yazıb bir-birinizə çatdırasınız və qeyd etdiyim qızılbaşın haraya getdiyini, əvvəlki vəziyyəti necəykən hazırda necə olduğunu, sağlıq durumunu, neçə yerdən yaralandığını, öldüyünü və ya yaşadığını müfəssəl yazıb bildirməklə lütf və səxavətimi əldə etməyə nail və layiq olasınız. Bunu belə biləsiniz.

920-ci ildə Allahın böyük bəxşişlər ayı olan mübarək Rəcəb ayının əvvəllərində Çaldıran yurdunda yazıldı.

SULTAN SƏLİMİN XEYRAVAN HAKİMİ İLƏ YAZIŞMASI

Sultan Səlimin Xeyravan hakiminə məktubu

Şahanə mərhəmət və lütfə nail olmuş, alicənablıq nümunələrinin sahibi, cəddin (ata-babalarının, İslam peyğəmbərinin) bayraqlarını yüksəldən, bağışlayan Allahın lütfünü əldə edən, dövlətin vəkili (canişini), ucalığın zirvəsi, hakimiyyət mənbəyi, ali cənab əmir və hakim [olan] Xeyravan hakimi Davud bəy! Alicənablığınız davamlı olsun!

Məlumunuz olsun ki, bu iztirablı vaxtlarda kəramətli əmirlərin fəxri, əzəmətli hakimlərin şərəfi, şan-şöhrət sahibi Şərəf bəy, – alicənablığı davamlı olsun, – bizim əzəmətli hüzurumuza gəlib çıxaraq əlimizi öpmək şərəfinə nail oldu. Şahanə lütf və yaxşılıqlardan faydalandıqdan sonra geri dönməsinə icazə verildi. [Bu zaman Şərəf bəyin] bizim tərəfimizdən Bitlis qalasını rəzil qızılbaşın əlindən alması haqqında fərman verildi. Bu mübarək məktubu aldıqdan sonra siz də adı qeyd edilən qalanı fəth edib almaq üçün Şərəf bəyin yardımçısı, köməkçisi, himayəçisi və dayağı olmalı və bu bəyanilmiş xidmətin şahlıq və padşahlıq lütfünə səbəb olacağını bilməlisiniz. Allahın lütfü və gözəl yardımları ilə qeyd olunan qala alındıqdan sonra necə alınması barədə bizə məlumat verin. Ali fərmanın necə gəlib çatmasından asılı olmayaraq məzmununa əməl edin.

920-ci ildə mübarək Rəcəb ayının ikinci günü qələmə alındı.

Xeyravan hakiminin Sultan Səlimə cavab məktubu

Dünyanın sahibi və dünyadakıların pənahının hüzuruna, – Allah dostlarını izzətli etsin, – Allahın ən aciz qullarından biri tərəfindən ərz olunur ki, şərəflə sadir olan dünyanın itaət etməsi vacib olan [göndərdiyiniz] fərman xoşbəxtlikdən gəlib çıxdı. Buyurmusunuz ki, Təbriz sultanlığını şərəfləndirdikdən (tutduqdan) sonra o məmləkətin ərzaq və azuqədən boş olduğunu görüb ərzağa ehtiyac olacağını ehtimal etdiyiniz üçün qorunan Rum məmləkətlərinin ətəklərinə doğru, – Allah fəlakətlərdən və pis niyyətlərdən qorusun, – geri dönmüsünüz. Gələn il yenidən yola çıxaraq pərakəndə düşmüş düşmənə qulaqburması vermək, məğlub və qolları qırılmış topluluğu cəzalandırmağı tamamlamaq qərarına gəldiyiniz məlum oldu. Həqiqətdə görüşünüz doğrudur. Uca və səxavətli Allah, gələcək arzularının keçmiş və indikindən daha yaxşı olmasını müyəssər və mümkün etsin və padşahlığınız haqqında pis düşüncədə olan bütün düşmənlərini məğlub etsin.

Lazım olan azuqəni [toplamaq] istiqamətində israr və xəbərdarlığınız, Süleymanın, – salam olsun ona, – zəif qarışqaya mehman olması və qarışqanın o alicənab həzrət üçün özünün qış azuqəsindən pay verməsi [haqqındakı] məşhur əhvalata bənzəyir. İmkanımda olanı xərcləmək barəsində narahat olmayın. Eləcə də layiqli tədbirin görüləcəyinə və gərəkli qərarın veriləcəyinə də şübhəm yoxdur. Ümid edirəm ki, dənələr sərtləşməmiş, biçin və yığım bitməmiş yola düşməyi münasib görəcək, məğlub olmuş düşmənin əlini bu məmləkətin əkin sahələrindən uzaqlaşdırıb kəsərək qalib ordunuzu azuqə və ərzaq qıtlığından xilas edəcəksiniz. Uca Allahın izni ilə hiyləgər düşmənin tezliklə aradan götürüləcəyinə şübhəm yoxdur.

SULTAN SƏLİM İLƏ QANSU QİRU ARASINDA MƏKTUBLAŞMA

Sultan Səlimin Qansu Qiruya məktubu

QEYD: *Qansu Qiru Səfəvi dövləti ilə müttəfiqlik etmək istəyir, Şah İsmayıl da bu dostluğu qorumağa çalışırdı. Qansu Qiru ara-sıra Osmanlı sultanı üçün qiymətli hədiyyələr göndərmiş, Ağqoyunlunun fərari əmiri sultan Murada sığınacaq vermiş, ancaq bununla yanaşı, həm Sultan Səlimlə, həm də cavan Səfəvi şahı ilə müttəfiqliyini qoruyub saxlaya bilmişdi. Çaldıran döyüşündən 1 il sonra Sultan Səlim Kəmax qalasını fəth etmək üçün yola düşdü. Kəmax qalasını qorumağı Şah İsmayıl Yusif bəy Varsağa tapşırmışdı. Yusif bəy öz yerinə Məhəmməd bəyi təyin edərək özü Şah İsmayılın yanına yollandı. Osmanlı sultanı qalanı mühasirəyə alaraq Məhəmməd bəydən qalanı təslim etməyi və öz təbəələri ilə çıxıb getməsini tələb etdi. Məhəmməd bəy qəbul etməyərək döyüşə atıldı. Türklərin toplarına davam gətirməyən qala divarları dağıldı və türklər qalaya daxil oldu. İlk öncə məscidə sığınan qala sakinləri osmanlıların məscidə ehtiram göstərməyəcəklərini görüb məsciddən çıxaraq döyüşə atıldılar və hamısı da həlak oldular. Hicri-qəməri tarixi ilə 921-ci ilin Rəbiüs-sani ayının 5-də qala osmanlılar tərəfindən işğal edildi. Bundan sonra Sultan Səlim Əlaüddövlə Zülqədəri məğlub etmək üçün Sinan paşa və Əlibəy Şahsuvaroğlunun başçılığı ilə qoşun göndərdi. Bu döyüşdə Əlaüddövlə tüfəng gülləsindən öldü. Sultan Səlim Qansu Qirunu qorxutmaq üçün əmir Zülqədərin başını Qahirəyə göndərdi. Ona aşağıdakı məzmunda belə bir məktub yazdı:*

Kəmax qalasınının fəth edilməsi və Əlauddövlə Zülqədr üzərində qələbə barəsində

Bağışlayan və mehriban Allahın adı ilə...

Möminlərin üzlərinə zəfər qapıları açan, şeytanların qardaşları olan zalım və üsyankarların kökünü kəsən, açıq-aşkar dəlilini (dinini) tərk edənləri məğlub edən, öz parlaq yolunun yolçularına yardım edən, dünyanı ehsan və ədalətlə abad edəni abadlaşdıran, zülm və ədavətlə Adəm övladlarının qanını tökənləri məhv edən Allaha həmd olsun! Onun (Allahın) qüdrəti qədim, hakimiyyəti isə böyükdür. Onun (Allahın) qəza və qədərdə yazdığına çarə, bəla göndərdiyinə isə qaçış (yolu) yoxdur. Bütün əmirlər Onun qüdrətinin çəngində əsirdirlər[1].

Öldürücü cəhalətə düçar olanı, zəialətdən (qaynaqlanan) günahlar içində boğulanları, [həqiqəti] qəbul etməyənlərdən və zülm əhlindən yardım istəyənləri, sözgəzdirənlərə və şeytan firqələrinə tabe olan insanları doğru istiqamət və yola dəvət və hidayət edənə salam olsun!

Əzəmətli, kəramətli, şan-şöhrətli, tərifə layiq, yardım edən, kömək edən, imdada çatan, doğru yola dəvət edən, istehkamlı, ədalətli, təqvalı, İslam və müsəlmanların yardımçısı, iki şərafətli hərəmin (Məkkə, Mədinə) xadiminin himayəçisi, hökmdarların və xaqanların ən gözəl nümunəsi, mücahidlərin və qazilərin yardımçısı, möminlərin əmirinin[2] köməkçisi, ağlın saysız məziyyətlərini vəsf etməkdən aciz olan sultana pak dualar və uca arzularımızı bildirmək bərəkəti ilə bizə minnət qoyduğu üçün Allaha, səxavətinə uyğun olan həmd və sənalar, nemətlərinə uyğun şükürlər olsun.

---

[1] Dostluq məktubu olmasına baxmayaraq, başlanğıcda "məğlub etmək, qəzəb və qüdrət" kimi kəlmələrdən istifadə edilməsi diqqəti cəlb etməyə bilməz [t.q.].

[2] Misirin axırıncı Abbasi xəlifəsi III Mütəvəkkil Əlallah Məhəmməd bin Yaqub nəzərdə tutulur [t.q.].

Bu ilin iki ayında baş vermiş iki fəthdən, yəni əcəmin (qeyri-ərəb məmləkətlərinin) fəthindən sonra şəhərlərimizin ən böyüklərindən olan Amasyaya qayıdaraq orada qışa qədər qaldıqdan sonra yaz fəslində rəbiül-əvvəl ayının beşi, cümə axşamı müzəffər ordularımızla ilk olaraq dinsiz rafizilərin (şiələrin), – Allah onlara lənət etsin, – əlində olan Kəmax qalasına yönəldik. Rəbiul-axir ayının 5-i şənbə günü qalaya hücum etdik. Güclü qapı döyənlər və qüvvətli mancanaqlarla qalanı dağıtmağa başladıq və çoxlu sayda ordu ilə qalanı mühasirəyə aldıq. Günorta vaxtı gəlib çatdıqda döyüşçülərimizin bəzisi qala qüllələrinə çıxaraq fəth bayraqlarımızı əzəmətli qüllələrə sancdılar. Qala divarlarının əksəriyyəti məhv edildi və əsgərlərimiz dəstə-dəstə içəri daxil oldu və evlərin qapılarını qıraraq param-parça etdilər. İnsanları gizləndikləri yerlərdən çıxardılar, ataları oğullarından və qızlarından ayırdılar. Mal-mülklərini aldılar və boyunlarını vurdular. [Daha sonra] qalanın divarlarını əvvəlkindən də gözəl şəkildə inşa etdik. Oranı ehtiyac olan qida və başqa hər şeylə tam şəkildə təmin edib vali təyin etdikdən sonra Sivasa döndük.

Qeyd olunan məmləkətə çatdıqdan sonra bu dəfə Zülqədəriyyə məmləkətinə tərəf yola çıxmaq qərarına gəldik. Bu zaman ordunun rəhbəri Rumeli vilayəti əmirlərinin ən böyüyü və hazırda vəzirim olan Sinan paşa oldu. O, ötən ayın 22-də çərşənbə axşamı hərəkət etdi və qeyd olunan ayın axırlarında düşmənə (düşmən elinə) çatmış oldu. Onlarla müharibəyə başladı və onları ağır məğlubiyyətə düçar etdi. Cəmadiəl-əvvəl ayının əvvəllərində çərşənbə günü o məmləkətin kənarında yerləşən və müharibənin baş verdiyi yerin yaxınlığındakı məşhur liman Kuzguna yaxınlaşdıqda [Sinan paşa] tərəfindən bir müjdə verən (elçi) gələrək arzuların həyata keçdiyi və şərəfsiz düşmənin məğlub olduğu xəbərini verdi və o tayfanın başçısı Əlauddövlənin və əlliyə yaxın övlad və əmirlərinin başlarını gətirdi. Biz də sırf sevincdən və ifrat dərəcədə şadlıqdan o məğlub (zəlil) olmuş əmirin başını sizin də sevincinizə və şadlığınıza səbəb olması üçün Qahirə divanına göndərdik.

Sizin gözəl əxlaqınızın gözəlliyindən arzumuz budur ki, bu açıq-aşkar fəthi müvəhhidlər (Allahın birliyinə inananlar) ölkəsinin bütün bölgələrində və şəhərlərində elan edəsiniz. Yüksək xidmətlərinizə məlum olsun ki, artıq Qüstəntiniyyəyə (İstanbula) geri döndük və gələn il Şərq məmləkətlərini idarəçilik altına almaq və rafizi (dindən çıxmış) qızılbaşların, – Allah onların kökünü kəsib məhv etsin, – geri qalan qılınclarının (təhlükələrinin) qarşısını almaq qərarına gəldik.

Sizdən ricamız budur ki, onların ah-nalələrinə fikir verməyəsiniz və onların səfsətələrinə aldanmayasınız.

921-ci ilin Cəmadiəl-əvvəl ayının 14-ü, çərşənbə axşamı Qeysəriyyə əyalətində qələmə alındı.

Sultan Səlimin səfəvilərlə yenidən döyüşmək üçün səfərə çıxdığı zaman Qansu Qiruya yazdığı məktub

QEYD: *Bu məktubda da Sultan Səlim diplomatik qaydaları gözləyərək sultan Qansu Qiruya hörmətlə yanaşsa da, məktubun əvvəlində sətiraltı öz qüdrətini ona xatırlatmış və cümlələr arasında özünün Şah İsmayıl ilə döyüşmək üçün mövcud tədarük və qüdrətindən söz açmışdır. Diyarbəkir əmiri Qaraxan ilə Məhəmməd paşa arasında olan döyüşdən danışarkən türklərin qızılbaşlar üzərində qələbəsindən söhbət açmış və rəqib qoşun haqqında yanlış məlumatlar vermişdir. Həqiqət isə belə olmuşdur: Osmanlı qoşunu Təbrizi tərk etdikdən bir neçə gün sonra Şah İsmayıl Təbrizə daxil oldu. O, Diyarbəkir əyalətini Qara bəyə verərək ona Qaraxan ləqəbi verdi. Qaraxan, Məhəmməd xan Ustaclunın qardaşıdır. Qaraxan Diyarbəkirə gələrək Mardin şəhərində yerləşdi. O Amid şəhərini Əhməd Çələbiyə həvalə etdi. Az müddət sonra Əhməd Çələbi vergi verməkdən imtina etdi. Qaraxan onu cəzalandırmaq istədikdə, Əhməd Çələbi Məhəmməd paşa Bığlıdan yardım istədi və paşa da öz növbəsində ona yardım etməyə tələsdi. Qaraxan, Amid şəhərini mühasirəyə aldı. Paşa çarəsiz qalıb Qaraxan ilə döyüşə 5000 nəfər*

göndərdi. Qaraxan onları məğlub etdi. Bu dəfə osmanlı paşası 24000 nəfəri döyüşə göndərdi. Şah İsmayıldan növbəti yardım gələnə qədər gözləmək əmri alan Qaraxan yardımı gözləməyərək Qudurmuş xanın təhrikinə əsasən döyüşə atıldı. İlk öncə Qaraxanın qoşunu qalib gəlsə də, Qaraxanın top atəşi ilə ölməsindən sonra osmanlılar qalib gəldilər. Osmanlı sərkərdəsinin dediyinə görə Qaraxanın həyat yoldaşını, yəni Şah İsmayılın bacısını ələ keçirə bilməyiblər. Nəticədə osmanlılar Mardin, Mosul və bir sıra şəhərləri özlərinə tabe etdilər. Bununla da Diyarbəkir səfəvilərin əlindən çıxaraq osmanlıların hökmranlığı altına keçdi.

Diyarbəkir hakimi Qaraxan üzərində Məhəmməd Paşa Bığlının qələbəsi haqqında

Bağışlayan və mehriban Allahın adı ilə...

Ondan (Allahdan) yardım diləyirik. Aləmləri qorxutmaq üçün qulunu izzətləndirən və ordusuna yardım edən, (qulunu) öz tərəfindən seçilmiş sultan və yardımçı qərar vermək üçün ona kömək edən, küfr və qaranlıqları aradan qaldırmaq üçün qılıncının parıltısını parlaq Günəş və Aya çevirən, pis insanlara məhvedici əzablar verən və xeyirli insanlara bol nemətlər göndərən Allaha həmd olsun. Onun (Allahın) itaət ipinə sarılanlar arzularına nail olar, "(axirət əzabından) heç bir qorxusu olmayan və (qiyamətdə) qəmgin olmayan"[1] dəstələrdən olar. Sünnəsini (həyat tərzini) özümüzə örnək aldığımız (iqtida etdiyimiz), nurları ilə hidayət olunduğumuz Məhəmmədə dualar və salamlar olsun ki, (Allah) peyğəmbər seçərkən onu (Məhəmmədi) göndərməklə möminlərə minnət qoymuş, "müşriklərin xoşuna gəlməsə də, [İslamı] bütün dinlərdən üstün etmək üçün öz peyğəmbərini doğru yolla və haqq dinlə göndərmişdir."[2]

[1] əl-Bəqərə, 2/38, 2/64, 2/112, 2/262, 2/274, 2/277; Ali-İmran, 3/170; ən-Nisa, 4/83; əl-Maidə, 5/69; əl-Ənam, 6/48; əl-Əraf, 7/35, 7/49; Yunus, 10/62; əl-Əhqaf, 46/13.

[2] ət-Tövbə, 9/33; əl-Fəth, 48/28; əs-Saff, 61/9.

Kemax fəthindən geri döndüyümüz zaman qış fəsli gəlib çatdı və havalar soyudu. [Öz-özümüzə] "bu qışı istirahət edək" – dedik. Bu qərarımızı təsdiqlədikdən sonra səltənətimizin mərkəzinə (İstanbula) geri döndük və yaz gələnə qədər orada iqamət etdik. Müvəhhidlərin kəlməsini (Allah nidasını) ucaltmaq iradəmizin tələbinə uyğun olaraq iti oxlarımızı hazırlayaraq bayraqlarımızı qaldırıb Şərq məmləkətinə doğru yönəldik. Ağşəhərə gəldikdə nadir hadisələrdən biri baş verdi. Diyarbəkirin baş əmiri Məhəmməd tərəfindən bir müjdəçi gələrək xəbər gətirdi ki, "Şah İsmayıl güclü qorunan Amid, Xarput və digər qalaları və dağları fəth etdikdən sonra çoxlu sayda, 20 min və ya daha çox insan toplayaraq onlardan bir hissəsinə Qaraxan kimi tanınan əmiri başçı təyin edib. O (Qaraxan), qohumlarının ən üstünü və əsgərlərinin ən öndə gələnidir. Onunla Bağdad, Həmədan, Hillə, Sultaniyyə, Kəlhor, Səid, Kaşan və Qəzvinin əmirlərini də birlikdə göndərib. Adı keçən əmirimiz (Diyarbəkirin əmiri Məhəmməd) bəzi əmirlərlə birlikdə qartalın kiçik quşların üzərinə şığıması kimi onların üzərinə şığıyaraq güclənmələrinin və yayılmalarının qarşısını alıb. Qeyd olunan dəstə onları gördükdə ordunu tənzimləyib və şiddətli döyüş başlayıb. Bu zaman açıq-aşkar fəthin nəsim yeli əsib. Qeyd olunan əzəmətli əmirlər (onları) ağır məğlubiyyətə (həzimətə) uğratmaq qərarına gəliblər...

Qeyd olunan əmirlərin rəhbərləri vasitəsilə həyata keçirilmiş bu ardıcıl baş verən fəthlər və hədsiz xoşbəxtlik xəbərləri [bizə gəlib] çatdıqda sizin uca məclisinizə, məclis üzvlərinizin könülləri xoş olsun deyə müjdə göndərməyi zəruri hesab etdik. Bu məqsədlə seçilmiş yaxınlarımızdan olan uca əmir ali-cənabımız Həsəni, Qaraxanın başı ilə birlikdə göndərdik və gül qoxusundan daha gözəl olan salamları (sizə çatdırmaq üçün) ona yüklədik.

921-ci ilin mübarək Ramazan ayının axırlarında yazıldı.

Sultan Səlimin cavab məktubu

QEYD: *Sultan Səlim bu məktubda da öz üslubuna sadiq qalmış, qısa və hökmlü ifadələrdən istifadə etmişdir. Lakin yenə də diplomatik üslub və qaydalara sadiq qalaraq Misir hökmdarına titul və ləqəbləri ilə müraciət etmişdir. Onun istəklərini gözəl şəkildə qəbul etmiş, lakin dülgərləri göndərməkdən imtina edərək bunu özünün keçən il verdiyi "xristianları məğlub etmək üçün 100 böyük gəmi düzəltmək" fərmanının icrasına cəlb olunmaları ilə əsaslandırmışdır. Səlimin bu sözü doğru idi. Həmin dövrdə Piri paşaya dəniz qüvvələrini gücləndirməyi və böyük gəmilər düzəltməsini əmr etmişdi. Çünki Rodosu fəth edəcəyi bildirilirdi. Bunu görən Avropa millətləri osmanlıların dəniz hazırlıqlarından qorxuya düşərək sabiq əhdnamələrini təzələməyə girişmişdilər. Qeyd etmək lazımdır ki, Firudin bəyin münşəatında Misir səfirinin adı Həsən əl-Qəbtan olsa da, şübhəsiz ki, bu Qəbtan (kapitan) olmalıdır.*

Bağışlayan və mehriban Allahın adı ilə...

Həmd olsun Allaha ki, İslam sərhədlərini inamlı zəfərlərimizlə möhkəmləndirdi və güc-qüvvəmizlə məxluqatın gücünü artırdı. Uğur qazanmaq üçün uzaq yerlərdən nümayəndə heyətləri bizə üz tutduğu üçün biz də (özümüzdən) əvvəlkilərin yolunu və (özümüzdən) sonrakıların şərafətini diqqətə alaraq möminlərin uğur qazanmaları və müsəlmanların işlərinin xeyirli olması üçün var gücümüzlə çalışmağa başladıq...

Səhifələri mirvari gəmisinə bənzər olan şərafətli məktubunuz Cəmaləddin Yusif əl-Qəbtan vasitəsilə bizə çatdırılaraq oxundu. Mətndən yaranan suallarımızı cavablandırdı, qəbul etməyə və əlimizdən gələn qədəri ilə yerinə yetirməyə tələsdik. Bağlı qapıların açarı (işləri) asanlaşdırmaya bağlıdır. Biz onunla maraqlanmaya bilməzdik. Çünki, mühüm işlərin tamamlanması üçün çalışmaq əxlaqın gözəlliyindəndir. Arzuları çin etmək və tələblərə cavab vermək məşhur olan əxlaqımız və dillər əzbəri olan təbiətimizdə vardır. Aparmağa

imkanınız olmayan keçən ildən qalmış ağacların kapitanınız tərəfindən daşınılması haqqında uca fərmanımız sadir oldu.

[Gəmi düzəltmək üçün göndərilməsini istədiyiniz] dülgərlər məsələsinə gəlincə mühüm əsaslar, qaydalar və önəmli üzrlü səbəbə görə bu istəyinizin üzərinə pərdə çəkilmiş oldu (cavabsız qaldı). Səbəb bundan ibarətdir ki, doğru düşüncələrimizin tələbinə uyğun olaraq, hələ bundan [bir müddət] əvvəl sütunları möhkəm, burunları ilə zalımların [gəmilərinin] burunlarını məhv edəcək 100 böyük gəminin inşasına başladıq. "Allah [özü üçün] övlad götürmüşdür deyənlərin"[1] (xristianların) evlərini yıxmaq, tövhidi (təkallahlılıq inancını) təslisə (yəni Allah, İsa və ruh əqidəsinə) üstün etmək üçün saylarının tamamlanmasını əmr etdik. Ağacların toplandığı yerlərin əhalisi əmr olunmuş gəmilərin düzəldilməsi istiqamətində mövcud tələbatların təminatı ilə vəzifələndirilmişdir. Başqa bir işlə bilavasitə məşğul ola bilməzlər. Ali cənabınıza bunu nöqsan və hörmətsizlik saymaq yaraşmaz.

Cəmadiəl-axir ayının sonlarında Konya şəhərində yazıldı.

Qansu Qirunun Sultan Səlimə cavabı

QEYD: *Qansu Qiru bu müddətə qədər Misir və Səfəvi dövlətinin müttəfiqliyi barəsində bir söz deməmiş və qızılbaş dövlətini açıq-aşkar himayə etməmişdi. Lakin bu məktubda açıq-aşkar Sultan Səlimi səfəvilərə hücum etməkdən imtina etməyə səsləyir. İlkin səbəb kimi isə Uzun Həsənin sultan Əbu Səid Qorqaniyə etdiyini Şah İsmayılın da ona qarşı edə biləcəyi ehtimalını irəli sürür. Yəni səfəvilər osmanlılarla açıq-aşkar döyüşə girməkdən çəkinərək osmanlı qoşunlarını dağlıq əraziyə çəkməklə onları əldən-ayaqdan salacaqdır. İkincisi isə səfəvilərin hakim olduğu bölgələrin əksər əhalisinin sünni məzhəbindən olmasını və qızılbaşların da Çingiz və Teymur övladlarının qalıqları olduqlarını və ötən dövrdə bu*

[1] əl-Bəqərə, 2/116; Yunus, 10/68; əl-Kəhf, 18/4.

məmləkətə yiyələndiklərini ön plana çəkir. Bu arada məsləhət üzündən Şah İsmayılı "zəlil" və qızılbaşların isə lənətə layiq olduğunu söyləyir. Osmanlı sultanını Azərbaycana hücum etməkdən çəkindirərək bildirir ki, divan əmirlərinin qərarına uyğun olaraq iki padşah arasında sülh yaratmaq üçün qoşunla Şama gələcəyəm. Qansu Qiru bu məktubda diplomatik ifadələrlə Sultan Səlimi səfəvilərə hücum etməkdən çəkindirir və hücum edəcəyi təqdirdə özünün də qoşunla Şama gələcəyini bildirir. Digər tərəfdən, Qansu Qiru bu məktubda osmanlıların səfəvilərə qalib gəldiyini qeyd etməklə məğrur Səlimin həmin qələbə ilə kifayətlənəcəyinə və yeni hücumdan imtina edəcəyinə ümid edir. Qaranlıq qalan məqam budur ki, Sultan Səlim Azərbaycana növbəti dəfə hücum edəcəyini öz söhbətlərində açıq-aşkar bildirsə də, əvvəlki məktubda Azərbaycana hücum etmək haqqında heç bir söz demir. Çünki Cəmaləddin Həsən Yusif Qəbtanın gətirdiyi məktubda yenidən hücum haqqında bir ifadəyə rast gəlinmir. Ola bilsin ki, ya əlahiddə bir xəbər göndərilmiş və ya şifahi şəkildə Qansu Qiruya səfəvilərə hücum edəcəyi haqqında məlumat çatdırmışdır.

Fəsahətli danışığınız və parlaq xitabınız lütf və ehsanlara şamil edilmiş elçimiz Yusif Qəbtanın vasitəsilə bizə gəlib çatdıqdan sonra sizin tərifinizdən sadir olmasına (söylənməsinə) və bizə gəlib çatmasına görə sevindik. Tam ciddiyyətlə oxuyub, buradakı salam və dualardan agah olduq. Məzmunundan Şərq məmləkətinə üz tutaraq kafir qızılbaşları aradan qaldıracağınızı öyrəndik. Qahirədəki divan əmirlərimiz ilə məsləhətləşdik. Onlar əsgər və qullarımızla o bölgəyə yönəlməyimiz üçün hamılıqla dəqiq düşüncə və qətiyyətli fikirlər irəli sürdülər. Beləliklə, biz də Hələb və Şama doğru hərəkət edib yola düşmək qərarına gəldik.

Gözəl əxlaqınızdan və hamıya şamil olan lütfkarlığınızdan ricamız budur ki, o vilayətə doğru yönəlməyə tələsməyəsiniz. Çünki əhalisinin əksəriyyəti əhli-sünnə və cəmaətdəndir və çoxu da bu ümmətin ən yaxşı alimləridir. Ötən zamanlarda onların başına məlun Çingiz və Teymur

övladları, keçmiş kafir tayfalar və digər zalım firqələr kimi çoxlu bəlalar müsəllət olmuşdur. Bu tayfa da o firqələrdəndir. Sual-cavab gününə[1] (qiyamət) qədər Allah onlara lənət etsin! Bu diyarlardan şərafətli iki hərəmə[2] gələnlərinin çoxundan eşitmişik ki, məğlub İsmayıl sizinlə müharibə meydanından qaçdıqdan sonra öz zəlil nəfsi ilə sizinlə qəti şəkildə qarşılaşmamağı [qərara almış və] Uzun Həsənin Əbu Səid Qorqana etdiyi kimi yollara, çöllərə və dağlara parçalar şəkilində yayılaraq mübarizə aparmaq qərarına gəlibdir.

Allah onun düşüncəsində, ömründə və işlərində xeyir-bərəkət qoymamışdır. Elə isə xalqa zərəri olmayan hiylələri dəf etmək üçün hərəkətə keçməyinizin bir faydası yoxdur. Onların malları və canları tələf olmuşdur. Uca Allaha həmd olsun ki, əfi ilanlara bənzəyən qılınclarınızın zəhərini dəfələrlə içmiş, sizinlə döyüşməmək üçün gecə-gündüz qaçmışlar. Şəhərlərinin və qalalarının çoxunu almış, ən şərafətli məntəqələrini və saraylarını viran etmisiniz. Namuslarına ləkə sürülmüş, qalaları və torpaqları əllərindən çıxmışdır. Şücaətdən onlarda heç bir əsər-əlamət qalmamış və gözlərinin görmə qabiliyyətini itirmişlər. Bu gün biz, iki kəramətli hərəmin (Məkkə və Mədinənin) xadimi, Səfa və Mərvənin nəzarətçisi olaraq münasib olan məxluqatın rifahı üçün sizin aranızı islah etməliyik. Bundan başqa, Rodosun fəthi və bənzər fəthlər kimi sizin daha da önəmli işləriniz var. Belə ki, o möhkəm qalanı fəth etmək məqsədi ilə döyüşmək üçün 100 gəmi hazırladığınızı eşitdik. Sizin bundan daha vacib və daha əhəmiyyətli işləriniz var. Uca Allah ən alim və ən (doğru) hökm verəndir. Məhəmməd əl-Babğanı sülh anlaşmasının şərtlərini hazırlamaq üçün müqəddəs hüzurunuza göndərdik. Sizdən qəbul etmənizi rica edirəm. O (Allah) ümidvar olmağa, sülhə və səxavətə ən çox əmr edəndir.

[1] "Sual-cavab günü" ifadəsi ilə qiyamət və ya məhşər günü nəzərdə tutulmuşdur [t.q.].

[2] Məkkədəki Kəbə evi və Mədinədəki peyğəmbər məscidi nəzərdə tutulur [t.q.].

Sultan Səlimin Qansu Qiruya son məktubu

QEYD: *Qansu Qirunun məktubu zahirən dostluqdan söhbət açsa da, amma diplomatik dildə türk ordusunun səfəvilərə hücum edəcəyi təqdirdə Şah İsmayılı müdafiə edəcəyini çatdırırdı. Sultan Səlim səfəvilərə hücumdan əl çəkərək ilk öncə Qansu Qiru ilə hesablaşmaq qərarında gəldi. Çünki Misir ordusu Şamda özünə mövqe tutmuşdu. Sultan Səlimin səfəvilərə hücum edəcəyi təqdirdə asanlıqla Qansu Qiru ilə Şah İsmayılın qoşunları arasında mühasirəyə düşə bilərdi. Əslində Sultan Səlim hər şeydən çox şiə əqidəsinə etiqad edən Şah İsmayılı aradan götürmək istəyirdi. Ona görə də Misir ordusunun Şamdan geri çəkilməsi ümidi ilə Qansu Qiruya məktub göndərdi. Qansu ilk öncə osmanlı elçilərini zindana atsa da, Səlimin hərəkət etdiyini eşitdikdən sonra zindandan azad edir. Özü də Moğolbəyin rəhbərliyi ilə türk sultanına məktub göndərir. Sultan Səlim əvvəlcə səfiri öldürtmək istəyir, lakin Yunis paşanın xahişi ilə bu fikrindən vaz keçir. Ancaq onun saç-saqqalını qırxdırır, axsaq eşşəyə mindirib Qansu Qiruya göndərir. Onunla birlikdə göndərdiyi məktubda da Qansu Qirunu döyüşə dəvət edir.*

Qansu Qiru! Allah məqamını ucaltsın!

Dünyanın itaət etdiyi ali fərman və yerinə yetirilməsi vacib olan şərii hökm sizə gəlib çatdıqda məlumunuz olsun ki, hazırda hiylə, kələk və fırıldaqçılıq edərək namərdlik yolunu seçib bəzi şəxslərlə iş birliyinə girib [mənə məktub] göndərmisən. Allahın köməyi ilə qəsd etdiyin bütün fitnə-fəsad aydın və aşkar oldu. Acizlərə, namərdlərə və ağılsızlara məxsus olan bu ağlasığmaz vəziyyət ərlik həvəsində və igidlik sevdasında olub ağıldan dəm vuranların işi deyildir. İndi o şəxslər ələ keçib vəziyyətləri (düşüncələri) bütünlüklə məlum olduqdan sonra yenə də sənə tərəf göndərildi ki, sənin yanına gələrək burada araşdırıb tədqiq etdiyi vəziyyət və durum haqqında əldə etdiklərini sənə olduğu kimi və həqiqi şəkildə çatdırsınlar. Çünki bizim Allahın qullarına yaxınlığımıza görə heç kimin hiylə və məkrindən qorxumuz

və heç kimdən gizlədiləcək bir halımız yoxdur. Mənim uca məqsədli qərarım pak şəriətin ehyası üçün Şərq diyarına yönəldiyi halda səndən o dinsiz kafir və pis əxlaqlı fasiqə kömək etmək məqsədi ilə bəzi xoşagəlməz hərəkətlər zahir olmuşdur. Sən onlardan daha təhlükəli olduğun üçün mübarək diqqətim sənin üzərinə cəmlənmişdir. Çoxsaylı əsgərlərim dünyaya sığmır və silah-sursatımızın toqquşmasından hava sıxılmışdır. Sənin üzərinə çoxlu sayda əsgərlər və zəfər əlamətli fəth bayraqları ilə mənzillər aşıb, mərhələlər qət edib, himayən altında olan məmləkətinə girib Malatiya, Larəndə[1], Divriği və Şarköyü (şəhərlərinə) bağlı və tabe olan bütün bölgələrini və torpaqlarını, təpə və dağlarını zəbt olunub qorunan məmləkətimə birləşdirildikdən sonra bu gün, yəni Rəcəb ayının 11-ci günü xoşbəxt bir halda Tucan Dərə Boğazı kimi tanınan yerə daxil olmuşam. Əgər səndə qeyrət, kişilikdə payın və comərdlikdə nəsibin varsa və ya daxilində zərrə qədər işıltısı varsa, o zaman qorxu və həyəcandan künc-bucaqda gizlənməyin, bütün dostlarınızı və köməkçilərinizi də xəbərdar edib ox və balta yarasından başınızı gizlətməyin. Hər hansı bir vəziyyət sənə asan görünürsə, səyində heç bir qüsur etmə. Zərrə qədər qeyrətin varsa istədiyin üslubu və istədiyin mövqeyi təyin edib, gəlib zəfərlər yaradan əsgərlərimlə qarşılaş. Lövhi-məhfuzda təqdir olunan hər nə varsa uca Allahın izni ilə aşkara çıxsın. Hidayət yolunun davamçılarına salam olsun!

922-ci ilin Rəcəb ayının ortalarında Tucan Dərə Boğazı yurdunda yazıldı.

[1] Hazırda Qaraman adlanır [t.q.].

SULTAN SƏLİMİN GİLAN HAKİMİ İLƏ YAZIŞMASI

Sultan Səlimin Gilan hakiminə məktubu

QEYD: *Mətndə məktubun kimə göndərilməsi qeyd edilmədiyi üçün Gilan hakimi deyilərkən dəqiq kimin nəzərdə tutulduğu məlum deyildir. Çünki Sefidrud çayı Gilanı biyəpiş (çayın şərq hissəsi) və biyəpəs (çayın qərb hissəsi) olaraq iki hissəyə bölmüşdü. Çayın bir tərəfində özlərini Sasani soyundan hesab edən "Dibac" və ya "İshaqvənd" sülaləsi hökmranlıq edirdi. Bu bölgənin məşhur hökmdarı əmir Dibac bu sülalənin nümayəndəsi idi. Əmir Dibac, Gilanın yerləşdiyi əlverişli coğrafi şəraitdən istifadə edərək Elxanilərə tabe olmaqdan boyun qaçırdı. Çayın qərb sahilində əmir Hüsaməddinin oğlu olan digər bir əmir Dibac da hökmranlıq edirdi. O, Şah İsmayılın qəzəbinə tuş gəlsə də, Nəcm Zərgərcanın şəfaəti əsasında özünü və hakimiyyətini qoruya bildi. Əmir Dibac Şah İsmayıla tabe olsa da, casuslar onun üsyan etmək fikrində olduğunu Şah İsmayıla xəbər verdilər. Şah İsmayıl onun üzərinə qoşun göndərdi. Nəhayət, əmir Dibac məcbur qalıb Həmədanda şahın ətəyindən öpdü. Şah İsmayıl öz qızını ona verərək onu Müzəffər sultan çağırmağa başladı. Lakin Süleyman Qanuni və vəziri İbrahim paşa Səfəvi torpaqlarına hücum etdikdə fürsətdən istifadə edən əmir Dibac Təhmasibə qarşı çıxdı. O, öz yerini tərk edərək türk sultanının xidmətinə gəldi. Osmanlı sultanı Azərbaycanı tərk edəndən sonra əmir Dibac öz yerinə qayıdanda artıq əmir Hatəm Rəşt və ətrafını özünə tabe etmişdi. İki əmir arasında baş verən döyüşdən sonra Müzəffər sultan məğlub olub qəmi ilə Bakıya gəldi. Sultan Xəlil Şirvanşah onu öz yanına apardı. Lakin Şirvanşahın ölümündən sonra düşmənləri onu tutub Təhmasibin yanına göndərdilər. Təhmasib hicri-qəməri tarixi ilə 942-ci ildə Təbrizdə onu faciəli şəkildə öldürtdü.*

Cənab hökmranlıq və izzət mənbəyi, qübbəsi uca, ədalət və cah-calal mənbəyi, ağıl sahiblərinin xidmətində duran, şərafətli və ədəb-ərkan sahibi, əsil-nəcabətli, əmirlərin böyük sərkərdəsi, Allah-təalanın sonsuz lütfləri ilə şərafətlənmiş Gilan hakimi! Alicənablığın daimi olsun!

Qəbul edilən dua və çoxlu salamlar sırf Allahın (nur əta edənin) lütfündən aşkara çıxar. "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?!"[1] özündə əks etdirən doğru-düzgün fikrin nəticəsi budur ki, "...hər şeyin hökmü (ixtiyarı) əlində olan..."[2] mülk sahibinin [öz] yaratdıqlarına şamil edilən qüdrətinin sonsuz qələbələrindən bir nöqtə olan və "...Sən mülkü istədiyin şəxsə verərsən..."[3] [ayəsində haqqında söhbət edilən] qüsursuz mülk sahibinin ədalət və bəxşişindən qaynaqlanan tayfa böyükləri arasında "...sizi yer üzünün varisləri təyin edən Odur"[4] [deməklə] bizim başımızdakı möhtəşəm əmmaməni "...onunla yer üzünü öldükdən sonra diriltdər..."[5] [ayəsinin məzmununa uyğun olaraq] əzəmətli və gözəl tacla, əbədiyaşar varlığı isə "...Allahın sənə lütfü böyükdür"[6] [ayəsinin] fəzilətli ənamının şərafəti ilə şərafətləndirdi. [Tanrı bu işi mənə həvalə etdikdə] hətta kəramətli ərəb vilayəti, Misirin nadan zülmkar çərkəzlərinin əməyi və qərarı nəticəsində "...büsbütün xaraba qalmış..."[7] [ayəsinin ifadəsinə] uyğun gəlirdi. Məsələn, Hələb xeyirlərin (faydalar) sağıldığı süd qabı, məzlum və zülm görmüşlərin qanlı göz yaşlarının damcılarının tökülən yeri idi. Əziz padşahların (məliklərin) şəfəq saçan parıltısı və rəiyyətin haqlarının qorunması ilə zinətlənən Şamın (və ya gecənin) gözəl sübhünün (səhərinin) xeyirli və nurlu çöhrəsi, o günahkar və ilahi əmrdən çıxan tayfanın qaranlığı (zülməti) və məzlum insanların bəd-

[1] əz-Zumər, 39/9.
[2] Ya sin, 36/83.
[3] Ali-İmran, 3/26.
[4] əl-Ənam, 6/165.
[5] ən-Nəhl, 16/65.
[6] ən-Nisa, 4/113.
[7] əl-Bəqərə, 2/47.

bəxtçiliyinə səbəb olan günahlar ilə Şamın (və ya gecənin) qaş-qabaqlı çöhrəsinə bənzəyirdi. Ölkə və şəhərlərin iftixarı və mübarək Nilin qollarının [Qurani-Kərimin ifadəsi ilə desək] "...altından arxlar axan..."[1] cənnətə bənzər, yaxşı adı Allah-təalanın kəlam gövhərləri arasında gah açıq-aşkar, gah da qapalı şəkildə anılan Misir. Əvvəllər Nil çayının bərəkətli sularının keçdiyi ənbər qoxulu torpaq və pak təbiətli gillərində [yetişən] xurma ağaclarından şirin və dadlı xurmalar yığılardı. Sahillərində [yaşayan] kəndli xırmanları və yığılan dən (toxum) topaları, mirvariyə bənzər qum topaları kimi dolu olurdu. Amma xoşbəxtliyə mane olan bu zülmkar məhv olmuşun cəfa küləyi və küləklərin yaratdığı şimşəyi, ərəblərin varlıq buludundan fasiləsiz acı göz yaşının yağışını yağdırırdı. Hər məzlumun ah-naləsinin [yaratdığı] isti külək bənzərsiz Allahın qəzəbini alovlandırırdı. Hovuzlarında bərəkət və fəaliyyətlərində isə canlanma yox idi. Aləmlərin Rəbbinin vəhyinin nazil olduğu [biri] mömin tayfaların qibləsi, peyğəmbərlərin sonuncusunun risalətinin başlandığı məkan, "...hər cür arıq (yorğun-argın) dəvələr üstündə gəlsinlər"[2] [ayəsində işarə etdiyi kimi] mənəvi təvaf edilən yer və digəri isə [bütün] peyğəmbərlər və seçilmiş [peyğəmbərlərin] ağasının ruhunun (peyğəmbərin dəfn olduğu yer) olduğu məkan, yaxın mələklərin (Allah dərgahına yaxın olan pak insanların) ruhlarının məzarı "hər kim qəbrimi ziyarət etməzsə, deməli, mənə zülm edibdir" [ifadəsinin] şirin mənalarının mənası olan iki möhtərəm hərəmin[3] hər ikisi rəzil hakimiyyətin əhatəsində və bir neçə [yırtıcı] kərkəz [quşunun] caynağındadır. Yanındakı xidmətçilər o şərəfsiz alçaqlara intiqam və əziyyət verməkdə yardım etməkdən cana gəlmişdilər. Bu məmləkətlərin müqəddəs şəhərlərindən hər bir şəhər o kafir soyluların axmaqlığı

[1] əl-Bəqərə, 2/266.
[2] əl-Həcc, 22/27.
[3] Kəbə evinin yerləşdiyi Məkkə şəhəri və peyğəmbərin dəfn edildiyi Mədinə şəhəri nəzərdə tutulur [t.q.].

ucbatından məhv olmuş və gözəlləşən (abadlaşan) kəndlərdən hər bir kənd, sitəmi özünə məslək seçən bu zalımların iftira və böhtanından xarabazara çevrilməyə başlamışdır. Hər bir heyrət əhli öz heyrətini "...öləndən sonra torpağı dirildir..."[1] [ayəsinin məzmununa uyğun olaraq] ifadə edirdi. Nəhayət ki, qüdrətli və əzəmətli Allah möminlərin dilinin kamanından "...Ey Rəbbim, buranı bəladan asudə bir şəhər et..."[2] [ayəsinin məzmununda qeyd edilən] dua oxunu "...Biz onları daim rahatlıq verən sıx kölgəlikdə yerləşdirəcəyik"[3] [ayəsinin məzmununda qeyd edilən] hədəfə tuş gətirdi. O yolunu azmış firqə, silsilə döyüş və qətllər, mütəmadi döyüş və yaralanma, ox və nizəyə [tuş gələn] yeməli quşların vurulmasından, rüsvayçılıq və süstlük [nümayiş etdirdikdən], miniklər və onları müşayiət edənləri ayaqlar altına qoyub məhv etdikdən sonra [İlahi] fərman qələbə çaldı. Onların qələbə iddiasını təkrar edən sərdarlıq izzətini əldə etdi (kinayə mənasında). Tərəfdarlarının bəzisi "...Fironun adamlarını [suda] qərq etdik..."[4] [ayəsində] buyurulduğu kimi, cəhənnəm saqilərinin ovcundan isti şərab qurtumunu son dərəcə tələsik içdiyi üçün özlərini suya atdılar. Bəzilərinin "...zülmlərinə görə onları ildırım vurmuşdu..."[5] [ayəsinin] məzmununda deyildiyi kimi, döyüş şücaətlilərinin top və tüfənginin qorxulu səsindən ödü partladı və ağlını itirərək həlak oldu. Bəzilərinin "...şeytanları daş-qalaq etmək (qovmaq)..."[6] [ayəsinin məzmununa uyğun olaraq] müzəffər yeniçərilərin silahlarının atdığı ulduzlardan (məcazi mənada) həyat səmasının yüksəkliklərindən ölüm torpağının dərinliklərinə düşdülər. Bəzilərinə hərçənd ki, öz beyinsiz başlarına döyüş meydanının aslanlarının etdiyi hücumu dəf etmək mümkün

[1] ər-Rum, 30/19.
[2] əl-Bəqərə, 2/126.
[3] ən-Nisa, 4/57.
[4] əl-Bəqərə, 2/50.
[5] ən-Nisa, 4/153.
[6] əl-Mülk, 67/5.

olsa da, iti qılınclar tutmuş zəfər barmaqları ayın yarılması möcüzəsini göstərərək düşmən qoşununun əsgərlərinə uçan nizə (və ya ox) ucluqları kimi deşici ox ucluqları ilə faciəli ölüm xəbərinin məktubunu çatdırdı. Qalib ordumuzun pələng öldürən qəhrəmanları və cərgə dağıdan pəhləvanları qüvvətli (nəhəng) düşməni canlar alan hücumla kərgədan buynuzuna keçirtdilər. Nəticə etibarı ilə o, ayrı-seçkilik salan fitnəkar camaat "... onlara zəlillik və miskinlik damğası vuruldu..."[1] [ayəsində qeyd edildiyi kimi] zillətə düçar oldular. Meydanın aslanlarının qılınc zərbəsindən xilas olaraq öz görkəm və formalarını dəyişib kəndlilərin dənləri kimi hər bir yerdə gizlənməyə imkan tapanlar haqqında müzəffər naiblərimizə xəbər çatan kimi hamısını "onları harada görsəniz öldürün..."[2] [ayəsinin hökmünü rəhbər tutub] mərhəməti qadağan edən əmirlərə boyun qoyaraq "... onu yerlə yeksan edərik..."[3] [ayəsinin məzmununa uyğun] məhv etdilər. Hazırda İlahi lütflər və çətin işləri asan edən həzrəti risalətin möcüzələri sayəsində yaxında olan fəth günəşinin çıxması ilə İlahi dərgahdan qovulan şeytanın xəbis qoşununun zülmət vücudu məhv edildi. Ərəb məmləkətlərinin rəhbərləri və sevinən ərəblər "Allah onu müjdə qərar verdi..."[4] [ayəsinin məzmununa uyğun olaraq müjdə verməyə] gəldilər. Hər bir ləyaqətli və ehtiyaclının əhvalının gülüstanı ədalətli vəkillərin vəkilliyinin bəraəti nəticəsində müşahidə edilir. Məğrur ərəb əmirləri "...Mən indi tövbə etdim..."[5] deyə-deyə özlərinin itaət etmələrini vacib əməldən itaət etmək kimi həyata keçirtdilər. Düşmən rəhbərlərinin kin [və qəzəbinin] qaldırdığı fitnə tozu Ceyhun çayının suyu və alov söndürən qılıncın suyu ilə yatızdırıldı. Əyalət gülşənində tikan və ədalət çəmənində rəzillik qalmaz, əgər ilahi iradəyə bağlı olan

[1] əl-Bəqərə, 2/61.
[2] əl-Bəqərə, 2/187.
[3] əl-İsra, 17/16.
[4] Ali-İmran, 3/126.
[5] ən-Nisa, 4/22.

gözəl fəaliyyətli azacıq günəş çıxıb cəzalanması zəruri olan İsmayılın varlığının (zəif) kölgəsini aradan apararsa. [Təbii ki,] əgər Allah istəyərsə.

Sizin dini qeyrətiniz və tərəddüdsüz mürüvvətiniz üçün vacib və zəruridir ki, o yerlərin ətrafında yaşayan din qardaşlarınız və yaqin əhli (dostlarınız) ilə həmrəy və həmfikir olub bu xəzinələri fəth etməyə hamiləliyin [son] gecələrində [uşağını] doğmağa hazır qalan [insanlar kimi] gözləyin. Hazırda pisliklər mənbəyi olan o sərdar [haqqında] siz ali cənabın duyduğu və eşitdikləri haqqında fəzilətlilərin rəhbəri, – məqamı uca olsun, – vasitəsilə xəbər göndərib agah edin.

Bəndələrin ən yaxşısı Məhəmməd, onun alicənab övladları və dəvətini qəbul edən səhabələri xatirinə əbədiyaşar cah-calalı, ucalığı və qisməti, eyib və nöqsandan uzaq olsun.

Bu ali məktub 923-cü ilin Cəmadiəl-axir ayının 27-də – cümə günü yazıldı.

Gilan hakiminin Sultan Səlimə cavab məktubu

...Həsən Bəy Silahdar vasitəsilə dinsiz Qızılbaş tayfasının əmirlər əmiri məlun Qaraxanın başı ilə birlikdə [göndərmiş olduğunuz] şərafətli məktubunuz [əlimizə] gəlib çatdı. Oradakı görüşlərinizi oxuduq və Mardin qalası yaxınlığında Diyarbəkir valisi, əmirlər əmiriniz olan Məhəmməd Paşa Bıyığlı ilə o fasiq zalımlar arasında baş verən müharibənin məzmunu haqqında yazdığınızdan və İslam ordularının əldə etdikləri fəth və zəfərdən, xəbis düşmənlərin başlarına bəlaların və müsibətlərin enməsindən, saylarının çoxluğuna baxmayaraq, aralarında parçalanmanın baş verməsindən, müsəlmançılıqlarının və əqidələrinin olmaması üçün xoşbəxtliklərinin əldən getməsindən xəbərdar olduq. [Buna görə də] hədsiz dərəcədə sevindik, bazarları müxtəlif növ qumaş və ipəklə bəzədik, ölkəmizin saleh insanları ilə birlikdə xoşbəxtliyinizin (müvəffəqiyyətinizin) artması üçün

dualar oxuduq və seçilmiş yaxınlarımızdan olan Cəmaləddin Yusif Qəptanı xidmətinizə göndərdik və onunla birlikdə Hind məmləkətlərinin padşahı tərəfindən hədiyyə edilən və əlimizə gəlib yalnız ikisi çatan dörd fildən birini bəzi növ Misir malları ilə birlikdə təqdim etdik. Ali-cənabın gözəl şəkildə qəbul etməsinə ümid edirik. Qahirədə bəzi önəmli işlər üçün [sizdən] lazım olan taxtalar almaq və o sənət (dülgərlik) əhlindən bir dəstəsini göndərməniz məqsədi ilə ona müəyyən miqdarda dirhəm verdik. Sizin alicənablıq [nümayiş etdirərək] ehtiyacımızın yerinə yetirilməsi və (bu ehtiyacımıza) lütf gözü ilə baxacağınıza ümid edirik. Həqiqətən də, bizim aramızda sizin əzəmətli atalarınız və kəramətli əcdadınızın zamanından etibarən davam etməkdə olan qədimi məhəbbət və möhkəm sevgi vardır. Avam insanların uydurmalarına görə onda bir dəyişiklik baş verməz, əksinə, hər gün artmağa davam edər...

SULTAN SƏLİMİN ŞİRVANŞAH İLƏ YAZIŞMALARI

Sultan Səlim tərəfindən Şirvanşaha göndərilən Misir fəthnaməsi

QEYD: *Sultan Səlim Azərbaycanı işğal etmək və Şah İsmayıl ilə yenidən döyüşmək üçün Zülqədərin vilayətinə gəlib çatdıqda qoca Qansunun İsmayılı tam müdafiə etməsindən və Misir məmlüklərinin Şama çatmasından xəbər tutdu. Əlacsız qalan Səlim, Qansu ilə döyüşü daha mühüm hesab etdi. Əlbəttə, Səlimin bu fikrə gəlməsində Hələb hakimi Xeyir bəyin xəyanətkar məktublarının da böyük rolu olmuşdur. Osmanlılar ilə Misir məmlükləri arasındakı döyüş Hələb yaxınlığında baş tutdu. Osmanlı ordusunda topların olması və Hələb hakimi kimi bir sıra satqınların kömək etməsi Qansunun məğlubiyyəti və həlakı ilə nəticələndi. Bu döyüşdən sonra Xeyir bəy Hələb darvazalarını osmanlıların üzünə açaraq məmlüklərin bir neçə yüz illik qiymətli xəzinələrini onlara təhvil verdi. Hələbin fəthindən sonra Homa, Homs və Dəməşq kimi şəhərlər də osmanlıların əlinə keçdi. Səlim Dəməşqin Əməvi məscidində namaz qıldı. Səlim ilə məmlüklər arasında Zilhiccə ayının 29-da baş verən növbəti döyüşdə Səlim yenə də qələbə çaldı. Məmlüklərin paytaxtı Qahirə şəhəri türklərin əlinə keçdi. Türk sultanı Misir və Şamı ələ keçirtdikdən sonra Misirin hökmranlığını Xeyir bəyə və Şamın hökmranlığını isə Can Bordi Qəzaliyə tapşırdı.*

Alicənab hakimiyyət və izzət mənbəyi, ucalığın zirvəsi, dövlətçilik mənbəyi, ədalətli, əsil-nəcabətli, böyüklük və vüqarlı olmaq arzularının sahibi, izzət və iftixarı özündə birləşdirən, pak əsil-nəcabətindən xəbərdar olan, parlaq nəslin davamçısı, insaf gövdələrinin bəzəyi, zülm gövdələrini kökündən kəsən, ağıl sahibləri, saf nəsil və gözəl əcdadı olan ədəb sahiblərinin xidmətçisi, [dünyanın] maliki və

rəhmli olan [Allahın] müxtəlif lütflərinə şamil olmuş Şirvanşah Şeyx İbrahim! Ucalığın davamlı, gecə və gündüzlərin uzun olsun!

Padşahlığın nur əta edən lütfü [sayəsində sizə] çoxlu salam və qəbul edilən dualar göndərilir. Günəşə bənzər düşüncənin parlaq nəticəsi budur ki, Rəhman olan Allahın xilafət kürsüsünə sahib olmaqdan ən uzaq (gələcəyə yönəlmiş) və ən ali hədəfimiz, müsəlmanların dinini gücləndirmək, güclü məmləkətlərimizi zülm təsirlərindən qorumaq, küfr və dinsizliyi ortadan qaldırmaqdır. Əlbəttə ki, xilafətin mərkəzi (evi, məskəni, yuvası) olan bu ailə, mövcud adətlər üzrə mal-mülk məsələlərini, təhlükəsizlik və arzular bayrağını möhkəmləndirməyə yönəlməmişdən öncə dövrün alimlərinin və din rəhbərlərinin (imamlarının) fətvasına əsasən ilk olaraq kafirlərlə cihad etməkdən daha vacib və daha əhəmiyyətli olan dindən çıxmış qızılbaşla savaşmağı və onların fəsad aləmini ortadan qaldırmağı bütün Osmanlı məmləkətlərinin mənafeyi naminə önə saldıq. Allah-təalanın yardımı və gözəl dəstəyi ilə Təbriz diyarının yaxınlığında fəsad yayan o qövmün yolunu azmış başçısı olan şahı məğlub edib darmadağın etdik. Əsas məqsədimiz o murdar tayfanın napak pisliklərini yer üzərindən pak edərək təmizləmək idi.

Müzəffər ordularımızın sayının çox olması və həmin il o məmləkətdə qışlamaq mümkün olmadığı üçün çarəsiz qalıb Əhmədin qayıtması[1] kimi sərhədlərə qayıtmağı zəruri hesab etdik. Həmin qış küfr ilə İslamın sərhədində yenidən qələbə əzmi niyyəti ilə qışlayıb və baharın əvvəllərində yenidən dindən çıxmış o tayfa ilə cihad etməyə yönəldik. İranın ən əzəmətli qalalarından olan Kemaxı yolunu azmış o dəstənin əlindən bir gündə və bir həmlə ilə aldıq, Azərbaycan və Bayburd şəhərləri və Ərməniyyə məmləkətlərinin böyük bir hissəsi ələ keçirilmiş oldu.

[1] Həzrəti Məhəmmədin yenidən Məkkəyə qayıtması üçün məcbur qalıb Məkkəni tərk etməsinə işarə olunur [t.q.].

Bu məqsədimizi [həyata keçirdiyimiz] əsnada zülmkar və sitəmkar təbiətli Əlauddövlə Zülqədərin üsyan etdiyi və dindən çıxdığı xəbəri bizim naiblərimizin qulağına gəlib çatdı ki, fəsad mənbəyi qızılbaş dostu ilə razılaşaraq küfr və dinsizliyin əsasını qoyub, yol kəsmək və şəhərlərə şiddətli şəkildə hücum etməyə başlayıb. Çarəsizcə "Ey iman gətirənlər! Yaxınlığınızda olan kafirlərlə vuruşun"[1] [ayəsinin] məzmununu rəhbər tutub Kemaxdan Zülqədərə tərəf hərəkət etdik. Cənab Allahın yardımı ilə bir göz qırpımında zəfərlər yaradan bəndələr, işi tamamlamış oldu. Ona tabe olan və onların övladlarından ibarət əlli mindən artıq qoşunun hamısı darmadağın edilərək rəhbərləri və əyan-əşrəfləri öldürüldü. Onun məmləkətləri, qalaları və tabeliyində olan yerlər bütünlüklə uca xadimlərimizin tabeçiliyinə keçdi. Yeni fəth üçün uzun səfər fürsəti qalmadığından müzəffər əsgərlərimizin istirahət etməsi və güc toplaması üçün bir müddət xilafət mərkəzinə geri döndük. Həmin qışda bəzi adamlarımıza Diyarbəkir məmləkətləri və Kürdüstanın bütün vilayətlərini fəth etmək və tutmaq fərmanı verildi. Pak olan Allahın yardımları ilə Diyarbəkirin bütün qalaları və məmləkətləri, xüsusilə "sütunlar sahibi İrəm (qəbiləsinə) halbuki, yer üzündə onlar kimisi xəlq edilməmişdi"[2] [ayəsi nümunəsində] olan, [güclü] qorunan Amid və [habelə] Çəmişgəzəkdən [tutmuş] Bağdad və Təbriz hüdudlarına qədər Kürdüstanın bütün məmləkət və diyarları rəhbərliyimiz altına keçib, ixlasla qulluq etməyi qəbul etdilər. Onların hamısı [Allah tərəfindən] yardım olunan din və dövlətçiliyimiz yolunda xalis etiqadlarını və səmimi qəlbdən gələn sevgilərini təqdim etdilər. Yaradanın yardımı ilə bahar mövsümünün əvvəllərində iqtidarımızın və xilafətimizin qərargahından İslam əsgərlərinin dərya kimi coşqun dəstələri ilə hərəkət etdik və İslam bayraqlarını İran ölkələrinə sancmaq və kafir qızılbaş-

[1] ət-Tövbə, 9/123.
[2] əl-Fəcr, 89/7–8.

ları aradan qaldıraraq həyat səhifəsinin üzərindən yox etməyi qətiyyətli şəkildə əzm etdik. Zülqədərin məmləkətinin sərhədlərində xeymələrimizi qurmaq xoşbəxtliyinə nail olduqda belə bir hadisə baş verdi ki, Misir sultanı Qansu Qiru qədim və yeni İsmaili kafirlərin[1] zəlalətinə və yollarını azmasına əzəmətli və qüdrətli orduları ilə yardım etmək məqsədilə o sərhədlərə yönəldi. Onun şərafətli Hərəmeynə (Məkkə və Mədinə) xidmət üçün əldə etdiyi iftixar və şanına, İslam dəyərlərini qorumasına və bizim xanədanımıza olan səmimiyyət və ixlasına baxmayaraq, öncəki əhd-peymanlardan və imandan üz döndərib özünü doğru olmayan yola və qəbul olunmaz bədbəxtlərin cərgəsinə salaraq, "münafiq kişilər və münafiq qadınlar bir-birinin tayıdırlar. Onlar (insanları) pis işlər görməyə vadar edər, yaxşı əməllərə qadağa qoyarlar"[2] [ayəsində buyurulan] qorxunc və doğru olmayan yol ilə özünü məşhur edərək tanıtdırdı. Belə olan halda müsəlmanlığımıza yaraşan himayədarlıq və qeyrətimiz, sultanlığımıza yaraşan qəhrəmanlıq və igidliyimizin tələbinə uyğun olaraq "Kafirlərə və münafiqlərə qarşı vuruş! Onlarla sərt davran!"[3] (ayəsinin) açıq dəlilinə əsasən "yer üzündə fitnə-fəsad salmağa çalışanlar"[4]ın döyüş əsaslarını aradan qaldırmaq və həyat damarlarını kəsmək həm ağıl, həm də şəriətə əsasən vəzifələrin ən önəmlisi və bütün işlərdən əvvəl gəlməsi vacib olduğu üçün dünyanı gəzən səməndimizin cilovunu Malatya sərhədlərindən Hələbə doğru yönəltdik. Həmin hərəkət zamanı dayanmaq və yavaşlamaq fürsəti qeyri-mümkün olsa da, ildırım kimi sürətli iradəmizi yoldan döndərməyə cəhd edilsə də, Allahın yardımı ilə Malatya ilə Hələb arasında olan bütün qala və istehkamlar, o cümlədən Divrığı, Qocne [və habelə] Rum, Birə və Əynetab

[1] Çox güman ki, "qədim İsmaili kafirləri" sözü ilə nəzərdə tutulan, Fatimilər dövləti adı ilə Misirdə uzun illər hökmranlıq etmiş İsmaili firqəsidir. "Yeni İsmaili kafirləri" ilə də qızılbaşlara işarə edilmişdir [t.q.].

[2] ət-Tövbə, 9/67.

[3] ət-Tövbə, 9/73; ət-Təhrim, 66/9.

[4] əl-Maidə, 5/33; 5/64.

qalaları bir hücumla fəth edildi. Rəcəb ayının 25-də Hələb yaxınlığında Mərc-Dabiq adı ilə tanınan və Davud Peyğəmbərin, – salam olsun ona, – məqamına bitişik olan yerdə müzəffər ordumuz düşmən qoşunu ilə qarşılaşdı. Haqq ilə batil və doğru yolda olan sultanlar ilə yanlış yolda olanlar qarşılaşdı. Tərəflər arasında döyüş və ölüm alovu səmaya yüksəldi. Döyüş əsnasında ölüm o zəlalətə düçar olmuşların yaxasından yapışdı. Döyüş meydanının şirlərinin nəriltisi, top-tüfəngin gurultulu səsi mavi səmanın ənginliklərinə qədər gedib çıxırdı. Həmin ərəfədə qorxunun son dərəcə qələbə çalması və ordumun ürəkləri titrədən həmləsindən Qansu Qiru özünü itirərək huşdan getdi. Biixtiyar minikdən yerə düşərək həlak oldu. Dadlı şərbət, ürək və damağı gücləndirən dərman kimi onun beyinsiz başını əlac bilsələr də, faydası olmadı. [Onun başını ələ keçirə bilsəydim, sanki] ölümündən sonra Söhraba verilən nuşidar idi.

Bu zaman Şam və Trablusun (Tripoli) əmirlər əmiri onun əzəmətli əmirləri və böyük sərkərdələri döyüş meydanının hər yerində və hər tərəfində daha çox iti oxlarla həlak olub mərdlik meydanında namərdcəsinə torpağa düşdülər. Bəziləri isə tab gətirməyib arxaya doğru qaçmağa başladılar. Lakin qılıncların parıltısının istiliyi, yay mövsümünün istiliyi ilə birləşmişdi. İgidlərin əlindəki odlu qılıncın hərarəti və nizələrin alovu o qaçanların baş və boynunda hiss edilirdi. Məşəqqətli meydandan Hələb şəhərinə qədər neçə min susuz at və atlı, aslan igidlərə rast gəlib ova çevrilirdilər. Bir damla su tapmaq arzusu ilə ölüm şərbətini içməyə hazır olanlar mücahidlərin iti qılıncları ilə canlarını tapşırırdılar. Bəziləri Hələbə çatdıqda şəhər əhalisi xilas və nicat qapısını onların üzünə bağlayıb hamısını ölümlə üz-üzə qoydu. Kafir soylu çərkəzlərin murdar cəsədlərini (?) ödəyərək öz zibilliklərində ölü it və pişiyin yanına atırdılar.

Zəfərlər yaradan ordumuz şəhərin qapısına çatdıqda bizim xilafətin kölgəsinin orada genişlənməsini arzulayan məlikliyin bütün sakinləri müzəffər ordumuzun atlarının

[ayaqları altından çıxan] tozları ümid və intizar gözlərinə çəkdilər və dərhal o məğlub olmuş sultanın və darmadağın olmuş ordunun şəhərdə və qalada qorunan bütün mal-mülkünün qapılarını və var-dövlət xəzinələrinin kilidlərini dərgahımızın qullarının xidmətinə təqdim etdilər. Mühasiblərin miqdarını və say-hesabını yaza bilmədiyi miqdarda rəqəmlə [ifadə etsək] minlər yanında minlərcə sıfırlarla qiymətli əşyaları, əmtəə, mallar və nağd [qızıl-gümüş və ya pulu] xəzinəyə təhvil verdilər. Müzəffər ordunun bütün üzvləri və orduya kömək edənlərə qiymətli mallar (var-dövlət) verildi. Hələb ölkəsində yüksək qalalar və ətraf bölgələrin istehkamları ələ keçdikdən sonra bizə xəbər verdilər ki, zəmanənin üz döndərdiyi qoşunun qalıqları olan bəzi çərkəzlər Dəməşq [şəhərinə] çatıblar. Hələ də sultanlıq qanunlarını bərpa və şeytanlıq ayininin qaydalarını dirçəltmək fikrində olduqlarından özlərindən ayrı düşənin sözü ilə digər bir qulamı sultan edib Misir və Şamda qeyri-qanuni səltənət yaratmaq istəyirlər. Müqəddəs yerlərin sakinləri, imkansızlar və rəiyyətlərini öz zülmkar üslubları ilə tabe etdirib məzlumların əmlakına haqsız yerə sahib çıxmaq istəyirlər. Məcbur qalıb müsəlmanların vəziyyətinə yardım etmək və zülmkarları məhv etmək üçün şahanə iradəmizi o istiqamətə yönəltdik. İlahi yardım və lütf ilə növbəti [dəfə] bənatun-nəşin nəhs ulduzlarına bənzəyən məğlub çərkəz ordusu pərişan oldular. Şam qalası və o cənnət kimi yerlər ruzigarın oğullarının əqlinin heyran olduğu formada xidmətçilərimiz tərəfindən ələ keçirildi. Oradan isə padşahın qərarına əsasən şərafətli iki hərəmə [getmək üçün] mübarək qafilələr hazırlandı. Şahlıq qayda-qanunlarına əsasən şahzadələr və Kəbəni görmək arzusunda olan digərləri səfər tədarükü və yükünü hazırlamağa tələsirdi.

Təsadüfən bu arada yenə də şahzadələrin dərgahına xəbər çatdı ki, Şam və Hələbdən qaçan çərkəzlərin bəzisi ötən hadisədən sonra böyük Tuman bəyin Qansu Qirudan sonra Misir hakimi təyin edilməsi xəbərini eşidərək bir-birinin razılığı ilə onu sultan seçiblər. Bu zamanda (yeni) meydana çıxan Qahirə dövlətinin yenə də əvvəlki kimi olacağını düşünüblər. "Ərəblər (bədəvilər) küfr və nifaq baxımından daha pisdir..."[1] xoşagəlməz tayfanın (ərəblərin) fitnə və fəsadını aşkar edərək ərəblərin yol kəsməsi ilə Hicaz yolunu qorxu altında saxladılar. Əvvəlcə "Biz, peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab verməric"[2] [ayəsinin] tələbini rəhbər tutub şahlara layiq mərhəmət və mehribancasına nəsihət etməklə Tuman bəyin adına [yazılan məktuba] möhür vuraraq göndərdik ki, Allah-təala İslam qanunlarının tərtib və nəzmini və beytül-haramın kəcavələrinin təchizatını bizim şahanə iradəmizə həvalə etmiş və bütün diqqətimiz İslam məmləkətlərini qaydaya salmağa yönəlmişdir. Şübhəsiz ki, şəriət qaydaları və əqli dəlillərlə həmin tayfanın böyük və kiçiyinin "eşitdik və itaət etdik" deməsi zəruridir. Dini və dünyəvi hər bir istəklərini (arzu və hədəflərini) bu hacətlər dərgahında reallaşdıra biləcəklər. Mehribanlıqla yazılan bir məktub elçi vasitəsilə həmin qarışıqlıq istiqamətində göndərildi. "Biz bir məmləkəti məhv etmək istədikdə onun naz-nemət içində yaşayan başçılarına (Allaha iman gətirməyi) əmr edərik. Lakin onlar (Allaha asi olub) pis-pis işlər törədərlər. Beləliklə (o məmləkətə əzab verilməsi haqqında) hökm vacib olar"[3] [ayəsinin] möhkəm hökmünü [rəhbər tutsaq da] sanki özlərini kor və karlığa vurub bizim nəsihətlər söyləyən elçimizi və bir neçə mücahidi qətlə yetirdilər.

Bu kafiranə əməlin xoşagəlməz aqibətini düşünməyib cahilik etmişlər:

Qəza səmadan səkkiz qanadlı kimi enəndə
Bütün ağıllılar kar və kor oldular.

Şübhəsiz ki, zəmanə əhlinin gözlərinin ibrəti olan şahanə qeyrət uzun dalğalar dənizi kimi təlatümə gəldi. Aləmin itaət etdiyi fərman, nəhəng əsgər dənizinin və intiqam alan

[1] ət-Tövbə, 9/97.
[2] əl-İsra, 17/15.
[3] əl-İsra, 17/16.

şücaətli qoşunun hərəkətə gəlməsinə səbəb oldu. Ərəb və Əcəm hamılıqla qalib ordunun Qutbiyyənin isti və Rəmlənin yumşaq qumlarının yanından keçib getməsini qeyri-mümkün hesab edir və bir tilsimi batil etməyə [necə inanmırdılarsa] bu düşüncəni də [o cür] yaxına buraxmırdılar.

Misir səhrasını ayırmağın asan olduğunu söyləmə
Ki, bəla dağları bu səhranın qumlarıdır.

Amma "kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər"[1]. O təhlükəli vadidə əzəmətli dağ kimi addımlarımızı sabit və möhkəm etdik. Dayanmadan qoşunun əsas hissəsi və aləmin pənahının hüzuruna yaxın olan bəndələr ilə yola düşdük. Qalib ordudan əvvəlcə mərhum sərkərdə Sinan paşanı dağ kimi dəstə ilə Qəzza və Rəmlə istiqamətində göndərdik. Onların arxasınca digər dəstələri göndərdik. Təsadüfən o məğlub tayfa da öz qoşununun xalis əmirlərini özlərinin məşhur sərkərdəsi Can Bordi Qəzalinin rəhbərliyi altında bir çox ərəb və çərkəzlə Qəzzaya göndərdi. Hər iki dəstə Qəzza ətrafında döyüşə atıldılar və tərəflər şücaət və mərdlik göstərdilər. Amma Allah-təalanın yardımı və hidayətedici şəxslərin iradəsi bu mücahidlərin tərəfində olduğu üçün onlar ərəblərin və qulların ordusunu məğlub etdilər. Bir an içində onların sərkərdələrinin başlarını mücahidlərin tərkindən asdılar. Can Bordi Qəzali min hiylə və kələklə özünü qalib ordunun qorxuduldugu susuz biyabana saldı. İnsanların çoxu həmin səhrada öldü. "Pis əməl ancaq onun öz sahibinin başında çatlayar". Sinan paşa öldürülənlərin qalıqlarını (ödənməyən vergilərini) düşmən qoşunun kisəsindən ödədi. Qəzza şəhərindən həmin otsuz və susuz səhraya daxil oldu. Təsadüfən gözlənilənin əksinə olaraq xoşbəxt tale və ibadət edilən lütfü ilə bütün səhra boyunca səmanın feyz və bərəkətli rəhmət yağışı yağmağa başladı. Belə ki, illərlə və hətta əsrlərlə su axmayan yerlədən qorxulu sellər axmağa başladı. Misirin sərhəd [əraziləri] olan Salehiyyə və Qətibə mənzilindən kənara çıxmağa başladı.

[1] ət-Talaq, 65/3.

Verilən xəbərə görə, çərkəzlər şəhərin çöllüklərində və Misir hasarlarının ətrafında xəndək qazmağa və çoxlu top-tüfəng yığmağa başlamışdılar. Şəhər əhalisi, ərəb, əcəm, məğribli və zənzibarlar hesabına təqribən 12 min nəfər zireh geyinən silahlı süvari və saysız-hesabsız piyadanı Misirin şərqində hazır saxladılar. Bəndələrin rəbbindən yardım alaraq Zilhiccənin 28-də qalib ordunun cərgələrini nizama saldıq. Moqəttəm dağı istiqamətindən Cemah gölməçəsi yolu ilə ilahi qəzəb yaz seli kimi o qəzəbə gəlmişlərin heyrət vadisinə axmağa başladı. Döyüş başlayanda hər iki tərəfdən top və tüfəngdən istifadə edilməyə başlandı. Təəccüblü burasıdır ki, 200 topun atəşindən qalib ordunun heç bir üzvünün ayağına bir daş belə dəymədi. Lakin qalib ordunun hər bir top və tüfəngi cərgələri dağıdırdı.

Səhər açılandan günortaya qədər döyüş beləcə davam edirdi. Dəfələrlə hücum edib müdafiəyə çəkiləndən sonra rəqiblərin ön süvariləri avamcasına qeyrət göstərib öz sultanlarını müqavimət göstərməyə və addım atmağa təhrik edirdilər. Şəhər əhli və vadi ərəbləri qarışıq halda və çəyirtkə [kimi] qalib ordunun ətrafında peyda olurdular. Öz fikirləri yalnız onlara ölüm gətirdi. Müxaliflərin müqavimət gücü qalmadıqda küçə və bazar ətrafından üzü orduya tərəf qaçmağa başlayaraq Səid (yuxarı Misir) istiqamətinə üz tutdular. Gecə vaxtı qoşun istirahət etsin deyə Misirin yaxınlığında Həmərati-adiliyyə səhrasında düşərgə saldıq. Dövlətə müxalif olan bəzi əmirlərin və mühüm şəxslərin izinə düşərək çərkəzlərin böyük hissəsi mücahdilərin iti qılıncından həlak oldular. Qazilər üç gün həmin geniş şəhərdə qoşunda iştirak edənləri və çərkəzləri axtarmaqla məşğul idilər. Döyüşlərdə iştirak edənlərin əmlakından saysız-hesabsız qənimət əldə etdilər.

Üç gün özünə gəlmək üçün düşərgə saldıqdan sonra Nil çayının yaxınlığındakı qədim Misir ilə Bulaq arasında düşərgə saldıq. Çərkəz sərkərdələri və əmirlərinin əmlakı, var-dövləti

və əhli əyalı əlimizdə olduğu üçün [][1] istiqamətində Tuman bəylə qaçan dəstə cahilanə qeyrət və mürüvvətin çoxluğundan cahilcəsinə düşünərək sakit və aram gecədə qalib orduya basqın etdilər. Gecə yarısı casuslarımız bu hiylə haqqında padşahın əmirlərinə xəbər çatdırdılar. Dövlətin gözünün xəbərdarlığından sonra hiylələrinin baş tutmadığını görüb o müxalif dəstə məyus olub təqribən 7000 çərkəzlə Misir şəhərinin daxilinə çəkildilər. Müqavimət göstərərək şəhərin bütün küçələrində istehkam qurub şəhəri qalaya çevirdilər.

Şəhər əhalisini və qəribləri özlərinə qoşub üç gün səhərdən axşama qədər döyüşərək müqavimət göstərdilər. Üçüncü gün vəhşi taleyi iradə ayağımızın (budumuzun) altına alıb öz qiymətli ruhumuza süvar olduq. Qalanın altındakı Rumeylə meydanında Veqalisonun sultan [cümə] məscidinin girişlərində sultanlığa layiq döyüş başladı. Piyada və süvari cəngavərlər və yeniçəri qruplar odlu tüfəngləri ilə qapı və divarlara üz tutub bütün küçə və bazarlarda ölülərdən nərdivan düzəltdilər. Qüsurlu (dağıdılmış) qəsrlər üzərində zəfər bayraqları sancırdılar. Hər bir küçə və məhəllədə sultan və köməkçilərinin adını eşitcək mərdanə hücum və şücaətli qədəmlərlə oraya tələsirdilər. Müxaliflərin sığındığı əzəmətli sarayların və yaşayış binalarının hamısını alova qərq etmişdilər. Ürək ağrıdan oxlar onların gözlərini bir-birinə tikməklə Misir və çərkəzlər sultanının müqavimətini sındırırdılar. O, küçədən-küçəyə keçərək yeddi piyada şəxslə qədim Misirə tərəf qaçdı. Oradan gəmi ilə Nili keçərək Səid istiqamətinə getdi. Onunla birlikdə olan bütün əmirlər və qoşun, Misir və ətrafdan köməyə gələn əhali ilə birlikdə qazilərin qılınclarından keçirildilər. Bu böyük döyüşdə Misir bazar və küçələri arasında 50 mindən artıq insan öldürüldü. Məqam sahibi və əzəmətli əmirlərdən 900 nəfəri tutuldu. İçəridən və çöldən qan arxları axmağa başladı. Sanki Nil

[1] Mətndə istiqamətin adı qeyd olunmamış və yuxarıdakı işarədən istifadə edilmişdir [t.q.].

çayının suyu öldürülənlərin qan selinə bənzəyirdi. İlahi qəzəb firon soylu müxaliflərin ordusunu mücahidlərin qılınc dənizində boğdu.

Düşmən firon qövmü qılınc dənizində qərq oldu
Qalib dövlətim Qahirəyə qalib gəldi.

"Artıq o zalım tayfanın kökü kəsildi. Həmd olsun aləmlərin Rəbbi Allaha"[1]

Tuman bəyə gəlincə isə bir dəstə ilə Səid məmləkətinə (Misirin yuxarı istiqamətinə) qaçıb xahiş və yalvarmağa başlayaraq dövlətin bəzi önəmli [insanlarını] minnətçi salıb aman və bağışlanmaq xahiş etdi. Murtəzanın (imam Əlinin) "Düşməninə qalib gəldikdə qələbə çalmağın şükrünü yerinə yetirmək üçün [məğlub etdiyini] əfv et" hikmətli [sözünə] görə əlacsız qalıb Misir sultanı Tuman bəyi şahanə mərhəmətə layiq hesab edib amannamə göndərdik. Bu dəfə isə hər bir bədbəxt və uğursuz künc-bucaqdan onun ətrafında toplaşmış sahildə yaşayan və zülmkar şeytanların qalıqlarından bir dəstə hiylə və kələkdən istifadə etməyə başladılar. Onlar bir bəhanə ilə toplaşıb vəfasızlıq bayrağını qaldırmaq, müqavimət göstərə bilməyəcəkləri halda isə özlərini qızılbaş kafirlərə yetirmək üçün Əcəm diyarına üz tutmaq fikrində idilər. Misirin keçmiş qaziləri və dərgahımızın bəzi qullarını çərkəzlərdə xatircəmliyin yaranması və aman məktubunun təbliği üçün göndərmişdik. Onlar öz xain düşüncələrinə [sadiq qalaraq] Misirin bəzi qaziləri ilə birlikdə bütün elçiləri qətlə yetirərək tez-tələsik gedəcəkləri yerə üz tutub Nilin qərb istiqamətindən şərq istiqamətinə getməyə başladılar. Həmin məğlub tayfanın keçdiyi gün təsadüfən 3000 nəfər yeniçəri keçid yerində olduğundan o üsyançı camaatın əsgər və əmirlərinə mane olduqda aralarında döyüş baş verdi. Qüvvət və əzəmətləri olmadığı üçün qaçmağa üz qoydular. Həmin gecə itaəti vacib olanın əmri ilə qalib ordunun əsgər və əmirlərindən bir dəstə onları uzaqlaşdırmaq üçün hücum etdilər. Bu məsələ gecəyarı

[1] əl-Ənam, 6/45.

düşüncəmə aydın oldu (ağlıma batdı) və dərhal əvvəlcə qalib əsgər və əmirlərdən bir dəstəni onları təqib etməyə göndərdim. Onların arxasınca da [digər bir dəstə] həmin gecə şahanə iradəni icra etmək üçün üzəngiyə ayaq qoyub sübh vaxtı "yaxın qələbə" səmasına uğur sancaqları taxdıq. Günortadan öncə ruzigarın üz döndərdiyi həmin tayfa belə düşündü ki, onları təqib edən qoşun yalnız əmirlər və ordunun bir hissəsi olduğu üçün onlara [bu qədər] yaxınlaşıblar. Növbəti dəfə cürət ayaqlarını yerə basaraq mücadilə və mübarizə iddiası etmək üçün hərəkətə keçdilər. Qəfildən çıxan günəşə bənzər sancaq və bayraqlar onların gözünü qamaşdırdı. Şərqdən [doğan] günəşin muncuq parıltısı onların tale gözünü qamaşdırdı və qaçmaqdan başqa əlaclarının qalmadığını görüb qalib ordunun qabağından qaçdılar. Misirin qərb vilayətlərindən olan Buheyrə, [yəni] qərb istiqamətinə yönəldilər. Həmin ərəfələrdə dərgahımızın qulamları sırasına keçən Can Bordi Qəzali, Hələb canişini Xeyir bəy, Bali bəy və Əli bəy Şahsuvar kimi böyük əmirlər Rumeli əmirlərinin əmiri Mustafa paşanın rəhbərliyi altında Tuman bəy və tərəfdarlarını təqib etməyə başladılar. Məğribin (Mərakeşin) çöllük və səhrası ilə sərhəddə yerləşən Buheyrə vilayətinin dəryaçasında onlara çatdılar. Onların böyük əmirləri və əsgərlərindən 400 nəfəri tutub sərkərdə və əmirləri elə orada yox edib həlak məğribinə göndərib o cəhənnəmliklərin başlarını uca dağ başında alov kimi nizələrə vurub Tuman bəyi əsir qismində sultanlar sultanının hüzuruna gətirdilər. Yenidən hökm etdik ki, çərkəz tayfasının bütün böyük və kiçiyini qılıncdan keçirib kimsəni yaşatmasınlar. Yalnız hamiləlik vaxtı bitənə qədər hamilə anaların bətnindəki körpələrə möhlət verildi. "Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma!" nida edənin nidası aşkar oldu. Hicaz, şərafətli iki hərəm Suakin (sevakin, savakin) və Cazanın aşağılarına qədər, Kalikut, Yəmən, Misir diyarından Həbəş, Zanzibar və Şam məmləkətlərinə birləşən məğribin sonuna qədər bütün məmləkətlər ali-məqam xidmətçi və bəndələrin hökmlərinə cavabdeh olan [sultan Səlimin] əlinə keçdi. Əvvəlcə İslamı qüvvətləndirmək və İran adlanan məmləkətlərdən gələn zülm, sitəm və küfrü aradan qaldırmaq məqsədi ilə başladığımız və [indi isə əldə etdiyimiz] bu böyük nemətin şükrünü yerinə yetirmək üçün yenidən İskəndər kimi ali məqam iradəmiz, Əcəm diyarına istiqamət almağa yönəlmişdir. Padşahın qəti hökmü belədir ki, ərəb məmləkətlərini Əcəmə daxil etmək və birləşdirmək, Şərq və Qərb ölkələrini birləşdirmək üçün Rum tərtibatında Fərat sahilində yer üzünün bilicilərinin sabit fikri kimi [möhkəm] bir körpü və keçid düzəltsinlər. Bu zamanda Rum məmləkətlərinin istirahətdə olan bütün əsgərlərinin hamısı ərəb və türk qoşunları ilə sultanın əsgərlərinə qoşulsunlar.

Allah-təalanın yardımı ilə 4 ay ərzində 8 ölüm meydanı və əzəmətli fəth baş vermişdi. [Bu münasibətlə] dövlət başçıları və həzrətin dostlarını müjdələmək lazım idi. Padşahın yazılan bu məktubu əziz fəzilətlilərin rəhbəri, – [Allah onun] əzəmətini artırsın, – vasitəsilə yetişdikdən sonra şükr və həmd mərasimi təşkil edib müxtəlif təbriklər deyib şadyanalıq etsinlər. Padşahın bu fəth məktubunu dinsiz və düşüncəsiz düşməninə rəğmən məscid minbərləri, ictimai yerlər və məclislərdə şahidlərin (iştirakçılara) yanında oxunsun. Xoş vaxtlar və [duaların] qəbul saatlarında bizim qalib dövlətin davamlı olmasına dua edib parlaq səltənətimizin sabitliyi üçün həmd etsinlər.

Bizim nurlu düşüncə aynamız və nurlu günəş xatirimizə aydındır ki, cənabınızın bu ali xilafət sülaləsinə xalis irsi sevgisi və təbii məhəbbətini bütün Əcəm sultanları və məliklərindən üstün hesab edir. Padşahın iradə və niyyəti buna yönəlmişdir ki, bütün münasibət və əlaqələr, dostluq qaydaları gündən-günə artaraq inkişaf etsin. Bəsirət əhlindən gizlin deyil ki, sultanın iradəsi İranın hər bir məmləkətində islam dinini yüksəltməyə yönəlmişdir. [Padşahın] istəyi budur ki, zəmanənin kafir və dinsizlərini məhv edib, onların yolunu azmış şahının fəsad və zülmünün əsaslarını aradan qaldırsın.

[Bu həm də] aləmdəkilərin xeyrinə və əmin-amanlığın yayılmasına səbəb olar. Amma həqiqətdə ümumi məqsəd bütün Əcəm şahlarına və xüsusən də cənabınızın əziz sülaləsinə nisbət arzuedilməz hadisələr və pis vəziyyətlərin səbəbkarı olan o zəlalətə düçar olmuş tayfalardan intiqam almaqdır. Şahlar və hakimlərin ən qabaqcılı və İslam məmləkətlərinin ən dindarlarından olan cənabınıza hakimiyyət və sahib olmaq məqamı layiqdir. Cənabınızın hökmranlıq məqamına [deyəcəyim] budur ki, bundan sonra Allahın yardımı ilə padşahın iradəsi o ölkə və bəndələrin xeyir və səlahına yönəldiyi üçün həmişə o dinsiz tayfa ilə cihad və döyüşməyin zərurətində hökm vermək vəzifələrini icra edəcəyinizə ümidvarıq. Gündən-günə həmin istiqamətdə din və dövlət xeyrindən, millət və mülkün tərtibatında mülahizə etdiklərini xəbər verməyə cəhd etsin. Elçi və məktubların gəlib getməsi, məsələ və mövzuların ərz edilməsi davamlı olsun. Çünki həmin istiqamətlərdə mühitin əksər mənafelərindən xəbərdardır. O, zəruri məsələləri bir-birinin arxasınca qeyd etməkdə səhlənkarlığa icazə verilmir. Əsas məqsəd isə sevgi dayaqlarını hazırlamaq və məhəbbətini təkrar ifadə etmək olduğu üçün ədalət və bayraq səhifələri üzərində müxalif məzmunlu ifadələrə bundan artıq yer verilmədi.

Həmişə hər iki tərəfin düşmənlərinin əzəmətsiz qrupu məğlub və məhv olsun. Dostların işləri qiyamətə qədər bağışlayan Allah xatirinə qələbə və şadyanalıqla müşahidə edilsin.

Bu baş verənlər, mehriban və malik (dünyanın sahibi olan) Allahın iradəsi və bizim şərafətli əmrimiz ilə, seçilmiş peyğəmbərimizin hicrətinin 923-cü ili mübarək Cəmadiəlaxir ayının onuncu günü bazar ertəsi, səltənət və xilafət mərkəzi olan Misirin Qahirə şəhərindən həmd-sənalarımız, dualarımız, salamlarımız, "Allahdan başqa məbud yoxdur" (la ilahə illəllah) və "güc-qüvvət yalnız Allaha məxsusdur" (la hövlə vəla qüvvətə illa billah) zikrləri ilə qələmə alınaraq sizə göndərildi.

Şirvanşahın Sultan Səlimə cavabı

QEYD: *Şirvanşah ilə nəzərdə tutulan Xəlilullahın nəvəsi və Fərrux Yasarın oğlu Şeyx İbrahimdir. Fərrux Yasar hicri-qəməri tarixi ilə 893-cü ildə İsmayılın atası Şeyx Heydəri Təbərsaran döyüşündə öldürtdü. Ondan bir müddət öncə Şeyx Heydərin atası Sultan Cüneyd də Fərrux Yasarın atası Xəlilullah tərəfindən öldürülmüşdü. Hicri-qəməri tarixi ilə 906-cı ildə Şah İsmayıl Şirvanı tutmaq üçün hərəkət etdi və nəticədə Fərrux Yasarı öldürərək Şirvanı ələ keçirdi. Xəlilullahın qəbrini açaraq ona od vurdu. Fərrux Yasardan sonra əvvəlcə oğlu Bəhram bəy, sonra Qazi bəy və nəhayət, 907-ci ildə Şeyx İbrahim onun yerinə keçərək 930-cu ilə qədər hökmranlıq etdi. Şah İsmayıl Fərrux Yasardan intiqamını alsa da, övladlarının canına və hakimiyyətinə toxunmadı. Hətta Şeyx İbrahimin qızı ilə də evləndi. Şirvanşahların hökmranlığı Dəmir qapı – Dərbənd, Xəzər dənizi və Kür çayı sahillərini əhatə edirdi.*

"Həmd olsun O Allaha ki, Kitabı (Quranı) Öz bəndəsinə (Məhəmmədə) nazil etdi!"[1]. Ən böyük sultanların pənahgahı, neməti bol dünyanın sahibi olan Allah tərəfindən yardım olunan, zəfərlər atası, çöllərin və dənizlərin sultanı, izzət və zəfər sahibi, məmləkətləri fəth edən şahənşah, xoşbəxtliyin misilsiz sığınacağı olan dünya, əzəmətli xaqan və uca xudavəndigar, millətləri özünə qul etmiş sahib, Rum, ərəb və Əcəm (qeyri-ərəb) şahlarının ağası, ordu rəhbərlərinin padişahı və Osmanlı ailəsinin iftixarı olan Sultan Səlim xanın, – Allahım, düşmənlərə qarşı onu gücləndirdiyin kimi dövlətini də gücləndir, ömrünü uzun et, yer və göylərdə onu zirvələrə ucalt, – səmaya bənzər sarayından bu xeyirxah bəndəyə göndərdiyiniz dövlət və əmanətdarlıq məktubunun girişi, səadət və xoşbəxtlik xitabının müqəddiməsi ən gözəl anlarda və xoş ovqatda əlimizə gəlib çatdı, böyük sevinc və baş ucalığımıza səbəb oldu. Beyt:

[1] əl-Kəhf, 18/1.

Qılıncı ilə əcəmlilərin işini bitirən şahənşah
Aldı Qahirəni ərəblərdən, Kürdüstana qədər

Son dərəcə iftixar və fərəh hissindən başımız zirvəyə ucaldı, səadət tacımız günəşlə bərabərlik iddiasına girdi, dostlar arasında dayağım artdı və sevinərək şad oldum. (Məktubun) zəfər xəbərləri ilə dolu məzmununu bülbül kimi xoş avazlı (cəh-cəh vuran) katib, Gülüstan [qalasının] əhalisinə minbərlərin pillələri üzərindən şahidlərin hüzurunda oxudu. Şirvan, Şəki, Qumux, dağlıq və düzənlik Qaytaq vilayətlərinin hamısı böyük padişahın və əzəmətli şahənşahın zəfərlərinin avazından, – Allah onu qorusun və dünya fatehliyi davamlı olsun, – xoşhal oldu. İxlaslı olmaq adətinə və səmimi olmaq qaydasına əməl edib Allaha şükr etdik. Necə şükr etməyək ki?! Çaldıran qələbəsi və Amasyaya qayıtdıqdan sonra Kemax qalasını tutmuş, Əlauddövlə Zülqədəri aradan götürməklə onun məmləkətlərini ələ keçirərək Şahsuvar oğlu Əli Bəyin idarəçiliyinə vermiş, taxt-tacı [ona] qaytararaq o diyarın əmin-amanlığı tədarükündə olmuş, zəlil kafirlərə xərac kəsənlərlə müqavilələri yeniləyib və yenidən Malatyaya yerləşmisiniz. Buradan da izzət, xoşbəxtlik, səadət və əzəmətlə Qiru ilə döyüşə getmiş və Allahın yardımı ilə məğlub və məhv etmisiniz. [Daha sonra] mübarək qədəmlərinizlə Hələbdən Dəməşqə geri dönüb burada bir müddət qaldıqdan sonra yenə də məmləkətləri ələ keçirməyə davam etmiş, son dərəcə əzəmət və cah-calal, çoxsaylı ordu ilə çölləri və səhraları keçərək zalım Misirə çatmış, Tuman bəy və ona tabe olanları məhv edib bütün Ərəbistanı idarəçilik altına alaraq Rum mülkünə qatmısınız. Bu cür hünər göstərmək Filqusun[1] İsgəndərindən başqa digər sultanlara müyəssər olmamışdır. Beyt:

Arzum budur Allahdan
Dünyanı idarə edən və şöhrətli olasan.

[1] Makedoniyalı II Filip nəzərdə tutulur.

Xüsusilə dünyanı gəzən fateh [kimi ilahi] bərəkətləri lütf edən iki şərafətli hərəmin[1], – Allah şərafətlərini və əzəmətlərini artırsın, – xidmətinə yetişmək şərəfinə və xoşbəxtliyinə nail olmusunuz. Sizdən öncə həmin xidmət düşüncəsində olmuş və [bu şərəfli xidmətin sahibi olmağa] heyranlıqla baxan əksər sultanlara bu xoşbəxtlik müyəssər olmamış və öz nəsiblərini almadan bu fani dünyadan köçmüşlər. Çünki bu xoşbəxtlik, ilahi hədiyyələr və sonsuz nemətlərdən biridir və digər nemətlərə şükr etməklə müqayisədə onun üçün şükr etmək, mübarək Məkkənin digər müqəddəs yerlərə olan üstünlüyünə bənzəyir. Pak və uca olan Haqqın (Allahın) bu xoşbəxtliyə layiq gördüyü və bu səadətə münasib bildiyi bir varlıq, heç şübhəsiz ki, dünya və axirətdə pak olan (Allahın) lütflərinə nail və Yəzdanın (Allahın) rəhmətinə şamil olacaqdır. Əkin bitməz vadidə[2] (Məkkədə) məskunlaşmış bu bərəkətli yerlərin fəqirlərinə nə qədər mərhəmət və qayğı göstərsən, qarşılığında onun yüz qatından bəhrələnər və öz dünyanda bütün sultanların və müsəlmanların şahənşahı olarsan və hamının o xoşbəxtliyə və səadətə nail olmuş ali-cənaba itaət etməkdən və tabe olmaqdan başqa bir çarəsi qalmaz. Bundan sonra digər hakimlər, fələklər kimi ehtişamlı o müqəddəs dərgahın xadimi olan (Allahın yer üzərindəki) möhkəm ipinə (Sultan Süleymana) itaət edəcəklər. Ümidvarıq ki, hamıya lütf və ehsan gözü ilə baxacaq, itaət edənlərin üzünə mərhəmət qapılarını açacaq və tabeçilik göstərənlərə lütf edəcək və himayə axtarışında olanları ümidsiz qoymayacaqsınız. Bu cür fəthlərin şükrü sonsuz lütflər və hədsiz ehsanlardır.

[1] Məkkə və Mədinə şəhərlərində yerləşən Kəbə evi və peyğəmbər məscidi nəzərdə tutulur [t.q.].

[2] İbrahim, 14/37.

Dini rəvayətlərə əsasən İbrahim Peyğəmbər (s) Allahın əmri ilə oğlu İsmaili və xanımı Hacəri indiki Kəbə evinin yaxınlığında Səfa və Mərvə dağları arasındakı səhralıqda tərk etmiş, daha sonra Allaha dua edərək onlara kömək etməsini diləmişdir. Allahın köməyi ilə bu əkin bitməz yerlər İsmail peyğəmbərin ayaqları altından çıxan Zəmzəm bulağı və Kəbə evi ilə şərəflənmişdir [t.q.].

Bu cəsarəti izhar etməkdən məqsəd budur ki, əcəmin sahibi alicənab padişah Şah İsmayıl Səfəvi, sultanlıq tərəfinizdən göndərilmiş olan sevimli məktubunuzun gəlməsindən xəbərdar olmuş və bildirmişdir ki, bu xoşbəxtlik tərəfdarı olan qulunuz tərəflər arasında sülhə vasitəçilik etsin. Xoşbəxtlik talibi [olan mən, yəni sizin] qulunuz bu təklifi qəbul etməkdən çəkindim. Şübhəsiz ki, onların işarəsindən (əlamətlərdən) səmimiyyət və itaətçilik (bəndəçilik) bildirmək üçün elçi göndərmək hazırlığında olduqlarını anladım. Nə vaxtsa onların elçisi ətəyinizi öpmək üçün dizə çökərsə və əgər əfv diləmək və bəxşişlə üzrləri qəbul edilməzsə, şübhəsiz ki, bu bəndələri minnətçi salmasını üstündən atarsa böyük bir hay-küyə səbəb olar və əgər etiraf edərsə sizin (onların üzrlərini) qəbul etməyəcəyinizdən və hamının yanında xəcalətli olmaqdan qorxur.

Bu məsələdə Allahın sonsuz inayətlərini öz dayağım kimi təsəvvür edib, rədd və ya qəbul olmasını diqqətə almadan sonsuz yalvarışlar edir, habelə itaətçilik məktubunu gətirən Allahın Beytül-haramını (Kəbəni) ziyarət etmiş və tərəfimizdən də çox etibarlı hesab edilən Xacə Məhəmməd Bakuiyə aləmlərin pənahı olan seçilmiş dərgahınıza bir neçə cümlə ərz etməsini tapşırmışam ki, hansı şəkildə müjdə dolu xəbər gələrsə, həmin surətdə əməl olunsun. Bu qulunuzu özünə yaxın və əsgər hesab edib itaət edən və pənah gətirənlərdən biləsiniz. Əlavə nə deyim, hakim sizsiniz.

Sultan Səlimdən [Şirvanşaha] cavab

Ali-cənab, ağalığın mənbəyi, ucalığın izzətlisi, cənablığın zirvəsi, dövlətçiliyin mənbəyi, ədalətin carçısı, kəramət libası geymiş, güclü dövlətçilik bayrağının daşıyıcısı, uca məqam sahibi, ucalıq və yüksəklik qədəhlərindən ən ali qədəhi əldə etməyə nail olan, dünyanın səxavətli sahibinin sonsuz lütflərinə nail olmuş İbrahim Bəy! Aliliyiniz davamlı, gecə və gündüzləriniz (ömrünüz) uzun olsun!

Ancaq fayda yetirən [Allahın] lütfündən qaynaqlanan çoxlu salamlar və qəbul olunan dualar sizin olsun. Mətləbə gəlincə məlumunuz olsun ki, hazırda "içində çıraq olan bir taxçaya (çıraqdana) bənzər"[1] nurlarının aynası, ağızlar qalasının günəşi (ağzından dürr tökülən) və fəsahətli şəkildə dərc etdiyiniz, yəni zəngin bəlağətli, kamil fəsahətli, ixlas şüarı verən, səmimiyyət libası ilə bəzədilən, qanunların və ədalətin (əhəmiyyətini) vurğulayan, birlik əsaslarını gücləndirən məktubunuz şanlıların və kəramətlilərin ağası Hacı Məhmudun, – sağlamlığı daimi olsun, – vasitəsilə əlimizə gəlib çatdı. Həqiqətən sizin sonsuz dəyanətinizdən və hədsiz sədaqətinizdən xəbər verən və həmişə uca səmanın hüzuruna bəlli olan (Allahdan gizlin olmayan) məhəbbət dolu məzmunu oxunduqda izah edilən vəziyyət və yazılan durum müfəssəl şəkildə məlum oldu.

Hazırda nankor qızılbaş (düçar olduğu) miskinlik səbəbi ilə ard-arda elçilər göndərib növbənöv yalvarışlar, yaltaqlıqlar və cürbəcür zəlillik və rüsvayçılıqla özünü alçaldaraq hansı yol ilə istərsəniz, o yolla sülh edək deyib. Lakin onun pis xasiyyəti (vərdişləri) aradan getməyib. Əvvəlki vəziyyətində israr edib, küfr və zəlalət üzrə möhkəm dayanmağa davam edir. "Halbuki onlar yaxşı işlər gördüklərini (və bunun müqabilində mükafata nail olacaqlarını) zənn edirdilər"[2] məzmununun bariz nümunəsinə çevrilib. "[O kəslər ki,] Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayır (möminlərlə dostluğu, qohum-əqrəba ilə əlaqələri kəsir) və yer üzündə fitnə-fəsad törədirlər. Məhz beləl追ri (dünyada və axirətdə) ziyana uğrayanlardır"[3]. [ayəsində buyurulanların] onların adət-ənənələrinə çevrildiyi şərafətli düşüncəmə aydın olmuşdur. Digər bölgələrdəki [xoşagəlməz] hallar da

[1] ən-Nur, 24/35.
[2] əl-Kəhf, 18/104.
[3] əl-Bəqərə, 2/27.

şərafətli iradəmə əsasən aradan qaldırıldığına görə, uca padişahlıq məqamıma vacib və lazım olmuşdur ki, o pis əxlaqlı tayfaların xəstə vücudlarını iti qılınclar vasitəsilə dünya səhifəsi üzərindən silib, dünyanı onun şər və pisliklərindən xilas edim. Buna görə də o istiqamətə səfərə çıxmaq və o bölgəyə hərəkət etmək fikri istisna edilmir. Allahın inayəti və gözəl yardımları ilə yer üzərindən bütün vücudları tamamilə məhv ediləcək və dünya səhifəsində izləri qalmayacaq. Sizlərə də lazımdır ki, dostluq yolunu izləməyi üstün tutub ətrafda olan hörmətli əmirlərlə məktublaşaraq və xeyirli elçilər göndərərək fitnə-fəsadı aradan qaldırmaqda və kökünü kəsməkdə iştirak edəsiniz. [Məktubların] ilk cavabında aşkar olan sirlər və fikirlər, vəziyyətə görə ortaya çıxan dostluq məzmunlu məktublar və hörmətli elçilərlə ərməğan və hədiyyə göndərməyi unutmayın ki, cənnət və ədalət, birlik gülləri ilə daim nurlanmış olar. Adı çəkilən Hacı Məhmud, – sağlamlığı daimi olsun, – elçilik vəzifəsini əda edib son dərəcə ehtiramımız ilə qarşılandıqdan sonra xoş niyyətli iznimizə şamil olub rəhbərliyin mənbəyi olan cənablarınıza tərəf üz tutdu.

Peyğəmbər və şanlı ailəsinin xatirəsinə ucalığınız, xoşbəxtliyiniz və şan-şöhrətiniz hər zaman zirvədə olsun.

Şirvanşahın Sultan Səlimə cavab məktubu

Dünyanı görən gözlərin göz bəbəyi, yəqin əhlinin gözlərinin nuru olan, yəni uca şanlı sultan, bəxtiyar xaqan, ən əzəmətli şah və ən böyük şahənşah, dünyanı fəth edən hakim, bənzərsiz xudavəndigar, iman əhlinin pənahı, müsəlmanların sığınacağı, dənizlərə və çöllərə ağalıq edən, izzət və zəfər bayrağının sahibi, fəqirlərin yardımçısı, zəiflərin pənahı, zəmanənin ən ədalətli padişahı, düşmənləri məhv edən sultanların ən şücaətlisi, aləmlərin həqiqi sahibi olan Allahın ipinə sarılan Sultan Səlimin, – Allah ona yardım və kömək

etsin, ömrü və zəfərləri davamlı olsun, – hacıların dayağı olan Xacə Məhmud Bakui (Bakılı) ilə birlikdə göndərdiyi xoşbəxtlik mənbəyi olan məktubu nazil olan vəhy kimi şərafətlə əlimizə gəlib çatdı. Yönəlmə və hərəkət etmə (Şah İsmayılı aradan götürmək üçün şərqə doğru yönəlmək) barəsində dedikləriniz tamamilə məlum və aydın oldu. Lakin zəfərlər yaradan əsgərlərin çox olması və ərzağın isə azlığı barəsində əndişələnərək bir dil ilə (sətiraltı mənalarla) işarə edilənə təyin olunan bəxşişi sərf etməyimi bildirmisiniz. "Şirin canım sənə fədadır" deyənlər əlində olanı əsirgəməzlər.

Beyt:

Süleyman qarışqanın qonağı olarsa,
Bir axşam yeməyi illərin (azuqəsini) aparar

Digər əhvalımızı soruşsanız, məlum şəxs qorxu və həyəcanın çoxluğundan sülh ümidi ilə öz vilayəti ətrafında son dərəcə şəkk-şübhə içərisindədir. Onun qasidini ümidsizliklə geri qaytarsanız (sizin hakimiyyətinizə qarşı) səmimi olanların (tabe olanların) aqibəti necə olacaq? Bunu bəyan etməkdən məqsədimiz qorxu və həyəcanı çatdırmaq deyil, əksinə, bütün insanların aqibətidir.

Beyt:

Əgər bütün aləmlərin oxları yerindən hərəkət etsə,
Allah istəməzsə bir damar belə qırılmaz.

İslamın pənahı! Bütün dünyanın aqibəti, günün günorta çağındakı günəş kimi ilham mənbəyi olan düşüncənizə aydın və aşkardır. Bəs aqibətimiz necə olacaq? Əksəriyyəti itaətkar və tabeçilik edən Gilaneynin[1] hakimləri, Mazandaran və Kuhistan hakimi, Sicistan hakimləri, kürd əmirləri və gürcü knyazlarının əksəriyyəti sizin çoxsaylı qoşununuzdan, əzəmətli ordunuzdan, dayanmadan və sürətlə ölkələri fəth etmək niyyətinizdəki israrınızdan qorxu içindədirlər, yoxsa:

[1] Burada nəzərdə tutulan Gilanın şərq və qərb hissələridir. O dövrdə "biyəpiş" və "biyəpəs" adlanırmış. Mərkəzi Rəşt olan Səfidrud çayının sol tərəfi Biyəpəs, mərkəzi Lahican olan Səfidrudun sağ tərəfi isə "Biyəpiş" adlanırmış. Bu məktubun yazıldığı tarixdə Biyəpəs hakimi Əmir Dibac, Biyəpiş hakimi isə Karkiya Sultan Əhməd idi [t.q.].

Şahlıq taxtında ayaqların üzərində möhkəm dursan,
Bütün aləm sənə itaət və tabeçilik edər.

Yubanmadan şahın atı üçün üç naxışlı (cavahiratla bəzənmiş) qalxan və xoşbəxtlik (uğur) gətirən bəzəkli örtük göndərildi. Qəbul edəcəyinizə və tezliklə faydalı (yaxşı) bir cavab göndərəcəyinizə ümidvarıq. İntizardayıq.

Muradına çatasan və fələk (Allah) yardımçın olsun!

Cavab

Ali cənab, ağalıq və izzət mənbəyi, cənablığın zirvəsi, dövlətçilik mənbəyi, ədalət carçısı, kəramət libası geymiş, güclü dövlətçilik bayrağının daşıyıcısı, uca məqam sahibi, ucalıq və yüksəklik qədəhlərindən ən ali qədəhi əldə etməyə nail olan, dünyanın səxavətli sahibi olan [Allahın] saysız lütflərinə şamil olmuş şeyx İbrahim Bəy! Aliliyiniz davamlı, gecə və gündüzləriniz uzun olsun!

Ancaq fayda yetirən [Allahın] lütfündən qaynaqlanan çoxlu salamlar və sonsuz dualar sizin olsun!

Mətləbə gəlincə məlumunuz olsun ki, bu əsnada sadə [sözlərin] gözəlliyi və mürəkkəb [sözlərin] düzülüşündən mükəmməllik, ədalət, səmimi niyyət, inam və məhəbbət üslublarının aşkar və bəlli olduğu səmimiyyət şüarlı məktubunuz, bizə əziz və doğma olan xitabınız, seyid Mahmud, – ruzisi halal olsun, – vasitəsilə ən yaxşı vaxtlarda və ən gözəl əhval ilə gəlib çatdı. Dostluq səması məhəbbət məzmunlu ulduzlar ilə bəzədildi. İfadələrinin üfüqündən səmimiyyət sübhünün müjdəsi, sətirlərinin oxunuşundan dindarlıq və müqavimətin tələb etdiyi ulduzların işığı açıq-aşkar parlamağa başladı. Peyğəmbərin şərafətli şəriətinə riayət etmək zərurəti və Məhəmmədin dininin tələb etdiyi, sədaqətli məzmunundan bəlli idi. Həqiqətən bu məna əbədi ülfət və məhəbbət silsiləsinin hərəkətə gəlməsi və əzəli dostluğun xatırlanmasına səbəb oldu. Bəxtiyar [insanın] ətir saçan

nəzərindən gizlin deyil ki, həmişə niyyətimizdə fitnə-fəsadın aradan qaldırılması və iradəmizdə isə dürüst insanların qəlbinin rahat olması özünə yer etmişdir. Hər halda intizarımız budur ki, əbədilik olaraq o kafir, dinsiz və bədəxlaq fitnə-fəsadçının əməllərinin nəticələrini və düşüncə əsaslarını əzəmət himayəçisinin hüzuruna [deyilə biləcək həddə] yüksəldək və sətirləri dostluq gülüstanı ilə zinətləndirək. Tərəflər arasında gündən-günə dostluq bağları möhkəmlənir və saatbasaat məhəbbət dayaqları möhkəmlənmiş olur. Bəndələrin Rəbbi xatirinə dövlətiniz əbədi, yüksəlişiniz daimi və həmişəlik olsun.

SULTAN SƏLİMİN MAZANDARAN HAKİMİNƏ MƏKTUBU

Sultan Səlimin Mazandaran hakiminə məktubu

QEYD: *Bu məktubda qeyd edilən Mazandaranın o dövrdəki ərazisinin indikindən fərqli olduğu və hakimlərinin də bir nəfərdən ibarət olmadığı nəzərə alınmalıdır. O halda Mazandaran hakimi deyilərkən kimin nəzərdə tutulduğu dəqiq məlum deyildir. Lakin müəyyən işarələrə əsasən bu şəxsin Mazandaranda hakimiyyətdə olan Mərəşi xanədanının nümayəndəsi Ağa Məhəmməd Ruzəfzun olduğu qeyd edilə bilər. Mərəşilərin seyid olduğunu nəzərə alsaq, onların səfəvilərə qarşı düşmən olmasını gözləmək sadəlövhlük olardı. Buna baxmayaraq, Ruzəfzun ailəsinin səfəvilərlə köhnə düşmənçiliyi və sünni məzhəbindən olan özbəklərlə dostluq əlaqələri var idi. Şeybaninin ölümündən sonra öz müttəfiqlərini itirən Ruzəfzun tayfası Şah İsmayıla yaxınlaşmağa başladı. Ağa Məhəmməd Ruzəfzun Mir Əbdülkərim Mərəşi ilə birlikdə Şah İsmayılın düşərgəsinə gəldi. Şah İsmayıl onun Mazandaran hakimi olmasına razılıq verdi. Lakin bir neçə il sonra o, tabe olmaqdan boyun qaçırtdı. Şah İsmayılın əmrinə əsasən Durmuş xan onu cəzalandırmaq üçün Mazandarana getdi. Beləliklə də Şah İsmayılın zamanında Luris qalasında zindana salınsa da, şah Təhmasibin dövründə zindandan azad edildi və yenidən Mazandaran hakimi oldu.*

Din, dünya və dövlət mübarizi, Firudin şərəfli, Cəmşid soylu, uca rəhbər, xoşbəxtlik və idarəçiliyin ünvanı Mazandaran hakiminin, – Allah, Qiyamət gününə qədər səni qorusun, – hüzuruna zəfər sonlu saf salamlar və fəth nişanəsi ilə dolu təbrikləri ithaf və hədiyyə edirəm. Bizim padşahlıq

iradəmiz və şahənşahlıq diqqətimizi öz din və dünyəvi tələbatlarının xərcliyi hesab et.

Mətləbə gəlincə isə həqiqətdə qeybi aşkara çıxaran aynanın kinayə olduğu günəş kimi nurlu düşüncəndən məxfi deyil ki, bizim səltənət, zəlalətə düçar olmuş Ərdəbil oğlunun faydasız vücudunu varlıq aləmi və yer üzündən silməyi qarşısına məqsəd qoymuşdur. Lakin sırf ərəblərin əziz və mötəbər diyarının vəziyyətini ələ almaq və tamamlamağa görə Allahın iradəsi ilə bu zamana qədər təxirə düşmüşdür. Hazırda Hələb, Şam, Qəzza, Qüdsi-şərif, Misir, əziz Məkkə və möhtərəm Mədinə şəhərləri, digər ölkələr və həmin diyarın şəhərləri, bütünlüklə onlara birləşən və tabe olan [ərazilər], ümumi səhralar, dağ zirvələri, o cümlədən Allahın yardımı ilə Oman sahillərindən Bağdad sərhədlərinə qədər ərəb məmləkətlərinə [məxsus] quru və su [əraziləri] fəth edilərək ələ keçirildi. Həmin diyarın böyük və kübar əmirlərindən kim bəndəlik və nökərçilik boyunduruğuna təslim oldusa, bizim müxtəlif mərhəmət və lütfümüzü əldə etdi. Kim üsyan və qiyam etdisə, hamısı oxlara tuş gəlib qılıncdan keçirildi.

Yekun olaraq ərəb vilayətlərinin vəziyyəti istədiyimizə uyğun nəticələndi. Sonra isə uca olan Allahın yardımı ilə alova bənzər və dərya kimi [təlatümlü] əsgərlərlə Misir ölkəsindən köç edib padşahlıq əzəməti və şahənşah dövlətinin şövkəti ilə Darussəlam Şama getdik. Orada dayanmadan və yubanmadan ali iradə və əzmimizi zəmanənin kafirini və dinsizini zərərsizləşdirmək və onların yolunu azan şahını məğlub etmək üçün şərq diyarına tərəf yola düşdük. Elə isə cənabınızın misilsiz iradəsi üçün münasib, uyğun və bəlkə də lazım və vacibdir ki, bizim uğurlu qədəmimizin izinin intizarında olasınız. Keçmiş günlər və illərdən xilafətin ünvanı olan bu sülaləyə cənabınızın tam ixlas və sadiqliyinə görə mübarək dövlətin mənafe və işlərinin həyata keçməsində ciddi cəhdlə çalışaraq süstlük etməyəcəksiniz. Müzəffər əsgərlərimin güzəran və dolanışığının yaxşılaşması üçün arpa, ot, un, bal və qoyun yağı, o cümlədən əsgər üçün məs-

ləhətli və vacib olan zəruri yeməklərdən hər bir mühasib, ehtiyat tədarükü görüb hazırlamalıdır. Uca olan Allahın yardımı ilə fateh ordu həmin bölgədə düşərgə salacaqdır. Həmin ehtiyatı toplayan hər kəs öz ehtiyatını düşərgəmizə gətirib özlərinin ticari durumunu və qalib əsgərlərimizin məişət güzəranını yaxşılaşdırmaq üçün günün məzənnəsi ilə al-ver etsinlər. Nəticə etibarilə [bizə] yaxın olan cənabınızın təbii sevgisi, yaxın olması, səmimiyyət və sədaqətinin çox olmasına görə gözəl dövlətə gərəkli olan, mənafeyinin tamamlanması, yeyinti azuqəsinin hazırlanması və tədarükündə müxtəlif fəaliyyət və çalışmaları bağışlasınlar. Davamlı və ardıcıl olaraq ömrü uzun olan uca dərgahımıza o rüsvayçı [Şah İsmayıl] haqqında xəbər və məlumatlar göndərməkdən qafil olma. Allahın köməyi ilə həmin əraziləri fəth etmək bizə qismət olduqdan sonra ədalətin ünvanı olan cənabınız müxtəlif şahanə lütfə nail olacaq və bizim səltənətin ehtiram və hörmətindən faydalanacaqdır.

"Nun və Sad" ilə ilk danışan xatirinə (Allah xatirinə) əzəmət, cəlal, şövkət və ucalığın həmişə eyibdən uzaq olsun.

923-cü ilin mübarək Zilhiccə ayının 5-də yazıldı.

ŞAH İSMAYILIN SULTAN SÜLEYMAN XANA MƏKTUBU

Şah İsmayılın Sultan Süleyman xana atası Sultan Səlimin ölümü münasibətilə başsağlığı və Rodosun fəthi münasibətilə təbrik məktubu

Ədalət, səltənət, insaf, xilafət, əzəmət, qüdrət, zəfər, izzət və cah-calalda qüsursuz yardım edən Allahdır. Uca olan Allah, Sultan Süleymanın xaqanlar arasında səltənətinin kölgəsini əbədi etsin, din düşmənlərinin kökünü, müşriklərin nəslini, küfrün və kafirlərin səsini (minbərlərini) kəsməkdə əsgərlərinə yardım etsin, İslam əsgərləri və müsəlman ordularını aləmlərə (bəşər övladına) əcr veriləcək günə qədər (qiyamət gününə qədər) müzəffər etsin.

Qəbul olmasının gözəl qoxusu, dostluq (üns) məclisi sakinlərinin burnuna cənnət bağlarının müşk qoxusunu verən dua, fatihələrinin məqbul olması ilə can (ruh-mənəviyyat) aləminin bağçasından qopan ilahi rəhmətin nəsim yelinin müqəddəs çəmən qönçələrini çiçəkləndirdiyi həmd-səna, Cəmşid kimi xaqan, İsgəndər kimi təmkinli, Süleyman kimi (uca) məqam (sahibi), Dara kimi qanun (sahibi), Kəsra (Xosrov) kimi mücahidlərin öncülü, səltənət sahibi kralların sütunu olan cənabın cənnət kimi məclisinə töhfə və əbədiyyət kimi məclisinə hədiyyə olsun. Müqəddəs düşüncənin anladığı və qiymətli zehnin ortaya çıxardığı budur ki, ... "sən (Məhəmməd Peyğəmbər) olmasaydın fələkləri yaratmazdım" [hədisinin] işarə etdiyi kimi mümkün (varlıq) aləminin gizlinlərində insan növündən daha heyrətləndiricisi mümkün və təsəvvür edilən olmadığı üçün və o da uca məqamı və ali mövqeyi ilə "insanları və cinləri yalnız mənə ibadət

etsinlər deyə yaratdım"[1] mübarək ayəsinin hökmünə əsasən Aləmlərin Rəbbinə ibadət vəsiləsi, açıq-aşkar (mubin) şəriət və möhkəm din üçün itaət vasitəsidir. "Allah mücahidlərə (evlərində) oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir"[2] mübarək kəlamın mənasından anlaşıldığı kimi cihadın fəziləti açıq, sübut olunmuş, aşkar və aydındır. Məlum və bəllidir ki, Sübhanın (Allahın) uğurlu köməkləri və saysız ilahi yardımlar ilə qeyb pərdəsinin arxasındakını aşkara çıxaran və yəqin (şəkk-şübhə olmayan) aləmlərində gizli olanları gün üzünə çıxarmaqla İslamı küfrə və hidayəti zəlalətə qalib edən hər bir fəth, xüsusilə "gözlərin görmədiyi, qulaqların eşitmədiyi, bəşər övladının ağlına gəlməyən" [hədisində] buyurulduğu kimi, qədim zamanlar, keçmiş əsr və qərinələrdən bəri bənzərini bəsirət sahiblərinin gözlərinin görə bilmədiyi, mötəbər ağıl sahiblərinin eşidən qulaqlarının duya bilmədiyi və düzgün düşüncəli şəxsiyyətlərin parlaq fikirlərindən belə keçməyən fəth və qələbələr, şübhəsiz ki, yerin-göyün yaradıcısının xoşhal olmasına və bütün müqəddəs peyğəmbərlərin, hidayət edən imamların, bütün Allah dostlarının və müqəddəslərin, – onlara dua və həmd-səna olsun, – ruhlarının sevinməsinə səbəb olacaqdır. "Onlar Allahdan gələn nemət və mərhəmətə görə sevinərlər[3]. Özlərinə heç bir əziyyət toxunmadan geri döndülər və Allahın razılığını qazanmış oldular"[4] [ayələrində] buyurulduğu kimi, bu dəyərli [xeyir işin] gözəl xoşbəxtliyi, əzəmətli və böyük nemətin müjdəsi, İslamın özəyinin qoruyucusu, bütpərəstlərin kökünü kəsən, neməti bol olan cənnətlərin ən ali dərəcələrinə yüksəlmiş, "təmiz bir qəlblə Allahın hüzuruna gələn şəxs" vəsfinə nail olmuş, – Allah sələflərini (özündən əvvəl gələn) ən yüksək dərəcələrə yüksəltsin, xələflərinin (özündən sonra gələn) tale mərtəbələrini əbədi etsin,

[1] əz-Zariyat, 51/56.
[2] ən-Nisa, 4/95.
[3] Ali-İmran, 3/171.
[4] Ali-İmran, 3/174.

– və cənnətin ən ali pilləsində məkan qurmuş ali cənab xaqanın dünyadan köçməsi qəm-qüssəyə batanların düşüncələrində iz buraxırdı (özünə yer edirdi). Bu nüsxəni Qurban bayramından daha üstün və bəşər övladının sevincindən daha dəyərli hesab edib saf sevgiyə təkid etmək, güvən və etimadımızın doğruluğunu təsdiqləmək məqsədi ilə böyük fəthləri təbrik etmək üçün bu ailənin çoxdan etimad etdiyi dost, böyük alimlərin ən önəmlisi və xoşbəxtlik ünvanı olan Tacəddin Həsən xəlifəni xoşbəxtlik qibləsi, arzu və əmin-amanlıq Kəbəsinin ziyarətinə göndərdik. Qiyamət gününə qədər əbədi dualar sizinlə olsun!

RƏİSÜL-KÜTTAB CÖVRİ ÇƏLƏBİNİN ŞAH İSMAYILA CAVAB MƏKTUBU

Rəisül-küttab Cövri Çələbinin Şah İsmayıla cavab məktubu

Dövlətin və xoşbəxtliyin sübh çağının parlaqlığı, zəfər işarəli fatehlik bayraqlarının bəzəyi, xaqanlığın dünyanı bəzəyən parlaq möhürü və sultana mənsub fatehliyin şərafətli örnəyi, dövlət mənbəyi və güclü hakim Şeyx Heydər Səfəvinin oğlu İsmayılın, – uca olan Allah [məqamını] ucaltsın! – hüzuruna bildirilir ki, qalib və açıq-aşkar İslam dininə və məxluqatın ağasının (Məhəmməd Peyğəmbərin), – ən gözəl dualar və salamlar onun olsun, – şəriətinin aydın yoluna görə məktubun və salamın cavabını qaytarmaq "sizə salam verildiyi zaman onu daha gözəl alın və ya (eynilə sahibinə) qaytarın!"[1] [ayəsinin] qədim və sadiq məzmununun tələbinə və [İslam peyğəmbərinin] "məktubun cavabı salamın cavabı kimi lazımdır" [hədisinə] uyğun olaraq vacib və zərurətlər sırasındadır. Ulduz kimi bərq vuran xislətlərin mübarək pərvazı və bəxtin [üzə güldüyü] bu səltənətdə, yəni Quranın "Fatihə" və "İxlas" [surələri] ilə giriş edilmiş, xalis niyyət və sədaqətin gözəlliyi ilə bəzədilmiş sevgi və dostluq üslubunda [yazılmış] məktub, seçilmiş və etimad edilən şəxslərin dayağı, izzətli və təmkinli dostların ən bəyənilmişi olan Tacəddin Həsən xəlifə, – şan-şöhrəti artmış olsun, – tərəfindən uğurlu saat və şən ovqatda bütün ümmətlərdən olan ziyarətçilərin qibləgahı, bütün dünya tayfalarının təvaf yeri və xoşbəxtlik qibləsi olan Kəbə kimi əzəmətlinin hüzuruna yetişdi [Məktubunuzun] izzətli məzmunundan başa düşülən səltənət kürsüsünə əyləşmək, qala

[1] ən-Nisa, 4/86.

və məmləkətləri fəth etmək münasibəti ilə xoş sözlərlə olan təbrikinizi, cənnətdə yuva qurmuş əlahəzrət sultanın, cənnətməkan xaqanın, millətlərin ərazilərinin sahibi, ən ucqar dövlətlərə yürüş edənin, İslam və müsəlman şüarlarının yardımçısının, üsyançılar və fasiqlərin kökünü qazıyanın,

Misra:

Mələk təbiətli, məmləkətlərin pənahı və fateh

[ayədə qeyd edildiyi kimi] "sağlam (təmiz) bir qəlblə Allahın hüzuruna gələn şəxs"[1] vəsfinə [sahib olanın] və nəim cənnətinin ən uca dərəcələrinin sakininin, – Allah onu öz rəhmətinə qərq etsin və özü istədiyi cənnətdə yerləşdirsin, – dünyadan köçməsinə görə [göndərdiyiniz] başsağlığı əvvəldən axıra qədər ali və şərafətliyə (Sultan Süleymana) çatdırıldı.

Misra:

Allah sevinclərini daim eşitdirsin

[Göndərdiyiniz] ən gözəl şəkildə qarşılandı və qəbul edildi. Qeyd edilən qasid vəzifəsini icra etmək şərtlərini "insanlarla gözəl danışın"[2] (ayəsinin) tələbinə uyğun olaraq ən gözəl şəkildə təqdim edərək mürəxxəs olmaq icazəsi üçün baş əydikdə həmin istiqamətə (gəldiyi yerə) yola salındı. Yardım Allahdandır.

[Çirkinliklərdən] pak olan Allah, bəndələrin ən yaxşısı olan Məhəmməd və şanlı ailəsinin xatirinə qiyamət gününə qədər hər zaman cənabınızın sarayının sütunlarını dini hökmlərinin həyata keçdiyi və şəriətin qorunduğu [mərkəzi] kimi daim zinətləndirsin və şərəfləndirsin.

930-cu ilin mübarək Məhərrəm ayının 14-də qələmə alınmışdır.

[1] əş-Şüəra, 26/89.
[2] əl-Bəqərə, 2/77.

ŞAH İSMAYILIN ŞARLKON (V KARL) İLƏ MƏKTUBLAŞMASI

Şah İsmayılın Şarlkona (V Karla) məktubu

Flippin oğlu Karla...

Əgər Allahın izni ilə bu məktub sənə gəlib çatarsa məlumunuz olsun ki, Feratr Petros Macarıstan padşahının məktubunu mənə gətirdi və biz də o padşahın məktubunu fərəhlə oxuduq. İndi isə Feratr Petrosu bu məktubla yola salırıq. Bu məktubun göndərilməsinə şad olacağınıza ümid edirəm. Sizdən mənim deyəcəklərimi diqqətlə oxumanızı təvəqqe edirəm. Biz aprel ayında iki istiqamətdən öz müştərək düşmənimiz [olan] Osmanlı sultanına həmlə etməliyik. Bir müddət əvvəl Təbriz yolu ilə İsveçrə padşahı tərəfindən hüzurumuza bir səfir gəlmişdi. Biz onun vasitəsilə həmin padşaha məktub göndərsək də, indiyə qədər cavab almamışıq. Osmanlı rəiyyətlərindən eşitdiyimə görə xristian hökmdarlar bir-biri ilə döyüşməkdədir ki, bu da təəccüblüdür. Çünki onların bir-biri ilə mübarizəsi düşmənin cəsarətini artırır. Elə buna görə də Macarıstan padşahına Avropa hökmdarları ilə döyüşə girməkdən çəkinməsini yazdım. Çünki bilirik ki, [Osmanlı padşahı] həmin alicənabla döyüşmək üçün qoşun hazırlamış, elçi və məktub göndərməklə bu işdə mənimlə müttəfiq olmaq istəyir. Amma mən həmişə onun istəyini rədd etmişəm. Çünki sizin də dediyiniz kimi, yaxşı və pis gününüzdə sizin dostunuz olmaq istəyirəm və hər kim öz müttəfiqini tənha qoyub ona xəyanət etsə, qüdrətli və qalib Allah tərəfindən cəzalanar. Buna görə də dərhal qoşun hazırlamağa başlayın. Ümid edirəm ki, sizi təhrik etmək üçün yeni bir məktub yazmağa ehtiyac qalmayacaq. Çünki məsafə uzaq və məktub göndərmək çətindir. Xüsusilə də Osmanlı sultanları dənizlərə nəzarət etdiyi üçün bu səfirdən başqa digər səfirlər göndərmək bizim üçün mümkün deyildir. Əlbəttə Osmanlı sultanına etimadınız vardır. Sultan elə bir şəxsdir ki, ittifaq, and və vəfadarlığa etina etməz və sizi məhv etmək yolunda əlindən gələni əsirgəməz. Bu əcdad düşməni elə əhd-peyman sındırandır ki, qətiyyətlə Almaniya ölkəsində padşah olan böyük şahənşahla yola getməyəcəkdir.

924-cü ilin Şəvval ayında yazıldı.

Həmd olsun aləmlərin Rəbbinə. Amin. Amin.

Sizin dostunuz Şeyx Heydər oğlu Şah İsmayıl Səfəvi.

Şarlkonun Şah İsmayılın məktubuna cavabı

Bizim ən yaxşı dostumuz və qardaşımız [olan] İran şahənşahı, qüvvətli və alicənab əmir, Şah İsmayıl Səfəviyə...

İlahi lütf sayəsində Rum, xristian dünyası və Almaniyanın imperatoru, İspaniya məmləkətləri, Siciliya yurdunun hər iki hissəsi, Navar, Qranada, Balear adaları, Səid və Hind adası, yeni qızıl ölkəsinin (cənubi Amerika) padşahı, Almaniya və Fransa əmirlikləri və Afrikanın əldən-ayaqdan uzaq yurdlarının əmiri olan əsil-nəcabətli şahzadə Karl, pəhrizkar və xoşbəxt padşah olan bizim dostumuz və qardaşımız İran şahı İsmayıl Səfəvi üçün üçü bir Tanrı olan (ata, oğul, müqəddəs ruh) aləmlərin qadir Allahından xoşbəxlik və müvəffəqiyyət arzulayır.

Ey aliməqam padişah və ey sevimli qardaş, ötən il Livan dağının Maruni keşişlərindən olan Petros adlı bir şəxs sizdən bizə bir məktub gətirdi. O əzəmət sahibi ötən aprel ayında ittifaq yaradaq deyə müştərək düşmənimiz Osmanlı sultanı ilə döyüşə atılmağa bizi dəvət edirdi. Bədbəxtlikdən məktub, əlahəzrətin təyin etdiyi vaxtda hələ bizə gəlib çatmadığı üçün hər hansı bir qərar verə bilmədik. Habelə həmin mək-

tubun, – padşahların məktublarında qeyd edildiyi kimi, – möhür və imzası olmadığı üçün çaşqınlıq içərisində qaldıq. Ümumiyyətlə, sizdən nə gizlədim ki, bir müddət məktuba və onu gətirənə etimad edib-etməməkdə tərəddüd içərisində qaldıq. Amma tərəflər arasında olan dostluq və rəğbəti nəzərə alıb xüsusi şövqlə qasidi və məktubu qəbul etdik. Cavabın gecikməsinin səbəbi hər gün yeni bir məktub göndərəcəyinizə ümid etməyimiz idi. Belə bir təhlükəli məsələdə təklifimizin müəyyənləşməsini gözlədik. Amma bu müddətdə heç bir xəbər gəlmədi. Hətta o həzrətə xətər toxunduğunu və bu dünyadan köçdüyünü eşitdik. Ümidvarıq ki, bu xəbərlər həqiqi deyildir. Hələ ki, bizim nigarançılığımız çoxdur, çünki Osmanlı sultanı ilə döyüşmək üçün qoşun toplamaq problem yarada bilər. Bununla yanaşı, bir neçə ay idi ki, möhkəm xəstələnmişdim. Bundan əlavə, Fransa padşahı bizi döyüşə məcbur etdi. Bizimlə onun arasında baş verən ağır döyüşdə dəfələrlə məğlub oldu. Nəhayət, haradasa bütün qoşunu həlak olduqdan sonra özü bizim sərkərdələrimizə əsir düşdü. İndi Allahın yardımı ilə belə bir qələbə qazanmışıq. Həmişə xristian dünyasında sülh və asayiş tərəfdarı olmuşuq. Artıq ümidvaram ki, müştərək istək və meyl ilə Osmanlı türklərinə qarşı döyüşməkdən savayı bir iş qalmayıbdır. Bu məqsədlə yenə həmin qasidi bizim döyüş haqqında fikirlərimizi çatdırmaq üçün o əlahəzrətin yanına göndərdim. Siz də öz niyyətinizi tam etimad etdiyiniz şəxslər vasitəsilə bizə çatdırın. Bu işdə nə qədər cəld hərəkət etsəniz yaxşıdır. Çünki biz öz qüvvəmiz və siz əlahəzrətin qoşunu ilə həqiqətən həyasız və utanmaz olan bu düşmənlə döyüşməyə tamamilə hazırıq. Ümid edirəm ki, uca olan Allah zati-alinizə sağlıq, salamatlıq əta edib bütün istəklərinizi qəbul etsin.

25 avqust 1525-ci ildə Toldoda yazıldı.

Bizim nicat verənimiz Məsihdir!

QEYD: *Şah İsmayıl Çaldıran məğlubiyyətindən sonra Avropanın nəhəng dövləti olan Almaniya ilə müttəfiqliyə can atırdı. Həmin dövrdə Almaniya kralı Şarlkon Avropanın ən qüdrətli hökmdarı hesab edilirdi. Bu zaman Şarlkon ilə Fransa kralı I Fransua arasında dörd dəfə döyüş baş verdi. Fransızlar əlverişli fürsətdən istifadə edərək Şarlkon əleyhinə Osmanlılar ilə müttəfiq oldular. Məktub yazılan ərəfədə Macarıstan kralı II Luis idi. Onun bacısı Şarlkonun qardaşı Ferdinand ilə ailə həyatı qurmuşdu. II Luis Osmanlılardan ehtiyat etdiyi üçün Livanın Maruni keşişlərindən birini, yəni Petrosu Şah İsmayılın sarayına göndərdi. Keşiş Petros Macarıstana qayıtmaq istədikdə Şah İsmayıl onunla Şarlkona bir məktub göndərdi. Latın dilində yazılan bu məktub Səfəvi dövlətinin Avropa dövlətlərinə yazdığı ilk məktubdur. Onun orijinal nüsxəsi "V Karlın yazışmaları (məktubları)" adı altında çap edilmişdir. 1523-cü ilin 13 avqust – 11 sentyabr aralığında yazılan bu məktub 2 il sonra, yəni 1525-ci il avqustun 25-də Şarlkonun sarayına çatdırılmışdı. 931-ci ilin Zilqədə ayında latın dilində cavab yazılmış və elə həmin Petrosla Səfəvi sarayına göndərilmişdi. Petrosun yenidən Şah İsmayılın sarayına gəlməsi haqqında dəqiq məlumat yoxdur. Maraqlısı budur ki, 1529-cu ilin fevral ayına qədər Şarlkon Şah İsmayılın vəfat etdiyini bilmirdi. Çünki həmin ilin 15 fevral tarixində Şah İsmayıla digər bir məktub da yazmışdı. Şarlkon ikinci məktubu öz saray əyanlarından olan Johann Balbi ilə göndərsə də, bu məktubun taleyi aydın deyildir.*

SULTAN SÜLEYMANIN GİLAN HAKİMİNƏ MƏKTUBU

Sultan Süleymanın Şah İsmayıl Səfəvinin ölüm xəbərindən agah olmaq üçün Gilan hakiminə məktubu

Alicənab, hakimiyyət, izzət və dövlətçilik mənbəyi, ucalıq zirvəsi, ədalətin qazanc yeri, kəramətli əsl-nəsəb sahibi, şanlı və vüqarlı nəsilləri özündə birləşdirən, izzət və iftixar nümunələrinin sahibi, insafdan əyninə zirehli paltar geyinən, zülmün kökünü kəsən, yaxşılıq və mehribanlıqla insanları qul edən, zülm, sitəm və cəfanı uzaqlaşdıran, lütfləri gizli olan hökmranın (kainatın sahibinin) sonsuz mərhəmətinə şamil olan, Gilan hakimi Hisaməddin! Xoşbəxtliyin davamlı, şan-şöhrətin isə artıq olsun!

Saysız salam və hədsiz-hesabsız dualar səltənətin nur saçan lütfündən aşkara çıxır. Həqiqətdə müşahidə aynasının kinayə olduğu nurlu aləminiz və düşüncənizin araşdırılmasından məlum oldu ki, ötən əyyam və zamandan etibarən açıq-aşkar İslam dinini gücləndirmək və məxluqatın ağasının, – salam və dualar onun olsun, – şərafətli dinini qaydasına salmaq istiqamətində zəlalətə düçar olmuş Ərdəbil oğlunun faydasız vücudunu qələbə və zəfər qılıncı ilə varlıq aləmindən qoparıb atmaq [sizin] şahanə xoşətirli diqqət və nəzərinizdə imiş. Əlbəttə, şahlığın keçmişini qorumaq niyyəti və padişahlığımızın gələcəyi üçün çalışmaq tələbinə uyğun olaraq gözəl və yaxşılıq mənbəyi olan izzətli Allaha təvəkkül və kainatın ağasının ən fəzilətli dualar onun olsun, – möcüzələrinə təvəssül edib himməti ali olan cənabı səadət, xoşbəxtlik, izzət, şan-şöhrət, cah-calallı (şəkildə) və dərya kimi təlatümlü, zəfərlər qazanan əsgərlərlə o hiyləgər kafirlərin başçısını, şər və dinsizlərin rəhbərini aradan götürmək və yox etmək üçün şərq diyarına doğru getmək kimi uca məqsədli qərarından daşındırmış və geri döndərmişdik.

İndi isə qulağımıza, – Allah hər zaman müjdələr eşitdirsin, – daim güvəndiyimiz insanlar və [o tərəfdən gələn] yolçular tərəfindən mütəmadi olaraq gələn çoxsaylı xəbərlərə əsasən [bizim üçün] yəqinlik dərəcəsinə gəlib çatmışdır ki, "hər kəs zülm qılıncını siyirərsə onunla da öldürülər" [ifadəsindəki] həqiqətin məzmununa uyğun olaraq o fitnə və azğınlıq mənbəyi, zəlalət və fəsad məskəni, Allahın qəzəbinə düçar olmuş və öz xəbis canını cəhənnəm mələklərinə həvalə etmişdir. Keçmişdən bu günə qədər dostumuz və yaxınımız olan cənabınızın sədaqət və səmimiyyətli olmasının isbatı, məhəbbət və səmimiliyin yüksək keyfiyyəti, bizim xilafət və səltənətimizə nisbət əqidəsinin saflığı və niyyətinin sadiqliyi, dini qorumaq yolunda mərdliyi, peyğəmbər ümmətinin düşmənlərinə qarşı çıxması [cənabınızın] etimad ediləsi və inanılası sadiq insan [olması] dəfələrlə ali vəkillərin (işlərin tapşırıldığı şəxslərin, şahzadələrin) nurlu nəzərinə və rəhbərliyin diqqətinə çatdırılmışdır. Bizim də sədaqətli cənaba nisbət şahanə gözəl iradəmizin və səltənətimizin ali lütfünün diqqət və qayğısı artmışdır. O [bizdən ayrı və uzaq olsa da] qalib dövlətin dayaqlarına bəxşiş verərkən o da lütfümüzə şamil edilmiş və [hüzurumuzda] olmamasını olması hesab etmişik. Ona görə də hazırda qovulmuş və qəzəbə düçar olmuş şeytanın (Şah İsmayılın) tərəfdar və ardıcıllarının vücudunun çürüntülərindən İran məmləkətlərini təmizləyərək sahmana salmalı və müsəlmanın dini hökmlərini bərpa etmək istiqamətində İlahi iradə həmin tərəfə yönəldiyi üçün dindarlığın ünvanı olan cənabınızın misilsiz iradəsi üçün münasib, əlverişli və hətta lazım və vacibdir ki, bütün formalarda bizim uğurlu qədəmimizə ümidvar olub fürsətin gətirdiyi müjdə məzmununa əsasən yay yağışı və fürsətin yaranmasını qənimət hesab etsinlər. Əgər şücaət və sərkərdəlik işinə, tərif və hörmətə layiq olarsa, o zaman günbəgün

aşkara çıxarıb "kafir və münafiqlərlə vuruşun"[1] [ayəsində] qeyd edildiyi kimi, mümkün həddə səy göstərib çalışsınlar. Bacardıqları və layiq bildikləri şəkildə o kafir və dinsizin yolunu azmış dostları və adamlarını həlak etməkdə, mal-mülkünə ziyan vurmaqda əllərindən gələni əsirgəməsinlər. Ruzəfzunun əbədiyaşar dövlətinin mühüm işləri və mənafelərinin yerinə yetirilməsində bütün qüvvənizi sərf edərək bir dəqiqə belə süstlük etməyin. Mümkün olan hər bir vasitə ilə [habelə] məktub və məktubların göndərilməsi ilə davamlı olaraq mövzu və məsələlər haqqında məlumat verin. Əgər əziz olan Allah istəsə, həmin yerlərdə şahanə zəfər bayraqları və sancaqları günəş kimi parlarsa, hörmətə layiq olan möhtərəm zati-aliniz səltənətin gözəl lütfünə [nail olanlar] cərgəsində görünəcək və şahənşahın möhtəşəm ehtiramından faydalanacaqdır. Din və dünyanın yüksək pillələrində böyük rütbələr və ali mətləblərlə mükafatlandırılacaqdır. Cah-calalını ata-babanın dərəcəsindən iki dəfə artıq izzət və məqam səmasına yüksəldəcəyik. Belə mülahizə edirlər.

"Nun və Sad" ilə ilk danışan xatirinə (Allah xatirinə) məqam və taleyiniz həmişə eyb və nöqsandan uzaq olsun.

930-cu ilin mübarək Ramazan ayının ortalarında yazıldı.

[1] ət-Tövbə, 9/74.

FƏTVA VƏ FƏRMANLAR

ŞEYXÜLİSLAM KAMAL PAŞAZADƏNİN QIZILBAŞLARIN KAFİR OLDUQLARI HAQQINDA RİSALƏSİ

Məşhur Mövla İbn Kamal əl-Vəzirin risaləsi

Bağışlayan və mehriban Allahın adı ilə...

Məşhurluğuna görə barəsində açıqlamaya ehtiyac olmayan, bütün ölkə və diyarlarda adı karvanlar və yolçular üçün zikrə çevrilən (İbn Kamalın) Şah İsmayılı, zəlil qoşunlarını, Qiyamət gününə qədər Allahın lənəti üzərinə olmuş tərəfdarlarını və davamçılarını kafir elan etməsi haqqındadır.

Uca, əzəmətli, qüdrətli və səxavətli Allaha həmd olsun! Doğru yola yönəldən Məhəmmədə və onun doğru dininə tabe olanlara salam olsun!

Əsas məsələyə gəlincə, müsəlman məmləkətlərində və möminlərin yaşadığı yerlərdə bir qrup şiə tayfasının bir çox sünni məmləkətini ələ keçirib, öz batil məzhəblərini yaydıqlarına dair saysız-hesabsız xəbər və məlumatlar yayılıb. Onlar İmam Əbu Bəkir, İmam Ömər və İmam Osmanı, – Allah onların hamısından razı olsun, – açıq-aşkar söyür, o rəşidi xəlifələrin və hidayət rəhbərlərinin xilafətini inkar edirlər. Onlar şəriəti və şəriət əhlini təhqir edirlər. Rəhbərlərinin, yəni Şah İsmayıl adı ilə andıqları başçılarının təriqət yolunun əksinə olaraq müctəhidlərin məzhəb yollarının məşəqqətsiz olmayacağının iddia edir, məzhəb rəhbərlərini söyürlər. Onlar inanırlar ki, [Şah İsmayılın] yolu çox asan və faydalıdır. Onlar inanırlar ki, Şahın halal etdiyi halal, haram etdiyi isə haramdır. Şah şərabı halal hesab etdiyi üçün şərabın halal olduğunu qəbul edirlər. Onların hamısının kafir

olması bizə gəlib çatan çoxsaylı xəbərlərlə məlum olmuşdur. (Belə bir vəziyyyətdə) biz onların kafir olmaları və dindən çıxmaları məsələsində şübhə etmirik. Ölkələri müharibə yeridir (darül-hərb), qadın və kişiləri ilə evlənmək bütün alimlərin qəbul etdiyi ortaq düşüncəsinə əsasən batildir. Heç şübhəsiz, bütün övladları zinadan doğulma sayılır. Onlardan hər hansı birinin kəsdiyi heyvanın əti pak deyil. Onlara məxsus qırmızı papağı heç bir zərurət olmadan geyinən şəxsin kafir olma ehtimalı çoxdur. Çünki [onların qırmızı papağı] kafirliyin və mürtədliyin (dindən çıxmanın) zahiri əlamətlərindəndir.

Onların hökmü mürtəd şəxslərin hökmü kimidir.

Buna görə də onların məmləkətləri ələ keçirildiyində müharibə məkanı (darül-hərb) sayılsın, var-dövlətləri, qadınları və övladları müsəlmanlar üçün halal hesab edilsin. Kişilərinə gəlincə İslamı qəbul edənə qədər onları qətl etmək vacibdir. İslamı qəbul etdikləri təqdirdə digər müsəlmanlar kimi azad sayılmalıdırlar. Zındıqların hökmü isə fərqlidir. [Zındıqları] öldürmək qəti surətdə vacibdir. Hər kim İslam diyarını tərk edib onların dinini qəbul edər və onların diyarına qoşularsa, qazıya vacibdir ki, o şəxs barəsində ölüm hökmü versin, mal-mülkünü varəsələri arasında bölsün və yoldaşını başqa kişi ilə evləndirsin.

Bundan başqa, bilinməlidir ki, onlara qarşı cihad etmək onlarla vuruşmağa imkanı olan bütün müsəlmanlara eyni şəkildə vacibdir. Sözügedən hökmlərin doğruluğunu göstərmək üçün aşağıdakı şəri məsələləri qeyd edirik. Kömək Allahdandır:

"əl-Bəzzaziyyə"də qeyd olunur ki, Əbu Bəkrin, – Allah ondan razı olsun, – xilafətini inkar edənlər səhih görüşə görə kafirdir. Ömərin – Allah ondan razı olsun – xilafətini inkar edənlər isə [daha qüvvətli] səhih görüşə görə kafir sayılmalıdır. Xəvaricə gəldikdə, Osmanı, – Allah ondan razı olsun, – kafir hesab etdikləri üçün onlar da kafir sayılmalıdır.

"Tatarxaniyyə"də qeyd olunur ki, Əbu Bəkrin, – Allah ondan razı olsun, – xilafətini inkar edənlər səhih görüşə görə kafirdir. Ömərin – Allah ondan razı olsun, – xilafətini inkar edənlər isə [daha qüvvətli] səhih görüşə görə kafir sayılmalıdır. Bu görüşlərin ən doğrusudur. İki şeyxi (Əbu Hənifəni və İmam Şafini) yalançı hesab etmək də kafirlikdir. Hər kim "mən Əbu Hənifənin məzhəbindən uzağam" və ya "mən İmam Şafinin məzhəbindən uzağam" desə küfrə düşər.

Hər kim şərab içmək kimi İslam dininə görə haram olduğunu bildiyi bir şeyi halal hesab edərsə o, kafirdir. "əl-Qunyə"də elmə və alimə istehza etməyin haram olduğu qeyd olunmuşdur. "əl-Bəzzaziyyə"də isə qeyd olunur ki, onların hökmü dindən çıxmışların (mürtədlərin) hökmü ilə eynidir. əl-Muxtarın "Şərhül-ixtiyar"ında qeyd olunur ki, mürtədlər məğlub edildikdə onların məmləkətləri müharibə yeri (darül-hərb) və mal-mülkləri də qənimət hesab edilir. "əl-Kafi"də qeyd olunur ki, qəbul edilən ortaq görüşə görə, dindən çıxmışlarla (mürtəd) evlənmək batildir. Mürtədlər məğlub edildikdə ərəb müşrikləri kimi onlar ya İslamı qəbul etməli, ya da qılıncla öldürülməlidirlər. (Belə olan halda) onların malları, qadınları və övladları müsəlmanlar arasında bölüşdürülür. Bu doğru görüşdür.

Bəzi şəri kitablarda qeyd olunur ki, hər kim mürtəd olub, – Allah qorusun, – müharibə yerinə (darül-hərb) qoşulsa və barəsində mürtəd hökmü verilsə, onun köləsi və övladının anası (cariyyəsi) azad olar. Sadruş-şəriə qeyd edir ki, kafirlər hər hansı bir sərhəddən hücum edərlərsə, cihad etmək gücünə sahib olan o sərhəddə yaxın bölgənin bütün müsəlmanlarına cihad etmək eyni şəkildə vacibdir. O sərhəddən uzaqda yaşayan müsəlmanlara gəldikdə, xəbər onlara çatdığı və ehtiyac olduğu təqdirdə onların da cihad etməsi vacibdir. Bu minvalla cihad etmək Qərbdə və Şərqdə yaşayan bütün müsəlmanlara eyni şəkildə vacib olur. Bu doğru görüş-

dür. Elə isə müsəlmanların sultanına o kafirlərlə cihad etmək vacibdir.

Necə ki, uca Allah buyurur: "Ya Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! (Kafirləri qılıncla, münafiqləri isə dəlil-sübutla, sözlə məhv et!) Onlarla sərt davran! Onların məskəni cəhənnəmdir. Ora nə pis yerdir!"[1]. "Bil ki, bütün işlər axırda Allaha qayıdacaqdır!"[2].

[1] ət-Tövbə, 9/73; ət-Təhrim, 66/9.
[2] əş-Şura, 42/53.

ŞAH İSMAYIL TƏRƏFİNDƏN VERİLƏN BİR FƏRMAN

Şah İsmayıl tərəfindən verilən bir fərman

QEYD: *Xacə Cəlaləddin Əbülqasım şeyxülislam Əhməd Caminin varislərindən olan Xacə Rəziyəddin Əhmədin oğludur. Atası Rəziyəddin illər uzunu həmin şeyxülislamın məzarına vəqf edilən əmlaka cavabdeh şəxs olmuşdur. Hicri-qəməri tarixi ilə 908-ci ildə Rəziyəddin vəfat etdikdən sonra oğlu xacə Cəlaləddin onun yerinə keçdi. O da atası kimi səxavətli və əliaçıq idi. Cəlaləddin nüfuzundan istifadə edərək hətta ara-sıra şahzadələrə də irad tutub onları tənqid edirdi. Xacə Cəlaləddin hicri-qəməri tarixi ilə 920-ci ildə dünyadan köçdü. Deyilənə görə, Şah İsmayılın ona xüsusi rəğbət bəsləməsinə səbəb xacənin divanı ilə öz falına baxarkən falın yaxşı çıxması olmuşdur.*

Ruziləri paylaşdıran, kəramətli əxlaqı [bəndələrinə] verən əzəməti uca, qətiyyətli dəlilləri açıq-aşkar, ehsanı geniş olan uca Allah, nur saçan dövlətimiz, əzəmətli səltənətimiz və böyük xilafətimizi "Səni insanlara imam (dini rəhbər, başçı) təyin edəcəyəm"[1] [ayəsini bizə şamil etmək vasitəsilə] zinətləndirib bizim fatehlik və rəhbərliyimizi "Biz səni yer üzündə xəlifə (və ya əvvəlki peyğəmbərlərə xələf) etdik"[2] [ayəsində qeyd etdiyi kimi] aləmin bizə müti olması hökmü ilə bəzəmiş və cilvələndirmişdir. Həmişə bütün diqqət və fəaliyyətimizi mübarək hakimiyyətimiz və gündən–günə genişlənən xilafətimiz dövründə [tabeçiliyimizdə olan] tayfa və xalqların rifah və rahatlıq içində yaşamasına yönəltmişik. Xüsusilə ən ali əsil-nəcabət, mənəvi fəzilətlər və insani dəyərlərlə zinət-

[1] əl-Bəqərə, 2/124.
[2] əs-Sad, 38/26.

lənmiş bir firqənin hörmətini saxlamağı özümüzə vacib və xoşbəxtlik rəmzi hesab edirik. Buna görə də mübarək və xoş ovqatda şərafətli, səadət və ucalıq mücəssəməsi, alicənabların alicənabı, millətin, ucalığın və dinin əzəməti olan xacə Əbülqasim əl-Cami hüzurumuza gələrək kandarımı öpmək şərəfinə nail oldu. Onun imamət və vilayət ailəsinə nisbət əqidəli olduğu və [bu əqidənin] ürəyinin dərinliyinə saldığı nurun təsiri məlum oldu (Əhli-beyt aşiqi olması məlum oldu). Padşahın lütfünü nümayiş etdirmək məqsədi ilə Ona, Loy[1] (Əjdaha) ilindən başlayaraq hər il Cam vilayətinin "malcəhət"indən soyurqal[2] formasında on Təbriz tüməni məbləğində həmişəlik olaraq bağışladıq. Qeyd edilən məbləği hər il adı qeyd olunan Xacənin əkinçilik işlərinə nəzarət edən şəxsdən pula çevirməsini [tələb edib] az və ya çox olması yoxlanılaraq qaytarılsın. Bir şey azaldıb və ya çoxaltmasınlar. Az və ya çox olmasına tamah salmasınlar. Bu barədə səhlənkarlıq və ya uzunçuluğa (süründürməçiliyə) yol verməyərək ona qarşı həmişə belə mehribanlıq etsinlər. Bu bəxşişi qalıcı dəftərlərdə qeyd edib yazsınlar. Həmin xacəyə, övladları və nəvələrinə nəsilbənəsil çatsın və hesabı soruşulmasın. Hər il bu barədə yeni icazə kağızı tələb etməsinlər. Habelə böyüklərin ağası xacə Cəlaləddin Məhəmmədə də mərhəmət göstərərək onun Cam vilayətində olan əkinlərinə nəzarət edən şəxsdən 5000 Təbriz dinarı məbləğində [alaraq] ona hədiyyə və soyurqal verilməsini əmr etdik.

Qeyd olunan vilayət, ona tabe və birləşən [bölgələrin] darğaları, başçıları, kələntərləri, divan işləri üzrə rəhbər və vergi yığanları, mühüm [tapşırıqları] icra edənləri, sultanın xidmətçiləri (birbaşa padşaha tabe olanlar) mübarək fərmanının həmişə hər yerə (dörd tərəfə) aidiyyəti (nüfuzu, təsir

[1] Şərq ölkələrində qəbul edilmiş təqvimə əsasən 12 illik tsikl daxilində hər il müəyyən heyvan işarəsi altında tamamlanır [t.q.].

[2] Monqolca hərfi mənası ehsan, bəxşiş, hədiyyə, güzəşt kimi mənalara gələn "soyurqal" Qaraqoyunlular zamanından Qacarların hakimiyyətinə qədərki dövrdə, şah tərəfindən döyüşçülərə və ya digər şəxslərə maaş əvəzinə verilər torpaq hissəsinə və ya gəlirinə verilən ad. Soyurqal, irsi mülk sayılırdı və vergi inzibati-məhkəmə toxunulmazlığını nəzərdə tuturdu [t.q.].

qüvvəsi) olduğunu bilməlidirlər. Ümumiyyətlə, heç bir halda ondan kənara çıxmamalı və dəyişdirməməlidirlər. Bu yaxşılığın davam etməsi və möhkəmlənməsi üçün çalışmalıdırlar. Geri tələb etmək və maneə yaratmaqdan çəkinərək müstəsna [hal hesab edib] qorusunlar. Hər il yeni sənəd tələb olunmasın, əmrə itaətsizlik edilməsin. İxracat[1], əvarizat, ulafa[2], qonalqa[3], bigar, tərh[4], səvari[5], peşkəş[6], salami, bayramlıq və novruzi[7], daruğegi, sərçomaği, təhmil, sərşomari[8], tövcihat, ittifaqi piyadə və süvari vergilərinə və digər divani işlərinə görə onları narahat etməsinlər və onların evlərində nüzl[9] etməsinlər. Onların heyvanlarından ulağ[10] alınmasın. Əkinçilər və onlara aid olanlara əvvəlki əmrdə [olduğu kimi] adambaşına [vergi növünə] görə əliuzunluq etməsinlər və yeni qanun qoyulmasın, bu istiqamətdə üzr qəbul edilmir (qısa qələm və addımları vardır), onlara hörmətlə yanaşmağı, izzət və ehtiram göstərməyi zəruri hesab edin. [Növbəti] ali, yüksək, şərafətli və izzətli möhürlənmiş məktub [gəlincəyə qədər] etimad edib beləcə davam etsinlər.

917-ci ilin mübarək Məhərrəm ayında yazıldı.

[1] XVI əsrdə ümumi və müxtəlif vergilərin məcmusu mənasında işlənirdi: dövlət canişinləri, hərbi xidmətdə olanların və əyanların tələbatını ödəmək üçün alınırdı [t.q.].

[2] Bir nəfərin (hərbçi, canişin və s.) yaşaması üçün alınan vergi idi [t.q.].

[3] Əyanların kəndlinin evində düşərgə salmaq hüququ idi. Kəndli əyan və onu müşayiət edənləri yataqla təmin etməli, yedirtməli və atlarını yemləməli idi [t.q.].

[4] Dövlətə və feodala məxsus olan malın bazar qiymətindən yuxarı zorla kəndliyə satılması və yaxud, dövlətə və feodala lazım olan malın bazar qiymətindən aşağı qiymətə alınması idi [t.q.].

[5] Əhalinin hakim sülalənin üzvlərinə – sərkərdələrə, yeni fəth edilmiş yerlərə gələn tanınmış adamlara (Novruz bayramı münasibətilə) verdiyi hədiyyə idi. Buna görə də bəzən novruzi adlanırdı [t.q.].

[6] Şah və dövlət məmurlarının xeyrinə toplanan vergi [t.q.].

[7] Bayramlarda torpaq sahiblərinə verilən bayramlıq pay [t.q.].

[8] Adambaşına alınan vergi [t.q.].

[9] Əhali hakim təbəqənin nümayəndələrini və onların qulluqçularını, atlarını öz evlərində yerləşdirməli və yedizdirməli idi. Bu cür xidmət üçün alınan vergi nüzl adlanırdı [t.q.].

[10] Çapar və onların miniklərinə görə alınan vergi növüdür [t.q.].

ŞAH İSMAYILIN FƏRMANI

Şah İsmayılın fərmanı

QEYD: Şah İsmayılın bu fərmanı xacə Cəlalüddövlənin oğlu xacə Kamal Əbülfəthin mükafatlandırılması haqqındadır. Bundan 14 il öncə Ağqoyunlu Əlvənd Mirzə tərəfindən onun atasına da soyurqal verilmişdi. Ağqoyunlulardan sonra hakimiyyətə gələn Səfəvi padşahı Şah İsmayıl da xacə Kamal Əbülfəthin mükafatlandırılması haqqında fərman verdi. Məktubun mətnindən göründüyü kimi, xacə Kamal Əbülfəth Şah İsmayılın xəzinəsinin müfəttişi və ya nəzarətçisi olmuşdur. Məktub nəstəliq xətti ilə bir miqdar qızıl və bir miqdar mürəkkəblə yazılmışdır. Fərmanın əsli mərhum Mirzə Həsən xan Cayeri İsfahaninin oğlu Mirzə Əli Ənsaridə olub.

Əbul-Müzəffər Mir İsmayıl Bahadur Suzumiz[1]

Bağışlayan və mehriban Allahın adı ilə...

Xoşbəxtlik üzərinə qurulmuş həmd-səna və ibadət üzərinə qurulmuş bənzərsiz şükr etmək gözəlliklərinin [olduğu bir padşahlığa layiq [olan budur ki] "dərəcələrə görə bəzilərinizi digərinizdən üstün etdi"[2] [ayəsində qeyd edilən əlamətlərin faydalı məzmununa uyğun olaraq "elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın"[3] [ayəsində buyurulan] sonsuz lütf və qayğının faydasından bəndəlik (xidmətçilik) məqamından agah olanların mənsəb və məqamın mərifət sahibi olan qabaqcılların dərəcə və rütbələrini "(İslamı qəbul etməkdə) öndə gedənlər, (cənnətdə də) öndədirlər. Onlar (Allah dərgahına, Allahın lütfünə) yaxınlaşdırılmış şəxslərdir"[1]. [ayəsində buyurulduğu kimi] uca zirvə və hündür yüksəkliyə qaldırmaqla, tükənməz xəzinədən dərgah və hüzurumuza yaxın olanlardan hər birini "hər şeyə Öz xilqətini verən, sonra da ona doğru yolu göstərəndir!"[2] [ayəsinin məzmununa uyğun olaraq] istedadına uyğun qüsursuz xələt, gərginlikdən uzaq ənam və çıxarılmaqdan amanda qalacaq vəzifə (mənsəb) ilə dəyərləndirək. Göylərin, yerin və aləmlərin rəbbi olan Allaha həmd olsun. "Lakin o, Allahın Rəsulu (elçisi) və peyğəmbərlərin sonuncusudur"[3] [ayəsində qeyd edilən] o alicənaba və "Səni də (Ya Rəsulum!) aləmlərə (bütün insanlara və cinlərə) ancaq bir rəhmət olaraq göndərdik"[4] [ayəsində buyurulan] uca məqam sahibinə sonsuz salamlar və dualar olsun. Hikmət və rəhmət xəzinələrinin qapısının fəthi onun çox bərəkətli vücudunun bərəkətindəndir.

Əhməd peyğəmbərdir, ağıl ona heyrandır
Hər iki dünya onun [miniyinin] yük yerinin qayışına bağlıdır

Təzim edilməsi lazım və əzəmətli hesab edilməsi vacib olan onun ailəsinə beyət və itaət etmək hər iki dünyada əbədi səadətə və daimi əzabdan qurtuluşa səbəb olar.

Mətləbə gəlincə, "(İslamı) ilk əvvəl qəbul edib (bu işdə başqalarından) irəli düşən mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə"[5] [ayəsində buyurulan] mirvari kimi nəzmə çəkilmiş mübarək kəlamın tələbinə uyğun olaraq [bellərinə] ixlas kəməri bağlayıb, canlarını fəda edərək xidmət etməkdə yaxınlarından və dostlarından fərqlənən sabitqədəm xidmətçilərin öndə gedənlərinə ehsan etmək vacib və zəruri bir işdir. Xilafət ailəsinə və səltənət xanədanına nisbət, aləmin sığınacağı dərgahımızın xadimləri və asimana bənzər səltənətimizin

[1] "Suzumiz" Teymur tərəfindən siyasət dilinə qazandırılmış bir istilahdır. E istilah Ağqoyunlu və Səfəvi dövrlərində də işlədilmişdir [t.q.].
[2] əl-Ənam, 6/165.
[3] əl-Hicr, 15/21.

[1] əl-Vaqiə, 56/10–11.
[2] Ta ha, 20/50.
[3] əl-Əhzab, 33/40.
[4] əl-Ənbiya, 21/107.
[5] ət-Tövbə, 9/100.

zümrəsindən olan hər bir kəs, ixlas və səmimiyyətini sübuta yetirərsə, ondan yüksək düşüncələr və ciddi səylərimizi əsirgəmərik. Bu mübarək zaman və çox bərəkətli günlərdə dövlətə qulluq və xidmət səhifələrində layiqli davranış və gözəl xüsusiyyətlərlə [özündən bəhs etdirən] alicənab və ağaların sütunu olan xacə Kamal Əbülfəthin dolu xəzinənin nəzarətçisi olması günün dörddən birindəki günəş (parlaq ışıq saçan günəş) kimi aşkar və məlum idi. Ona şahlığın sonsuz iltifatı və səltənətin hüdudsuz lütfkarlığını göstərərək cahanın itaət etməsi vacib olan fərmanımızda 38 min Təbriz dinarında məbləğin verilməsini əmr etdik.

Biz bundan öncə də Gülpayeqan mahalının Abrudə bölgəsinin[1] "Vist" hissəsindən sözügedən şəxsə soyurqal verilməsinə qərar vermişdik. Qeyd olunan xacənin ərazilərinə, qullarına, əkinlərinə, bağlarına və divan işlərinə bağlı olan digər mülklərinə zəmanət verilmiş hesab edilsin. Əldə edilmiş nağd pulları və gəlirləri barəsində onun vəkillərinin uyğun gördüyü tərzdə bir dinar və ya bir zərrə də olsun azaldılmasın və kəsilməsin. Adı keçən şəxsə soyurqal olaraq verilən mahaldan malcəhət, ixracat[2], qanuni və qeyri-qanuni vergilər, ələfə[3], ulafa[4], salami, səvari[5], peşkəş[6], çerik, işçi və işçidən istifadə vergisi, ulaq[7] vergisi, ulam[8] vergisi, divana bağlı olan və səltənətin tələb etdiyi digər vergilər [istənilmə-

[1] Fərqli adları olan bir neçə kəndin birləşməsindən yaranmış və xüsusi ad verilmiş bölgə [t.q.].

[2] XVI əsrdə ümumi və müxtəlif vergilərin məcmusu mənasında işlənirdi: dövlət canişinləri, hərbi xidmətdə olanların və əyanların tələbatını ödəmək üçün alınırdı [t.q.].

[3] Padşahların səfirləri, onları müşayiət edənlər və slikləri üçün alınan yemək və ləvazimatlar [t.q.].

[4] Bir nəfərin (hərbçi, canişin və s.) yaşaması üçün alınan vergi idi [t.q.].

[5] Əhalinin hakim sülalənin üzvlərinə – sərkərdələrə, yeni fəth edilmiş yerlərə gələn tanınmış adamlara (Novruz bayramı münasibətilə) verdiyi hədiyyə idi. Bəzən novruzi adlanırdı [t.q.].

[6] Şah və dövlət məmurlarının xeyrinə toplanan vergi [t.q.].

[7] Çapar və onların miniklərinə görə alınan vergi növünə deyilir [t.q.].

[8] Bəzi kəndlərdə ağalara verilən xərac növü [t.q.].

sin] mal-mülk və bənzər şeylərə görə heç bir halda narahatlıq verilməsin və heç bir şey tələb edilməsin. Əgər bu arada həmin mahalda inşaat və əkinçilik işləri səbəbi ilə dəyişiklik baş versə, buna görə qeyd olunan şəxsin nümayəndə və təyin etdiyi şəxslərə heç bir narahatlıq yaradılmasın, ölçmə və ya mühasibə aparılmasın. Onun barəsindəki bu yaxşılığımız hər zaman davam edən əbədi hədiyyə, daimi və sözsüz (barəsində artıq söz edilməyəcək) mükafat hesab edilsin.

Qeyd olunmuş məbləğ, nəsildən-nəslə və soydan-soya keçməklə ona, övladlarına və nəvələrinə çatmalıdır. Dəyişilmədən və əvəzlənmədən olduğu kimi qalsın. Həmin mahaldan qələm və qədəminizi uzaq tutun, az və çoxa tamah salıb umacağınız olmasın. Gülpayeqan və mübarək fərmanımızla ona tabe olan bölgələrin idarəçiləri, rəhbərləri, tiyul vergiləri yığanları, mühafizə rəhbərləri, vergi yığanları, kəndxudaları, divan işçiləri, rəhbərləri və əlaqədar şəxslər qeyd olunan məbləğin qeyd etdiyimiz üçün əbədi soyurqal və daimi ənam olduğunu bilsinlər və bu hədiyyənin təhlükəsizliyi və davamlılığı üçün çalışsınlar və öz mühasibat dəftərlərinə (sadalanan güzəştləri) qeyd etsinlər və hesaba alsınlar. Bizim icrası vacib olan fərmanımızı təxirə salmasınlar, onun izzətli vəkillərinə və işçilərinə hörmət və ehtiram etməyi vacib hesab etsinlər. Hər il yeni sənəd və vəsiqə tələb etməsinlər. Əmrdən boyun qaçırmayıb özlərini cavabdeh bilsinlər. Ən şərafətli ali-cənabın uca və yüksək imzası ilə bəzədilib, zinətləndirilib və imzalandıqdan sonra mötəbər hesab edilsin.

[Şah İsmayılın] uca əmri ilə, – Allah onu ucaltsın və nüfuzunu əbədi etsin, – 918-ci ilin Zilhiccə ayında Natanzın[1] Meymə qəsəbəsində yazıldı.

[1] Hazırda Natanz, Kaşan vilayətinin bir rayonudur. Kaşanın cənub-qərbində yerləşir. Meymə isə Tehran–İsfahan yolu üzərində yerləşən Kaşan vilayətinə bağlı qəsəbənin adıdır [t.q.].

ŞAH İSMAYILIN KƏMALƏDDİN BEHZAD HAQQINDA FƏRMANI

چون حضرت قاسم الارزاق و معطی کریم الاخلاق تعالی شأنه و عظم برهانه و عم احسانه منشور لامع‌النور سلطنت عظمی و خلافت کبرای ما را به طغرای غرای انی جاعلك للناس اماما مزین گردانیده و یرلیغ جهانداری و فرمانروائی ما را به توقیع رفیع عالم مطیع اناجعلناك خليفة فی‌الارض مزین و محلی ساخته همواره دواعی خاطر فیض مآثر بر آن مصروف و معطوف است که عموم طوایف و جمهور خلایق در زمان‌دولت همایون ما و ایام خلافت روز افزون ما مرفه‌الحال و فارغ‌البال باشند سیما جمعی که به علو نسب و سمو حسب و وفور فضائل نفسانی و فواضل انسانی مزین باشند رعایت جانب ایشان بر ذمت همت والا نهمت ازلوازم سعادت می‌دانیم ولهذا درین‌اوقات فایض‌البرکات که شرافت مآبی، سعادت و رفعت انتسابی ، خلیفة‌الخلفاءالعظامی خواجه جلال الملة والرفعة والدین ابو القاسم الجامی به درگاه گردون اشتباه آمد به شرف عتبه بوسی مفتخر و سرافراز گشت و صورت اعتقاد او نسبت با خانوادهٔ دودمان ولایت و

امامت بر ضمیر منیر کیمیا تأثیر به وضوح پیوست ، اظهاراً لعناية‌السلطانية فی شأنه مبلغ ده تومان تبریزی از ابتدای لوی‌ئیل از مال و جهات ولایت جام هر ساله در وجه سیورغال هود بری و انعام سرمدی او ارزانی داشتیم و شفقت فرمودیم . باید که مبلغ مذکور را هر ساله از سر کار زراعت خواجهٔ مشارالیه تنخواه نموده به زیاد وکم باز یافت نموده رجوع نمایند و چیزی قاصر و متکثر نگردانند و به قلیل و کثیر طمع و توقع ننمایند و قلم و قدم کوتاه و کشیده داشته این عارفه را در بارهٔ او مؤبد شناسند و رقم این عطیه را در دفاترخلود مثبت و مرقوم گردانند و بر خواجهٔ مشار-الیه و اولاد و احفاد او بطناً بعد بطن معاف و مسلم و مرفوع‌القلم دانند و هر ساله درین باب پروانچهٔ مجدد نطلبند و همچنین مرحمت در باب نقية الاكابر خواجه‌جلال الدین‌محمدفرموده مبلغ‌پنج‌هزاردینار تبریزی از سرکار زراعت او که در ولایت جام دارد برو مسلم و سیورغال فرمودیم .

داروغگان و ارباب و کلانتران و عمال و مباشران امور دیوانی و متصدیان مهمات و اعمال سلطانی ولایت مذکوره و توابع و لواحق باید که حسب الحکم همایون لازال نافذا فی ربع المسکون مقرر دانسته اصلا به‌هیچ وجه من الوجوه عدول و انحراف‌نورزند وتغییر و تبدیل به قواعد او راه ندهند و در استمرار و استقرار این عوارف کوشند و از شوائب نقیض و مسترد مصون و مستثنی و محروس شمرند و هر ساله درین باب به نشان مجدد محتاج ندانند و از فرموده در نگذرند و به علت اخراجات و عوارضات و علوفه و قنلقه و بیگار و طرح و ساوری وپیشکش وسلامی وعیدی ونوروزی و داروغگی و سرچماقی وتحمیل و سرشماره وتوجیهات اتفاقی پیاده [و سواره ؟] و سایر تکالیف دیوانی مزاحم نگردند و درخانه های ایشان نزول نگردانند و چهار پایان ایشان را اولاغ نگیرند و اکاران و

متعلقان ایشان را به دستورسابق جهت سرشماره تعرض‌نرسانند ورسم‌محدث ننهند و قلم و قدم کوتاه و کشیده دارند و اعزاز واکرام و توقیر واحترام ایشان ازلوازم شمرند و برین جمله روند وچون به توقیع رفیع منیع‌اشرف اعلی مزین و محلی گردد اعتماد نمایند . تحریرا فی شهر محرم الحرام سنة سبع و عشر و تسعمایه.

ابوالمظفر میر اسماعیل بهادر سوزومیز

بسم‌الله الرحمن الرحیم

لطایف حمد و سپاس سعادت اساس و ظرایف شکر بی‌قیاس عبادت اساس پادشاهی را سزاوار است‌که بر حسب فحوای افاضه سمات و رفع بعضکم فوق بعض درجسات از فیض عنایت بی‌غایت و لطف بی‌نهایت وان من‌شیء الاعندنا خزائنه مدارج مراتب سابقان مضمار معرفت ومعارج مناصب واقفان مقام عبودیت را به اوج اعتلا و ذروهٔ ارتقاء والسابقون ـ السابقون اولئك المقربون رسانیده هر یك از آن خاصان درگاه و مقربان بارگاه را از خزانهٔ بی‌کرانهٔ اعطی کل شیء خلقه ثم هدی خلعت کمالی مناسب استعداد وانعامی مصون ازاشتداد و ادراری مأمون ازاسترداد ارزانی داشت و لله الحمد رب السموات و رب الارض و رب العالمین و صلوة و سلام بی‌انجام بر آن عالی قدر ولکن رسول‌الله و خاتم‌النبیین و اعلی‌مقام

و ما ارسلناك الارحمة للعالمین که فتح باب خزانهٔ رحمت وگنجینهٔ حکمت از میامن وجود بسیار فیض وجود اوست :

احمد مرسل که خرد خاك اوست

هـر دو جهان بستهٔ فتراك اوست

و آل لازم‌التعظیم واجب‌الاجلال او که مبایعت و متابعت ایشان موجب فلاح دارین و نجاح منزلین و منتج سعادت ابدی و خلاص از شقاوت سرمدی است .

و بعد چون بر مقتضای مرتضای کلام درر انتظام السابقون الأولون من المهاجرین و الانصار و الذین اتبعوهم باحسان در بارهٔ سابقان خدام ثابت الاقدام که کمر اخلاص وجان سپاری برمیان جان بسته اقدام به وظایف قدمت خدمت ازاکفاء و اقران سمت امتیاز یافته باشند امری واجب ولازم است . پس هرکس از زمرهٔ خدام درگاه عالم پناه و جمله بندگان بارگـاه گردون اشتباه که شرایط اخلاص و ضوابط اختصاص نسبت به آن دودمان خلافت وخاندان سلطنت به‌تقدیم‌رسانیده‌باشد همگی‌همت‌بلند ونهمت‌ارجمند در بارهٔ او مصروف می‌داریم و لهذا در این اوقات فرخنده ساعات وایام کثیرالبرکات که آثار آن خصال حمیده و علامات فعال پسندیده ازصحایف اعمال و صفایح احوال دولت‌مآبی ، عمدةالصواحب والأعالی خواجه کمال ابوالفتح مشرف خزانهٔ عامره کالشمس فی‌رابعة النهار واضح وآشکار بود . عنایت بی‌غایت شاهی و التفات بی‌نهایت پادشاهی دربارهٔ او فرموده مبلغ سی و هشت هزار دینار تبریزی که به موجب فرامین جهان مطاع واجب ــ

الاتباع همایون ما سابقا از موضع « ویست » از اعمال جربادقان من بلوك ابروده در وجه سیورغال مشار الیه مقرر است از مال وجهات بلده و بلوك جربادقان مقرر داشته آنچه متوجهات رقبات و مزارعات و باغات و سایر حقوق دیوانی خواجه مومی الیه می‌شود حسب‌الضمن مجری داشته همه از انقد وجوه و از محل مرجوالحصول از هر جهت که وکلاء او صلاح دانند و جواب‌گویند و یك دینار و یك من بار قاصر ومنکسر نگردانند و بر محال مذکوره ضمنی که به سیورغال مشارالیه مجری می‌شود اصلا به علت مال و جهات واخراجات وعوارضات حکمی و غیرحکمی و علفه وعلوفه و سلامی و ساوری‌و پیشکش و چریك و کذلك حق‌السعی عمال و الاغ و الام و سایر تکالیف دیوانی و مطالبات سلطانی و آنچه اطلاق مال و خارج برآن توان کرد به هر اسم و رسم که باشد مزاحم نشوند و مطالبتی نکنند و اگراحیانا به واسطهٔ تکثیرعمارت و زراعت تفاوتی در آن محال پیدا شود بدان جهت تعرض به وکلا وگماشتگان مشارالیه نرسانند و به حرز ومساحت درنیاورند و این عارفه را دربارهٔ او انعام مخلد بردوام واکرام مؤبد مالاکلام‌شمارند. مبلغ مذکوررا براو و اولاد و احفاد اونسلا بعد نسل وعقبا بعد عقب مسلم شناسند و از شوائب تغییر و تبدیل مصون و محروس دانسته قلم و قدم از آن محال کوتاه و کشیده دارند و به قلیل و کثیر طمع و توقع ننمایند . امرا و حکام و تیول داران و داروغگان و کلانتران و کدخدایان ورؤسا و عمال و مباشرین امور دیوانی جربادقان و توابع و ملحقات حسب‌الحکم همایون عمل نموده مبلغ مذکور را به سیورغال مؤبدی و انعام سرمدی مشار الیه مقرر دانسته در استمرار به استقرار آن عطیه کوشیده در دفـاتر خلود ثبت و مرقوم گردانند واز مضمون فرمان واجب الاذعان ما درنگذرند

و رعایت و مراقبت اعزاز و کلا و متعلقان او لازم شناسند و هر ساله نشان و پروانهٔ مجدد طلب ندارند و از فرموده تخلف نورزند و در عهده دانسته چون به توقیع رفیع منیع اشرف‌اعلی موشح و مزین و محلی‌گردداعتماد نمایند .

کتب بالامرالعالی اعلاه‌الله وخلدنفاذه فی‌عاشر شهرذی‌الحجة‌الحرام ثمان عشر و تسعمایه ختم بنواحی میمه نطنز.

چون ارادت مصور کارخانهٔ ایجاد تکوین و مشیت محرر نگارخانهٔ آسمان و زمین که برطبق کلمهٔ و صورکم فاحسن صورکم نقش وجود غرابت نمود بنی نوع بشر در احسن صور بر صفحهٔ امکان پرداختهٔ قلم قدرت اوست وتصویر صورت تفضیل افراد انسان برسایر مخلوقات ربانی به مقتضای و فضلناهم علی کثیر ممن خلقنا تحریر کردهٔ انامل او منشور انا جعلناك‌خلیفة فی الارض را بر صحیفهٔ حل‌کاری خورشید به خامهٔ‌عطارد به نام همایون اتسام ما امضا نموده واوراق سپهر لاجوردی راجهت کتابت روزنامچهٔ آثار فتح و نصرت ما به افشان نقره کوب کواکب و جدول شنجرفگون شفق منقش و مزین فرموده لایق آن و مناسب چنان می نماید که لوح ضمیر الهام پذیر همایون که مطرح اشعهٔ انوار الهی و مظهر صور آثار خیرخواهی است بدین‌صورت مصور باشدکه هر مهم از کرایم‌مهمات سرکار کامرانی و هر امر ازعظایم امورکارخانهٔ جهانبانی به هنرمندی دانا و کاردانی فضیلت انتما که به طراحی ذهن باریك بین و رنگ آمیزی طبع

ظرافت آیین طرح ابداع انواع کفایت و نقش اختراع اصناف فراست بر تختهٔ وحود ظاهر تواند نمود و نقاب حجاب از چهرهٔ مطلـوب و مقصود تواند گشود مفوض و متعلق باشد ، بناء علی هذا ، درین ولا ، نادرالعصر ، قدوة المصورین و اسوة المذهبین ، استاد کمال‌الدین بهزاد راکه از قلم چهره‌گشایش جان مانی خجل شده واز کلك صورت آرایش لوح ارتنگ منفعل گشته وپیوسته قلم‌وار سربرخط فرمان واجب‌الاذعان نهاده وپرگارمثال پای در مرکز ملازمت آستان خلافت آشیان استوارکرده مشمول الطـاف خسروانه واعطاف پادشاهانه ساخته‌حکم‌فرمودیم‌که منصب استیفا و کلانتری مردم کتابخانهٔ همایون وکاتبان و نقاشان ومذهبان و جدول‌کشان و حل‌کاران و زرکوبان و لاجورد شویان وسایرجماعتی که به‌امور مذکوره منسوب‌باشند در ممالك محروسه مفوض ومتعلق بدو باشد .

سبیل امراء روشن ضمیر و وزرای بی‌شبه و نظیر و نواب درگاه‌عالم پناه و ایچکیان بارگاه سپهر اشتباه و مباشران امور سلطانی و متصدیان‌مهام دیوانی عموماً و اهالی‌کتابخانهٔ همایون و جماعت مذکوره خصوصاً آنکه استاد مشارالیه را مستوفی و متعهد کلانتری دانسته کارهای کتابخانه را به استیفا و برآورد او رسانند و آنچه او برآورد کند به مهر و ثبت او معتبر دانند و از سخن و صوابدید او که در باب ضبط و ربط امور کتـابخانهٔ همایون گوید عدول و تجاوز ننمایند و آنچه از لوازم امور مذکور است مخصوص بدو شناسند و مشارالیه نیز بایدکه صورت امانت و چهرهٔ دیانت برلوح خاطر وصفحهٔضمیر منیر متصور و مرتسم گردانیده به طریقهٔ راستی در این امر شروع نماید و از میل و مداهنه مجتنب و محترز بوده از جادهٔ

صدق و صواب انحراف و اجتناب نکند . از جوانب براین جمله روند و چون این حکم همایون به‌نقش توقیع وقیع اشرف اعلی منقش و مشرف و محلی‌گردد اعتماد نمایند . تحریراً فی۲۷ جمادی‌الاولی سنة ۹۲۸

KHATAI







Çaldıran döyüşü



Səlim-namə, TSMK, H. 1597-8, f. 113a

Kamal Paşazadənin qızılbasların kafir olduğuna dair fətvası



Sultan Səlimin Şah İsmayıla göndərdiyi məktublardan birinin surəti



Sultan II Bayazid

Sultan Səlim

I ŞAH İSMAYIL SƏFƏVİNİN DİPLOMATİK YAZIŞMALARINDA ADI ÇƏKİLƏN BİR SIRA MƏŞHUR ŞƏXSİYYƏTLƏR HAQQINDA MÜXTƏSƏR TARİXİ ARAYIŞ

OSMANLI SULTANLARI:

II Bayazid Vəli (1481–1512)

II Bayazid İstanbulu fəth etmiş sultan II Mehmed Fatehin (1451–1481) oğlu və siyasi varisidir. 1447-ci ildə anadan olmuş, 1481-ci ildə isə Osmanlı taxtına çıxmışdır. Atası II Mehmedin təkidi və nəzarəti altında II Bayazid mükəmməl təhsil almış, dövrünün bir sıra elmlərini dərindən öyrənmişdir. Mənbələr gələcək hökmdarın gənclik illərində əyləncə, eyş-işrət düşkünü olduğunu, hətta bir ara uyuşdurucu maddələrə aludə olduğunu xəbər verirlər. Yalnız II Mehmedin birbaşa müdaxiləsindən sonra II Bayazidin öz həyat tərzini nizama saldığı və zərərli vərdişlərdən uzaqlaşdığı bildirilir *[Prof. İ.H.Uzunçarşılı. "Büyük Osmanlı tarihi", II cilt, Ankara, 1988, s. 246]*.

Təbiəti etibarilə kifayət qədər mülayim, sülhsevər bir insan olan II Bayazidin hakimiyyəti illəri Osmanlı tarixində sakit, əmin-amanlığın hökm sürdüyü, müharibələrin nadir hallarda baş verdiyi dövr kimi səciyyələndirilir. Tanınmış Avstriya şərqşünası J.Hammer "Böyük Osmanlı tarixi"ndə II Bayazidin xasiyyətini belə səciyyələndirmişdir:

"II Bayazid təbiəti etibarilə həlim, sakitliyə üstünlük verən, şeiriyyətə bağlı, dünyəvi hadisələrə etinasız yanaşan, xaricdə düşmənlərin, daxildə isə yeniçərlərin törətdikləri təxribatları dəf etmək zərurəti meydana çıxmadıqca silaha əl atmayan biri idi" *[J.Von Hammer. "Büyük Osmanlı tarihi". II kitap, IV cilt, s. 317]*.

Tanınmış Türkiyə tarixçisi İ.H.Uzunçarşılı da əcnəbi səfirlərin II Bayazidin tərki-dünya həyat tərzinə meylini, əyləncədən uzaq durduğunu vurğuladıqlarını qeyd edir:

"II Bayazidin çöhrəsi çox ciddi və ağır məsələlərlə məşğul olduğundan xəbər verir. Ən xoşbəxt hadisələr baş verdiyi zaman belə əsla sevinib gülməzdi. Qətiyyən şərab içməz, az miqdarda yemək yeyər, at minməkdən çox zövq alardı. Ən sevdiyi əyləncə ov və at təlimləri idi. Dini mərasimlərin heç birini buraxmazdı, böyük miqdarda sədəqə paylayardı" *[Prof. İ.H.Uzunçarşılı. "Büyük Osmanlı tarihi", II cilt, Ankara, 1988, s. 247]*.

Bu mənada türk tarixçilərinin bir çoxu onun hakimiyyəti dövrünü "iki fateh arasındakı sükunət" adlandırırlar. Heç şübhəsiz ki, istər atası II Mehmed Fateh, istərsə də oğlu Səlim Yavuzla (1512–1520) müqayisədə II Bayazidin hərbi-siyasi fəaliyyəti o qədər də parlaq deyil. Üstəlik nəvəsi Süleyman Qanuninin Avropada və Afrikada əldə etdiyi əhəmiyyətli qələbələri də nəzərə alsaq, II Bayazidin iqtidar illəri fəthlər baxımından öz sələfinin və iki xələfinin səltənət dövrləri ilə müqayisədə kölgədə qalmış olur. Ancaq bütün bunlar II Bayazid dövründə Osmanlı dövlətinin hərbi və siyasi cəhətdən yerində saydığı mənasına əsla gəlmir. Şəxsən II Bayazidin komandanlığı altında Osmanlı ordusu 5 hərbi səfərə çıxmış, əvvəlki sultanlar dövründə dövlətin qazandığı uğurlar daha da möhkəmləndirilmişdir. Məhz II Bayazidin zamanında türk ordusu Polşa və Venesiyaya qarşı bir sıra uğurlu hərbi əməliyyatlar həyata keçirmişdir. Həmin dövrdə quruda olduğu kimi, Osmanlı ordusu dənizdə də mühüm nəticələr əldə etməyi bacarmışdı. İoniya dənizində Venesiya donanması ilə baş verən qanlı döyüşün nəticəsi olaraq Osmanlı dövləti 1499-cu il avqustun 28-də Lepanto üzərində nəzarəti tam şəkildə ələ aldı *[Doç. Dr. İsmet Miroğlu. "Fetret devrinden II Bayazide kadar Osmanlı siyasi tarihi", "Büyük İslam Tarihi",*

İlmi müşavir ve redaktör Prof. Hakkı Dursun Yıldız, X cilt, İstanbul, 1992, s. 265].

Tarixi qaynaqlardan, o cümlədən sözügedən dövrdə Osmanlı sarayında fəaliyyət göstərən Avropa diplomatlarının qeydlərindən aydın olur ki, II Bayazid dövründə türk ordusunun müasir odlu silahlarla təchiz edilməsində və donanma quruculuğu sahəsində ciddi uğurlar əldə edilmişdir. Ordunun texniki baxımdan daim yüksək hazırlıq vəziyyətində olması II Bayazidin hərbi siyasətinin prioriteti idi. İ.H.Uzunçarşılı "Böyük Osmanlı Tarixi" adlı əsərində Andre Qritti adlı Avropa diplomatının bu qəbildən olan bəzi qeydlərini misal gətirir:

"II Bayazid yeniçərilərin sayını artırdı, ordunu yeni silahlarla təchiz etdi. Xüsusilə topçu və süvari bölmələrinə, topların nəqlinə dair islahatlar həyata keçirildi. Atlı və atsız qoşun növləri, donanma sürətli şəkildə cəm edildi (sistemləşdirildi)" *[Prof. İ.H.Uzunçarşılı. "Büyük Osmanlı tarihi", II cilt, Ankara, 1988, s. 247].*

Hakimiyyətinin həm əvvəlində (şahzadə Cem hadisəsi), həm də onun sonuna doğru II Bayazid imperiyanın daxilində ciddi iğtişaşlarla üzləşdi. Uzun müddət ona qarşı yönələn təxribatları dəf etməyə müvəffəq olan II Bayazid 1512-ci ildə yeniçərlərin təzyiqi altında Osmanlı taxtından oğlu I Səlimin xeyrinə imtina etmək məcburiyyəti ilə üzləşdi. I Səlimin mühafizəkar xətt tərəfdarı olması, müharibəyə meyli, həmçinin amansız xasiyyəti hərbi əməliyyatlara həris olan yeniçəriləri daha çox cəlb edirdi. İqtidardan uzaqlaşdıqdan sonra II Bayazid öz istəyi ilə paytaxtdan uzaqlaşaraq dinc bir guşəyə çəkilməyə qərar verir. Lakin yolda səhhəti pisləşən keçmiş sultan dünyasını dəyişir. Cəsədi İstanbula gətirilərək, inşa etdirdiyi Bayazid məscidinin həyətində torpağa tapşırılır. Bir çox nüfuzlu tarixçilər Bayazidin öz əcəli ilə deyil, zəhərlənərək öldürüldüyü qənaətindədir. Bu qəsdin arxasında isə Sultan Səlimin dayandığına dair ehtimallar daha çox səslənməkdədir.

II Bayazidin vəfatı bütün müsəlman aləmində hüznlə qarşılandı. Tərki-dünya həyat tərzi, yüksək əxlaqı, elmə və sənətə göstərdiyi sonsuz qayğı onun İslam aləminin sevimlisinə çevirmişdir. Hətta onun uzun müddət müharibə şəraitində olduğu Misir Məmlük dövlətində də II Bayazid üçün qiyabi cənazə namazları qılındığı bildirilir. Həm İstanbulda, həm də Ədirnədə II Bayazid tərəfindən xeyli sayda məscid, mədrəsə, xəstəxana, körpü və digər tikililər ucaldılmışdır. II Bayazid hökmdar olmaqla yanaşı, ədəbiyyat tarixində həm də "Ədli" təxəllüsü ilə lirik şeirlər yazan istedadlı şair kimi də qalmışdır.

II Bayazidin hakimiyyət dövrü Azərbaycan Səfəvilər dövlətinin yarandığı illərə təsadüf etdiyindən bu şəxsiyyət diplomatiya tariximiz baxımından da kifayət qədər maraqlı fiqurdur. Səfəvilərin Osmanlı dövləti ilə ilk siyasi münasibətləri məhz II Bayazidin dövründə formalaşmağa başlamışdır. Doğrudur, həmin münasibətləri tam mənada səmimi və birmənalı adlandırmaq düzgün olmazdı, lakin II Bayazidin siyasi müdriklik nümayiş etdirərək zaman-zaman hədsiz dərəcədə gərginləşən münaqişələri müharibə həddinə çatdırmadığı da danılmaz həqiqətdir.

Bu topluda I Şah İsmayılın II Bayazidə ünvanladığı iki məktub və sonuncunun onlara verdiyi cavablar, həmçinin Osmanlı sultanının Ağqoyunlu sərkərdəsi Əlvənd Mirzəyə, Rüstəm Kürd adlı əmirə Səfəvilərlə bağlı yazdığı məktublar öz əksini tapmışdır.

Sultan I Səlim Yavuz (1512–1520)

II Bayazidin oğlu Səlim 1470-ci ildə Amasya şəhərində doğulmuş, 1512-ci il aprelin 24-də 42 yaşında ordunun təzyiqi ilə atasını taxtdan kənarlaşdıraraq hakimiyyətə gəlmişdir.

Amansız təbiəti, tətbiq etdiyi sərt üsul-idarəsinə görə Səlim öz sələflərinin hamısından fərqlənirdi. Müasirlərinin

onun adının sonuna əlavə etdikləri "Yavuz" ifadəsi də məhz bundan qaynaqlanırdı və "qəddar", "sərt", "qorxunc" mənasına gəlirdi (hərfi tərcümədə "yavuz" kəlməsi "quduz köpək" mənasını verir). Tarixçilərin qeydlərinə əsasən Səlimin bu sərtliyi özünü təkcə idarəçilik məsələlərində büruzə vermirdi, gündəlik həyatında da sultan ətrafındakı insanları vahiməyə salacaq qədər sərt və zəhmli idi. Türkiyəli tarixçi İ.H.Uzunçarşılı yazır ki, qırmızı üzü, çatma qaşları olan Səlim çox kəskin baxışları ilə hamını dəhşətə gətirirdi, danışarkən isə bəzən əsəbdən bir sözü dəfələrlə təkrarladığının fərqinə belə varmırdı *[Prof. İ.H.Uzunçarşılı. "Büyük Osmanlı tarihi", II cilt, Ankara, 1988, s. 302].*

Lakin bütün bu keyfiyyətləri ilə yanaşı, Səlimin fikrini açıq şəkildə, çəkinmədən deyən cəsarətli insanlara rəğbətlə yanaşdığı da məlumdur. Böyük mütaliə həvəskarı kimi tanınan Səlimin mühüm siyasi və hərbi qərarların qəbulundan əvvəl ətrafındakı səriştəli insanlarla məsləhətləşdiyi, qətiyyən tələskənliyə yol vermədiyi, ağıllı məsləhətlərə həmişə qulaq asdığı müasirləri tərəfindən xüsusilə vurğulanmaqdadır. Daim elmi və ədəbi məclislər təşkil etdiyi, şairlərlə, mütəfəkkirlərlə, həmçinin dövrünün fazil şəxsləri ilə fikir mübadiləsinə xüsusilə maraq göstərdiyi Səlimin məziyyətlərindən hesab olunur. Hökmdarın alimlərə və mötəbər din xadimlərinə nə qədər böyük ehtiram bəslədiyini və necə yüksək qiymət verdiyini məşhur bir hadisə bütüm miqyası ilə ortaya qoyur. Hadisə şahidləri nəql edirlər ki, bir dəfə hökmdar at üzərində dövrün görkəmli din xadimi Kamal Paşazadə ilə söhbət edərək yol getdiyi zaman ikincinin atı qəfildən hürkür. Hürkən atın dırnağından sıçrayan palçıq sultanın libasını çirkləndirir. Baş verənlərdən pərt olan Kamal Paşazadə hökmdarın önündə çıxılmaz vəziyyətə düşür. Din xadiminin keçirdiyi həyəcanı görən Səlim gülümsəyərək üzünü ona tutur və aşağıdakı tarixi sözləri dilə gətirir:

"Üləmanın atının ayağından sıçrayaraq bizi ləkələyən palçıq bizim üçün şərəfdir, o, mübarəkdir. Bu palçıqlı libası mən öldükdən sonra tabutumun üzərinə örtün" *[O.N.Topbaş. "Abide şahsiyyetleri ve müesseseleriyle Osmanlı", İstanbul, 1999, s. 158–159].*

Hərtərəfli təhsil almış Səlim tarixi əsərlərlə, həmçinin poeziya ilə dərindən maraqlanırdı. Onun sevdiyi tarixi salnamələr arasında iranlı tarixçi Vəssafın "Tarix-e Vəssaf" əsəri xüsusi yer tuturdu. Həmçinin Osmanlı sultanının farsca şeirlər yazmağa və mütaliə etməyə meyl göstərdiyi bütün sarayda məşhur idi. Səlimin fars dilində öz əli ilə qələmə aldığı mənzumələr bu gün də İstanbulun Topqapı sarayında mühafizə edilməkdədir *[Prof. İ.H.Uzunçarşılı. "Büyük Osmanlı tarihi", II cilt, Ankara, 1988, s. 304].*

Sultan Səlimin hakimiyyətə gəlməsində artıq qeyd etdiyimiz kimi, atası II Bayazidin şəxsi istəyi yox, hərbçilərin, əsasən də yeniçərilərin iradəsi əsas rol oynamışdı. Belə ki, İstanbula gələn Səlim əvvəlcə atasının etinasız münasibəti ilə qarşılaşdı, II Bayazid hakimiyyəti Səlimə ötürməyə əsla həvəs göstərmirdi, lakin ordu hissələri sultan iqamətgahının önünə toplaşaraq Səlimə dəstək nümayiş etdirdilər. Bayazidin "istəyiniz nədir" sualına silahlı izdihamın cavabı birmənalı və qəti olur: "Padşahımız qoca və xəstədir, onun yerinə Səlimi tələb edirik" *[Doç. Dr. İsmet Miroğlu. "Yavuz Selim Devri", "Büyük İslam Tarihi", İlmi müşavir ve redaktör Prof. Hakkı Dursun Yıldız, X cilt, İstanbul, 1992, s. 284].*

Həmin hadisələr zamanı Səlimin əsgərlər qarşısında söylədiyi nitq bir yandan gələcək hökmdarın cəsarətindən, digər tərəfdən isə onun böyük geosiyasi planlarından xəbər verməkdə idi:

"Mən padşah olsam, İslam birliyi yolunda qətiyyətlə irəliləyəcəyəm, hətta Uca Yaradan imkan versə Hindistana və Turana da gedəcəyəm, həm Şərqdə, həm də Qərbdə din naminə çalışacağam. Zülmkarlara, – hətta doğma övladım belə olsa, mərhəmət göstərməyəcəyəm. Hakimiyyətim dövründə rahatlıq olmayacaq, əhaliyə haqsızlıq edilməyəcəkdir. Mən buyam!

Qardaşım isə rahatlığı sevir və çox mülayim təbiəti var. Əgər yürüşlərdən qorxmursunuzsa və çətinliklərə davam

gətirəcəksinizsə mənə biət edin, əks halda sultanlıq üçün qardaşım şahzadə Əhmədi seçin ki, onun dövründə rahat olar və səfanızı çəkərsiniz" *[O.N.Topbaş. "Abide şahsiyyetleri ve müesseseleriyle Osmanlı", İstanbul, 1999, s. 147].*

Hakimiyyəti ələ keçirdikdən sonra Sultan Səlim öz taxtı üçün təhlükə hesab edilən bütün şəxsləri fiziki cəhətdən zərərsizləşdirdi. Bir sıra tarixçilərin ehtimallara əsasən əvvəlcə atası II Bayazidi, sonra isə digər şahzadələri aradan götürən Səlim Yavuz qısa müddətdə dövlət idarəçilik sistemini tamamilə nəzarət altına almağa müvəffəq oldu. Daxili qarşıdurmalara qətiyyətlə son qoyuldu, mərkəzdənqaçmaya cəhd edən ünsürlər tamamilə zərərsiz hala gətirildi.

Dövlət idarəçiliyində Səlim Yavuz güzəştsiz xətt tuturdu və digər iri məmurlardan tələb etdiyi davranış qaydalarına özü də əsasən riayət edirdi. Səlim dəbdəbədən tamamilə uzaq, sadə və qənaətcil həyat tərzi keçirir, möhtəşəm tikintilərə, göz qamaşdıran bəzək-düzəyə nifrətini gizlətmirdi. Salnamələrdə onun bu cəhəti ilə bağlı çox maraqlı bir hadisə də yer almaqdadır. Belə ki, sultan xəzinədar Əbdülsəlam bəyə İstanbulun Sirkəci və Sarayburnu bölgələri arasında sadə bir mülk tikdirmək əmrini verdi. Hökmdarın göstərişi razılaşdırılmış zaman kəsiyində icra olundu və Yaşılköydə əzəmətli və dəbdəbəli bir tikili ərsəyə gətirildi. Hər kəs Səlimdən bu mülkə münasibətdə təriflər və təqdirlərlə dolu münasibət gözlədiyi halda, reaksiya tam fərqli alındı. Səlim gördüklərindən təəssüfləndi və üzünü Əbdülsəlam bəyə tutaraq dedi:

"Mən sənə bu qədər pul sərf etməyə icazə verməmişdim, yalnız kölgələnmək üçün sadə bir məkan düzəltməyi buyurmuşdum" *[Prof. İ.H.Uzunçarşılı. "Büyük Osmanlı tarihi". II cilt, Ankara, 1988, s. 305].*

Sultanın qəzəbinə gələcəyindən ehtiyatlanan xəzinədar hökmdara üz tutaraq, tikilini şəxsi vəsaiti hesabına inşa etdiyini bildirir və onu dövlət rəhbərindən hədiyyə kimi qəbul etməsini istəyir. Yalnız bundan sonra Səlim sakitləşir.

Səlimin oğlu və gələcək hökmdar Süleymana xitabən dediyi sözlər, onun dəbdəbəyə, gözqamaşdıran bər-bəzəyə bəslədiyi nifrətini göstərən daha bir parlaq sübutdur. Belə ki, sarayda oğlunu bahalı paltarda və həddindən artıq bəzənmiş şəkildə görən Səlim onu çox təsirli şəkildə tənqid edərək deyir:

"Oğlum, o qədər bəzənmisən ki, anana geyinmək üçün heç bir şey qoymamısan" *[O.N.Topbaş. "Abide şahsiyyetleri ve müesseseleriyle Osmanlı", İstanbul, 1999, s. 162].*

Tarixçilər hökmdarın xüsusilə öz vəzirlərinə münasibətdə amansız olduğunu yazırlar. Hətta onun hakimiyyəti dövründə bir-birinə qarğış edən, pis aqibət diləyən insanlar belə deyərdilər: "Səni görüm Sultan Səlimə vəzir olasan" *[Baron Joseph von Hammer. "Büyük Osmanlı Tarihi". II cilt, s. 398].*

Görkəmli Avstriya şərqşünası Von Hammer "Böyük Osmanlı Tarixi"ndə yazır ki, Sultan Səlim zamanında vəzirlərin hamısı öz ciblərində vəsiyyətnamələri ilə birgə dolaşırdılar. Çünki vəzirlərin hansı anda Səlimin qəzəbinə gələcəklərini təxmin etmək qeyri-mümkün idi. Onlar hər dəfə sultanın qəbulundan sağ-salamat çıxdıqları zaman özlərini yenidən dünyaya gəlmiş kimi hiss edirdilər *[həmin yerdə].*

Osmanlı salnamələrini araşdırdığımız zaman sultanın 8 illik hakimiyyəti dövründə həqiqətən də vəzirlərini tez-tez dəyişdirdiyi, onların bəzilərini hətta səhhətindəki problemlərinə və ömürlərinin ahıl çağında olmalarına baxmayaraq, zindana saldırdığına şahid olarıq. Öz vəzirlərinə və yüksək rütbəli digər əyanlara münasibətdə ən sərt cəza üsullarına əl atmaqdan çəkinməyən Səlimin hakimiyyət illəri Osmanlı tarixində bürokratik sistemin təsir imkanlarının minimuma endiyi, saray çəkişmələrinin ciddi şəkildə səngidiyi dövr kimi xarakterizə olunur.

Sultan Səlim dövrü Osmanlı tarixi üçün həm də parlaq hərbi qələbələr və əhəmiyyətli fəthlər mərhələsi olaraq əlamətdardır. Məhz onun müvəffəq hərbi yürüşləri və parlaq hərbi qələbələri sayəsində Misir Məmlük dövlətinin varlığına son qoyulmuş, Suriya, Fələstin, Misir və Ərəbistan yarı-

madası tamamilə Osmanlı imperiyasının tərkibinə daxil edilmişdir. İslam aləminin iki müqəddəs şəhəri Məkkə və Mədinə türklərin nəzarətinə keçmişdir. Sadalanan uğurların hamısı Səlimin Məmlüklərə qarşı təşkil etdiyi hərbi yürüşlərdə baş vermiş Mərci – Dəbik (1516) və Rıdaniyyə (1517) döyüşlərində qazandığı həlledici qələbələrin nəticəsində mümkün olmuşdur. Məmlüklər üzərindəki qələbə Səlimə həm də İslam aləminin mənəvi rəhbəri hesab edilən xəlifəlik ünvanını əldə etməyə də imkan vermişdir. Belə ki, Abbasilər sülaləsinin süqutundan və Bağdadın monqolların əlinə keçməsindən sonra (1258) xilafət Misirdə hakimiyyət qurmuş Məmlük hökmdarlarının timsalında davam etmişdir. Sultan Səlimin ixtiyarına keçən sözügedən titul Osmanlı imperiyası süqut edənə qədər türk hökmdarlarının ixtiyarında qaldı. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, xəlifəlik statusu Osmanlı sultanlarına müsəlman ölkələrinin daxili işlərinə birbaşa müdaxilə etmək imkanı verir, həmçinin türk imperiyasının əlində xristian dövlətlərinə qarşı mübarizədə səmərəli ideoloji silaha çevrilirdi.

Maraqlıdır ki, Avropa ölkələri ilə münasibətlər Sultan Səlim dövründə kifayət qədər sabit idi. Qərb istiqamətində hər hansı ciddi və irimiqyaslı hərbi təşəbbüslərin müşahidə olunmadığı həmin dövrdə Osmanlı imperiyası bütün diqqətini Yaxın Şərq regionundakı mövqelərinin möhkəmləndirilməsinə yönətlmişdir desək, yanılmarıq.

Sultan Səlimi Azərbaycan tarixi ilə sıx tellərlə bağlayan hadisə isə heç şübhəsiz ki, 1514-cü il avqustun 23-də Səfəvi və Osmanlı dövlətləri arasında baş vermiş Çaldıran döyüşüdür. Həmin qanlı qarşıdurma sözügedən dövrdə İslam dünyasının iki böyük imperiyasını üz-üzə qoymaqla yanaşı, çoxsaylı insan qırğınlarına da rəvac vermiş oldu. Tarixdən də bilindiyi kimi, I Şah İsmayılla Səlim Yavuz arasındakı münasibətlərin pozularaq düşmənçilik həddinə çatması hələ ikincinin Anadoluda vali olduğu dövrə təsadüf edib. Səlim 1512-ci ildə hakimiyyətə gələr-gəlməz İsmayılla müharibəyə hazırlaşmağa başladı. Türk ordusu Anadoluda məzhəb zəminində

Səfəvilərə rəğbət bəsləyən minlərlə günahsız şiəni qılıncdan keçirdiyi kimi, Səfəvi qoşunları da sərhədyanı bölgələrdə yaşayan sünnilərə eyni amansızlıqla divan tuturdular. Mənasız məzhəb müharibəsinə çevrilmiş bu qarşıdurmaya Səlimin və İsmayılın ölümündən sonra da son qoyulmadı. Səfəvi və Osmanlı dövlətləri 120 ildən çox zaman kəsiyində bir-biri ilə qanlı mübarizə şəraitində qonşuluq etməyə məcbur qaldılar.

Doğrudur, I Səlim Çaldıran döyüşündə çətinliklə də olsa müvəffəqiyyət əldə edə bildi, lakin Səfəvi torpaqlarını tamamilə fəth etmək və onun məhv etmək Osmanlı sultanına müyəssər olmadı. Səfəvilər dövləti nəinki öz mövcudluğunu qorumağı bacardı, həmçinin uzun onilliklər ərzində qüdrətli qonşusuna layiqli müqavimət göstərdi. Bu gün türk tarixçilərinin böyük qismi hər vəchlə Çaldıran döyüşünün məsuliyyətini İsmayılın boynuna yıxmağa çalışırlar. Lakin günümüzə qədər gəlib çatan diplomatik məktublardan aydın olur ki, hadisələr heç də türk tarixçilərinin dedikləri məcrada cərəyan etməyib. Sözügedən məktublarda Səfəviləri və şəxsən İsmayılı açıq-aşkar təhqir edən Səlim bütün mümkün vasitələrlə onu müharibəyə sürükləmişdir. Səlimin qabalığı və təcavüzkar davranışları məsələləri sülh yolu ilə qaydaya salmaq imkanlarını bütünlüklə heçə endirmişdir.

Osmanlı imperiyasının güclənməsində və genişlənməsində müstəsna xidmətləri olan Səlim Yavuz 1520-ci il sentyabrın 21-də, 8 illik hakimiyyətdən sonra dünyasını dəyişmişdir. Taxtda olduğu dövrün çox hissəsini müharibə meydanlarında keçirmiş Səlimin adı ilə bağlı quruculuq fəaliyyəti çox məhdud olmuşdur. İ.H.Uzunçarşılı yazır ki, Səlimin inşa etdirdiyi tikililəri barmaqla saymaq mümkündür. Suriyada, Salihiyyə adlanan yerdə Şərqin görkəmli mütəfəkkiri, sufi Muhiddin Ərəbinin şərəfinə inşa edilmiş məsciddən, türbə və imarətdən, Konyada Mövlanə Cəlaləddin Ruminin təkkəsinə çəkilmiş su kanalından, həmçinin atası Bayazid üçün ucaltdığı türbədən savayı Sultan Səlimdən yadigar

qalan hər hansı tikili məlum deyil *[Prof. İ.H.Uzunçarşılı. "Büyük Osmanlı tarihi", II cilt, Ankara, 1988, s. 305].*

Tarixçilər bu vəziyyəti əsas iki səbəblə əlaqələndirirlər. Birincisi, Səlim dövlət vəsaiti ilə həddən artıq qənaətcil rəftar edirdi və zərurət olmadıqca xəzinəyə əl uzatmırdı. İkincisi amil isə Səlimin vaxtının böyük əksəriyyətini hərbi səfərlərdə keçirməsi ilə bağlıdır.

Səlim təntənəli şəkildə, vaxtilə İstanbulda təməlini qoyduğu, lakin inşasını sona çatdıra bilmədiyi Səlimiyyə məscidinin yaxınlığında torpağa tapşırılmışdır. Vəfatından sonra inşası yarımçıq qalmış məscidin tikintisi oğlu Süleyman Qanuni tərəfindən başa çatdırılmış, Səlimin məzarı üzərində isə yeni türbə ucaldılmışdır *[Doç. Dr. İsmet Miroğlu. "Yavuz Selim Devri", "Büyük İslam Tarihi", İlmi müşavir ve redaktör Prof. Hakkı Dursun Yıldız, X cilt, İstanbul, 1992, s. 312].*

Sultan Süleyman Qanuni (1520–1566)

Heç şübhəsiz ki, Osmanlı sultanları arasında istər şöhrət, istərsə də qüdrət baxımından Süleyman Qanuni ilə bənzər ikinci bir hökmdar tapmaq çətindir. Sultan Səlimin oğlu və varisi olan Süleyman 1495-ci ildə Qara dəniz sahilində yerləşən Trabzon şəhərində dünyaya gəlmişdir. Sultan Səlim hakimiyyətə gələr-gəlməz oğlunu Manisa şəhərinə, Saruhan bəyliyinə rəhbər təyin etdi. Bu addım gənc Süleymanın idarəçilik təcrübəsi toplamasına hesablanmışdı. Eyni zamanda, dövrünün Mərkəz Əfəndi adlı hörmətli din xadimi onun müəllimi təyin olundu və gələcək hökmdarın şəxsiyyət kimi yetişdirilməsi işi məhz ona tapşırıldı. Müasirlərinin qeydlərindən belə başa düşmək mümkün olur ki, Süleyman hökmdar olduqdan sonra da öz mənəvi ustadı ilə əlaqələrini kəsməmiş, mühüm məsələlər ətrafında daim onunla məsləhətləşmişdir. Tarixçilərin yekdil rəyinə əsasən bu fazil şəxsin Süleyman Qanuninin bir insan və hökmdar kimi formalaşmasındakı xidmətləri əvəzsizdir

[O.N.Topbaş. "Abide şahsiyyetleri ve müesseseleriyle Osmanlı", İstanbul, 1999, s. 168–169].

1520-ci ildə taxta çıxarkən Süleyman 25 yaşında bir gənc idi və bir çoxları onun dövlət idarəçiliyində müvəffəqiyyət qazanacağına şübhə ilə yanaşırdılar. Hətta daim öz başları üzərində türk təhlükəsinin mövcudluğunu hiss edən Avropa hökmdarları İstanbulda 25 yaşlı gəncin taxta çıxdığını öyrəndikdə "Aslan öldü, yerinə quzu gəldi" deyəcək qədər arxayınlaşmışdılar. Lakin zaman qərblilərin bu ehtimallarını tamamilə puça çıxardı, Osmanlı ordusu Avropanın içərilərinə doğru heç vaxt olmadığı qədər irəlilədi. Xristian dünyasının həmin dövrdə siyasi mərkəzi sayılan Vyana məhz Süleymanın hakimiyyəti illərində mühasirəyə alınmışdı. Qərb ölkələri ilə qarşıdurma Afrikada və Aralıq dənizi hövzəsində özünün ən pik həddinə məhz Süleymanın dövründə çatmışdı.

Süleyman taxta çıxan kimi ilk olaraq tarixə həmişəlik yazılacaq bir neçə humanist addım atdı. Belə ki, Səlim dövründə Səfəvilərlə və Məmlüklərlə müharibədə əsir düşmüş sənətkarlar, alimlər və digərləri azadlığa buraxıldı. Onlara vətənə qayıtmaq, yaxud istədikləri başqa bir yerə getməyə icazə verildi. Süleymanın öz azğınlığı və talançılığı ilə əhalini üsyan həddinə gətirmiş bir sıra dövlət məmurlarını və hərbçiləri sərt şəkildə cəzalandırması da bütün ölkədə müsbət əks-səda yaratmış oldu *[F.Emecen. "Kanuni Devri", "Büyük İslam Tarihi", İlmi müşavir ve redaktör Prof. Hakkı Dursun Yıldız, X cilt, İstanbul, 1992, s. 314].*

Gənc olmasına baxmayaraq, Süleyman imperiyanın ərazisinin genişləndirilməsində qətiyyətli təsir bağışlayırdı və 1521-ci ildən etibarən yeni hökmdar öz nəzərlərini Avropaya doğru çevirdi. Səlimin 8 illik hakimiyyəti dövründə türklərin əsasən Afrika və Asiya məsələləri ilə məşğul olması Avropada müvəqqəti də olsa sakitliyi bərqərar etmişdi. Ancaq 1521-ci ildə Süleymanın Belqradı fəth etməsi ilə Qərb cəbhəsindəki mübarizə yenidən alovlandı. Yüksək döyüş nizamı və bacarığı ilə seçilən Osmanlı ordusu 1522-ci ildə Rodos adasını,

1526-cı ildə Macarıstanı ələ keçirdi. 1529-cu ildə Vyana şəhəri mühasirəyə alınsa da, onu fəth etmək Süleymana nəsib olmadı. Ancaq əldə edilmiş qələbələr və tutulan ərazilər Avropada sözün həqiqi mənasında, vahimə yaratmışdı. Osmanlı ordusu heç vaxt Avropanı tamamilə fəth etməyə bu qədər yaxın olmamışdı.

Qərblə uğurlu mübarizə yalnız Avropa torpaqlarında deyil, artıq qeyd olunduğu kimi, Afrika sahillərində və Hind okeanında da aparılırdı. Osmanlı donanmasının avropalılar üzərində qazandığı parlaq qələbələrin bir çoxu məhz həmin dövrə təsadüf etmişdir. Əlcəzairin və Liviyanın fəthi, Mərakeşin xristian dövlətlərinin hücumundan qorunması türklərin Süleymanın zamanında qazandıqları əhəmiyyətli tarixi qələbələr hesab oluna bilər. Eyni zamanda, Osmanlı donanması Xeyrəddin Barbaros (1466–1546) kimi istedadlı admiralın rəhbərliyi ilə imperiyanın Hind okeanı və Ərəbistan dənizindəki maraqlarını sona qədər ləyaqətlə müdafiə etməyi bacardı.

Süleymanın qazandığı çoxsaylı hərbi qələbələr onun adını bütün dünyada dillər əzbərinə çevirmişdi. Avropalıların ona "Möhtəşəm Süleman" deyə xitab etmələri türk sultanının malik olduğu nüfuzun ən bariz tarixi sübutu sayıla bilər. Süleymanın Osmanlı və dünya tarixindəki mühüm mövqeyini şərtləndirən başlıca amillərdən biri də onun qanunvericilik təşəbbüsləri ilə bağlıdır. Osmanlı sultanının adının sonuna əlavə edilən "Qanuni" ifadəsi də məhz onun hakimiyyəti illərində verilmiş çoxsaylı təkmil qanunlardan qaynaqlanır. Heç şübhəsiz ki, Süleymanın 46 illik hakimiyyəti Osmanlı tarixində hərbi-siyasi yöndən olduğu kimi, qanunvericiliyin mükəmməl, işlək hala gətirilməsi baxımından da haqlı olaraq ən parlaq dövr hesab edilməlidir. Xalq arasında Süleymanın ədaləti ilə bağlı dolaşan müxtəlif rəvayətlər də deyilənlərin təsdiqidir. Həmin dövrdə Qərb diplomatlarının İstanbuldan ölkələrinə göndərdikləri məlumatlardan da Osmanlı imperiyasında ədalətli cəmiyyətin mövcud olduğu, hüququn aliliyinin əhəmiyyətli dərəcədə qorunduğu aydın

olur. Məsələn, O.N.Topbaş Süleyman zamanında fəaliyyət göstərmiş Avstriya səfiri Busberkin aşağıdakı sözlərini misal çəkir:

"Osmanlıda hər kəs öz mövqeyini və taleyini özü qurur. Türklər məziyyətlərin irsən keçdiyinə inanmırlar (yəni, hər kəsin) Namussuzlar, tənbəllər heç vaxt yüksələ bilməzlər, onlar xor və aciz kimi daim kənarda qalırlar" *[O.N.Topbaş. "Abide şahsiyyetleri ve müesseseleriyle Osmanlı", İstanbul, 1999, s. 176].*

Süleyman digər dinlərin və xalqların nümayəndələrinə qarşı da kifayət qədər dözümlü və tolerant yanaşan hökmdar idi. Əslən ukraynalı olan və qul kimi bazarlarda satılan Roksalana adlı kölənin Osmanlı sarayına düşdükdən qısa müddət sonra Süleymanın həyat yoldaşına çevrilməsi və İslamı qəbul etməsi o dövrdə türk imperiyasında hökm sürən loyal dəyərlərdən xəbər verməkdədir. Həmin qadın sonralar Osmanlı tarixinə Xürrəm sultan adı ilə daxil olmuş və türk tarixinin ən maraqlı tarixi personajlarından biri kimi bu gün də tədqiqatçıların diqqətini özünə cəlb etməyə davam edir. Doğrudur, bəzən bu xanım Süleymana qarşı yönələn tənqidlərin əsas mövzusunu təşkil etsə də, sözügedən ittihamlar ciddi təsir bağışlamır. Onu ukraynalı xanımın təsirinə düşərək dövlət işlərindən uzaqlaşmaqda günahlandıranlar yəqin unudurlar ki, Osmanlı dövləti özünün ən geniş sərhədlərinə məhz bu hökmdarın dövründə çatmışdır. Türk tarixçiləri qeyd edirlər ki, Osmanlı ordusu üzərində heç bir hökmdar Süleyman Qanuni qədər təsir imkanına və nüfuza malik olmayıb. Belə olan təqdirdə ortaya məntiqli bir sual çıxır, bütün vaxtını qadınla keçirən hökmdarın daim müharibə şəraitində olan ordu arasında yüksək etimad qazanması nə dərəcədə realdır? Süleyman Qanuninin dünyasını sarayda deyil, hərbi səfərdə dəyişməsi də onun həyat tərzinə, dövlət işlərinə verdiyi əhəmiyyətə dəlalət etməkdədir.

Süleyman Qanuni özündən sonra imperiyanın müxtəlif ərazilərində çoxsaylı memarlıq nümunələri qoyub getmişdir. Türk və orta əsr müsəlman memarlığının ən istedadlı

nümayəndələrindən sayılan memar Sinan məhz Süleyman Qanuninin himayəsi altında fəaliyyət göstərmişdir.

Süleyman Qanuninin Azərbaycanla, Səfəvilərlə münasibətlərinə gəlincə, bu istiqamətdəki vəziyyət onun atasının hakimiyyəti illərindəki mənzərədən heç bir şeylə fərqlənmirdi. Hətta tam əksinə,Süleymanın dövründə Osmanlı ordusunun Azərbaycana yürüşləri daha da şiddətləndi, dövlətlər arasındakı düşmənçilik daha da dərinləşdi. Süleyman Qanuni hakimiyyətinin ilk illərində Avropada fəthlərə məşğul olduğundan onun Şah İsmayılla ünsiyyəti, yaxud hərbi münaqişəsi baş verməmişdir. Lakin Şah İsmayılın Süleymana atası Səlimin vəfatı münasibəti ilə ünvanladığı məktuba Osmanlı hökmdarının vəziri vasitəsilə cavab verməsi münasibətlərin soyuqluğuna sübutdur. Süleyman Qanuni Şah İsmayılın ölüm xəbərini dəqiqləşdirmək üçün göndərdiyi başqa bir məktubunda isə etik çərçivələri keçərək, öz həmkarının ünvanına nalayiq ifadələr işlətməkdən belə çəkinməmişdir.

Süleyman Qanuni 1566-cı ildə dünyasını dəyişmiş və tarixə həm də Osmanlı taxtında ən çox qalan sultan kimi düşmüşdür.

DİGƏR HÖKMDARLAR:

Şeybani xan (1501–1510)

Teymurilər dövlətinin süqutundan sonra Orta Asiyada qurulan güclü feodal dövləti sayılan Şeybanilərin hakimiyyətə gedən yolu kifayət qədər çətin və qanlı olmuşdur. 1501–1598-ci illərdə Orta Asiyanın əhəmiyyətli hissəsinə öz iradəsini qəbul etdirən Şeybanilər əslən özbək türklərindəndir. Türkiyəli tarixçi Y.Öztuna yazır ki, türk dilində Şibanoğulları kimi səslənən bu sülalənin sonradan fars tələffüzünə uyğun tərzdə – Şeybanilər olaraq məşhurlaşdı. Tarixi qaynaqlara da

məhz sözügedən forma daha geniş yayılmışdır *[Y.Öztuna. "Büyük Tarih Ansiklopedisi". II cilt, İstanbul, 1992, s. 651]*.

Bu sülalənin səcərə məsələlərini araşdıran tədqiqatçılar Şeybani xanın nəslinin Çingiz xana qədər gedib çıxdığı qənaətinə gəlirlər *[Б.Г.Гафуров. "Таджики. Древнейшая, древняя и средневековая история". Книга II, Душанбе, 1989, с. 261]*.

"Müsəlman sülalələri" kitabının müəllifi, tanınmış britaniyalı şərqşünas K.E.Bosvort Şeybanilərin Orta Asiyaya gəlişi tarixçəsinə toxunaraq qeyd edir ki, onların Mavərənnəhrdə peyda olması XV əsrə təsadüf edir. Həmin vaxt Toxtamışın Qızıl Orda xanı elan edilməsindən sonra Qərbi Sibirdə hakimiyyət Cucinin nəslindən olan Şibana keçir. Bu zaman Şeybanilərin böyük bir qismi Orta Asiyaya istiqamət götürür, digər hissəsi isə Sibirdə qalır. XVII əsrin sonlarına qədər mövcud olmuş Sibir xanlığı məhz sözügedən nəslin nümayəndələri tərəfindən idarə olunmuşdur *[К.Э.Босворт. "Мусульманские династии. Справочник по хронологии и генеалогии". Перевод с английского и примечания П.А.Грязневича, Москва, 1971, с. 207]*.

Şeybanilər nəslinin nümayəndəsi Əbülheyr xan (1412–1468) Orta Asiyada yaşayan bir çox türkdilli xalqları birləşdirərək güclü feodal dövləti yaratdı. Onun ölümünə qədər həmin dövlət sözügedən regionda cərəyan edən hərbi-siyasi proseslərə təsir etmək imkanını özündə saxlamışdır. Lakin tanınmış tacik alimi, şərqşünas və tarixçi B.Qafurov haqlı olaraq hesab edir ki, Əbülheyrin yaratdığı dövlətin sabit iqtisadi təməlləri mövcud deyildi və o, tez bir zamanda dağılmağa məhkum idi. Əbülheyrin ölümü ilə onun qurduğu dövlətin bir anda parçalanması da deyilənlərə sübutdur *[Б.Г.Гафуров. "Таджики. Древнейшая, древняя и средневековая история". Книга II, Душанбе, 1989, с. 261]*.

XV əsrin sonlarında Şeybanilər sülaləsinin nümayəndəsi Məhəmməd Şeybani xan mübarizə meydanına atılaraq mərkəzləşdirilmiş dövlətin yaranması uğrunda müharibəyə başlayır. Teymurilərlə əvvəlcə müttəfiq olan Şeybani xan qısa

müddətdə öz maraqlarının diktəsi altında onlara qarşı silah çevirməkdən çəkinmir. Rəqibləri ilə qanlı mübarizənin yekununda Orta Asiyanın Səmərqənd və Buxara kimi strateji şəhərlərini ələ keçirən Şeybani xan 1501-ci ildə Şeybanilər dövlətinin təməlini qoyur. Şeybani xanın əsas rəqibi, Teymurilər nəslindən olan Babur uğursuzluğa düçar olduqdan sonra Orta Asiyadan uzaqlaşmaq məcburiyyətində qalır və illər sonra Hindistanda qüdrətli Moğol dövlətinin əsasını qoyur.

Şeybani xan hakimiyyətini möhkəmləndirmək və qonşu ölkələrdə vahimə yaratmaq üçün ən kiçik müqavimət nöqtələrini belə amansızlıqla susdurmaqdan çəkinmirdi. Onun 1501-ci ildə tabe olmaqdan boyun qaçıran Qarakul şəhərində törətdiyi qətliam uzun illər Orta Asiya sakinlərinin hafizəsindən silinmədi. Mənbələr xəbər verir ki, həmin hadisələr zamanı qətlə yetirilmiş insanların başları kəsilərək Buxaraya gətirildi və burada digərlərinə görk olsun deyə kəllələrdən qüllə ucaldıldı *[həmin yerdə, s. 263]*.

Bir-birinin ardınca parlaq qələbələr qazanan Şeybani xan 1505-ci ildə demək olar ki, müqavimətə rast gəlmədən Xarəzm bölgəsini ələ keçirir. Çox keçmir ki, strateji əhəmiyyətə malik Herat şəhəri də Şeybani xana təslim olur. Bir neçə il ərzində Orta Asiyanın və Xorasanın böyük bir hissəsi Şeybani xanın ixtiyarına keçir və onun hakimiyyətini qəbul edir.

Şeybani xan yaratdığı imperiyanın ərazisində iqtisadi sabitliyi bərpa etmək üçün 1507-ci ildə pul islahatı həyata keçirir. Həmin islahatın əsas məqsədi dövlətin bütün ərazisində vahid əskinas sisteminin işləkliyini təmin etməkdən ibarət idi. Atılan bu addım qısa zamanda öz bəhrəsini verdi, belə ki, ticarət və sənətkarlıq uzun sürən böhrandan sonra ciddi şəkildə dirçəlməyə başladı.

Lakin Şeybani xanın yaratdığı sabitlik və sülh uzun çəkmir, 1510-cu ildə onunla güclənməkdə, həmçinin dayanmadan genişlənməkdə olan Səfəvi dövləti arasında müharibə başlayır. Xorasan uğrunda yaranmış bu qarşıdurma

qısa zamanda hərbi müstəviyə keçir. Tərəflər arasında baş tutan diplomatik məktublaşma isə vəziyyəti daha da gərginləşdirir, sülh çağırışları əvəzinə, təhdidlər eşidilir. 1510-cu ildə Şah İsmayıl Səfəvinin qoşunları Şeybani xanın ordusunu Mərv qalasında mühasirəyə alırlar. Uzunmüddətli mühasirənin insan itkisinə və vaxt itkisinə səbəb olacağını görən İsmayıl Səfəvi hiyləyə əl atmağa qərar verir. Öz əsgərlərinə geri çəkilirmiş kimi hərəkət etməyi əmr edən İsmayıl bununla Şeybani xanın onları təqib etməsinə nail olur. Bağışlanmaz hərbi-taktiki səhvə yol verən Şeybani xan qaladan çıxaraq Səfəviləri qovalamağa cəhd göstərir. Lakin onun bu istəyi puça çıxır və Şeybani xan əvvəlcədən məharətlə hazırlanmış tələyə düşür. Səfəvilər qısa zamanda düşmən əsgərlərini qılıncdan keçirirlər, həlak olanlar arasında Şeybani xan da var idi. İsmayıl onun başını kəsir və düşməninin kəlləsindən qızıl suyuna çəkilmiş badə düzəltdirir.

Şeybani xanın ölümündən sonra onun ölkəsində başlayan siyasi pərakəndəlik bir neçə il davam edir. Qeyd etmək lazımdır ki, İsmayıl Səfəvi Şeybani xanın öldürülməsindən sonra da Orta Asiyadakı siyasi proseslərə, hakimiyyət uğrunda mübarizəyə müdaxilə etməkdən çəkinmirdi. Səfəvilərin bu bölgədəki təsirini azaltmaq, həmçinin şiəliyin qarşısını almaq üçün Osmanlı dövləti Şeybanilərə mütəmadi hərbi yardımlar göstərməyə çalışırdı. Ancaq Y.Öztunanın vurğuladığı kimi, Şeybanilər həmin yardımlardan Səfəvilərə qarşı deyil, daxili müharibələrdə bir-birinə qarşı istifadə edirdilər *[Y.Öztuna. "Büyük Tarih Ansiklopedisi". II cilt, İstanbul, 1992, s. 653]*.

Nəhayət, 1598-ci ildə vahid Şeybanilər dövləti süquta uğradı və ayrı-ayrı xanlıqlara parçalandı. Yalnız Xivə xanlığı Şeybanilər nəslinə qohum olan Ərəbşahilərin nəzarətində qaldı *[К.Э.Босворт. "Мусульманские династии. Справочник по хронологии и генеалогии". Перевод с английского и примечания П.А.Грязневича, Москва, 1971, с. 208]*.

Orta Asiya bölgəsində meydana gəlmiş belə bir siyasi pərakəndəlik XIX əsrdə Rusiyaya sözügedən torpaqları asanlıqla özünə birləşdirməyə münbit şərait yaratdı.

Məmlüklər dövləti və Qansu əl-Qiru (1501–1516)

Misirdə qurulan və uzun müddət Yaxın Şərqin hərbi-siyasi həyatında böyük rol oynamış Məmlük dövlətinin əsasını vaxtilə Səlahəddin Əyyubi ordusunda xidmət göstərmiş türk hərbçiləri qoymuşdular. Məlum olduğu kimi, Xaç yürüşləri dövründə məhz Səlahəddin Əyyubi avropalıları ağır məğlubiyyətə uğradaraq Qüdsü onlardan geri almağı bacarmışdı. Heç şübhəsiz ki, əldə edilmiş bu tarixi zəfərdə Səlahəddin Əyyubi ilə yanaşı, onun ordusunda xidmət edən türk komandanlarının da böyük payı var idi. Ümumiyyətlə Misirdə və digər ərəb ölkələrinin idarəçilik sistemində türklərin böyük nüfuz qazanması hələ xilafət dövrünə gedib çıxır. Abbasi xəlifələri (750–1258) dövründə xilafət sarayına yol tapan və fars–şiə təhlükəsi ilə mübarizədə ərəb hökmdarlarına dayaq olan türklər imperiyanın süqutundan sonra da siyasi çəkilərini saxlamağa davam edirdilər.

Məmlük dövlətinin yaradılması ilə türklərin ərəb dünyasında, xüsusilə Misirdə hərbi-siyasi üstünlüyü öz zirvəsinə çatmış oldu. Tarixi qaynaqlardan məlumdur ki, Məmlüklər dövlətinin tarixində iki əsas sülalə hakimiyyəti idarə etmişdir. Birinci sülalə Bəhrilər (1250–1390) nəsli idi ki, onlar öz adlarını Nil çayından (əl-Bəhr) götürmüşdülər. Belə ki, o dövrdə türk qarnizonları Nil çayı hövzəsinə aid ər-Rauda adasında yerləşirdilər. İkinci sülalə Bürcülər (1390–1517) kimi tarixə düşmüşdür. Onların adları isə Qahirə qalasının (əl-Bürc) adından meydana gəlmişdir. Bosvort onu da qeyd edir ki, birinci sülalənin etnik kökləri qıpçaq türklərinə gedib çıxırdı. Bürcülər isə qafqazlı, çərkəz mənşəli hesab olunurdular *[К.Э.Босворт. "Мусульманские*

династии. Справочник по хронологии и генеалогии", Пер. с английского и примечания П.А.Грязневича, Москва, 1971, с. 101–103].

Məmlüklər Yaxın və Orta Şərqi qan gölündə boğaraq özünə tabe edən monqollar qarşısında duruş gətirən yeganə müsəlman dövləti oldu. Doğrudur, sonralar Azərbaycanı və İranı fəth edən Elxanilər dövləti dəfələrlə Məmlükləri özünə tabe etməyə cəhd göstərsə də, monqolların bu istəyi baş tutmadı. Misirin və ümumilikdə müsəlman aləminin tərəqqisində mühüm rol oynamış Məmlüklər dövrü həm iqtisadi, həm də hərbi-siyasi baxımdan yaddaqalan hesab edilə bilər.

XVI əsrin əvvəllərindən etibarən Məmlük dövləti iki təhlükə ilə üz-üzə gəlməli olur. Onlardan biri Qırmızı dənizdə möhkəmlənmək istəyən portuqaliyalılar, digər isə Yaxın Şərqi bütünlüklə nəzarət altına almaq istəyən Osmanlılar idi. Belə bir həssas siyasi dövrdə Məmlük dövlətinin rəhbərliyinə Qansu əl-Qiru gəlir. Sərt və çevik təbiəti ilə seçilən Qansu hakimiyyətə gələn kimi boşalmış dövlət büdcəsini doldurmaq istiqamətində misli görünməmiş əməllərə əl atır. Belə ki, onun göstərişi ilə ölkədəki vergilər 10 ay əvvəldən toplanmağa başlanır, hətta evində qulluqçu işlədənlər də vergilərə cəlb olunur. Gömrük rüsumları hədsiz dərəcədə artırılır. Belə kəskin addımlar Qansuya az bir müddətdə büdcə böhranını həll etməyə imkan versə də, ölkədəki dərin sosial böhranın qarşısını almaq gündən-günə müşkülə çevrilirdi *[Doç. Dr. Kazım Yaşar Kopraman. "Memlukler". "Büyük İslam Tarihi", İlmi müşavir ve redaktör Prof. Hakkı Dursun Yıldız, VI cilt, İstanbul, 1992, s. 526]*

Qansu daxili problemlərlə yanaşı, həm də xarici təhdidlərlə mübarizə aparmaq məcburiyyətində idi. Ona görə də mütəmadi olaraq müdafiə xarakterli tikililəri möhkəmləndirir, portuqaliyalılarla mübarizə aparmaq üçün isə donanma yaradırdı. Lakin tarix göstərdi ki, Qansunun bütün cəhdlərinə baxmayaraq, Məmlüklər dövlətinin taleyi artıq həll olunmuşdu. Doğrudur, onun yaratdığı donanma 1508-ci ildə baş verən döyüşdə portuqaliyalıları məğlubiyyətə

uğratmağı bacardı, lakin bir il sonra avropalılar bu məğlubiyyətin əvəzini çıxırlar.

1516-cı ildə isə Misirə hücum edən Osmanlı sultanı Səlim Yavuz isə Mərc Dəbik (24 avqust 1516-cı il) döyüşündə Məmlükləri sarsıdıcı məğlubiyyətə uğradır. Döyüş meydanından qaçan Qansu isə yolda silahdaşları ilə birgə həlak olur. 1517-ci ildə Məmlük ordusunun salamat qalan hissələri yenidən qruplaşaraq Osmanlılara qarşı əks-hücuma keçsələr də, həmin il baş verən Reydaniyə döyüşündə onlar da eyni aqibətlə üzləşirlər. Misir Məmlük dövlətinin varlığına birdəfəlik son qoyulur, onun torpaqları Osmanlıların nəzarətinə keçir və bununla da İslam dünyasının ən qüdrətli imperiyalarından biri tarixə qovuşur.

Şah İsmayılın Qansu ilə diplomatik münasibətlər yaratdığı, onunla yazışdığı məlumdur. Çox güman ki, bu münasibətləri şərtləndirən başlıca amil Osmanlı təhlükəsi idi. Bu topluda həmin məktublaşmanın bir nümunəsi də yer almışdır.

DİGƏR ŞƏXSİYYƏTLƏR:

Osmanlı şeyxülislamı Kamal Paşazadə (1468/1469–1536)

XVI əsr Osmanlı tarixinin parlaq simalarından sayılan əsl adı Şəmsəddin ibn Əhməd ibn Süleyman olan İbn Kamal 1468-ci və ya 1469-cu ildə Tokadda dünyaya gəlmişdir. Sultan Mehmed Fateh dövrünün tanınmış bəylərindən olan babası Kamal paşaya nisbətən daha çox İbn Kamal və ya Kamal Paşazadə adları ilə tanınır. Atası II Bayazid dövründə sancaq bəylərindən Süleyman bəy, anası isə öz dövrünün alimlərindən olmuş İbn Küpəlinin qızı idi *[Mehmed Süreyya, Sicill-i Osmani, haz. Mustafa*

Keskin, Ayhan Öztürk, Hamdi Savaş, Havva Kurt, İstanbul 1997, c. 4/1, s. 93; Sayın Dalkıran, İbn-i Kemal ve düşünce dünyamız, İstanbul, 1994, s. 39–40].

Gənc yaşlarında ordu sıralarında xidmətə başlayan İbn Kamal 1492-ci ildə sultanın sarayında elm adamlarına daha çox hörmət göstərildiyinin şahidi olduqdan sonra alimlər zümrəsinə girməyi qərara alır. II Bayazid dövrünün tanınmış müdərrisləri Molla Lütfidən, eləcə də Müslihiddin Mustafa Kəstəlidən, Mühyiddin Məhməd Xətibzadədən və Sinanəddin Yusif Müərrilzadədən dərs alması onun qısa müddət ərzində sarayda, eləcə də elm aləmində tanınmasına gətirib çıxarmışdır. Digər tələbələrdən çalışqanlığı və fitri istedadı ilə seçilən İbn Kamal 1506-cı ildə Ədirnədəki Daşlıq Əli bəy mədrəsəsinə təyin edilmiş, daha sonra isə İshaq paşa mədrəsəsi, Ədirnə Hələbiyyə mədrəsəsi, Üç Şərəfəli mədrəsəsi, İstanbul Səhni-saman mədrəsəsi kimi müxtəlif elm ocaqlarında müəllimlik etmişdir. Müəllimliklə məşğul olduğu bu dövrdə II Bayazidin istəyi ilə 10 cildlik "Tevarihi-Ali Osman" əsərini yazmış, Seyyid Şərif Cürcaninin "Şərhul-miftah" əsərinə haşiyə qələmə almışdır *[Sayın Dalkıran, İbn-i Kemal ve düşünce dünyamız, İstanbul, 1994, s. 42].*

Şöhrəti Sultan Səlim dövründə də sürətlə yüksələn İbn Kamal sultanın istəyi ilə qızılbaşların kafir olduğunu bildirən məşhur fətvasını vermiş, hətta mövzu ilə bağlı ayrıca risalə də qələmə almışdır ki, bu da Sultan Səlimin Səfəvilərə qarşı müharibəsinin və Çaldıran döyüşünün dini-ideoloji müstəvidə əsaslandırılmasına xidmət etmişdir. Çaldıran zəfərindəki əvəzsiz xidmətləri nəzərə alınaraq 1516-cı ildə Ədirnə qazısı, daha sonra isə Anadolu qazisi vəzifələrinə təyin edilmişdir. Eyni missiyasını Sultan Səlimin Misir səfərində də davam etdirmiş, sultanın əmri ilə Əbulməhasin Yusif Cəmaləddinin Misir tarixinə aid "ən-Nücumuz-zahirə fi mülukil-Misir vəl-Qahirə" adlı əsərini qısa müddət ərzində tərcümə etmişdir. Elmi-siyasi fəaliyyətində böyük uğur

qazanan İbn Kamal 1526-cı ildə sələfi Zənbilli Əli Cəmali əfəndinin vəfatından sonra şeyxülislamlıq vəzifəsinə təyin olunmuş və bu vəzifəni səkkiz il icra etmişdir. Ərəb və fars dillərini mükəmməl bilən, tibb, tarix, kəlam və islam hüququ sahəsində müxtəlif əsərlər yazan Osmanlı şeyxülislamı, İbn Kamal, eyni zamanda, dövrünün məşhur şairi olmuşdur. Belə ki, onun "Yusif və Züleyxa" məsnəvisi və türk dilində yazdığı "Divan"ı ədəbiyyat sahəsindəki qabiliyyətini göstərir.

İbn Kamal 1536-cı ildə vəfat etmiş və İstanbuldakı Mahmud Çələbi məzarlığında dəfn olunmuşdur *[İsmail Hakkı Uzunçarşılı, Osmanlı Tarihi, Ankara 1983, c. 2, s. 670–671; Şerafettin Turan, "Kemalpaşazade", DİA, XXV, s. 238–240].*

Kəmaləddin Behzad və Səfəvilərin Təbriz kitabxanası

1501-ci ildə Səfəvilər dövlətinin yaranması ilə Azərbaycanın həm siyasi, həm də mədəni tarixində yeni, kifayət qədər mütərəqqi və zəngin bir mərhələnin əsası qoyuldu. Bir yandan nəhəng coğrafi məkanın qədim sənət və elm ənənələrinə malik xalqlarını vahid mərkəz çərçivəsində birləşdirməyə müvəffəq olmuş Səfəvilər, digər tərəfdən də mədəniyyət xadimlərinin himayə olunmasını dövlət siyasətinin ali məramlarından birinə çevirdilər. Təbii ki, bunun səbəblərini bir neçə mühüm amillə izah etmək olar. Ancaq heç şübhəsiz ki, bu məsələdə Səfəvi dövlətinin banisi – görkəmli dövlət xadimi, sərkərdə və şair I İsmayılın mədəniyyət xadimlərinə xüsusi münasibəti əsas idi. Yaradıcılığı ilə anadilli ədəbiyyatın tarixində ayrıca bir mərhələ təşkil edən Şah İsmayıl qısa müddətdə yaratdığı imperiyanın müxtəlif bölgələrində yaşayan tanınmış xəttatları, şairləri, alimləri

paytaxt Təbrizə dəvət edərək, onların rahat fəaliyyət göstərmələri üçün hər cür şərait yaratdı. Çox keçmədi ki, Təbriz Yaxın Şərqin mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazandı.

Aydındır ki, Səfəvi dövlətinin mədəniyyət sahəsində atdığı bu cür mütərəqqi addımlardan ən çox faydalanan imperiyanın qurucusu və hakim etnosu olan Azərbaycan türkləri idi. Birincisi ona görə ki, qədim ənənələri olan ədəbiyyatın, həmçinin sənətkarlıq və rəssamlıq məktəbinin nailiyyətləri Yaxın Şərqin digər ölkələrinə yayılaraq xalqın şöhrətini birə-beş artırırdı. İkincisi də Azərbaycan mədəniyyəti imperiyanın tərkibinə daxil olan müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı ünsiyyət şəraitində daha da inkişaf edir, fərqli çalarlarla, yeni yaradıcılıq mövzuları və üslubları ilə zənginləşirdi. Əgər I Şah İsmayılın 23 illik hakimiyyəti dövründə onun mədəni sferada yürütdüyü siyasətdən Azərbaycanın, daha dəqiq desək, milli mədəniyyətimizin nələr qazandığını qısaca xarakterizə etməli olsaq, iki məqamı məxsusi qabartmaq zəruridir: birincisi, Azərbaycanı və İranı Ərəb xilafətinin süqutundan Səfəvilər dövlətinin yaranmasına qədər keçən zaman kəsiyində idarə etmiş türk mənşəli sülalələrin öz ana dillərinə laqeyd münasibətləri nəticəsində həm şeiriyyət müstəvisində, həm də dövlət idarəçiliyi məsələlərində ikinci plana sıxışdırılmış Azərbaycan türkcəsi I İsmayılın qətiyyəti nəticəsində "hakim dil" statusu qazandı.

İkincisi, Nəsirəddin Tusinin Marağada açdığı rəsədxananın və Rəşidəddinin Təbrizdə təşkil etdiyi "Dar-üş şəfa" müalicə-tədqiqat kompleksinin dağılmasından sonra ilk dəfə məhz I İsmayılın səyləri ilə Azərbaycanın yaradıcı potensialı (xüsusilə xəttatlıq və rəssamlıq istiqamətləri üzrə) vahid mərkəzdə cəmləşdirilərək, onun keyfiyyətli iş əmsalı təmin edilmişdi. Həmin şərəfli mərkəz funksiyasını isə şübhəsiz ki, uzun müddət Səfəvi sarayı nəzdində fəaliyyət göstərmiş

Təbriz kitabxanası yerinə yetirirdi. Təbriz kitabxanasının Azərbaycan, eləcə də ümumən müsəlman-Şərq mədəniyyətinə verdiyi töhfələrdən söz açmazdan əvvəl bu təsisatın yaranma tarixinə qısaca nəzər yetirmək pis olmazdı.

Təbriz kitabxanasının yaradılması və onun I İsmayıl dövründəki fəaliyyəti

Kitabxananın yaradılması haqqında I İsmayılın rəsmi fərmanının tam mətni ("Nişani-kələntəri-kitabxaneyi-humayun" – *E.Ə.*) məlum olsa da, *(fərmanın tam mətni üçün bax: Bistməqaleye-Qəzvini – "Qəzvininin 20 məqaləsi", Tehran, 1953, s. 268–273 və Şah İsmayıl Səfəvi. "Əsnad və mokatebate tarixi. Bi ehtemame Əbdülhüseyn Nəvai – Şah İsmayıl Səfəvi. Sənədlər və tarixi yazışma", Əbdülhüseyn Nəvai nəşri. Tehran, 1968, s. 359–361)* tarixçilər və mədəniyyətşünaslar kitabxananın dəqiq hansı tarixdə yaradıldığı məsələsində qəti söz deməyə çətinlik çəkirlər.

Lakin kitabxananın formalaşdırılması prosesinin İsmayılın taxta çıxmasından az sonra vüsət aldığı fikri mütəxəssislər arasında ciddi mübahisə doğurmur. Tanınmış rusiyalı iranşünas-alim O.F.Akimuşkin (1929–1993) "I Təhmasib Səfəvinin Təbrizdəki saray kitabxanasına dair" adlı məqaləsində belə bir ehtimal irəli sürürki, I İsmayıl Təbriz kitabxanasının formalaşdırılması işinə Ağqoyunlu Əlvənd Mirzə üzərində qəti qələbə qazandıqdan və bu sülalənin var-dövlətini, o cümlədən zəngin kitab kolleksiyasını ələ keçirdikdən sonra başlamışdır: "İstənilən halda bu hadisə 1501-ci ildən, yəni I İsmayılın Ağqoyunlu hakimi Əlvəndi məğlub edərək Təbrizi tutmasından və bu sultanın xəzinəsinə sahib olmasından tez baş verə bilməzdi. Çox güman ki, sonradan I İsmayılın yaratdığı kitabxananın əsasını vaxtilə Ağqoyunlu xanədanına məxsus kitabxana təşkil etmişdir.

Bu ehtimalı Nizaminin "Xəmsə"sinə çəkilmiş və hal-hazırda İstanbulun Topqapı muzeyində 762 №-li şifr altında saxlanılan əlyazmalar silsiləsi də sübut edir. Təbrizdə hazırlanmağa başlandığı dövrdə ilk olaraq Pirbudaq Qaraqoyunlu üçün nəzərdə tutulan yüksək zövqlə bəzədilmiş bu əlyazma sonradan Ağqoyunlu hakimləri Sultan Xəlilin və 1481-ci ilə aid yazışmaya əsasən Sultan Yaqubun xəzinəsinə qismət olmuşdur. Sultan Yaqubun zamanında xəttat Əbdürrəhim əl-Xarəzmi tərəfindən bu əlyazma üzərindəki ümumi işlər tamamlansada, silsiləyə bütünlüklə I Şah İsmayılın kitabxanasında yekun nöqtə qoyulmuşdur. Belə ki, silsiləyə daxilolan 19 təsvirdən 10-u Səfəvi kitabxanasında ya tamamlanmış, ya da tamamilə yenidən işlənmişdir.

Böyük ehtimalla silsilə Səfəvi kitabxanasına məhz Ağqoyunlu sülaləsinə məxsus kitabxanadan miras qalmışdır. Yeri gəlmişkən, Təbriz kitabxanasında I İsmayıl dövründə tamamlanan vaxtilə yarımçıq qalmış xəttatlıq nümunələrindən Asəfinin üzü 1502–1503-cü illərdə Heratda köçürülmüş "Dastani-Camal və Cəlal" poemasını, həmçinin Nizami əsərlərinin daha iki nüsxəsini qeyd etmək mümkündür" *[О.Ф.Акимушкин. "Средневековый Иран: Культура, история, филология", СПб: "Наука", 2004, с. 364]*.

Təbriz kitabxanasının ilk rəhbəri vəzifəsinə isə görkəmli Azərbaycan rəssamı, Təbriz miniatür məktəbinin banilərindən biri Ustad Sultan Məhəmməd (1470–1555) təyin olundu. Onun rəhbərliyi altında kitabxana və onun nəzdində fəaliyyət göstərən emalatxana məhsuldar işi ilə bütün Şərqdə şöhrət qazana bilmişdi. Bu gün də dünya muzeylərini bəzəyən və Azərbaycan rəssamlıq məktəbinin başını uca edən əksər təsviri sənət nümunələri məhz Sultan Məhəmmədin başçılıq etdiyi kitabxananın yaradıcı potensialının bəhrəsi sayılmalıdır.

I İsmayılın Ağqoyunlu kitabxanasına bu cür ehtiramla yanaşması onun bir hökmdar, eyni zamanda, şəxsiyyət kimi

nəcibliyini sübut edən və hər bir azərbaycanlıda qürur hissi doğuran təqdirəlayiq faktdır. Təbriz kitabxanasının yaradılması təşəbbüsündən söz düşərkən, I İsmayılın elmə, sənətə olan həssas münasibəti, onun şəxsi keyfiyyətləri ilə yanaşı həm də orta əsr müsəlman aləmində ərəb xəlifələri dövründən miras qalmış mütərəqqi ənənənin təsirini də etiraf etmək gərəkdir. Belə ki, hələ Məhəmməd peyğəmbər (ə.s.) kitab mədəniyyətini, elmi əsas plana çıxararaq müsəlmanlara yazıb-oxumaq öyrədən hərbi əsirlərin dərhal azad olunmasına göstəriş vermişdi. Sonralar, Abbasi xəlifələri dövründə kitabın və elmin əhəmiyyəti elə bir mötəbər dərəcəyə yüksəlmişdi ki, hətta xarici dövlətlərdən, xüsusilə zəngin kitabxanalara sahib Bizansdan xərac əvəzinə qiymətli əlyazmalar alınırdı.

Xilafət rəhbərliyinin kitabxana siyasəti haqqında danışarkən, azərbaycanlı tədqiqatçı Çingiz Qacar bunları yazırdı: "Bağdaddakı "Beytül-hikmə" – "Hikmət evi"nə (əsası hələ Harun ər-Rəşid dövründə (775–809-cu illər) qoyulmuş və elmin bir sıra sahələri üzrə fundamental tədqiqatlar aparan bu qurumun funksiyasını müasir dövrdə Elmlər Akademiyasının fəaliyyəti ilə müqayisə etmək mümkündür – *E.Ə.*) bir çox ölkələrdən antik əsərlərin tərcüməçiləri dəvət olunur. Xüsusi xidmətlər xilafətin hər yerindən tərcümə üçün kitablar toplayırdı. Bizansdan təzminatlar qızıl əvəzinə kitablarla alınırdı. Həmçinin şərəfli qonaqlardan hədiyyə kimi kitab qəbul olunurdu.

Belə hesab olunur ki, "Hikmət evi"ndə 400 min nüsxəyə qədər kitab toplanmışdı. Kitabxananın başında dövrün görkəmli alimi Xarəzmi dayanırdı" *[Ç.Qacar. "Qədim və orta əsrlər Azərbaycanının görkəmli şəxsiyyətləri", Bakı, 1997, s. 82]*.

Orta əsr müsəlman aləmində kitabxana mədəniyyətinin əhəmiyyətini, eyni zamanda I Şah İsmayılın şəxsiyyətini və yaratdığı dövlətin qarşısına qoyduğu məqsədləri nəzərə

aldıqda Təbriz kitabxanasına Səfəvi rəhbərliyi tərəfindən göstərilən himayənin səbəbləri tamamilə aydınlaşır (Məsələ burasındadır ki, I İsmayıl Osmanlı Türkiyəsi ilə İslam aləminə hökm etmək uğrunda ciddi mübarizəyə girişmişdi və bu qarşıdurmanın qalibi sonradan, şübhəsiz ki, Məkkə üzərində nəzarəti ələ alaraq özünü xəlifə elan edəcəkdi. Sonrakı hadisələr də bunu sübuta yetirdi, Çaldıran döyüşündə I İsmayılı məğlub edən Sultan Səlim bir neçə il sonra Məkkəni tutaraq özünü xəlifə elan etdi – *E.Ə.*). Şübhəsiz ki, müsəlman Şərqində birincilik uğrunda mübarizə aparan I İsmayılın ərəb xəlifələrindən miras qalmış ən mütərəqqi ənənələri, o cümlədən elmə və sənətə himayədarlıq missiyasını ən yüksək səviyyədə davam etdirməsi təbii idi.

Mənbələrin verdiyi məlumata görə, Şah İsmayıl mədəniyyət xadimlərinin, ələlxüsus da rəssam və xəttatların təhlükəsizliyinə böyük diqqət yetirər, onların müharibələr zamanı düşmənin əlinə keçməməsi üçün qabaqlayıcı addımlar atarmış.

Səfəvi hökmdarının bu cür addımları o qədər geniş vüsət almışdı ki, salnaməçilər tərəfindən onların əksəriyyəti əfsanələşdirilmiş və bu zaman hətta bəzi tarixi uyğunsuzluqların meydana gəlməsinə heç fikir də verilməmişdi. Sonralar isə təzadlarla müşayiət edilən bu cür məlumatlar rəssamlıq sənətinin tarixindən bəhs edən ciddi elmi mənbələrə, dərsliklərə yol tapmışdı. Belə məlumatların bariz nümunəsi, guya, I İsmayılın Çaldıran döyüşü ərəfəsində sonralar Təbriz kitabxanasına rəhbərlik etmiş istedadlı rəssam, "Şərqin Rafaeli" adını daşıyan Kəmaləddin Behzadı (1455–1536) və Şah Mahmud Nişapurini gizlətməsi haqqında deyilənlərdir. Məsələ burasındadır ki, Behzad vətəni Heratdan Təbrizə 1522-ci ildə, yəni Çaldıran döyüşündən 8 il sonra I İsmayılın varisi, müəllimi olduğu I Təhmasiblə birgə gəlmişdi.

Bu halda onun Çaldıran döyüşü ərəfəsində I İsmayıl tərəfindən gizlədilməsi faktı öz təsdiqini tapmır. Şah Mahmud Nişapuriyə gəlincə, o, həmin vaxt hakim dairələrdə, ümumiyyətlə, tanınmayan, adı məhdud çərçivəyə məlum bir sənətkar olmuşdur və Akimuşkinin dediyi kimi I İsmayılın hələ püxtələşməkdə olan, öz əmisi Abdulla Nişapurinin yanında ustad dərsləri alan birisinə bu qədər böyük əhəmiyyət verəcəyi inandırıcı görünmür *[daha ətraflı bax: О.Ф.Акимушкин. "Средневековый Иран: Культура, история, филология", СПб: "Наука", 2004, с. 61].*

Osmanlı tarixçisi Mustafa Dəftəri tərəfindən Behzada dair verilən və heç bir Səfəvi qaynağında öz əksini tapmayan bu məlumata şübhə ilə yanaşan İ.Şukin və O.Akimuşkin də vaxtilə sözügedən əfsanədə nəzərə çarpan ziddiyyətlərə diqqət çəkmişlər. O.Akimuşkin həmkarının arqumentlərini öz mülahizələri ilə birləşdirərək bu barədə yazırdı: "Mustafa Dəftərinin məlumatına tənqidi yanaşan ilk tədqiqatçı İran miniatürlərini araşdıran İ.Şukin olmuşdur. O, Mustafa Dəftərinin məlumatlarını salnaməçi Qazi Əhmədin qeydləri ilə qarşılaşdırarkən bu qənaətə gəlmişdir. Belə ki, Qazi Əhməd I İsmayılın kitabxanasında fəaliyyət göstərən Sultan Məhəmməd haqqında məlumat verərkən yazır ki, yeri cənnət bağcaları olan I Təhmasibin müəllimi Behzad Heratdan İraqa yenicə gəldiyi vaxt Sultan Məhəmməd Təbriz kitabxanasında çalışan məşhur rəssam idi. Behzad Təhmasibə uşaq yaşlarından xəttatlıq və rəssamlığın sirlərini öyrədirdi.

I Təhmasibin müasiri olan tarixçi Həsən bəy Rumlu I Təhmasibin 22 fevral 1514-cü ildə dünyaya gəldiyini yazır. Deməli, Çaldıran döyüşü ərəfəsində onun cəmi 6 ayı tamam olmuşdu. 6 aylıq körpənin isə rəssamlıq və xəttatlıqla məşğul olması mümkünsüzdür. Təhmasibin bu işlərlə ancaq 6–8 yaşında məşğul olmağa başladığını düşünmək daha məntiqli olardı. Demək, I Təhmasibin müəllimi olduqdan sonra məşhurlaşan və saraya yol tapan Behzadın Təbriz kitabxanasına gəlişi ən yaxşı halda 1520-ci ilə təsadüf edə bilər" *[О.Ф.Акимушкин. "Средневековый Иран: Культура, история, филология", СПб: "Наука", 2004, с. 60–61].*

Təsadüfi deyil ki, I İsmayıl Behzadı yalnız 1522-ci ildə kitabxananın rəhbəri vəzifəsinə təyin edir. Əgər Çaldıran döyüşü ərəfəsində o, bu qədər tanınmış olsaydı, Şah çoxdan ona mədəniyyət sahəsində məsul bir vəzifə həvalə edərdi. Behzadın Səfəvi dövlətinin yeni yarandığı dövrlərdə, ümumiyyətlə, tamam fərqli mühitdə, yəni Heratda və fərqli hamilərin nəzarəti altında fəaliyyət göstərməsi faktı da onun Təbriz sarayı ilə xeyli sonralar tanış olduğuna dəlalət edir. Əks təqdirdə, Behzadın I İsmayılın əsas düşmənlərindən olan özbək hökmdarı Şeybani xanın 1507-ci ilə aid edilən portretini yaratması faktına heç cür izah vermək mümkün deyil. Tarixdən məlumdur ki, Səfəvilər Şeybani xanı ancaq 1510-cu ildə məğlubiyyətə uğratmış və Behzadın yaşadığı Heratı da yalnız bundan sonra öz təsir dairələrinə daxil edə bilmişdilər. Deməli, ən azı 1510-cu ilə qədər Behzadla Səfəvilər arasında hər hansı sıx münasibətdən söhbət gedə bilməz. I Təhmasibin 1514-cü ildə dünyaya gəldiyi və Behzadın adının yalnız bundan sonra Səfəvi sarayında hallanmağa başladığını nəzərə alsaq, sözügedən əfsanənin tutarsızlığı tam şəkildə əyan olur.

Ancaq yuxarıda da qeyd etdiyimiz kimi, nədənsə bu yoxlanılmamış məlumat müsəlman təsviri sənətinin tarixini araşdıran ciddi tədqiqatçıların əsərlərində yer alıb. Məsələn, tanınmış rusiyalı sənətşünas B.Denike (1885–1941) Behzad haqqında bu əfsanəyə müraciət edərək yazır: "I Şah İsmayıl incəsənətə yaxın biri idi və o, Behzadı yüksək qiymətləndirirdi. Salnaməçilər iddia edirlər ki, Şah türklərlə müharibəyə yollanmamışdan öncə saray xəttatı Mahmud Nişapurinin və rəssam Behzadın düşmən əlinə keçmələrini istəmədiyini bildirərək, onları etibarlı yerdə gizlətməyin qeydinə qalmışdır. Uğursuz müharibədən qayıdarkən isə onun ilk maraqlandığı

məsələ Behzadın sağ qalıb-qalmadığı olmuşdur" *[bax: Б.Денике. "Искусство Востока", Казань, 1923, с. 98–99].*

Beləliklə, mənbələrdən məlum olur ki, I İsmayıl 1522-ci ildə ahıl Behzadı Təbriz kitabxanasına rəhbər təyin edir və bundan cəmi 2 il sonra dünyasını dəyişir. Nəticədə, kitabxananın taleyində yeni və son səhifə açılır – I Təhmasib dövrü.

I Təhmasib dövrü: kitabxananın yüksəlişi və sonu

Səfəvi taxtını atasından təhvil alan I Təhmasib sələfindən fərqli olaraq, şeirə yox, məhz rəssamlığa meyilli bir şəxs idi. Onun uşaq yaşlarından əvvəlcə Behzaddan, sonra isə Sultan Məhəmməddən səylə rəssamlığın sirlərini öyrənməsi bunun bariz sübutudur. Elə orta əsr salnaməçilərinin özləri də Təhmasibin təsviri sənətə olan xüsusi münasibətini gizlətmirlər. Məsələn, Budaq Qəzvini Şahın sənətə olan meyli haqqda bunları yazırdı: "Allah qulu Şah Təhmasibin uşaq yaşlarından rəssamlığa və kitab bəzəməyə meyli olduğundan dünyanın müxtəlif ölkələrindən onun yanına bu işlə məşğul olan şəxslər dəvət edilirdi".

Yaxud, İskəndər Münşinin məsələyə dair qeydlərini xatırlayaq: "I Təhmasib həzrətləri hələ uşaq yaşlarından rəssamlığa güclü məhəbbət və həvəs göstərirmiş. Behzad, Sultan Məhəmməd, Ağa Mirək kimi sənətkarlar onun abad kitabxanasında fəaliyyət göstərmişlər. Əlahəzrət bu peşənin sahiblərinə xüsusi rəğbət göstərirdi. Dövlət işlərindən boş qalan vaxtlarda o, rəssamlıqla məşğul olmaqdan xüsusi həzz alardı" *[О.Ф.Акимушкин. "Средневековый Иран: Культура, история, филология", СПб: "Наука", 2004, с. 353–354].*

I Təhmasibin ətrafındakı rəssamlara və xəttatlara olan fanatik bağlılığı elə bir həddə çatmışdı ki, o, Səfəvi sarayından başqa ölkələrə qaçan sənətkarların gedişini şəxsi

xəyanət kimi qəbul edir, bu qəbildən olan hadisələrə isterik reaksiya verirdi. B.Denike "İran rəssamlığı" adlı kitabında belə hadisələrdən birinə toxunmağı lazım bilib. Doğrudur, Denike barəsində danışdığı hadisəni daha çox Təhmasibin kəskin xarakterini göstərmək məqsədilə qabardır, lakin fakt faktlığında qalmaqdadır: "Bir dəfə iki məşhur rəssam I Təhmasibin sevimli qulluqçusunu da özləri ilə götürərək Hindistana qaçmağa cəhd göstərirlər. Lakin yolda onlar həbs olunaraq, Təbrizə qaytarılırlar. Qəzəblənmiş Şah öz əli ilə rəssamlardan birinin – Xoca Əbdüləzizin burnunu, ikincisinin – Molla Əlinin isə qulaqlarını kəsir. Lakin bununla belə, Əli bu cəzanın kifayət qədər yüngül olduğunu bildirir" *[Б.Денике. "Живопись Ирана", Москва, 1938, с. 123].*

Saraydan uzaqlaşmağa çalışan rəssamlara yanaşmada sərt olduğu qədər I Təhmasib ona qəlbən bağlı sənətkarların şıltaqlıqlarına da eyni dərəcədə səbirlə dözürdü. Bariz nümunə qismində Behzadın özünü göstərmək kifayət edər. Belə ki, mənbələrin məlumatlarına əsasən şəraba aludə olan Behzadın bu zəifliyinə I Təhmasib hətta meyxana və qumarxanaları bağlamaq haqqında verdiyi göstərişin icrası zamanı da dözürdü. Ona görə də, ustad sənətkarın ictimai yerlərdə şərab içməsi halları ilə rastlaşdıqda qanun keşikçiləri xoş bir istisna kimi cəzaya əl atmadan yan keçməli olurdular.

Təhmasibin hakimiyyətinin ilk illərində Təbriz kitabxanası həqiqətən özünün yüksəliş dövrünü keçirirdi. Öz ətrafına Sultan Məhəmməd, Kəmaləddin Behzad, Ağa Mirək, Mir Seyid Əli kimi qüdrətli fırça sahiblərini toplayan Təbriz kitabxanasında qısa müddətdə Şərqin qüdrətli söz ustadlarının – Firdovsinin, Nizaminin, Caminin, Hafizin və digərlərinin əsərlərinə çəkilmiş miniatürlər silsiləsi yaranır. Həmçinin rəssamların müxtəlif mövzular ətrafında ərsəyə gətirdikləri onlarla təsviri sənət nümunələri Azərbaycan rəssamlıq məktəbinin şöhrətini göylərə qaldırır.

I Təhmasibin hakimiyyətinin ilk illərində Behzadın dünyasını dəyişməsinə baxmayaraq, Təbriz kitabxanası inamla inkişafını davam etdirirdi. Onun yetişdirdiyi onlarla tələbə öz müəllimlərinin işini layiqincə gələcək nəsillərə ötürməyə çalışırdılar. B.Denike qeyd edir ki, həmin dövrdə Təbriz kitabxanasında fəaliyyət göstərən rəssam və xəttatların maddi təminatının yüksək olması Səfəvi sarayına axın edən həm yerli, həm də əcnəbi sənətkarların sayını ildən-ilə artırırdı. Bunu O.Akimuşkinin orta əsr məxəzlərinə istinadən Təbriz kitabxanasında I Təhmasib dövründə fəaliyyət göstərən sənətkarların sayına dair gətirdiyi məlumatlar da təsdiqləyir. Akimuşkinə inansaq, Təbriz kitabxanasında 5 xəttat, 7 rəssam, 3 ornamentalist və 1 cildçi fəaliyyət göstərirmiş. Kitabxana bilavasitə kitabdar adlanan şəxsin nəzarəti altında işləyirmiş.

Lakin 1548-ci ildə qəflətən, heç kimin gözləmədiyi bir vaxtda I Şah Təhmasib Təbriz kitabxanasının buraxılması haqqında qərar verir. Bu hadisə Səfəvi dövlətinin paytaxtının Təbrizdən Qəzvinə köçürülməsi qərarı ilə üst-üstə düşdüyündən kitabxanada fəaliyyət göstərən rəssamların bir qismi ölkənin siyasi rəhbərliyi ilə birlikdə yeni mərkəzə köçməyə üstünlük verir. Lakin rəssamlar yeni paytaxtda artıq dövlətin himayəsi ilə deyil, müstəqil şəkildə fəaliyyət göstərməyə məcbur olurlar.

Bir tərəfdən Osmanlı imperiyası ilə bitib-tükənməyən qanlı müharibələr, digər tərəfdən ölkənin dağılan təsərrüfatı və gündən-günə pisləşən iqtisadi vəziyyəti Şaha sənətə əvvəlkitək qayğı göstərməyə imkan vermirdi. Kitabxananın bağlanma səbəbi dəqiq bilinməsə də, sadalanan amillərin bu işə təkan verdiyi istisna deyil. Qəzvinə köçdükdən sonra hökmdarın yanında qalan Sultan Məhəmmədin özünün də yaradıcılığında durğunluq dövrü başlayır ki, bunun özü də Səfəvi sarayının həmin anda sənətkarlığı himayə etmək gücündə olmadığının növbəti sübutlarından biridir.

Doğrudur, həmyerlimiz K.Kərimov kitabxananın buraxılması faktı ilə razılaşmır və bildirir ki, bu qurum tam heyətdə yeni paytaxta köçürülmüşdür. Bununla belə, orta əsr mənbələrində məsələyə dair olan birbaşa qeydlər həmyerlimizin mövqeyi ilə üst-üstə düşmür. O.Akimuşkin Təbriz kitabxanasının buraxıldığı fikrini müdafiə edərək, sübut qismində bəzi iqtibaslar edir: "Dövlət işlərinin çoxluğu ucbatından o, rəssamlığa olan həvəsi ilə vidalaşdı. Beləliklə də, kitabxanadakı rəssamları onların müstəqil şəkildə fəaliyyət göstərə bilmələri üçün azad etdi və kitabxananı buraxdı. İskəndər Münşi".

Yaxud, "Onlar (Səfəvilər – *E.Ə.*) Sultan Məhəmmədi çıxmaq şərti ilə bütün xəttat və rəssamları kitabxanadan azad etdilər. Şah rəssamlıq və xəttatlığa olan həvəsini unutduqdan sonra özünü tam gücü ilə dövlət işlərinə həsr etdi" *[О.Ф.Акимушкин. "Средневековый Иран: Культура, история, филология", СПб: "Наука", 2004, с. 360–361]*.

Bununla belə, K.Kərimovun da mövqeyini, necə deyərlər, "qəribçiliyə salmaq" olmaz. Çünki tarixi mənbələrdən, elə həmin İskəndər Münşidən də bilindiyi kimi Qəzvinə köçdükdən sonra da Şah sarayı nəzdində kiçik də olsa, kitabxana fəaliyyət göstərib. Hətta Məhəmməd Xudabəndənin zamanında məşhur rəssam Sadiq bəy Əfşarın həmin kitabxananın rəhbəri, yəni kitabdar vəzifəsinə təyin olunması faktı da bizə məlumdur *[bax: Ç.Qacar. "Qədim və orta əsrlər Azərbaycanının görkəmli şəxsiyyətləri", Bakı, 1997, s. 233–234]*.

I Abbasın dövründə, yəni Səfəvi dövlətində elm və sənətə dövlət qayğısının yenidən canlanmağa başladığı zamanda kitabxana, eyni zamanda onun nəzdindəki emalatxana öz işini davam etdirirdi. Ancaq təbii ki, o, əvvəlki potensialından və şöhrətindən çox uzaq idi. Deməli, Akimuşkinin və Kərimovun ilk baxışdan bir-birindən uzaq olan iki rəyi arasındakı ortaq məxrəc təxminən belədir: Təhmasibin paytaxtı Qəzvinə köçürməsindən sonra kitab-

xana əməkdaşlarının böyük bir qismi ixtisar edildi və müəyyən müddətə kitabxananın fəaliyyəti dayandı. Lakin sonrakı dövrlərdə dövlətin maliyyə imkanlarının artması bu təsisatın əvvəlki həcmdə olmasa da, yenidən fəaliyyətə başlamasına təkan verdi. Əks təqdirdə, Akimuşkinin istinad etdiyi İskəndər Münşi Sadiq bəy Əfşarı "Şah kitabxanasının kitabdarı" adlandırmazdı. Digər tərəfdən I Abbas kimi qüdrətli və incəsənətə xüsusi rəğbətlə yanaşan bir hökmdarın dövründə rəssamlığın dövlət qayğısı ilə əhatə olunmaması inandırıcı görünmür.

Bütün bunlarla belə, dağıldıqdan və rəssamlıq sənətində pərakəndəlik dövrü başladıqdan sonra da Təbriz kitabxanasının Yaxın Şərq mədəniyyətinə təsiri uzun müddət davam etdi. Bu məktəbin ənənələri ruhunda yetişən sənətkarlar sonrakı əsrlərdə də öz yaradıcılıqları ilə sələflərinin yolunu uğurla davam etdirirdilər. Birmənalı şəkildə bəyan etmək olar ki, I Şah Abbas dövründə yaşayıb-yaratmış məşhur xəttat Mir İmad, Sadiq bəy Əfşar, Əli Rza Təbrizi kimi görkəmli rəssamlar öz yaradıcılıqlarında məhz Təbriz məktəbinin bulağından qidalanmışlar. Təxminən 40 il müddətində fəaliyyət göstərməsinə baxmayaraq, Təbriz kitabxanası Şərqin təsviri sənət tarixində yeni bir mərhələnin və üslubun əsasını qoymağa nail oldu. Kitabxananın buraxılmasından sonra da Şərqin müxtəlif şəhərlərində təsviri sənətlə məşğul olan görkəmli rəssamların böyük əksəriyyəti Təbriz məktəbinin üslubuna sadiq qalmış, onun təsvir xüsusiyyətlərinə əməl etməyə səy göstərmişlər. Məhz bunun nəticəsində sənətşünaslar tərəfindən əksər tədqiqat işlərində bu məktəb müstəqil cərəyan kimi öz sələflərindən fərqləndirilərək, ayrıca fenomen kimi öyrənilir.

Bu gün, Çingiz Qacarın da qeyd etdiyi kimi, dünyanın elə bir muzeyi yoxdur ki, orada əsası I İsmayıl tərəfindən qoyulmuş Təbriz saray kitabxanasından üzü köçürülmüş əlyazma olmasın. Azərbaycanın ən görkəmli rəssam və xəttatları

tərəfindən yüksək ustalıqla yerinə yetirilmiş onlarla sənət nümunələri milli mənsubluğundan asılı olmayaraq, hər kəsi bu cür mədəniyyətə mənsub xalqa yaxşı mənada qibtə ilə yanaşmağa məcbur edir. Təsadüfi deyil ki, müasir dövrdə Qərb şərqşünaslarının yekdil rəyinə əsasən Şərq kitab incəsənətinin ən qiymətli incisi hesab edilən, 1539–1543-cü illərdə Nizami "Xəmsə"sinin unikal əlyazmasına çəkilmiş və hal-hazırda Londonun Britaniya muzeyində saxlanan 14 miniatür məhz Təbriz kitabxanasında fəaliyyət göstərmiş Azərbaycan rəssamlarının zəhmətinin bəhrəsidir. Güman ki, Təbriz kitabxanasının Şərqin mədəniyyət tarixindəki yerinə bundan daha gözəl qiymət vermək çətindir.

ADLAR GÖSTƏRİCİSİ

– A –

Abbasi, Abbasilər – 54, 111, 360, 370, 378
Ağa Muhəmməd Ruzəfzun – 152
Ağqoyunlu – 17, 25, 30, 75, 92, 101, 110, 176, 185, 256, 267, 355, 376, 377
Amasya – 112, 144, 355
Amid – 113, 115, 131
Anadolu – 87, 96, 97, 360, 373
Asiya – 363, 366, 367, 368, 369, 370
Atəşpərəst – 27
Avropa – 10, 76, 96, 116, 160, 163, 353, 354, 360, 363, 364, 366
Azərbaycan – 5, 6, 7, 8, 9, 11, 12, 13, 14, 15, 16, 17, 20, 21, 27, 30, 43, 45, 52, 54, 82, 96, 118, 122, 129, 130, 180, 355, 360, 366, 371, 374, 375, 376, 377, 378, 383, 385, 386, 387

– B –

Babur – 70, 368
Bağdad – 54, 115, 131, 153, 360, 378
Bakı – 122
Baqlan – 50
Bali bəy – 140
Bayanduriyyə – 29
Bayburd – 130
Bayram ağa – 90
Bayram bəy – 72
Bədəxşan – 50
Bəhram bəy – 143
Bosfor boğazı – 76
Buheyrə – 140
Buxara – 11, 50, 72, 368
Bulaq – 137
Bustan – 180

– C –

Cam vilayəti – 174
Can Bordi Ğəzali – 129, 136, 140
Ceyhun çayı – 51, 73, 126
Cəbrail – 33
Cəlaləddin Muhəmməd – 174
Cəlaləddin Murad bəy – 27
Cəmaləddin Yusif əl-Qəbtan – 116, 118, 128
Cəmşid – 26, 38, 43, 45, 87, 152, 155

– Ç –

Çaldıran – 15, 18, 20, 54, 87, 91, 95, 96, 97, 99, 102, 107, 110, 144, 163, 260, 273, 346, 360, 361, 373, 379, 380, 381
Çəmişgəzək – 131
Çərkəz – 30, 54, 123, 133, 134, 136, 137, 138, 139, 140, 370
Cığatay – 71
Çingiz xan – 56, 71, 367

– D –

Dara – 26, 74, 78, 87, 155
Daşkənd – 51, 71
Davud – 108, 133
Deyləm – 45
Dəməşq – 129, 134, 144
Dərbənd – 143
Dibac – 122, 149
Divriği – 121, 132
Diyarbəkir – 27, 30, 47, 89, 92, 113, 114, 115, 127, 131
Durmuş xan – 52

– E, Ə –

Elxanilər – 122, 371
Əbdülhüseyn Nəvai – 9, 14, 32, 51, 376
Əbu Əyyub əl-Ənsari – 91
Əbu Səid – 72
Əbu Səid Qorqani – 117, 119
Əbunəsr Seyfəddin Qansu – 54
Əbülxeyr xan – 72, 367
Əbülqasim əl-Cami – 174
Əcəm – 26, 45, 74, 78, 96, 136, 139, 141, 142, 143
Ədirnə – 87, 355, 373
Əfrasiyab – 45, 74
Əhməd – 14, 32, 40, 63, 80, 82, 105, 130, 149, 177, 358, 380
Əhməd Cəlayiri – 54

Əhməd Çələbi – 113
Əhməd Paşa – 105, 106
Əhmədcan Zeyd – 97
Əhsənüt-təvarix – 46, 57
Əlaüddövlə – 44, 46, 47, 48, 84, 110, 111, 112, 131, 144
Əli bəy – 47, 144, 373
Əli bəy Şahsuvaroğlu – 110, 140
Əli ibn Musa Rza – 49, 52
Əlvənd xan – 30
Əməvi – 129
Əndican – 51
Ərdəbil – 95, 97, 107, 153, 164
Ərəb – 13, 14, 30, 61, 96, 103, 112, 123, 124, 126, 135, 136, 137, 141, 143, 144, 153, 171, 370, 373, 374, 375, 378, 379
Ərməniyyə – 130
Ərzincan – 83
Əynetab – 132
Əyyub – 94

– F –
Fərat – 47, 48, 141
Fərrux Yasar – 143
Fərruxşad bəy – 92
Firudin – 26, 74, 78, 87, 101, 116, 152

– G, Ğ –
Gilan – 19, 45, 122, 123, 127, 149, 164, 287, 324
Gülpayeqan – 178, 179
Gülüstan – 144
Ğarcistan – 50
Ğocdəvan – 72

– H –
Harput – 44
Hatəm – 122
Herat – 48, 180, 368, 377, 379, 380, 381
Heydər ibn Cüneyd – 58
Həbəş – 140
Həbibus-siyər – 46
Hələb – 118, 123, 129, 132, 133, 134, 140, 144, 153
Həmədan – 115, 122
Həmzə Bahadur xan – 51
Həmzə xəlifə – 58
Həsar – 50
Həsən – 35, 115, 157
Həsən bəy Rumlu – 46, 380
Həsən bəy Silahdar – 127
Həsən əl-Qəbtan – 116
Həsən Paşa – 96, 97
Həzarə – 50
Hicaz – 135, 140
Hillə – 115
Homa – 129
Homs – 129
Hüsaməddin – 19, 122
Hüseyn Bayqara – 32, 72, 180, 192

– X –
Xacə Cəlalüddövlə – 176
Xarəzm – 51, 368, 378
Xeyir bəy – 129, 140
Xeyravan – 108, 109, 274
Xəlilullah – 143
Xəzər dənizi – 45, 143
Xorasan – 32, 52, 53, 56, 57, 72, 73, 180, 368
Xosrov – 155
Xoy – 97, 103
Xristian – 116, 117, 160, 161, 162, 360, 363, 364

– İ –
İbrahim paşa – 122
II Filip – 144
İmadəddin Bahadur xan – 50
İmam Rza – 32, 52
İraq – 27, 30, 40, 52, 380
İran – 9, 10, 11, 14, 15, 26, 30, 43, 45, 57, 70, 93, 130, 131, 141, 161, 371, 375, 380, 383
İshaqvənd – 122
İskəndər – 26, 43, 74, 78, 87, 141, 144, 155
İsmail Yusif bəy Varsağ – 110
İsmayıl – 9, 10, 11, 12, 14, 15, 16, 17, 18, 19, 20, 21, 22, 31, 32, 41, 42, 43, 45, 46, 47, 49, 50, 52, 53, 54, 55, 58, 72, 74, 78, 82, 83, 85, 87, 88, 91, 95,

96, 97, 99, 100, 102, 107, 110, 119, 129, 132, 143, 145, 158, 161, 360, 361, 369, 374, 375, 376, 377, 378, 379, 380, 381, 382, 386
İstanbul – 14, 15, 76, 87, 91, 113, 115, 352, 354, 355, 357, 358, 359, 362, 363, 364, 365, 367, 369, 371, 373, 374, 377
İzmit – 77
İznikomid – 77

– K –

Kabil – 70
Kamal Əbülfəth – 176, 178
Kaşan – 115, 179
Kaşqar – 51
Keyxosrov – 45, 74
Keyvan Çavuş – 29, 30
Kəlhor – 115
Kəmax – 110, 111, 112, 115, 130, 131, 144
Kəmaləddin Behzad – 20, 180, 181, 337, 374, 379, 380, 381, 382, 383, 384
Kəmaləddin Hüseyn Bəy – 90
Kəmaləddin Suncək Bahadur xan – 51
Konstantiniyyə – 76
Kunduz – 50
Kür çayı – 143
Kürd – 104, 107, 149, 273
Kürd Hacı Rüstəm – 17, 29, 30, 189, 355
Kürdüstan – 131, 141, 144

– Q –

Qabil – 78
Qacar, Qacarlar – 174, 378, 385
Qahirə – 110, 112, 118, 128, 129, 135, 139, 142, 144, 180, 370, 373
Qansu Qiru – 46, 54, 55, 110, 113, 117, 118, 120, 129, 132, 133, 134, 144, 217, 277, 370, 371
Qara bəy – 113
Qara xan – 113, 114, 115, 127
Qara Yusif – 54
Qarabağ – 7, 47, 48, 87
Qaraqoyunlu – 12, 174, 377
Qasim bəy – 27
Qaytaq – 144
Qazi bəy – 143
Qeysəriyyə – 45, 83, 86, 113

Qəlmaq – 51
Qəndahar – 70
Qəndbadam – 51
Qəzvin – 115, 384, 385
Qəzza – 136, 153
Qıpçaq – 51, 370
Qızılbaş – 17, 20, 27, 29, 30, 46, 69, 70, 72, 73, 92, 107, 108, 113, 117, 118, 127, 130, 131, 132, 139, 147, 169, 327, 343, 348
Qövr – 50
Qudurmuş xan – 114
Qumux – 144
Qüdsi-şərif – 153

– L –

Larəndə – 121
Leyli və Məcnun – 180
Leys ibn əl-Əsəd ibn əl-Qəzənfər – 78
Luris qalası – 152
Luristan – 99, 101, 265

– M –

Mahmud Sağərçi – 53
Malatya – 121, 132, 144
Malcəhət – 174, 178
Mani – 180, 181
Mardin – 113, 114, 127
Mavəraünnəhr – 56, 367
Mazandaran – 45, 149, 152, 317
Meymə – 179
Mədayin – 40
Mədinə – 111, 119, 124, 132, 145, 153, 360
Məhəmməd – 25, 32, 33, 35, 36, 40, 42, 48, 58, 63, 74, 78, 79, 80, 82, 91, 92, 113, 114, 115, 119, 127, 130, 143, 150, 155, 158, 159, 169, 378, 385
Məhəmməd bəy – 66, 72, 92, 110, 113, 256
Məhəmməd ibn Yaqub – 111
Məhəmməd paşa Bığlı – 113, 114, 127
Məhəmməd Şeybani – 48, 367
Məkkə – 39, 50, 111, 119, 124, 130, 132, 145, 153, 360, 379
Məlikşah – 49
Məmlük, Məmlüklər – 18, 30, 54, 129, 355, 359, 360, 363, 370, 371, 372
Mərakeş – 140, 364

Mərc-Dabiq – 18, 133, 360, 372
Mərəş – 30, 152
Mərv – 52, 53, 57, 119, 145, 369
Məşhəd – 32, 49, 52, 72
Mir Əbdulkərim Mərəşi – 152
Mir Əbdülvəhhab – 90, 105
Mirxond – 46
Mirzə Əli Ənsari – 176
Mirzə Həsən xan Cayeri İsfahani – 176
Misir – 18, 30, 46, 54, 97, 111, 116, 117, 120, 123, 124, 128, 129, 132, 134, 136, 137, 138, 139, 140, 142, 144, 153, 355, 359, 360, 370, 371, 372, 373
Moğol bəy – 120
Monqol – 54, 72, 360, 371
Mosul – 114
Muhyiddin Əhməd – 40
Murad bəy – 27, 48
Murad xan – 30
Murad mirzə – 101
Murtəza – 36, 92, 139
Mustafa – 36, 76, 92, 95, 372
Mustafa paşa – 140
Muzəffər sultan – 122
Müvəhhid – 113, 115

– N –
Natanz – 179
Nekudəri – 50
Nəcm Sani – 70, 72
Nəsirəddin Fərəc – 54
Nil çayı – 124, 137, 138, 139, 370
Nizaməddin Dədə bəy – 47
Nizaməddin Məhəmməd bəy – 71
Nizami Gəncəvi – 180, 377, 383, 387

– O, Ö –
Oman – 153
Osmanlı – 10, 14, 15, 16, 17, 18, 19, 20, 44, 46, 54, 77, 80, 87, 91, 95, 96, 97, 110, 113, 114, 116, 117, 118, 120, 122, 129, 130, 143, 160, 161, 162, 163, 352, 353, 354, 355, 356, 357, 358, 359, 360, 361, 362, 363, 364, 365, 366, 369, 371, 372, 374, 379, 380, 384

Otrar – 51
Özbək – 55, 69, 71, 72,73, 152, 180, 366, 381

– P, R –
Paris –180
Pürnakiyanlar – 30
Rəşt – 122, 149
Rodos – 19, 116, 119, 155, 363
Rum – 41, 44, 67, 109, 132, 141, 143, 144, 161

– S –
Sasani – 122
Sefidrud çayı – 122
Seyfəddin Bərquq – 54
Seyran – 51
Sədi Şirazi – 180
Səfa – 119, 145
Səfəvi, Səfəvilər – 8, 9, 10,11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 20, 21, 22, 32, 44, 46, 58, 84, 87, 91, 108, 110, 113, 114, 117, 118, 120, 122, 146, 152, 158, 161, 163, 164, 176, 180, 352, 355, 360, 361, 363, 366, 368, 369, 373, 374, 375, 376, 377, 379, 380, 381, 382, 384, 385
Səid – 115, 137, 138, 139, 161
Səlahəddin Əyyubi – 54, 370
Səlcuq – 49
Səliməddin Mehdi Bahadur xan – 51
Səmərqənd – 50, 70, 71, 368
Sicistan – 149
Sinan Paşa – 46, 96, 98, 110, 112, 136
Siracəddin Əbdülvəhhab – 90, 91, 105
Siracəddin Məhəmməd – 92
Sivas – 83, 86, 112
Skador – 76
Soyurqal – 174, 176, 178, 179
Sultan Bayazid – 14, 17, 18, 25, 29, 30, 31, 41, 42, 43, 44, 45, 53, 74, 78, 84, 88, 185
Sultan Hüseyn – 180
Sultan Xəlil – 122, 377
Sultan Mahmud – 72
Sultan Məhməd Fateh – 352, 353, 372
Sultan Səlim – 14, 15, 16, 18, 19, 20, 46, 54, 59, 67, 74, 78, 82, 83, 85, 87, 88, 91, 92, 95, 97, 99, 101, 102, 104, 105, 107, 108, 109, 110, 113, 116,

117, 118, 120, 122, 127, 129, 141, 143, 146, 148, 152, 155, 221, 235, 256, 260, 265, 267, 268, 270, 271, 273, 274, 277, 287, 292, 317, 349, 351, 353, 354, 355, 356, 357, 358, 359, 360, 361, 362, 363, 366, 372, 373, 379
Sultaniyyə – 115
Suriya – 54, 359, 361
Süheyl ulduzu – 49, 50
Süleyman – 15, 19, 78, 87, 91, 95, 97, 109, 145, 149, 155, 159, 164, 260, 320, 324, 359, 362, 363, 364, 365, 366, 372,
Süleyman Qanuni – 19, 122, 353, 362, 365, 366

– Ş –
Şadman – 50
Şah İsmayıl – 5, 9, 10, 11, 12, 14, 15, 16, 17, 18, 19, 20, 21, 22, 31, 32, 41, 42, 43, 45, 46, 47, 49, 50, 52, 53, 54, 55, 69, 72, 73, 74, 78, 82, 83, 85, 87, 88, 91, 95, 97, 105, 110, 113, 114, 115, 117, 118, 120, 122, 129, 143, 146, 149, 152, 154, 155, 158, 160, 161, 163, 164, 165, 169, 173, 176, 179, 180, 192, 200, 208, 217, 235, 320, 322, 330, 333, 337, 340, 344, 349, 352, 355, 360, 366, 369, 372, 374, 375, 376, 377, 378, 379, 381
Şah Rüstəm – 99, 101, 265
Şahqulu – 85
Şahruxiyyə – 51
Şahsuvar – 144
Şam – 54, 118, 120, 123, 124, 129, 133, 134, 140, 153
Şarköyü – 121
Şeybani xan – 47, 49, 52, 53, 55, 56, 72, 208, 366, 367, 368, 369, 381
Şeyxzadə Lahici – 40
Şəhri-səbz – 51
Şəki – 144
Şirvan – 143, 144
Şirvanşah – 122, 129, 130, 143, 146, 148, 292
Şücaəddin Lələ bəy – 47

– T –
Taclı xanım – 91
Teymur – 10, 14, 15, 54, 72, 84, 117, 118, 176
Teymur Bahadur xan – 51
Təbriz – 20, 21, 71, 87, 91, 96, 97, 101, 102, 104, 105, 106, 109, 113, 122, 130, 131, 160, 174, 178, 180, 268, 270, 271, 374, 375, 376, 377, 378, 379, 380, 381, 382, 383, 384, 385, 386, 387
Təhmasib – 10, 122, 152, 376, 379, 380, 381, 382, 383, 384, 385
Trablus – 133
Trabzon – 84, 362
Tucan Dərə Boğazı – 121
Türk – 10, 14, 16, 18,26, 45, 46, 84, 110, 113, 120, 122, 129, 141, 162, 353, 354, 360, 361, 363, 364, 365, 366, 370, 374, 375, 381
Türkiyə – 14, 353, 379
Türküstan – 50

– U, Ü –
Urgənc – 51
Ustaclı Məhəmməd – 96, 97, 113
Uzun Həsən – 27, 117, 119
Übeydullah Xan Özbək – 59, 67, 72, 221

– Y –
Yunan – 67

– Z –
Zahid bəy – 104
Zənzibar – 137, 140
Zəhhak – Zöhhak – 74, 78
Zülqədər – 30, 46, 47, 84, 110, 111, 112, 129, 131, 132, 144

MÜNDƏRİCAT

Şah İsmayıl Xətainin siyasi irsi tarixi sənədlər işığında (*akademik Ramiz Mehdiyev*) ... 5

MƏKTUBLAR

Sultan II Bayazidin Ağqoyunlu Əlvənd Mirzəyə cavab məktubu ... 25
Sultan II Bayazidin Kürd Hacı Rüstəm ilə yazışması ... 29
Şah İsmayılın Hüseyn Bayqaraya məktubu ... 31
Şah İsmayıl ilə Sultan II Bayazid arasındakı yazışmalar ... 41
Şah İsmayılın Şeybani xan ilə yazışmaları ... 47
Şah İsmayılın Qansu Qiruya məktubu ... 54
Sultan Səlimin Übeyd xan Özbək ilə yazışmaları ... 59
Şah İsmayıl ilə Sultan Səlim arasındakı yazışmalar ... 74
Sultan Səlimin Məhəmməd bəy Ağqoyunlu ilə yazışması ... 92
Sultan Səlimin Çaldıran döyüşündən sonra oğlu Süleymana yazdığı fəthnamə ... 95
Sultan Səlimin Luristan hakimi Şah Rüstəmə məktubu ... 99
Sultan Səlimin Ağqoyunlu Murada məktubu ... 101
Sultan Səlimin Təbriz əyanlarına məktubu ... 102
Sultan Səlimin Təbriz əhalisinə göndərdiyi nəvaziş məktubu ... 104
Sultan Səlimin Təbriz əhalisinə ünvanladığı digər məktubu ... 105
Sultan Səlimin Şərq əmirlərinə və kürd tayfalarına göndərdiyi Çaldıran fəthnaməsi ... 107
Sultan Səlimin Xeyravan hakimi ilə yazışması ... 108
Sultan Səlim ilə Qansu Qiru arasında məktublaşma ... 110
Sultan Səlimin Gilan hakimi ilə yazışması ... 122
Sultan Səlimin Şirvanşah ilə yazışmaları ... 129
Sultan Səlimin Mazandaran hakiminə məktubu ... 152

Şah İsmayılın Sultan Süleyman xana məktubu ... 155
Rəisül-küttab Cövri Çələbinin Şah İsmayıla cavab məktubu ... 158
Şah İsmayılın Şarlkon (V Karl) ilə məktublaşması ... 160
Sultan Süleymanın Gilan hakiminə məktubu ... 164

FƏTVA VƏ FƏRMANLAR

Şeyxülislam Kamal Paşazadənin qızılbaşların kafir olduqları haqqında risaləsi ... 169
Şah İsmayıl tərəfindən verilən bir fərman ... 173
Şah İsmayılın fərmanı ... 176
Şah İsmayılın Kəmaləddin Behzad haqqında verdiyi fərman ... 180

ƏLAVƏLƏR

Tarixi sənədlər, rəsmlər və miniatürlər ... 185
I Şah İsmayıl Səfəvinin diplomatik yazışmalarında adları keçən məşhur tarixi şəxsiyyətlər haqqında müxtəsər tarixi arayış ... 352
Adlar göstəricisi ... 388

Şərq-Qərb East-West BAKI 2014
1986-cı ildən since 1986

www.eastwest.az
www.fb.com/eastwest.az

Buraxılışa məsul	Sevil İsmayılova
Dizayner	Elşən Qurbanov
Baş redaktor	Samirə Bektaşi
Texniki direktor	Allahverdi Kərimov
Nəşriyyat direktoru	Rasim Müzəfferli

Çapa imzalanmışdır: 07.05.2014. Format 60x90 1/16. Ofset çapı
Fiziki çap vərəqi 25. Sifariş N 14099. Tiraj 1000

"Şərq-Qərb" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

"Şərq-Qərb" Nəşriyyat Evinin bütün kitablarının toplusu:
http://www.eastwest.az/az/books/ ünvanda

"...Beləliklə Azərbaycan tarixşünaslığında I Şah İsmayıl mövzusu ətrafında illərdir hökm sürən ciddi problemlərdən biri qismən də olsa öz həllini tapmış olur. Böyük dövlət xadiminin diplomatik yazışması, onunla bağlı olan digər orijinal tarixi sənədlər ana dilimizdə tədqiqatçılarımızın ixtiyarına verilir. Ümid etmək istərdik ki, sözügedən sənədlər gələcəkdə xalqımızın böyük oğlu I Şah İsmayıl Səfəviyə dair işıq üzü görəcək neçə-neçə dəyərli tədqiqat üçün mənbə rolunda çıxış edəcək, mütəxəssislərimizi bu yöndə yeni-yeni axtarışlara həvəsləndirəcəkdir. İndi növbə və söz yenə də tarixçilərimizindir...

İxtiyarımızda olan sənədlər, eyni zamanda, Səfəvi dövlətinin çoxşaxəli fəal diplomatiyasını tam miqyasda öyrənməyə, tariximizin bu böyük imperiyasının nə qədər geniş bir coğrafiyada siyasi proseslərə təsir etmək gücündə olduğunu başa düşməyə imkan verir. Bu isə hər bir azərbaycanlı üçün əlavə qürur mənbəyi, iftixar səbəbidir..."